# 1916-cı il.
# QIRĞIZ ÜSYANI

1916-cı il. Qırğız üsyanı.
Bişkek, 2022. - 280 səh.

Topluya 1916-cı il Qırğız üsyanına aid olan sənəd və materiallar daxil edilmişdir. Bunlar hesabat, sərəncam, teleqram, elan, çağırış, əmr, raport, Türküstan vilayətinin hərbi qubernatorları və general-qubernatorunun məruzələri, məhkəmə qətnamələri, şahidlərin sorğu-sual protokolları və dustaqların dindirmə protokolları, vergilər və rüşvətlərə dair sakinlərin şikayətləri, kəndlilərin ifadələri, üsyan liderləri barədə çuğullamalar, statistik bölmələrin sorğuları və arayışlarıdır.

Sənədlər 1908-1925-ci illəri əhatə edir. 1916-cı il iyunun 25-dən oktyabrın 29-na qədər olan hadisələrin xronologiyası verilir.

Giriş hissəsinin müəllifi – A.Beqaliyevadır.

Topluya ön söz 1947-ci ilin oktyabrında tarix elmləri namizədi C.Məcidov tərəfindən yazılmışdır.

Topluya son söz isə filologiya elmləri doktoru K.Mambətəliyev tərəfindən 2016-cı ilin oktyabrında yazılmışdır.

ТҮРК ТИЛДҮҮ МАМЛЕКЕТТЕРДИН САЯСАТТЫН КОЛДОО ФОНДУ, БИШКЕК

TÜRKDİLLİ DÖVLƏTLƏRİN SİYASƏTİNƏ DƏSTƏK FONDU, BİŞKEK

ФОНД ПОДДЕРЖКИ ПОЛИТИКИ ТЮРОКЯЗЫЧНЫХ ГОСУДАРСТВ, БИШКЕК

Бул китеп Түрк тилдүү мамлекеттердин саясатын колдоо Фондунун заказы менен которулуп басылды.
Китеп бекер таркатылат

Bu kitab Türkdilli dövlətlərin siyasətinə dəstək fondunun sifarişi ilə tərcümə olunub nəşr edilmişdir
Kitab pulsuz yayılır

Эта книга переведена и издана по заказу фонда поддержки политики тюркоязычных государств.
Книга распространяется бесплатно

## MÜDHİŞ DÖVRÜN SƏNƏDLƏRİ

*(Saxlanılmış toplu)*

"Qızım mənim yolumla gedəcək və işimi davam etdirəcəkdir" – atamın bu fikri həyatımda silinməz iz qoydu. Onun peyğəmbərcəsinə söylənilmiş sözləri çin çıxdı. Uşaqlığım və gənclik illərim sovet yenidənqurması və Qırğızıstanın müstəqil dövrünün başlanğıcı ilə üst-üstə düşdü. Və mən valideynlərimin ailəsindəki təvazökar, sadə dolanışıqdan məmnun qalmayaraq, ölkə xarici turizm sahəsində "xoşbəxt həyatım" üçün qazanc əldə edirdim. Bu o qədər davam etdi ki, şüurumda iki inqilabdan sonra 2010-cu ildə "çevriliş" tüğyan etdi. O zaman doğma torpağımın ağrısı artıq məni tamamən, qəlbimin dərinliyinə qədər sardı və atamın qırğız xalqının necə vətənpərvəri olduğunu dərk etməyə başladım. Anladım ki, analar kimi, Vətəni də doğuma qədər sifariş verib dünyaya gələndən sonra ittiham etmirlər, onu, sadəcə, sevirlər. Bu dünyada "pul" anlamından üstün meyarlar mövcuddur və valideynimin həyat fəlsəfəsini məhz onlar təşkil edirdilər. Çox təəssüf ki, onunla "eyni qayıq"da yalnız bircə il üzüb, ünsiyyətdə ola bildim. 2011-ci ilin payızında atam artıq dünyadan köçünü sürdü.

Dostları aristokratik mənşəyinə, həmçinin Moskva və Peterburqda aldığı təhsilinə, zahiri atributlara tam laqeydliyinə görə onu "qraf Tolstoy" çağırardılar. O, qidasız, geyimsiz, evsiz-eşiksiz yaşayardı, amma kitabsız, elmsiz, öz qeyrət və namus prinsipləri olmadan yaşaya bilməzdi. "Manap və batırlar"ın nəslinin nümayəndəsi satın alınmaz idi, "sistem adamı" deyildi, tez-tez iş yerini dəyişər və bunu "ətrafdakı yalan və riyakarlıqdan ikrah olub qaçmaq"la izah edərdi.

2012-ci ildə yazıçı Joldoşbəy Süleymanov və general Artur Mədətbəyovun köməyi ilə Suvakun Beqaliyevin Qafqaz və Qırğızıstan

xalqlarının deportasiyasının tarixi haqqında əməyi işıq üzü gördü. Bu kitabın təqdimetmə mərasiminə respublikamızda yaşayan bütün Qafqaz diasporlarının nümayəndələri gəlmişdilər. Onun məqalə və kitabları aktual olaraq qalır, elmi işlərdə istifadə, toplularda dərc etmək üçün göndərilməsi xahiş edilir. Həmçinin şəxsi arxivlərindən məlumatlar əldə etmək məramı ilə müraciətlər olunur.

2013-cü ildə bir zamanlar atamla birgə Mərkəzi Dövlət Arxivində çalışmış tarixçi Əskər Bədəlbayev 1916-ci il üsyanı barədə dərc edilməmiş materialların əlyazması ilə maraqlandı və onları qiyamın 100 illiyinə çap etdirməyi məsləhət gördü. O, həmin materialın Beqaliyevin şəxsi arxivində olduğundan xəbərdar idi. Bəli, bu belə idi və atam onların surətlərini çıxardıb evdə saxlayırdı.  Xatırladım ki, atam 90-cı illərin əvvəllərində “Veçerni Bişkek” *(“Вечерний Бишкек”)* qəzetində Z.Kurmanovla birlikdə “arxivlərin hara itməsi” haqqında məsələ qaldırdığı məqalə çap etmişdi. Onun bir neçə qutu arxiv sənədlərinin surətlərini nə zamansa o gizli informasiyanın geniş ictimaiyyətə aşkar olacağı ümidi ilə qorumağı yadıma düşdü. Axı Sovet Qırğızıstanının dəyərli əşyalarının çoxu “başılovlu 90-cı illər”də birdəfəlik itirilmişdi.

Eləcə də öz dostlarımla atamın mənə şəhərin mərkəzində yerləşən yeni mənzilimə uzlaşmayan və o səbəbdən də anamın şəhər kənarındakı evində qalmış kitab dolu dolabçalar və saralmış köhnə materialların surətlərindən başqa heç bir varidat miras qoyub getməməyi barədə təəssüflü söhbətlərimi xatırladım. Qırğızıstan Respublikasının turizm mədəniyyəti barədəki tədqiqat dissertasiyamın mövzusu, zənnimə görə, bu qutularla ümumu heç nə təşkil etmirdi və təmizkar anam onları evdən çıxarıb anbara yerləşdirdi. Elə orada da həmin qutular öz məqamlarını gözləməyə başladılar. Və o an gəlib çatdı...

Filosof U.Asanovanın dediyinə görə, S.Beqaliyev və Z.Kurmanovun tələbələrə arxiv materialları əsasında 1916-ci il üsyanı haqqında tarixi həqiqətləri söyləmələri xəbəri xatirimdə canlandı. Bu, Qırğızıstan Dövlət Tibb İnstitutunda 1988-1989-cu tədris illərində vaqe olmuşdu və belə “qanuna zidd əməl”ə görə onlar az qala ali məktəbdən işdən qovulacaqdılar. Usanova elmi şurada onların tərəfində durmuş və söyləmişdi

ki, gənc alimlərin qol-qanadını qırmaz olmaz. Qadının nitqi o dərəcədə parlaq və emosional olmuşdu ki, elmi şura onları işdən çıxarmamağa qərar vermişdi, halbuki məsələ çox təhlükəli idi, axı onlar “məxfidir” möhürü altında olan mənbələrdən danışmışdılar.

1947-ci ildə bir qrup tarixçi tərəfindən toplanılmış (bu barədə toplumuzun müqəddiməsində informasiya verilmişdir) həmin mənbələr (sənədlərin və materialların yazı makinasında çap edilmiş mətnləri) S.Beqaliyev tərəfindən qorunub saxlanılmışdır. Və oxucu onları bu anda öz qarşısında kitab halında görür.

Əlyazma materialı publisist Kuban Mambətəliyev tərəfindən redaktə edilib çapa hazırlanmış, eləcə də son sözü yazılmışdır.

***Beqaliyeva Asel Suvakunovna***
tarix elmləri doktoru

# MÜQƏDDİMƏ

Qırğız xalqının 1916-cı il üsyanı müstəqillik uğrunda apardığı mübarizədə mühüm yer tutur. Üsyan çarizmin Orta Asiya xalqlarına qarşı aparılan müstəmləkəçilik və milli əsarət sisteminə qarşı qaldırılmışdı.

1916-cı ildə qırğızların qaldırdıqları üsyanın əsas səbəbləri aşağıdakılar idi:

1. Qırğızıstanın torpaq müstəmləkəsi boyunduruğuna düşməsi: çarizmin 50 illik hökmranlığı ərzində yürütdüyü köçürmə siyasətinin nəticəsində qırğız dehqanlarının və maldarlarının ən yaxşı və məhsuldar torpaqlarından, otlaqlarından, suvarma üçün istifadə olunan sularından və hətta mal-qaranın caylooya sürülüb aparıldığı yollarından məhrum edilməsi və dağlara sarı sıxışdırılması. Torpaqların ən yaxşı hissələri çar hökuməti tərəfindən əsil sahiblərindən alınmış və ora köçürülənlərə verilmişdi ki, bu da zəhmətkeş qırğızların yoxsullaşması və gəlmə-qolçomaqların varlanması ilə nəticələnmişdi. Əli qabarlı dehqan və maldarların təsərrüfatlarında mal-davarın sayı azalmış və əkin-səpinin səviyyəsi aşağı düşmüşdü. Var-yoxdan çıxmış dehqan və heyvandarlar işlək mal-qara və ləvazimat tapmayaraq, qalan torpaqlarını gəlmə-qolçomaqlara və ya çar qulluqçularına icarəyə verməyə, özləri isə elə həmin qolçomağın, yaxud bəy və ya manapın nökərçiliyini etməyə məcbur olmuşdular. İkitərəfli zülm dövrü başlanmışdı. Qırğızların gəlmə-qolçomaqlar, həmçinin yerli bəy və manaplar tərəfindən amansız istismarı hökmfərma olmuşdu.

2. Qırğızların milli əsarəti, siyasi hüquqsuzluğu, hakim millətçilik şovinizmi siyasəti, çar və yerli məmurların özbaşınalığı, rüşvətxorluğu və zorakılığı.

3. Vergi boyunduruğu. Müamiləçi-qolçomaqların əsarəti. 1914-1918-ci illər birinci dünya imperialist müharibəsi zamanı qırğız xalqının açıq-aşkar və gizli müxtəlif növ vergi və töycülərlə talan edilməsinin kəskinləşməsi. 1914-cü ildə başlayan Birinci Dünya müharibəsi çarizmin zülmünü kəskin surətdə artırdı – ikiqat sitəm başlandı. Zəhmətkeşlərin çiyninə yeni yüklər düşdü. İndiyə qədər mövcud olan vergilərin artması ilə bərabər, yeni vergilər, töycülər peyda oldu. 1914-cü ildə hər alaçıqdan 4 rubl həcmində xüsusi hərbi vergi təyin edildi. Müharibə illərində Qırğızıstana gələnlərin sayının kəskin surətdə azalmasına rəğmən, çar hökuməti köçürülənlərin torpaq fondunu artırmaqla əməkçi qırğızların iqtisadi vəziyyətini daha da pisləşdirir, qırğız torpaqlarını zəbt etməkdə davam edirdi.

Bitmək bilməyən müharibə çoxlu sayda at, ət, yun, dəri tələb edirdi. Çar hökuməti dehqan təsərrüfatlarının tamamən müflisləşməsini nəzərə almadan, müstəmləkədən ərzaqların daşınmasının həcmini artırırdı. Təkcə 1914-cü ildə Yeddisu vilayətindən ümumi məbləği 33 833 000 rubl dəyərində mal-qara və heyvandarlıq məhsulları daşınıb aparılmışdı.

General-qubernator Kuropatkinin çar II Nikolaya yazdığı raportdan bəlli olur ki, müharibə illərində Türküstandan Hərbi İntendantliq anbarlarına: pambıq – 40 899 044 pud, sabun – 222 000 pud, ət – 300 000, balıq – 473 928 pud, at – 70 000 baş, yurta – 1 344 ədəd, araba – 270 ədəd göndərilmiş və bundan əlavə, müharibə xərcləri məqsədi ilə Türküstan əhalisindən 2 400 000 rubl toplanmışdı[1]. Bu hələ rəsmi məlumatlardır, faktiki olaraq isə əhalidən daha çox vəsait toplanılmış, lakin "könüllü ianələr" adı altında müharibə ehtiyaclarına yığılan məbləğin böyük hissəsi çap məmurlarının və vilayət idarəçilərinin cibinə getmişdi. Qırğızları məcbur edirdilər ki, əsgər arvadlarının təsərrüfatlarında işləməyə müəyyən qisim fəhlə ayırsınlar, həqiqətdə isə işçilər böyük torpaq sahibləri qolçomaqların təsərrüfatlarında çalışırdılar. Fəhlələr ayrılmayan yerlərdə isə hər əsgər arvadına 18-35 rubl "yardım" tutulurdu.

---

[1] Mənbə göstərilməmişdir.

Müdiriyyət tərəfindən ianə yığımı zamanı qırğızlara söylənilirdi ki, bu töycülər onların hərbi xidmətdən azad olmaqlarına görə toplanır. Qırğızların üsyanına rəhbərlik edənlərdən biri Kanaat Abukin öz ifadəsində demişdi: "...bu ianə könüllü deyildi, pristav Bayqulovun tələbi ilə idi... İdarə ianə ilə bağlı qırğızlara müraciətində göstərirdi ki, bizi hərbi xidmətə götürmürlər və insanlarla yardım göstərmədiyimizə görə, əvəzində pulumuzu və əşyalarımızı xeyriyyəyə verməliyik..."[1]

Torpağın davam etməkdə olan ekspropriasiyası, müharibə illərində ağırlaşdırılmış vergilərin yığılması, töycülər, çar hökuməti tərəfindən atların müsadirəsi, iribuynuzlu mal-qaranın, qoyunların gücləndirilmiş şəkildə alınaraq kəsilməsi və Rusiyaya aparılması, "könüllü xeyriyyə" adı altında talan, son nəticədə, zəhmətkeş dehqanların var-yoxunun tam əldən çıxmasına, heyvanların sayının və əkin sahələrinin görünməmiş miqyasda azalmasına gətirib çıxartdı. Zəhmətkeşlərin ağır iqtisadi durumu Rusiyanın mərkəzi hissəsindən gətirilən gündəlik tələbat mallarının qiymətinin kəskin qalxması ilə daha da pisləşdi. Belə ki, məs., Mərkəzi Pambıq Komitəsinin məlumatına görə, ayaqqabı və parçanın qiyməti 1916-cı ildə 1915-ci ilə nisbətən 200-300 % qalxmışdı[2].

Eyni zamanda, 1915-ci ildə fabrik sahibləri tərəfindən pambığa çox aşağı inhisar qiyməti qoyuldu. Pambığın istehasılna çəkilən xərc fabrikantların qəbul məntəqələrində onun alışına qoyduqları qiymətdən, demək olar ki, iki dəfə çox olurdu. Bu ərəfədə pulların dəyərsizləşməsi baş verdi. Bu vəziyyət Orta Asiya dehqanlarının, xüsusilə Qırğızıstanın cənub rayonlarının təsərrüfatlarının vəziyyətinə ağır təsir göstərdi. Dehqanlar pambıq səpməkdən dəfələrlə kütləvi surətdə imtina etmişdilər, amma çar idarələri məhkəmə ilə hədə-qorxu gələrək onları qətiyyən sərfə gətirməyən və müflisləşdirən işi görməyə məcbur edirdi. Bütün bunlar zəhmətkeş kütlələrin müflisliyini və kasıblığını dərinləşdirir, yerli əhalinin çarizmə nifrətini daha da artırırdı. Milli və sinfi ziddiyyətlər, bütün müstəmləkə rejiminə nifrət get-gedə şiddətləndi.

---

[1] Kanaat Abukinin ifadəsinin qeydlərinin surətindən. Qırğızıstan SSR Mərkəzi Dövlət Arxivi (MDA). F.75, iş 48, v. 17-20.

[2] Mərkəzi Pambıq Komitəsinin bülleteni. № 3. 430, 1917-ci il, s.108.

Çarizmin cəbhədə məğlubiyyətləri, uğursuz hərbi əməliyyatların gedişatı, Rusiyada inqilabi proletariat hərəkatının və Özbəkistan, Qazaxıstan, Qafqaz, Volqayanı, Uralda əsarət altında olan xalqların milli azadlıq hərəkatlarının vüsəti qırğız xalqının çarizmlə mübarizəsinə ruh verirdi. Qırğız xalqı görürdü ki, "ağ çar"a eyni zamanda Rusiyanın həm öz xalqı, həm də başqa millətləri nifrət edir, bu minvalla, qırğızlar çarizmlə mübarizədə özlərini tənha hiss etmirdilər.

Bu illər, qubernatorların yerlərdən verdikləri məlumatlara görə, üsuli-idarə əleyhinə "cinayətlər"in sayı artmışdı. Fərqanə vilayətində bəylərin evlərinin talan edilməsi, məmur və polis işçilərinə hücumlara tez-tez rast gəlinirdi. Kiçicik etirazlara çar hakimiyyəti qəddar repressiyalarla cavab verirdi, lakin bu, kütlələrin nifrətini daha da artırırdı. Külleyi müstəmləkə rejiminin böhranı genişlənib iri miqyasları əhatələyirdi. Mövcud hakimiyyətə ümumi nifrət ab-havası gərginləşərək, ən yüksək həddə çatmışdı, azman üsyanın alovlanmasına yalnız qığılcım lazım idi.

Üsyana bilavasitə səbəb çar II Nikolayın 25 iyun 1916-cı ildə[1] imperiyanın digər xalqlardan, həmçinin Türküstan diyarından 19 yaşından 43 yaş[2] da daxil olmaqla yerli əhalinin iş bacarıqlı bütün kişilərinin arxa cəbhədə hərbi işlər üçün səfərbərliyi haqqında əmri oldu. Kişilər bu səfərbərliyin perspektivini tarla işlərinin ən gərgin zamanı yoxsullaşmış ailələrini ac-yalavac mövcudiyyətə məhkum etməkdə, tək qalmış qadın-uşağın üstünə çar məmurları, bəy və manapların özbaşınalığının ayaq alacağında görürdülər.

1916-cı ilin iyulun 8-də Türküstan general-qubernatorunun göstərişi ilə çarın əmri rəsmən qəzetlərdə dərc olundu, vilayət başçıları, "möhtərəm şəxslər" və b. tərəfindən bəyan edildi. Türküstan diyarı üzrə bölüşdürülməyə əsasən, səfərbərliyə Qırğızıstanın aid olduğu Yeddisu, Sır-Dərya və Fərqanə vilayətlərinin uyezdləri qatılmaqla 250 000 şəxsin səfərbərliyə

[1] Ayın tarixi hər yerdə köhnə qayda ilə göstərilir.

[2] Bir qədər sonra çağırışçıların yaş həddi 19-dan 31 də daxil olmaqla göstərilirdi. Türküstan diyarından çağırışçıların ümumi sayı 200 min nəfər idi.

alınması daxil idi. Aşağıdakı sayda insanlar arxa cəbhədə işlər üçün aparılacaqdı:

Prjevalsk uyezdi – 7 150 nəfər,

Narın bölgəsi – 2 280,

Pişpək uyezdi – 11 530,

Talas rayonu – 1 794,

Cənubi Qırğızıstan (Oş, Cəlalabad) – 35 874,

Bütün Qırğızıstan üzrə – 58 625 nəfər.

Bu əmr Orta Asiya və Qazaxıstanda qırğızların və digər xalqların milli-azadlıq üsyanının alovlanmasına səbəb bir qığılcım oldu.

Yoldaş Stalin deyirdi: "İmperialist müharibə zamanı döyüşən dövlətlərin imperialist qüvvələri özləri müstəmləkələrə müraciət etmək, oradan ordu yaradacaq insan materialı toplamaq məcburiyyətində qalmışdılar. Şübhəsiz, imperialistlərin müstəmləkənin geridə qalmış xalqlarına qarşı qaçılmaz bu müraciət prosesi tayfa və milliyyətlərin azadlıq, mübarizlik ruhunu oyatmaya bilməzdi[1]".

Çar idarələrinin bütün rəsmi sənədlərində "səfərbərlik" sözünün "müsadirə" termini ilə əvəz edilməsi xarakterik idi, sanki söhbət hansısa mal-qaranın müsadirəsindən gedirdi. Çarın əkin-biçin işlərinin ən qızğın məqamında verdiyi bu qərar bütün yerli əhalini yerindən oynatdı. Dərc olunmuş qərarda heç kimə heç bir güzəşt, heç bir imtiyaz nəzərdə tutulmamışdı. Hamı elə zənn edirdi ki, bu səfərbərlik bütün "yerlilər"ə aiddir, lakin çox keçmədən 11.07.1916 tarixdə hökumətdən belə bir təlimat gəldi: "Yerlilərin ayrı-ayrı kateqoriyalarına aid edilənlər səfərbərlikdən azad olunur: ictimai inzibati dairələrin (vilayət, kənd və aul) məsul şəxsləri, yerlilərin aşağı rütbəli polis məmurları, yerli inzibati idarə tərəfindən yoxlama zamanı şəxslərin öz vəzifələrini yerinə yetirməsi aşkarlanması şərtilə imamlar, mollalar, mədrəsə müəllimləri, kiçik kredit təşkilatılarında çalışan hesabdar və mühasi-

---

[1] Сталин. Марксизм и национально-освободительный вопрос. s.99.

blər, dövlət, həmçinin şəxsi ali və orta təhsil müəssisələrində təhsil alanlar: dövlət müəssisələrində yüksək vəzifə tutan yerlilər, yerli zadəgan və əsil-nəsilli hüquq daşıyan vətəndaşlar, eləcə də fəxri vətəndaşların hüquqlarından şəxsən istifadə edənlər[1]".

Bundan əlavə, başqa bir sərəncamda göstərilirdi ki, "istənilən yerli" özünün əvəzinə başqasını muzdla tuta və göndərə bilər. "Özünün əvəzinə" deyiləndə, sözsüz ki, yalnız pulu çox olanlar, yəni, bəy, manap və tacirlər nəzərdə tutulurdu. Beləliklə, səfərbərliyin əsas ağırlığı zəhmətkeş dehqanların çiyninə düşürdü. "Müsadirə"nin praktiki cəhətdən həyata keçirilməsi, siyahıların tutulması vilayət rəhbərlərinə və onların köməkçiləri "möhtərəm" qırğızlara həvalə olunurlu. Bu da hər cür fırıldaqçılığa, rüşvətxorluğa, və bəylərin, tacirlərin tərəfdarlarının, yaxınlarının, qohum-əqrəbalarının ört-basdır edilməsinə, oğullarının gizlənmələrinə və s. gətirib çıxarırdı.

Bu, xalqın, kasıb dehqanların və orta təbəqədən olanların, xüsusilə də səfərbərliyə alınacaq gənclərin arasında böyük narazılığa səbəb oldu. Türküstan rayon mühafizə idarəsinin rəisinin 10/VII-1916-cı ildə verdiyi məlumat: "Əlahəzrət aliləri, şöbədən aldığımız məlumatlara əsasən, nəzərinizə ərz edirəm ki, yerli əhalinin arasında varlı və ziyalı şəxslərə işləmək üçün toplanacaq komandalara şəxsən özləri səfərbər olmaq əvəzinə fidyə ödəmək imkanı veriləcəyi haqqında söz-söhbət böyük narahatlıq yaratmışdır[2].

Yeddisunun qubernatoru Türküstanın generel-qubernatorunun dəftərxanasına teleqrafla bildirirdi: "...İyulun 1-də qırğızlara müsadirə barədə elan edilmişdir. Təşviş və çaşqınlıq bütün çöllüyü əhatə etmişdir".

---

[1] Qazaxıstan SSR-in Mərkəzi Tarixi Arxiv (MTA). F. 44, siyahıyaalma 4, iş 2691, 47-48.

[2] Surət Özbəkistan SSR Mərkəzi Arxiv İdarəsindən (MAİ) götürülmüşdür. F. Türküstan General-Qubernatorunun Dəftərxanası, 1916, arx.42, məxfi şöbə.

İlk vaxtlarda hiddətlənmiş xalqın qeyzi, əsasən, səfərbər olunacaq şəxslərin siyahısını tərtib edən yerli idarəçilik üzvlərinə qarşı yönəldilmişdi. Xalq siyahı tutulmasını dayandırmaq, artıq tərtib olunmuş siyahı və göstərişləri isə məhv etməyi tələb kimi qoymuşdu. İyul ayı və avqustun ilk günləri – şimali Qırğızıstan üçün 1916-cı ilin avqust ayı ərzində baş verəcək o möhtəşəm hadisələrin tədricən kükrəməsinə hazırlıq idi. Səfərbərlik haqqında göstərişin dərcindən sonra hakimiyyətin ciddi qadağalarına rəğmən, hər yerdə qırğız gənclərinin kortəbii şəkildə toplantıları keçirilir, cəbhəyə getməmək, siyahıların tutulmağına maneçilik törətmək, onları cəbhəyə zorla yollayacaq şəxslərə silahlı müqavimət göstərmək naminə and – "bata" içilirdi. Gənclərin içərisindən öz rəhbərləri də irəli sürülürdü. Ümumi əhvali-ruhiyyə bütün xalqa sirayət edirdi.

Tınayev vilayətinin başçısı Dyur Suranbayev dövlət məhkəməsi hakiminə verdiyi şahid ifadəsində nəql edir: "Mənim cigitlərim xəbər çatdırdılar ki, Tokmakın otuz verstliyində yerləşən "Aktorsk" adlı yerdə gənclər Cunus Murzabayevin başçılığı altında toplaşmış və vilayətin əllibaşılarının kattalarından fəhlələrin siyahısını təhvil verə bilməmələri üçün şəxsi möhürləri almağa qərar vermişlər[1]".

Azad olunan kütləyə təsir etməkdə gücsüz vilayət rəhbərləri, ağsaqqallar (hörmətli şəxslər), təhdid altında səfərbərlik haqqında əmri həyata keçirə bilmədilər. Xalqa təsir qüvvələrini itirməkdən və öz milləti tərəfindən məhv edilməkdən qorxaraq, onlar öz növbələrində çar hakimiyyətinin gözündən yayınaraq mövcud vəziyyəti müzakirə edirdilər. 7-8 iyul tarixli arxiv sənədlərinə əsasən, şəhərətrafı ərazilərin

[1] Qırğız. SSR MDA, F. 75, "Qırğızıstanda 1916-cı il üsyanı" kolleksiyası, iş 25, v.2-6.

“möhtərəm şəxslər”inin bü cür yığıncağı Pişpək uyezdinin yaxınlığında İssık-Atin mineral suları təfərlərdə baş tutmuşdu və orada bir məsələ müzakirə olunurdu: adam vermək, yoxsa verməmək. Elə həmin şəxslər Pişpək şəhərində 11-12 iyul tarixdə eyni məsələni müzakirə etmək üçün toplaşdılar. Bu müzakirələrin nəticəsi olaraq, iştirakçıların əksəriyyəti tərəfindən “adam verməmək və səfərbərliyin dayandırılması barədə şayiə buraxmaq” qərarına gəlindi[1].

İyulun əvvəlində Pişpəyin şəhərətrafı vilayətlərində, Prjevalsk uyezdinin (Aksu və s.) bir sıra ərazilərində və başqa yerlərdə “möhtərəm şəxslər”in analoji müşavirələrinin keçirilməsinə başlanır: “hərbi xidmətə adam verilməməsi” haqqında qərarlar qəbul edilir[2]. Təlatümlər şimali Qırğızıstanın bütün rayonlarını bürüyür. Prjevalsk uyezdinin bəzi vilayətlərindən – Mariinsk, Tüp, Türgən – Çin tərəfə qaçışlar başlanır.

İyulun əvvəllərində Qazaxıstanın Qırğızıstanla qonşu Kurman, Cərkənd-Tarançin, Cərkənd-Dunqan vilayətlərində də qazaxların və dunqanların üsyanı başlayır. Bu hadisə Prjevalsk və Pişpək uyezdlərindəki qırğızları daha da ruhlandırır. Üsyanın Qazaxıstanda yuxarıda göstərilən rayonlarındakı lideri Uzak Saurzakov Prjevalsk uyezdində qiyama qalxmaq üçün əhali arasında təbliğat aparır. Onun təbliğatı zəhmətkeş qırğızlar arasında böyük rəğbətlə qarşılanır. Qıştak və cayloolarda üsyana fəal hazırlıqlar aparılır. Silahqayırma işləri gedir. Əhali arasından müxtəlif silahlar düzəldən ustalar seçilir, qırğızların bəzən kəndlilərdən ağlagəlməz qiymətə ala bildikləri odlu silahların alınması üçün vəsait toplanır.

Yaxınlaşan ciddi təhlükənin baş verəcəyindən ehtiyatlanan çar hökuməti qiyamın qarşısını almaq məqsədi ilə təcili tədbirlər görür. Ən əhəmiyyətli nöqtələrə qoşun yerləşdirilir. Prjevalsk uyezdinin rəisi Vernı şəhərindən köçkün-kəndlilərdən təşkil olunmuş hərbi dəstələrin silahlandırılması üçün silah tələb edir. Folbaum Kuropatkinə teleqrafla

---

[1] Yeddisu vilayəti cinayət şöbəsinin rəisinin məruzəsinin 17/VII-1916-cı il materiallarına əsasən. Qırğız.SSR MDA. F. 75, iş 85, v.1-2.

[2] Yeddisu vilayəti cinayət şöbəsinin rəisinin məruzəsinin 17/VII-1916-cı il materiallarına əsasən. Qırğız.SSR MDA. F. 75, iş 85, v.1-2.

bildirir: “Təcili olaraq uyezddə sakitliyin saxlanılması üçün əsas istinadgah olan kazak stanitsalarına tüfəng və patronlar göndərirəm”[1].

Narazı xalq kütlələrinin sıralarında yaranmış bu partlayışın, məzlum xalqın qətiyyətli qərarının qarşısını heç nə ala bilməzdi: ədavətçi çara qarşı qiyam qaldırmaq, müstəmləkəçilik boyunduruğunu məhv etmək, azadlıq və müstəqillik əldə etmək. Qırğızıstanın cənubunda iğtişaşlar 1916-cı il iyulun 11-də Oş uyezdinin Xoca-Abad qiştağının dehqanlarının çıxışları ilə başlandı.

İyulun 13-də Çakar qıştağının təqribən 200 nəfər ayağa qalxmış sakini və həmin vilayətin əhalisi əllibaşılara hücum etdilər və onları kötəkləyərək əhalinin kişilərinin yazıldığı siyahıları təhvil verməyi tələb etdilər. Ertəsi gün isə həmin üsyançılar ayağa qalxmış dehqanların əlindən qaçıb yayınmış əllibaşıların evlərini darmadağın etdilər. Bulaq-Başin vilayətində iyulun 11-də başlanmış həyəcan dalğası ayın 15-dək davam etdi.

İyulun 22-də üsyan Aravan vilayətində başlandı. Burada Aravan, Qaşqar-Qıştaq kəndliləri, türkmənlər və başqaları Qazı-Yağlıq kəndində toplaşaraq, vilayət idarəçiliyindən adı çağırışda olanların siyahısını tələb etdilər. Vilayət başçısı bu tələbi yerinə yetirməkdən boyun qaçırdıqda isə mirzəsi ilə birgə üsyançılar tərəfindən qətlə yetirildilər.

İyulun 24-də Üç-Kurqan kəndinin də əhalisi çağırışçıların siyahısını tələb etdi, lakin vilayət başçısı qaçmağa müyəssər oldu, fəqət onun qaçışından sonra evi darmadağın edildi. Narazılıqlar artırdı. İyulun 25-də Üç-Kurqanda üsyana qalxmışlar dükanları darmadağın etdilər, lakin hərbi qüvvə ilə gəlməyə macal tapmış pristav qiyamçıları qovdu. Oş şəhərinin köhnə hissəsində sakinlər səfərbərliyə alınanların siyahısını tələb etdilər və səfərbərlik əleyhinə çıxdılar, amma burada hərəkat geniş vüsət almadı. İyulun 27-də Oş uyezdinin Bulaq-Başın vilayətində də bir neçə kəndin əhalisi kəndxudaların və əllibaşıların evlərini dağıdaraq, çağırışçıların siyahısını məhv etdilər. Həyəcan dalğası iyulun 25-dən 29-dək Üzgəni də bürüdü. Narazılıq və iğtişaşlar bir hissəsi Çinə köç etmiş Gülçə və Alay vilayətlərində yaşayan qırğızlar arasında da baş ver-

---

[1] Qazax.SSR Mərkəzi Tarixi Arxiv. F. Vernı məhkəməsinin prokurotura korpusu № 2140, IV c. s. 1916.

irdi. Aksu və Qapçiqay vilayətlərinin qırğızları köçkün-qolçomaqların mal-qarasına bir neçə dəfə hücum edərək dağlara çəkildilər.

Qırğızıstanın cənubundakı üsyan lokal xarakter daşıyırdı. Xalq qiyamının hiddəti əsas etibarilə yerli idarəçilik təşkilatlarına – vilayət rəhbərlərinə, əllibaşılara və onların cigitlərinə qarşı yönəldilmişdi. Üsyana qalxanların tələbi arxa cəbhədə hərbi işlərə çağırılacaq şəxslərin siyahısını məhv etmək idi. Muzdurlar və kəndin kasıb təbəqəsi üsyanın əsas təşəbbüskarları idilər, onlar orta təbəqədən olan kəndlilərlə ittifaqa girərək, yerli bəy və yerli çar administrasiyasına qarşı çıxış edirdilər.

Yerli bəylər və vilayət idarəçiləri üsyana qarşı çıxırdılar. Türküstanın mühafizə bölməsinin rəis köməkçisi öz rəisinə raportda yazır: "Vilayət idarəçiləri, starşinalar və ağsaqqallar öz mövqelərindən qat-qat yuxarıya yüksəldilər və bir çoxları Rusiyaya sədaqətini öz qanları ilə sübut etdilər[1]".

Fərqanə vilayətində böyük miqdarda silahlı qüvvələrin yerləşdirilməsi çar hakimiyyətinə üsyan nöqtələrinin qarşısını cəld almağa və bu hərəkatın Qırğızıstanın şimal bölgələrində olduğu kimi, ümümxalq hərəkatına çevrilməyinə imkan verməməyə şərait yaradırdı. İyul ayının sonlarında üsyan Qırğızıstanın cənub bölgələrində yatırıldı.

Şimali Qırğızıstanda üsyan 07.08.1916 tarixdə başladı. Təşəbbüskarlar – çıxışlarını əvvəlcə avqustun 7-dən Cil-Arıkın (Pişpək-Prjevalsk yolunun üstündə) poşt stansiyasına və Böyük Kəmin dərəsində yerləşən Novorossiysk kəndinə hücumla başlayan Pişpək uyezdinin Sarbağış və Atekin vilayətlərinin qırğızları idilər.

Avqustun 8-də Atekin vilayətinin üsyançıları kazak stanitsası Samsonovkaya hücum edib mühasirəyə aldılar. Boom dərələrinə qədər Böyük və Kiçin Kəminin bütün dağlarını üsyançılar tutmuşdular. Üsyançılar tərəfindən hər yerə ayrı-ayrılıqda kiçik qarovul dəstələri yerləşdirilmişdi. Boom dərəsində qoyulmuş həmin kiçik qarovul dəstələrinin birinə Vernıdan Prjevalska 170 "Berdan" sistemli tüfəng və

[1] Özb.SSR Mərkəzi Dövlət Tarixi Arxivi (MDTA). F. 11 s. № 33-36, s.28.

onlara 40 000 patron göndərilən silah karvanını ələ keçirmək müəssər olmuşdu.

Avqustun 9-da qırğızların Pişpək uyezdinin dağlarının arxasındakı ərazilərinin, İssık-Kul gölü vadisinin və Koçkorka, Narın, Atbaşı, Prjevalsk bölgələrinin qırğızlarının üsyanı başlandı.

Avqustun 10-da üsyan dalğası İssık-Atin vilayətini və Belovodsk bölgəsini: Pişpək uyezdinin Tleuberdin, Camansartov vilayətlərini bürüdü. Sonra dalğa Talasa çayı vadisinə – Sır-Dərya vilayətinin Aulie-Atin uyezdinə tərəf yön aldı.

09.08.1916 tarixini Qırğızıstanın şimali hissəsində yaşayan qırğızların üsyanının başlanğıcı hesab etmək olar. Başlanmış üsyanın geniş miqyasından ürkən çar hökuməti daha çox əhəmiyyət daşıyan rus yaşayış məntəqələrinin – Pişpək, Tokmak şəhərləri, Samsonovka stanitsası, Mixaylovsk stanitsası, Belovodsk stanitsası, İvanovka kəndi, Stolıpino kəndi, Prjevalsk şəhəri, Preobrajenovsk və Aksu kəndlərini möhkəmləndirməyə və dayaq nöqtələrinə çevirməyə başladılar. Bu yaşayış məntəqələrində barrikadalar quruldu. Köçkün əhalinin kişilərindən odlu və soyuq silahlarla silahlandırılmış atlı və piyada döyüş drujinaları yaradıldı. Hazırlanan silahlı üsyan barədə xəbərdarlıq edilən çar hökuməti Şimali Qırğızıstanda ordunu gücləndirmək qəsdilə zəruri tədbirlər gördü. Artiq orada yerləşdirilmiş hərbi hissələr ən vacib mərkəzlərə paylaşdırıldı. Daşkənddən əlavə qüvvələr tələb olundu.

Türküstan hərbi dairəsinə yenidən komandan təyin olunmuş general-adyudant Kuropatkinin[1] sərəncamına

---

[1] General-adyudant Kuropatkin II Nikolayın sərəncamına, hərbi nazir Şuvayevin təkidinə əsasən, Şimal Cəbhəsinin baş komandanı vəzifəsindən Türküstan

əsasən, Şimali Qırğızıstanda qiyamı yatızdırmaq üçün dörd karvanla hərbi qüvvə göndərilmişdi: Fərqanə vadisindən – Narın, Atbaşı, Cumqal və Susamır bölgələrinə; Daşkənddən Aulie-Atadan keçməklə Pişpək və Tokmaka; Vernı şəhərindən Kastek aşırımından keçməklə Tokmaka, Çu çayının vadisinə, Kəminə, Qarqaraya və digər aşırımlardan keçməklə Prjevalska.

General-qubernator Kuropatkin çara ünvanlanmış teleqramında yazırdı: "Hal-hazırda Türküstanın oturaq əhalisi yaşayan vilayətlərində baş verən özbaşınalıqlar Yeddisu vilayətinə keçərək böyük bölgəni əhatə etmişdir. Daşkənd ilə Vernı arasında teleqraf əlaqəsi kəsilmiş, bir neçə stansiya dağıdılmışdır. Yeddisu vilayətinin rus əhalisi üçün ciddi təhlükə yaranmışdır. Təcili olaraq Yeddisu vilayətindəki azsaylı ordu hissələrinə kömək məqsədi ilə ümumi sayı on iki piyada dəstəsi, iyirmi dörd pulemyot, üç yüz on dörd topdan ibarət dörd karvan göndərirəm[1]".

07.08.1916 tarixdə Böyük və Kiçik Kəmin vadilərindəki Atekin və Sarıbağış vilayətlərinin və Tokmakın cənubundakı Çu çayı tərəflərinin qırğızları tərəfindən başlanılan üsyan davam edərək, daha da geniş və sərt şəkil aldı. Boom dərəsində silahdaşıyan nəqliyyat vasitəsinin ələ keçirilməsi və ilkin uğurlar qiyamçılrı ruhlandırdı. B.Kəminin ucqarlarında yerləşən köçkün kəndi Novorossiysk avqustun 7-dən 8-nə keçən gecə qiyamçılar tərəfindən yandırılıb tam darmadağın edildi. Mixaylovsk kəndi və Samsonovka stanitsası üsyançılar tərəfindən mühasirəyə alındı.

Avqustun 8-də atekinlilərə və sarıbağışlılara Tokmak bölgəsinin dörd vilayətinin də qırğızları qoşuldular. Samsonovka və Mixaylovsk stanitsaları istisna olmaqla, Böyük və Kiçik Kəminin bütün vadisi qiyamçılar tərəfindən tutuldu. Həmçinin Belı kiçik

---

general-qubernatoru vəzifəsinə keçirilmişdi. Türküstanı diyarına 1916-cı il avqustun 8-də gəlmişdi.

[1] Özb. SSR MDTA. F. TGQD; 1205, 1916-cı il, v.17-19.

qarovul dəstəsindən Balıqçı *(Рыбачий)* adlanan yerə qədər olan poçtun yolu, bütün poçt stansiyaları, postlar, teleqraf xətləri ələ keçirildi. Vernı, Pişpək, Prjevalsk şəhərləri arasında əlaqə kəsildi. Çu çayı üzərində suvarma tikintiləri dağıdıldı. Kəmin taxta-şalban zavodu məhv edildi.

Avqustun 12-də Vernıdan Tokmakda fəaliyyətdə olan çar ordusuna kömək məqsədi ilə praporşik Maxoninin komandanlığı altında 3 vzvoddan ibarət dəstə gəldi. Avqustun 12-də Tokmak şəhərinə Yeddisu vilayətinin hərbi qubernatorunun aşağıdakı məzmunlu təlimatını gətirən podyasovul Bakureviçin cəza dəstəsi gəldi: “Sarıbağış, Atekin və Qarabulaq vilayətləri üsyana qalxmış, Samsonovkanı və Tokmakı əhatəyə almışlar. Dərhal qüvvəyə heyfiniz gəlmədən bütün qüvvələrlə Tokmaka yollanın, yolda rastınıza çıxan bütün qırğızları məhv edin. Podpolkovnik Rımşeviçlə birləşin. Qısa müddətə qayda-qanun yaradın...[1]”.

Tokmak mühüm strateji məntəqə hesab edilirdi və hələ qırğızların üsyanına qədər möhkəmləndirilmişdi. Həmçinin Tokmaka kömək məqsədilə uyezd mərkəzindən 108 nəfərdən ibarət Pişpək drujinaçılarından ibarət könüllülər dəstəsi göndərilmişdi. Daşkənddən podpolkovnik Geytsiqin başçılığı altında artilleriya, pulemyot və istehkamçılardan ibarət cəza dəstəsi yürüdüldü. Bakureviçin dəstəsinin ardınca Tokmaka Vernı şəhərindən kapitan Poltarskinin komandanlığı altında dəstə gəldi. Bu minvalla, üsyanı yatırmaq məqsədi ilə Tokmak bölgəsinə böyük hərbi qüvvə yeridilirdi.

Avqustun 18-də günorta saat 16.00.-da irəliləyən üsyançılarla çar qüvvələrinin arasında həmin bölgədə birinci böyük vuruş baş tutur. İnadkar və qanlı

[1] Alma-Ata Puşkin adına Dövlət Xalq Kitabxanası, Əlyazmalar bölməsi.

döyüşlərdə böyük sayda yaralı və canlı qüvvə itkisindən sonra qiyamçılar geri çəkilməyə məcbur olurlar.

Avqustun 9-da Pişpək uyezdinin Susamır, Cumqal və Koçkor vadisindəki vilayətlərində dağlar arxasında məskun qırğızların üsyanı başlayır. Bu bölgələrdə təşəbbüskarlar üsyançılar tərəfindən "Koçkor xanı" elan olunmuş və bütün Şimali Qırğızıstanda məşhurlaşaraq nüfuz qazanmış manap Kanaat Abukinin başçılığı altında olan Abaildin vilayətinin qırğızları idilər. Elə həmin gün Qarakeçi, Temerbolotov, Nurməixoca və Koçkor vilayətlərinin də qırğızları üsyana qoşuldular. Üsyanın bu bölgədə başlanan dalğası, Narın və Atbaşı da daxil olmaqla, Mərkəzi Tyan-Şanın bütün bölgələrini əhatəsinə aldı. Bu bölgədə qələbə əldə edən Kanaat dəstəsini Şəmşin aşırımından Çu vadisinə apardı ki, orada da Tokmaka həmləyə gedən üsyançılarla birləşdi.

Avqustun 10-da Belovodsk bölgəsində yaşayan qırğızların üsyanı başlandı. Avqustun 11-də İssıkatin vilayətinin qırğızları qiyama qalxdılar. Belovodsk bölgəsinin qırğızlarının üsyanının təşşəbüskarları kasıb dehqan Maleke Momondarovun, Sarımoldo Artıkbəyovun və digərlərinin başçılığı altında Tleuberdin vilayətinin Toktin və Çinin aullarının əhalisi idi.

Avqustun 10-da Tleuberdin vilayətinin Toktin aulunun üsyançıları vilayət başçısı Asankul Çalpankulov, arxa cəbhədə hərbi işlərə səfərbər olunmaq barədə əmrləri hazırlamaq üçün bura göndərilən mühafizəçisi İnçinə və onları müşayiət edən cigitlərə hücum etdilər. Bura səfərbərliyə alınanların siyahılarını tərtib etmək üçün göndərilmiş vilayət mirzəsi Qorban tutulmuş və döyülmüşdü. Vilayət başçısı, mühafizəçi və mirzə canlarını Beloqorskoye kəndinə qaçmaqla qurtarmışdılar. Elə bu sayaq hücumlar

həm də başqa məşhur vilayət başçısı manapa, çar məmurlarına xidmət edən Çolponkul Tınaliyevə və həmin ətrafın varlı manapları olan Cantay və Sataya qarşı edildi. Qiyamçılar tərəfindən Beloqorskoye kəndinin yandırılmasına cəhd göstərildi.

Belovodsk bölgəsində üsyan avqustun 12-dək davam etdi və Belovodsk pristavı Qribanovskinin komandanlığı altında əsgər bölükləri və Belovodsk qolçomaq-kəndlilərdən təşkil edilmiş drujinanın köməyi ilə amansızcasına yatırıldı. Üsyanın əsas iştirakçıları dağlara və Zaqorsk vilayətinə çəkildilər. Avqustun 12-də pristav Qribanovski Toktin və Çinin kəndlərində heç bir günahı olmayan 438 nəfər qırğızı götürüb apardı. Həmin əsirlər Belovodskoye kəndinə aparıldılar və avqustun 13-də drujinaçıların silahlı qarovulu altında Pişpəyə göndərildilər. Yolda atlı nəzarətçilər əsir qırğızları hər cür üsullarla təhqir edir, incidir, qırmanc zərbələri altında yerə yıxılıb qalanları qılıncla çapır, ya da tüfəngdən atəş açaraq öldürürdülər. Pişpəyə qədər salamat cəmi 108 nəfər çatdırılmışdı. Axşam isə yerli çar müdiriyyətinin özünü görməməzliyə vurmağı nəticəsində, üstəlik, razılığı ilə həbsə alınmışlar kilsə meydanına gətirilib, drujinaçılar tərəfindən məhv edildilər.

Elə həmin gün avqustun 13-də Tleuberdin, Camansartov və Qarabaltin vilayətlərindən 517 nəfər qırğız Belovodskda sahə pristavı Qribanovskinin dəftərxanasının həyətində drujinaçılar və Belovodsk kəndindən toplanmış qolçomaqlar tərəfindən döyülmüşdü. Drujinaçılar tərəfindən törədilmiş bu azğınlıq haqqında və verilmiş rəsmi məlumatda bildirilirdi ki, "517 nəfər qırğız qaçış həyata keçirmək fikrində olduqları üçün qətlə yetirilmişdir[1]".

[1] Qırğız.SSR F. 75, "Qırğızıstanda 1916-cı il üsyanı" kolleksiyası. İş 41, v.12-13.

Avqustun 11-i İssıqatin və Bulekpayev vilayətlərindən 500 nəfərə yaxın üsyana qalxmış qırğız köçkün kəndləri olan Yuryevskoye və İvanovskoye kəndlərinə hücum etdilər. Yuryevskoye kəndi yerlə-yeksan edildi, oranın sakinləri İvanovskoye kəndinə qaçdılar. İvanovskoye kəndinə bir neçə tərəfdən od vuruldu. Pişpək və Tokmak arasında əlaqə kəsildi. Uyezd mərkəzi Pişpəyə bilavasitə təhlükə yarandı. Güclənən üsyandan qorxan yerli hakimiyyət Pişpəyin təcili möhkəmləndirilməsi üçün tədbirlər tökməyə başladı. Şəhər mühasirə vəziyyəti elan edilmək üçün hazırlaşdırıldı.

Yeddisu vilayətinin qubernatoru Kuropatkinə teleqramda məlumat verirdi: "Pişpək qırğızlarının üsyanı vüsət tapmaqdadır. Patron və silah lazımdır. Vəziyyət qəflətən elə dəyişilə bilər ki, Yeddisudakı bütün rus əməliyyatı çökə bilər[1]". İvanovka kəndinin mühasirəsi, həmçinin üsyançılarla çar qüvvələri arasındakı toqquşmalar Daşkənddən podpolkovnik Geytsiqin komandanlığı altında bölüyün gəlib çatmasına, yəni, avqustun 22-ə qədər davam etdi. Üsyançılar böyük miqyaslı ordunun gəldiyini eşidib, bir qismi dağlara çəkilməyə, əsas hissəsi isə İvanovka kəndindən mühasirəni götürüb Tomkak şəhərinə sarı getməli oldular.

Avqustun ortalarında Pişpək uyezdində üsyan yüksək zirvəsinə çatdı. Avqustun 14-də qiyamçılar bu uyezdin 19 vilayətini ələ keçirərək daha geniş əraziləri əhatə etdilər və mərkəzi dağlıq bölgə Tyan-Şanın və Aulie-Ata bölgəsinin qərbinə, Talasın ucqarlarına doğru hərəkət etdilər. Avqustun 15-də general Folbaum Kuropatkinə məruzə etdi: "Pişpək uyezdindən gələn məlumatlar onu deməyə əsas verir ki, üsyan dalğası dağlara və Aleksandrovsk dağ silisləsinin arxasında yerləşən Narın sahəsinə sarı istiqamət almaqdadır. Susamır və Talas vadiləri-

---

[1] Qazax. SSR MTA. Vernı dairə məhkəməsinin prokurorunun fondu, 214№li toplum, IV cild. 1916.

nin dəyərlərinin artması barədə məlumatlar bu faktla öz təsdiqini tapmaqdadır[1]".

Qırğızların üsyanı ən yüksək zirvəsinə Pişpək uyezdindəki avqustun 12-dən 22-nə qədər qiyamçıların əsas qüvvələrinin hücum etdikləri Tokmak şəhəri tərəfdə çatdı. Üsyançılar hər gün səhər saat 9-dan axşam saat 7-yə qədər şəhərin gah bu, gah o biri səmtində həmləyə keçirdilər. Tokmak şəhərinin qarnizonu Bakureviçin və kapitan Neklyudovun dəstəsindən, cəmi 500 süngüdən, 7 nəfərdən ibarət Vernı könüllü drujinasından, 108 pulemyotlu kazakdan ibarət Vernı qarovulçu dəstəsindən və üstəlik, Pişpəkdən köməyə gəlmiş podpolkovnik Rımşeviçin toplayıb təşkil etdiyi 200 nəfər könüllü piyada və 150 nəfər atlı drujinadan ibarət idi.

Baxmayaraq ki, Tokmak qarnizonu silahlanmada üstünlük təşkil edirdi, həmçinin hücumçuların bütöv sıralarını pulemyot və silahlardan açılan qatar atəşləri ilə dəfələrlə biçib qırmışdılar, üsyançılar həmlə ardınca həmləyə keçərək, şəhərin bəzi ətraf küçələrinə daxil ola bildilər. Ətrafdakı Pokrovskoye kəndi bütünlüklə darmadağın olundu. Tokmak və digər şəhərlər arasında olan sıx əlaqə kəsilmişdi. Şəhər qarnizonu bir neçə dəfə uğursuz əks-hücuma keçməyə can atdı, lakin məhv edilməkdən ehtiyatlanaraq, Daşkənddən göndəriləcək köməyi gözləyərək müdafiədə qaldı. Üsyançıların Tokmaka ən qanlı hücumları avqustun 20-də oldu. Həmin gün pulemyotların qırıcı atəşlərinə baxmayaraq, qırğızlar üç dəfə şəhərə hücum etdilər. Onlar şəhərin bəzi ətraf küçələrinə daxil olmağı bacardılar, lakin böyük sayda itki verdiklərinə görə əvvəlki çıxış mövqelərinə qayıtmaq məcburiyytində qaldılar.

Avqustun 22-də Tokmaka podpolkovnik Geytsiqin komandanlığı altında Daşkənddən

[1] Özbək.SSR MDTA. F.məxfi № 11 s, siyahıyaalma 1. iş 1135. iş 146.

göndərilmiş dəstə gəldi: 4 rota, 4 pulemyot, bir artilleriya batareyası, yüz nəfər kazak, yarım vzvod istehkamçı və Pişpəkdən onlara qoşulmuş 50 nəfər drujinaçı dunqan. Şəhər qarnizonunun gücləndirilməsinə baxmayaraq, üsyançılar sübh ertədən bütün qüvvələrini səfərbər edərək, şəhərə hücuma keçdilər. Güclü pulemyot və artilleriya atəşi altında çoxlu sayda canlı qüvvə itkiləri verən qırğızlar Tokmak şəhəri və digər yaşayış məntəqələrində mühasirəni dayandıraraq, geri çəkilmək məcburiyyətində qaldılar. Çar ordusunun bölükləri tərəfindən təqib olunan qiyamçılar Şəmşin aşırımlarından və dərələrdən keçməklə Koçkor, Cumqala vadilərinə və Aleksandrovsk sıra dağlarında Sırtıya doğru üz tutdular. Tokmak döyüşlərinin nəticələri bütünlükdə qırğızların üsyanının taleyini həll etmiş oldu.

Tokmak bölgəsindən geriləmə və çar ordusunun hücuma keçməsi ilə başlanğıcı qoyulan mərhələdən etibarən Pişpək uyezdində qiyamın tədricən səngiməsi və çar ordularının cəza dəstələrinin genişmiqyaslı fəaliyyəti gücləndi. Üsyançılardan qeyri-sabit, mütərəddid ünsürlərin ayrılması prosesi başlandı; üsyançıların ən böyük uğurlar qazandığı məqamda kütlələrin ümumi təzyiqi altında və kütlələrə əvvəlki təsir qüvvəsini saxlamaq məqsədini güdərək qiyama qalxmış zəhmətkeş dehqanların azman təzyiqi altında sıxılıb məhv olmamaqdan ötrü hərəkata qoşulmuş çoxsaylı bəy və manapların açıq-aşkar xəyanəti və çar qoşunları tərəfə keçməsi baş verdi. İssıqatin, Tınayev, Nurmambetov, Buranin və Canişev vilayətlərindən Tyan-Şanın Sırtısına çəkilməyə macal tapmayan qırğıazların bir qismi tabe olmaq məcburiyyətində qaldılar.

Sentyabrın əvvəllərində üsyanın dalğası səngisə də, mübarizə davam etdi. 1-2 sen-

tyabr tarixində Qarabaltin vilayətinin üsyançıları Çalvodar stanitsasını mühafizə edən taqıma qarşı yenidən hücuma keçdilər. Sentyabrın 8-də yenidən Tokmaka kiçik bir dəstə ilə hücum cəhdi baş tutdu. Sentyabrın 9-10-da issıqatinlilərin İvanovka kəndinə yenidən hücumu oldu, amma o vaxta qədər Tokmak və Pişpək bölgələri ərazisində cəmləşdirilən çoxsaylı rus ordularının sayəsində çar hökuməti üsyanın ayrı-ayrı nöqtələrinin qarşısını qısa müddətdə almağa müvəffəq oldu. Qırğızların bu çıxışları Pişpək uyezdində umumi götürəndə sonuncu oldu.

Qırğızların Prjevalsk uyezdində üsyanı avqustun 9-da köçkün kəndlərinə – İssık-Kul gölünün şimal sahillərində yerləşən Qriqoryevskoye, Semyonovskoye, Kurskoye və Dolinka kəndləri, Koçkor vadisində yerləşən Stolıpino kəndi – hücumdan başlandı. Avqustun 10-da qərbdən şərqə doğru yayılan qiyam dalğası bütün Prjevalsk uyezdini bürüdü. Üsyanda uyezdin bütün qırğız vilayətləri və Mariinsk kəndinin dunqanları iştirak edirdilər. Prjevalsk uyezdinin qırğızlarını ruhlandırmaqda və onların eyni zamanda, nisbi mütəşəkkil çıxışında Atekin, Sarbağın və Abaildinin sakinlərinin ilkin qələbəsi böyük rol oynamışdı.

Üsyanın gedişatında qiyamçıların qüvvəsi, əsasən, uyezdin üç iri rus məntəqəsi ətrafında səfərbər oldu: Sazanovka, Preobrajensk kəndlərində və Prjevalsk şəhərində. Sazanovka kəndində darmadağın edilmiş rus kəndlərinin – Kurskoye, Dolinka, Qriqoryevka, Semyonovka – əhalisi yerləşdirilmişdi. Bütün bu kəndlər, yuxarıda qeyd edildiyi kimi, üsyançılar tərəfindən yandırılmışdı. Avqustun 10-da onların Sazanovka kəndinə hücumu başlandı. Müdafiə üçün Prjevalskdan kornet Pokrovskinin komandanlığı altında 28 nəfər silahlı əsgər və bir qutu patronla təchiz olunmuş dəstə göndərildi. Həmin

dəstə göndəriş məntəqəsinə gedib çatmamış qiyamçılar tərəfindən həmləyə məruz qaldı. Pokrovski Sazanovka kəndinə geri çəkildi.

Avqustun 15-dən dörd vilayətin 10 000 nəfər qiyamçısının iştirakı ilə Sazanovkanın mühasirəsi başlandı. Mühasirə 3 gün – avqustun 18-dək davam etdi. Döyüş nəticəsində Sazanovkanın qarnizonu 13 nəfər canlı qüvvə itkisi verib, 21 nəfər yaralı ilə gecənin qaranlığında Preobrajensk səmtinə (Tüp) geri çəkilməli oldu. Artıq o zamana Sazanovkadan tutmuş Preobrajenskə qədər bütün rus kəndlərinin sakinləri İssık-Kul monastırının rahibləri ilə birlikdə orada cəmləşmişdi. Bu kəndlər, kilsə tikililəri də daxil olmaqla, məhv edildi.

İssık-Kul vadisinin rus əhalisinin arasında üsyana qalxmış qırğızların halına yanan şəxslərin olması, onların bəzilərinin qiyamçıların təfərində açıq çıxış etməsi faktları da vardır. İssık-Kul monastırının baş keşişi arximandrit Şimanski öz gündəliyində yazır: "Bu qaçqınların bəziləri maraqlı, eyni zamanda da qeyri-adi məlumat verirdilər ki, guya Folbaumovka və Alekseyevka kəndlərində yaşayan rus kəndlilərinin arasında xainlər vardır. Qaçqınların dediklərinə istinadən, qiyamın əsas iştirakçısı unter-zabit və üç dərəcəli Georgi ordeninin kavaleri, folbaumovsklu kəndli Mark Davıdoviç Vlasenkodur[1]". Şimanskinin gündəliyində gətirilmiş faktlar 1916-cı il üsyanının bir çox digər şahidlərinin söylədikləri ilə təsdiqlənir[2].

Üsyançıların avqustun 11-dən 15-dək davam etmiş Folbaum kəndinin (Kuturqa) mühasirəsi zamanı M.Vlasenko hələ qırğızların bu kəndə hücumunun əvvəlində onlara iki adi

---

[1] Qırğ SSR DİN MDA F. 75. iş 45, v. 94-335.

[2] Prjevalsk uyezdinin 4-cü sahəsinin dünyəvi hakiminin dindirmə protokolu. Qırğ. SSR MDA F. 75. iş 1, v.1-4.

tüfəng və iki qırma tüfəngi verməklə açıq-aşkar qiyamçıların tərəfinə keçmiş, həmlə başlananda isə üsyançılara rəhbərlik etmişdi. Sonradan Vlasenko cəza dəstələri ilə çarpışmada qətlə yetirildi. Belə məlumatlar da vardır ki, üsyançı qırğızlara Preobrajensk kəndinin sakinləri Daniil Kolşayev, Stepan Kovalenko və başqa kəndlilər də kömək edirmişlər. Ovçinnikovun dəstəsi tərəfindən əsir götürülən Daniil Kolşayev drujinaçılar tərəfindən öldürülmüş, evi və atasının torpaqları od vurularaq yandırılmış, mülkiyyəti yerli qolçomaqlar tərəfindən talan edilmişdi.

Preobrajensk kəndinə hücum avqustun 10-da başlandı. Orada İssık-Kul gölünün şimal sahilindəki rus kəndlərinin sakinlərindən əlavə, Cərqalan bölgəsinin kəndlərinin də – Lizoqubovka, Sokolovka, Otradnoye, Razdolnoye və Bobrikovo – əhalisi cəmləşmişdi. Bu kəndi mühafizə edən qarnizon, kazak orduları atamanı Bedarev tərəfindən başçılıq edilən bir neçə drujinadan ibarət idi. Sonradan ona köməyə kornet Pokrovskinin dəstəsi də gəldi. Preobrajensk kəndinə hücumda, demək olar ki, İssık-Kul gölünün şimal sahilindəki əyalətlərin və Cərqalan çayı sağ sahilinin bütün qırğızları iştirak edirdilər. Bu bölgədə üsyançılara ümuni rəhbərliyi İssık-Kul vadisinin görkəmli və nüfuzlu manapı Batırkan Noqayev edirdi. Preobrajenskə hücuma birbaşa tüplü qırğız Sağalı Almatayev başçılıq edirdi. Avqustun 12-də kənd gündə bir neçə dəfə hücuma keçən üsyançılarla hər tərəfdən mühasirəyə alındı. Mühasirə avqustun sonuna, nizami ordunun yaxınlaşmasına qədər davam etdi.

Üsyançıların əsas məramı uyezd şəhəri Prjevalskı ələ keçirmək idi – orada qiyamçıların hücumlarından sonra İssık-Kul gölünün cənub sahillərindəki cəmi köçkün kəndlərindən gəlmələr toplanmışdı. Bu kəndlərin əhalisinin bir hissəsi, əsas etibarilə, müqavi-

mət göstərən kişilər öldürülmüş, qadınların və uşaqların bir qismi əsir götürülmüşdü. Qaçmış sakinlərin qoyub getdiyi varidat və mal-qara üsyançılar tərəfindən götürülmüş, evlər və tikililər yandırılmışdı. O cümlədən, üsyanın başlanğıcında Koltsovka kəndində bulunan uyezd rəisinin köməkçisi Kaiçev qətlə yetirilmişdi.

Prjevalsk bölgəsinə hücum avqustun 10-da başlandı. Avqustun 11-də qiyamçılara Osama Yusupovun başçılığı ilə Mariinsk (Irdık) kəndinin dunqanları qoşuldular. Qiyama qalxmış dunqanlar tərəfindən Boqatırevka, Lipinka və İvanitskoye kəndləri dağıdıldı, sakinlərin çoxusu öldürüldü. Dunqanların qalxmasına səbəb, üsyançıların ümumi amalından əlavə, həm də Prjevalsk şəhərində drujinaçıların uyezd rəisi polkovnik İvanovun köməyi ilə tacir-dunqanlara vəhşicəsinə divan tutması oldu.

Qiyamçıların Prjevalska hücumu avqustun 12-də başlandı və üç istiqamətdən həyata keçirildi: cənub-qərb tərəfdən Cetıoğuz vilayətindən Maralbəy və Muhamətdinin başçılığı altında; şimal-qərb səmtindən abı və sarı bayraqlarla Sağalının başçılığı altında sayı 4 000 nəfərə qədər çatan qırğızların Ton qrupu; şimal-şərqdən Batırkan Noqayevin başçılığı altında Tüp qırğızları. Cənub-şərqdən isə hücum olmadı, belə ki, manap Kadır əkənin başçılığı altında Türgən əyalətinin qırğızları üsyanda iştirak etmədilər.

Prjevalskdakı təhlükəli vəziyyətdən narahat olan Yeddisu vilayətinin qubernatoru general Folbaum bura çoxlu sayda hərbi qüvvə yeritdi. Qarqaradan təcili surətdə rotmistr Kravçenkonun dəstəsi yollandı, avqustun 14-də mənzil başına çatdı və qarnizon üzərində komandanlığı öz üzərinə götürdü. Avqustun 16-da Carkənddən xorunji Uqreninovun başçılığı altında kazak yüzlüyü gəldi. Vernıdan tərkibi kazak yüzlüyü, pulemyotlu piyada rotası, 50 könüllüdən ibarət bölük ordu starşinası Bıçkovun başçılığı altında yola düşdü. Pişpək uyezdindən podpolkovnik

Geytsiqin taqımı hərəkət edirdi. Bundan əlavə, Fərqanə tərəfindən də kazak dəstəsi yollanmışdı.

Kravçenkonun dəstəsinin gəlməsindən sonra üsyançılar hücum mövqeyinə keçən çar orduları ilə toqquşmada böyük sayda itki verərək, Prjevalsk şəhərinin mühasirəsini dayandırmalı oldular. Üstünlük çar ordusunun tərəfinə keçdi. Cəza dəstələrinin üsyanın yatırılmasına yönəldilmiş fəal əməliyyatları başlandı ki, bu da qiyamçılar və onların ailələrinə amansız divan tutulması, var-yoxlarının, mal-qaralarının ələ keçirilməsi, qırğız aul və qışlaqlarının məhv edilməsi ilə nəticələndi.

İssık-Kul vadisindəki üsyanla bərabər, Narın bölgəsində də qiyam başlandı. Avqustun 9-da qırğızlar Narının 40 km-də yerləşən Qulanaq, həmçinin Toğuz-Toro vadisindəki Titovka və Atayka kəndlərini darmadağın etdilər. Atbaşı çayı üzərindəki körpünü yandırdılar, Stolıpino kəndini dağıtdılar. Narın istehkamına bir neçə uğursuz hücumdan sonra üsyançılar Çin sərhədinə yaxın köç etdilər. Cəza dəstəsi ilə sonuncu güclü toqquşma avqustun 28-də oldi, atışmadan sonra qırğızlar dağlara dağılışdılar. Bu bölgədə üsyan geniş vüsət almadı.

Qüvvəcə üstün olan çar ordusunun təzyiqi qarşısında İssık-Kul gölünün cənub sahilı üsyançıları Son-Kul bölgəsində yerləşən sırtlarda səfərbər olub Pişpək uyezdinin qiyamçılarına qoşuldular və sonradan onlarla məğlubiyyətin ağırlıqlarını bölüşdülər. Məğlubiyyətə uğramış üsyançıların geriləməsinin və qaçışının ümumi mənzərəsi cəza dəstəsinin komandanı podpokovnik Geytsiqin general Folbauma yazdığı 07.09.1916 tarixli raportda belə təsvir olunur: “Sentyabrın 5-də mənə təhkim edilmiş dəstə Preobrajenskoye kəndinə daxil oldu. Rıbaçyedən Preobrajenskoyeyə qədər olan yollarda qırğızlar öz mal-qara və əmlaklarını ataraq tələsik geri çəkilirdilər. Qırğızların əlindən

40 min başdan az olmayaraq (bəlkə də bundan artıq) qoyun və 400 iribuynuzlu heyvan alınmışdır. Qırğızlar İssık-Kulun cənub sahili ilə Terskey-Ala-Too səmtində, Qaşğar sərhədinə doğru geri çəkilirlər. Bu barədə onların əllərindən alınan ruslar və özləri şəhadət verirlər, qırğızların yalnız bir hissəsi Aleksandr silsiləsinin dağlarında qalmış, cüzi hissəsi isə Gülcə sərhədinə doğru getmişdir. Rıbaçyedən Preobrajenskə qədər aparan yolda yerləşən kəndlər talan edilmiş və yandırılmışdır[1]".

3 sentyabr tarixli rəsmi bildirişlərdə xəbər verilir ki, 60-70 min nəfər qırğız mal-qaraları ilə birgə Çinə (Berdel) tərəf sərbəst gediş-gəliş olan Sırtı təbii sərhəd istiqamətində toplaşmışlar[2]. Avqustun sonlarında Prjevalsk uyezdində üsyan söndü. Sentyabrda üsyanı yatırmaq məqsədi ilə çar ordusunun Şimali Qırğızıstana göndərilmiş cəza dəstələrinin genişmiqyaslı fəaliyyəti başlandı.

Sır-Dərya vilayətinin Talas çayı vadisi Aulie-Atinsk uyezdində və bu uyezdin müasir Qırğızıstan SSR-in Talas vilayətinin ərazisində yerləşən digər əyalətlərində yaşayan qırğızların üsyanı, həmçinin o bölgədə yaşayan qazaxların qiyamının gedişatı ilə sıx bağlıdır. Eynilə Qırğızıstanın cənubunda qırğızlarla qazaxların birgə üsyanları alovlandığı kimi, müasir Talas vilayətində də qırğızlarla qazaxların birlikdə çıxışları baş verməkdədir. Qırğızların bu ərazidəki üsyanı Şimali Qırğızıstandakı kimi, genişmiqyaslı ümummilli silahlı kəskin xarakter almamışdı. Burada qiyam qırğız üsyanına, əsasən də Pişpək uyezdinə, əks-səda kimi avqustun 11-də başlandı. Bu çıxışlarda qırğızlar poçt stansiyalarına, meşə gözətçilərinə, ayrı-ayrı xutor və qəsəbələrə hücum

[1] Qazax. SSR Mərkəzi Tarixi Arxiv Yeddisu vilayət icraiyyə şöbəsi 1, s.2, № 16219, 1916.

[2] Qırğız. SSR MDA F.75, iş 41, v. 84.

etdilər. Bütün bunların hamısı sentyabrın 20-si tarixində qoşunlar tərəfindən yatırıldı.

Üsyana qalxmışlarla mübarizədən ötrü çoxlu qüvvə tələb olunurdu. Bu məqsədlə Yeddisu vilayətində yerləşmiş daimi hərbi hissələrlə yanaşı, xüsusi olaraq, hər birində 8 pulemyot olmaqla 240-cı Simbirsk drujinası, 243-cü Samara və 734-cü Saratov drujinası göndərildi. Bunlardan əlavə, cəbbəxanasında 4 pulemyot olmaqla 737-ci Simbirsk drujinaçılarından ibarət iki rota, 8 pulemyot və 160 nəfər kəşfiyyatçısı ilə birinci və ikinci ehtiyat Simbirsk polkunun hərəsindən iki heyət rota, 6 pulemyot və 80 nəfər kəşfiyyatçı müşayiətçisi daxil olmaqla 3-cü Simbirsk ehtiyat polkundan 3 rota, 26-cı, 27-ci yüngül toplu batareya; eləcə də üsyanın yatırılmasında 6-cı Orenburq kazak polkundan iki yüz kazak, 4-cü polkdan yüz kazak, iki komanda istehkamçı, telefon və teleqraf komandaları iştirak edirdilər. Həmçinin qiyamın yatırılması məqsədi ilə nizami ordudan 2 pulemyot komandası daxil olmaqla 7-ci Orenburq və 9-cu Sibir kazak alayları, eləcə də, 3-cü Orenburq kazak batareyası göndərilmişdi. Yeddisu vilayətində daimi yerləşdirilmiş hərbi hissələr kənd və şəhərlərin müdafiəsi üçün istifadə edilirdi.

Hər bir tərəfdən çar döyüşçülərinin sıxışdırdıqları üsyançılar öz mal-qara və ev-eşiklərini ataraq, geri çəkilib Çin sərhədinə doğru dağlara qaçmağa məcbur idilər. Qiyamçıların pərən-pərən olmuş dəstələri çoxsaylı, yaxşı silahlanmış çar ordusu dəstələrinə ciddi müqavimət göstərə bilməzdilər. Cəza dəstələri yolları üstündə olan bütün qırğızları, o cümlədən, qadın və uşaqları öldürür, onların bütün mal-qarasını və əmlaklarını əllərindən alırdılar. Hətta bu üsyanda heç bir iştirakı olmayan qırğızlar da, çar ordusu tərəfindən öldürülməkdən ehtiyatlanaraq

uca dağların dərələrinə qaçır, orada aclıqdan ölürdülər. 1916-cı ildə erkən düşmüş payız soyuğu öz işini sonadək bitirdi. Cəza dəstələrinin komandirləri dağlara qaçmış ayrı-ayrı qırğız qruplarını məhv etməkdən ötrü ayrıca qruplar yaradırdılar.

Çıxılmaz vəziyyətlə üzləşən, hər bir tərəfdən çar ordusu ilə sıxışdırılan qırğızlar təhlükəni hiss edərək oktyabr ayının əvvəllərində böyük dəstələrlə öz vətənlərini tərk etməyə və Çinin Sin-Tszyan əyalətinin Üç-Turfan, Aksu qəsəbələrinə getməli oldular ki, oralarda da olmazın çətinliklərə, məhrumiyyətlərə ürcah oldular... Ümumilikdə, Çinə Pişpək və Prjevalsk uyezdinin 37 vilayətindən cəmi 150 min adam keçdi (o cümlədən, 5 vilayətin sakinləri Qarqaradan keçməklə Çinin Gülcə əyalətinə getdilər).

Qaçmış qırğızların təqibindən ötrü ordu starşinası Bıçkovun komandanlığı altında xüsusi dəstə göndərildi. Rus ordusunun digər taqımları Qırğızıstan hüdudlarında cəza tədbirləri görməklə məşğul idilər. General-qubernator Kuropatkinin 11.08.1916 tarixli əmrinə əsasən, üsyan iştirakçılarının işlərinə baxmaq üçün cəza dəstələri nəzdində müvəqqəti hərbi-səhra məhkəmələri yaradılmışdı. Onların məhkəmə qarşısına çəkilmə və hətta edam cəzasına qədər hökmlərinin təsdiqi hüququ dəstə və qarnizonların rəislərinin öhdəsinə buraxılmışdı[1]. Arxivlərdə saxlanılan həmin məhkəmə protokollarına istinadən bəlli olur ki, cəzavericilərin əlinə düşmüş usyan iştirakçılarının çoxuna heç bir təhqiqat aparılmadan və günah dərəcəsi müəyyən edilmədən ölüm hökmü kəsilirdi.

1916-cı il oktyabrın əvvəlində çar hökuməti manap Kurman Lepesov və onun oğlu İshaq Kurmanovun köməyi ilə Şima-

---

[1] Qazax. SSR Mərkəzi Tarixi Arxiv. F. Yeddisu vilayət icraiyyə şöbəsi, məq. 1, məq. 2, № 16954, 1916.

li Qırğızıstanda üsyanın başçılarından biri olmuş Kanaat Abukini və onun oğlu İshaqı ələ keçirə bildi. Onlar cəza dəstəsinin rəisi polkovnik Slinkoya təhvil verildilər. Kanaatın oğlu – İshaq Narında hərbi-səhra məhkəməsinin hökmü ilə dar ağacından asıldı. Kanaat özü isə qandallanaraq Vernı qazamatına göndərildi. Onların ələ keçirilməsinə görə Kurman Lepesov və İshaq Kurmanov çar mükafatları ilə təltif edildilər: Kurman Lepesov Vladimir lenti üzərində böyük gümüş medal aldı, İshaq Kurmanova isə xorunji rütbəsi verildi və vilayət müdiri vəzifəsinə təyin edildi[1].

1916-cı ilin oktyabrının ortalarında Qırğızıstanda üsyan çar qoşunları tərəfindən amansızcasına yatırıldı. Cəza dəstələrinin qəddar hərəkətləri nəticəsində ayağa qalxmış qırğız xalqı böyük insan və maddi dəyərlər itkiləri verdi. Köçəri-dehqanların iqtisadiyyatı tam iflasa uğradı. Çin tərəfə keçən, eləcə də Vətənində qalan zəhmətkeş qırğızlar həm aclıqdan, həm də yayılmağa başlayan yatalaq epidemiyasından qırılmağa məhkum idilər. Aşağıdakı rəqəmlər qırğız xalqının məruz qaldığı talan və bəlalarının dəhşətli mənzərəsini təsvir edir.

Polkovnik Kolosovskinin Yeddisu statistika komitəsində toplanmış materiallarına əsasən, Pişpək uyezdində 1916-cı il qiyamına qədər mövcud olmuş 21 813 qırğız təsərrüfatından, 01.01.1917 tarixinə 12 518 təsərrüfat qalmış, 9 313 təsərrüfat, yəni 42,66% məhv olmuşdu. Prjevalsk uyezdində 1916-cı ilə qədər mövcud olmuş 34 594 qırğız təsərrüfatından 34 252 vahidi, yəni 70,21% ləğv edilmişdi.

Döyüş zamanı öldürülən, aclıqdan və soyuqdan həlak olan qırğızların sayı rəsmi çar orqanlarında hesaba alınmamışdı. Əgər o dövrün si-

---

[1] Qazax SSR MTA Yeddisu vilayət icraiyyə şöbəsi, məq. 1, məq. 2, № 1692, v.108.

yahıyaalınmasına görə bir qırğız təsərrüfatına düşən hər iki cinsin nümayəndələrindən ortalama 5,1 nəfər düşürdüsə, 01.01.1917 tarixinə qırğız əhalisinin itkisi belə idi: Prjevalsk uyezdində üsyana qədər olan 176 429 nəfərdən 123 685 nəfər qalmışdı, yəni 70%-dən çoxu öldürülmüşdü. Pişpək uyezdində üsyana qədər siyahıya alınmış 111 338 nəfərdən 63 842 nəfəri, yəni 58%-dən artığı qətlə yetirilmişdi. Pişpək uyezdində itirilən mal-qaranın sayı ümumi sayı 984 min başdan 44%, Prjevalskda 1 485 min başdan 78% idi[1].

Qırğız xalqının 1916-cı il üsyanı milli-azadlıq hərəkatı idi. Üsyan bütün Qırğızıstan ərazisini bürümüşdü. Ələlxüsus, ən inadkar, uzunmüddətli və amansız şəkildə qiyam Şimali Qırğızıstanda alovlanmışdı. Üsyan qırğız xalqının geniş kütlələrini müstəmləkəçi rejimlə mübarizəyə, yadellilərin əzici boyunduruğuna, çarizm üsuli-idarəsinə qarşı qaldırdı. “Hər bir milli əsarət, xalqın geniş kütlələrinin müqavimətinə səbəb olur, milli boyunduruğa salınmış əhalinin hər cür müqaviməti tendensiyası isə milli üsyandır”, – deyə, V.İ.Lenin yazırdı[2].

Üsyan həm də yerli bəy və manaplara qarşı yönəlmişdi, bu, qiyamın Qırğızıstanın cənubunda və Pişpək uyezdinin Belovodsk bölgəsindəki gedişatında özünü əlalxüsus aşkar göstərdi. Qırğızların 1916-cı il üsyanı imperializm epoxasının milli-müstəmləkəçilik hərəkatlarının ümumi zəncirvarı xəttində əsas tərkib halqası oldu. O, 1914-1918-ci illər imperialist müharibəsinin 3-cü ilində, rus çarizmi özünün maddi və insani resurslarını tükəndirib dərin iq-

---

[1] Bunlar İ.Çekaninskinin “Восстание киргиз-казахов и каракиргиз в Джетуйском (Семиреченском) крае в июле-сентябре 1916 года. – Кызыл-Орда” materiallarından götürülmüşdür. 1926. s. 44-45, 48-49, 125.

[2] Ленин В.И. Соч. 19-cu cild, s.222.

tisadi və siyasi böhran yaşadığı zaman başlandı. Üsyan çarizmin Orta Asiyada mövqeyini zəiflədərək, obyektiv surətdə rus proletariatına kömək etdi və inqilabi xarakter daşıdı.

Bu minvalla, Qırğızıstandakı üsyan öz məzmununa görə həm də antiimperialist və antifeodal idi. Üsyan eləcə də dehqanların müstəmləkəçilər tərəfindən əllərindən alınmış torpaqların geri alınması amalı ilə vüsət tapan aqrar hərəkatı idi. Bu, xalq kütlələrinin xalqın qəzəbinin partlayışının yekunu kimi, kortəbii kütləvi çıxışı idi. O, xalqın müxtəlif vaxtlarda vahid mərkəzi və vahid rəhbərliyinin qaibliyi şəraitində etdiyi çıxışlar formasında öz əksini tapırdı. Bu həmin dövrdə Qırğızıstanda proletariatın və onun partiyasının olmaması ilə izah edilir. O zaman Qırğızıstandakı üsyanı öz rəhbərliyi altına götürə biləcək burjua partiyalarının yoxluğu da burada təzahür edir. Həmçinin zəhmətkeş qırğızlar və rus proletariatı ilə inqilabi əlaqə də yaradılıb sahmana salınmamışdı.

1916-cı ildə qırğızların milli-azadlıq üsyanının əsas aparıcı qüvvəsi kasıb-ortabab təbəqədən olan kəndlilər və maldarlar idilər. Üsyanda qırğız xalqı ilə birlikdə Qırğızıstanın kəndlərində yaşayan zəhmətkeş özbəklər, qazaxlar və dunqanlar iştirak etmişdilər, belə ki, həmin millətlərin şəhər əhalisi bitərəf qalmışdı. Belə faktlar da vardır ki, üsyana qalxmış qırğız xalqı ora köçürülmüş rus kəndlilərinin bir qismindən dəstək görür, hətta onlardan qiyamçıların tərəfinə açıq-aşkar keçənlər də olurdu, bunlara misal kimi, Kuturqa kəndindən David Vlasenko, Sazanovka kəndindən Daniil Kojayevi və başqalarının adını çəkə bilərik.

Qırğız bəy və manaplarından çoxusu üsyana qarşı çıxırdılar. Bu, əsas etibarilə, Qırğızıstanın cənubuna, həmçinin Belovodsk sahəsinin bir neçə vilayətinə, Tokmak sahəsinin Tınayev vilayətinə, Prjevalsk uyezdinin Turgenev vilayətinə xas idi. Üsyanın gedişatına aid olan materiallar qırğızların təkcə müstəmləkəçi zülmünə deyil,

eləcə də yerli bəy və manaplara qarşı apardıqları mübarizənin parlaq təsvirini göstərir. Həmçinin üsyanın gedişatı zamanı, ələlxüsus, onun daha yüksək vüsətinin zirvəsində ayrı-ayrı bəy və manapların da qiyama qoşulduğunu göstərən faktlar vardır. Bu, əsas etibarilə şimali Qırğızıstana aiddir ki, hətta bəzi iri manaplar üsyana başçılıq etmişdilər (Kanaat Abukin, Mukaş Şabdanov, Sultan Dolbayev, Batırxan Noqayev və b.). Həmin qrup manap və bəyləri üsyana gətirən əsas səbəblər kütlə üzərində öz təsirlərini itirmək qorxusu, varidat və mövqelərinin əldən çıxması, qiyamın ümumi gedişatı zamanı basılmaq təhlükəsi olmuşdu. Üsyançılar qələbə çalacaqları təqdirdə, bu bəy və manap qrupları kütlə üzərində təsirlərini möhkəmləndirmək və xalqının danılmaz hökmdarı olmaq niyyətində idilər. Məğlubiyyət və uğursuzluq olacağı təqdirdə isə, onlar üsyandan aralanmaq və çarizm qarşısında öz günahlarını xəyanət, satqınlıq dəyərinə yumaq, yaxud cəzasız qalaraq Çin tərəflərə getmək fikrində idilər. Üsyanın gedişatı zamanı bütün bu plan və hesablamalar üzə çıxdı.

Qırğızların üsyanını boğmaq üçün çar hökuməti tərəfindən böyük qüvvələr səfərbər edilmişdi: iki kazak alayı, 35 müxtəlif rota, 24 kazak yüzlüyü, 240 atlı kəşfiyyatçı. Bütün bu ordu hissələrinin ixtiyarında 16 top və 47 pulemyot var idi. Bu qüvvədən əlavə, fəaliyyətdə olan ordudan aşağıdakılar çağırılmışdı: 2 pulemyot komandası olan 2 kazak alayı və dağ toplu atlı batareya. Üsyançıların üstünə gedən nizami ordulara kömək kimi, yerli gəlmə-qolçomaqlardan, daha çox şovinist ovqatlı köçürülmə-kəndlilərdən və Pişpək uyezdinin qolçomaq-dunqanlarından könüllü dəstələr yaradılmışdı ki, onlar da üsyanın yatırılması vaxtı öz amansızlıqları ilə seçildilər.

Üsyanın yatırılması üçün cəlb edilmiş azman ordu qüvvələri həmçinin şimali Qırğızıstanda baş vermiş qiyamın miqyasına parlaq şəkildə dəlalət edir. Əldəqayırma nizələrlə, payalarla (süyül) silahlanmış, yalnız cüzi hissəsinin odlu silahla silahlandığı üsyançılar düşmənin qüdrətli ordusuna tab gətirə bilmədilər. Onlar yüksək dağ sırtlarına və Çin sərhədlərinə doğru geri çəkilməyə məcbur oldular. Çar ordusunun hər tərəfdən sıxışdırdığı, məğlub, çoxlu sayda ölü və

yaralı itkisi verən qırğızlar öz var-yoxlarını, mal-qaralarını ataraq Çinin içərilərinə doğru qaçmağa, bir hissəsi isə silahı təhvil verərək çar ordusuna təslim olmağa vadar oldular. Oktyabrın ortalarına üsyan artıq yatırılmışdı. Çar hökuməti qiyam iştirakçılarına olmazın divan tutdu. Cəza dəstələrinin və könüllü drujinaçıların fəaliyyəri nəticəsində həm Çinə getmiş, həm də Qırğızıstanın hüdudlarında qalmış zəhmətkeş qırğızlar öz var-yoxlarını bütünlüklə, mal-qaralarını, demək olar ki, tamamilə itirdilər və ağlasığmaz məhrumiyyətlərə düçar olaraq, aclıqdan üzüldülər, yoluxucu xəstəliklər tutaraq onlarla, yüzlərlə məhv olub mütləq həlakətə məhkum oldular. Çar hökuməti üsyanın bahasını qırğızlardan olmazın qəddar cəza planı – qırğızların hamısının İssık-Kul vadisindən və Pişpək uyezdindən Tyan-Şan dağları həndəvərinə köçürülməsi – ilə almaq üçün düşünüb daşınmışdı.

Qırğızların 1916-cı il üsyanı kor-təbiiliyinə, təşkilatçılığın olmamasına, bəy və manapların xəyanətinə, çar ordusunun nəhəng miqyasda üstünlüyünə, üsyançıların texniki cəhətdən zəif silahlanmasına və yalnız fəhlə sinfi və onun firqəsinin bacara biləcəyi əsil rəhbərliyin qaibliyinə görə məğlubiyyətə uğradı. O, milli-azadlıq hərəkatlarının uğurlarını təmin edən tarixi zərurətli zəminin qaibliyinə görə məğlub oldu. Qırğızların 1916-cı il üsyanı Fevral inqilabı ərəfəsində bitdi. Rusiyada baş vermiş Fevral burjua-demokratik inqilabı qırğız xalqının vəziyyətinin yaxşılaşmasında heç bir rol oynamadı.

“Lakin çarizmin məhv edilməsi və burjuaziyanın hakimiyyət başına gəlməsi milli boyunduruğun məhvinə gətirib çıxarmadı”, – deyə yoldaş Stalin yazırdı. “Milli əsarətin köhnə, qaba forması yeni incə, amma daha da təhlükəli forma aldı... İmperialist dövlətlərin kiçik millətləri özünə tabe etdirmək uğrunda mübarizəsinin həmin dövlətlərin mövcudiyyəti üçün şərt kimi olması – imperialist müharibənin gedişatı zamanı ortalığa belə mənzərə çıxdı. Çarizmin məhvi və hakimiyyət səhnəsində Milyukov-Kerenskinin peyda olması bu xoşagəlməz mənzərənin düzəlməsi üçün heç bir dəyişikliyə səbəb olmadı. Belə məlum olurdu ki, əsarət altına alınmış zəhmətkeş kütlələrin azad olmasını və milli boyunduruğun məhv edilməsini imperializmdən ayrılmadan, “öz” milli

burjuaziyasını devirmədən və hakimiyyətin zəhmətkeş kütlə tərəfindən ələ alınması baş vermədən təsəvvür edilməsi – mənasızdır[1]”, – deyə, yoldaş Stalin davam edirdi.

Yalnız Böyük Oktyabr Sosialist inqilabının qələbəsindən sonra sovet hökumətinin və bolşevik partiyasının gördüyü tədbirlər nəticəsində zəhmətkeş qırğızlar Çin tərəflərdə qalıb son nəfərinədək həlakətini tapmaqdan, çar hökuməti və Müvəqqəti hökumətin burjua hakimiyyəti tərəfindən izlənməkdən, qolçomaq drujinaçılarının hərəkətlərinin təhlükəsindən xilas oldular. Yalnız sovet hökumətinin sayəsində, böyük rus xalqının köməyi ilə zəhmətkeş qırğızlar azadlıq və müstəqillik, 1916-cı il üsyanında uğrunda qanlarını axıtdıqları öz torpaqlarını əkib-becərmək imkanı əldə etdilər. Üsyanın siyasi və tarixi əhəmiyyətini sadalayaq:

O, qırğız xalqının siyasi düşüncəsinin artıb inkişaf etməsinə güclü təkan verdi. Qırğız xalqı öz dostlarını və düşmənlərini tanımağı öyrəndi. Üsyan vaxtı bəy və manapların tutduqları satqın mövqeyi zəhmətkeşlərin gözünü açdı. Qiyamın yatırılmasından sonra çarizmə nifrət daha da artdı, sinfi ziddiyyətlər son həddə qədər kəskinləşdi. Uğurlar və uğursuzluqlar qırğız xalqına çox şey öyrətdi. Zəhmətkeş kütlələr üsyandan qazandıqları təcrübəyə əsasən, əmin oldular ki, çar müstəmləkəçilərinin, bəy və manapların zəncirlərini böyük rus xalqının, rus proletariatının yardımı olmadan qırmaq qeyri-mümkündür.

Qırğız xalqının 1916-cı il üsyanı obyektiv surətdə çar üsuli-idarəsinə qarşı yönəlmişdi, o, rus imperializminin arxa cəbhəsinə möhkəm və güclü zərbələr vuraraq, çar imperiyasının dayaqlarını laxlatdı, çarizmə qarşı inqilabi mübarizəsində rus proletariatına yardımçı oldu. 1914-1917-ci il imperialist müharibəsi zamanı, Rusiyanın feodal-mülkədar quruluşunun ümumi böhranı ərzində tüğyan etmiş bu üsyan rus proletariatı və kəndliləri ilə çarizm və burjuaziayaya qarşı birgə hücuma zəmin yaratdı. Bu minvalla, müstəmləkə Qırğızıstanı imperializmin ehtiyat qüvvəsindən proletar inqilabının ehtiyat qüvvəsinə çevrildi.

---

[1] Сталин И.В. Марксизм и национально-колониальный вопрос. М., 1935.

Bu toplunu hazırlarkən, tərtibçilər 1916-cı il Qırğız üsyanının sosial-iqtisadi şəraiti, səbəbi, gedişatı, xüsusiyyəti və hərəki qüvvəsini xarakterizə edən materialları tədqiqatçı-tarixçilərin, eləcə də qırğızlar və Qırğızıstanın tarixi məsələsi ilə maraqlanan oxucu kütləsinin ixtiyarına buraxmağı öz qarşılarına məqsəd qoymuşlar. Sənədlər təkcə 1916-cı il üsyanının özü ilə deyil, eləcə də çarizmin bütün müstəmləkəçi sistemi, əsasən də, çarizmin Qırğızıstanda apardığı milli, aqrar və vergi siyasəti ilə maraqlananlar tərəfindən istifadə edilə bilər. Mənbələr Qırğızıstan SSR DİN-in Mərkəzi Dövlət Arxivində, Qazaxıstan SSR-in Mərkəzi Dövlət Tarixi Arxivində və Özbəkistan SSR Mərkəzi Dövlət Tarixi Arxivində saxlanılır. Materiallar ayrı-ayrı fond və kolleksiyalarda toplanmış, sənədlər üsyan ərzində Türküstan general-qubernatoru, Yeddisu, Sır-Dərya və Fərqanə vilayətlərinin qubernatorları, uyezd rəisləri, gizli polis, çar məhkəmə-istintaq orqanlarının dəftərxana məmurları tərəfindən tərtib edilmişdir və çoxsaylı teleqram, raport, məlumat, hesabat, protokol, əmr və sərəncamlardan ibarətdir.

Türküstan general-qubernatorunun dəftərxanasının fondunda, 1917 №-lı işdə general-qubernator Kuropatkinin üsyanın səbəblərini açmağa çalışdığı, diyarın ayrı-ayrı məkanlarında üsyanın gedişatının sxematik icmalını verdiyi və çar hökuməti tərəfindən yerlilərin arxa cəbhədəki hərbi işlərə "müsadirə"sinə dair çarın əmri ilə bağlı görülmüş tədbirlərin, həmçinin qiyamın yatırılması məqsədilə atılmış addımların üzərində xüsusi dayandığı hesabatının surəti saxlanılır. Onun raportunda eləcə də qırğızların Prjevalsk və Pişpək uyezdlərinin Tyan-Şan dağları bölgələrinə köçürülməsi planı, Prjevalsk və Pişpək uyezdlərinin bir hissəsində yaşayan qırğızların torpaqlarının üsyana qalxmaqları müqabilində cəza kimi əllərindən alınması layihəsi göstərilmişdir.

Elə həmin fondda Yeddisu vilayətinin qubernatoru general Folbaumun özündə Pişpək və Prjevalsk uyezdində üsyanın gedişatını, ayrı-ayrı cəza dəstələrinin hərəkətlərini, eləcə də qırğızlarla qazaxların üsyana qalxmaqlarının səbəbinin açılmasına cəhd göstərdiyini əks etdirdiyi teleqraf bildirişləri də vardır. Qazaxıstan SSR-in Tarixi Arxivindən götürülmüş materiallardan, 44 №-lı fondun işlərinin

qrupunda qırğızların 1916-cı il üsyanına dair, ələlxüsus, Pişpək uyezd rəisi Rımşeviçin Yeddisu vilayətinin hərbi adına göndərdiyi və Belovodsk, Tokmak, İssıkatı bölgələrində Atekinlərin və Sarıbağışların üsyana başladıqları tarixi bildirən raportu kimi dəyərli sənədlər vardır. Tokmak şəhəri rayonunda üsyanın gedişatı təsvir edilmiş, Tokmak şəhərini mühasirəyə almış üsyançıların şəhər əhalisinə və qarnizonuna çağırışının mətni göstərilmişdir. Üsyançıların düşərgəsindən qaçmış bir qaçqının Atekin və Sarıbağış vilayətlərində qırğızların üsyanının başlamalarının bəzi təfərrüatları göstərilən hekayət təsvir olunmuşdur. Bu fondun sənədlərindən Prjevalsk uyezdinin rəisinin üsyanı "qarışıqlıq" adlandıraraq onun səbəbini izah etməyə çalışması, üsyançıların ayrı-ayrı yaşayış məntəqələrinə hücumlarının tarixini yazması, çar ordusunun hərəkətə keçməsinin başlanğıcını qeyd etdiyi raport diqqəti cəlb edir.

Bu raportların dəyəri ondadır ki, mənbə kimi onlarda Pişpək və Prjevalsk uyezdlərinin bölgələrində qırğız üsyanının başlanmasının az-çox səhih tarixi verilmiş, üsyançıların və çar ordusu dəstələrinin hərəkat rayonlarının adları çəkilmiş, sayları və dəstə rəislərinin soyadları yazılmışdır. Fəqət bu raportlar qiyamın tam mənzərəsini əks etdirmir. Onlarda cəza dəstələrinin törətdikləri əməllər daha ətraflı təsvir edilmiş, üsyançıların hərəkətləri isə bu və ya digər bölgədə yalnız təhlükənin miqyasını xarakterizə etmək, yainki "üsyançıların amansızlığı"nı təsvirini vermək zərurəti doğduqda qeyd edilmişdir. Sənədlər uyezd rəislərinin dəftərxanalarında cəza dəstələrinin rəislərinin və ya ayrı-ayrı sahələrin pristavlarının raportlarının əsasında hazırlanmışdır. Onların araşdırılması uyezd rəislərinin və qubernatorların raportlarında əksini tapmayan müxtəlif təfsilatların öyrənilməsinə yardımçı olacaqdır.

Eləcə də mənbələrdən biri Qazaxıstan SSR-in Mərkəzi Dövlət Tarix Arxivindən götürülmüş Pişpək və Prjevalsk uyezdlərinin dövlət məhkəmə hakimlərinin bir qrup işləridir ki, onlar özündə üsyanın şahid və iştirakçılarının ifadələrinin protokollarını ehtiva edir. Qırğız üsyanının rəhbərlərindən biri Kanaat Abukinin ifadələri bunların sırasına aiddir. O, üsyanın səbəblərini söyləyir və rəhbərlik etdiyi üsyançıların hərəkətlərini ətraflı nəzərə çarpdırır.

5, 13, 21, 31 və 59 №-lı sənədlərdən başqa bütün digər sənədlər ilk dəfə nəşr olunur. Sadalanan beş sənəd isə topluda dərc edilmişdi (tərtibatçı – L.V.Lesnaya)[1]. Çap zamanı bir sıra səhv və yanlışlığa yol verilmişdir, məs., 151-ci səhifədəki 5 №-lı sənəddə "Uyezd rəisi Putintsevin təzyiqi altında" sözləri ilə başlayaraq və "Pişpək uyezdinin idarə tərcümanı" ilə qurtaran bütöv bir abzas buraxılmışdır. Verilmiş sənədin mətnində bir sıra yanlışlıq vardır, məs., səhifə 152-də getmiş "Abaildin vilayətində 100-ə yaxın alaçıq" cümləsi **"Abaildin vilayətində 1 000-ə yaxın alaçıq"** kimi, 153-cü səhifədə "10 varlı tərəfindən müharibəyə ianə üçün" isə **"100 varlı tərəfindən müharibəyə ianə üçün"** kimi oxunmalıdır.

Səhifə 65-dəki 13№-lı sənəddə yazılmışdır: "Mən sahə müvəkkili olan pristav Bayqulovla, 10 nəfər aşağı rütbəlilər və ovçularla birgə, 900 qoyun və 100 baş keçə heybə yüklənmiş iribuynuzlu mal-qara ələ keçirmişəm ki, onları da ağ bayraqlı nizəni alaraq stanitsa atamanı Sultan İbrahimova vermişəm". Həqiqətdə isə oxunmalıdır: **"...ələ keçirmişəm ki, onları da stanitsa atamanına vermişəm. Komanda ilə hücuma keçərkən avqustun 10-da ağ bayraqlı nizəni əlindən alaraq Sultan İbrahimovun oğlunu şəxsən özüm öldürmüşəm".**

68-ci səhifədə "Sonra Sarıbağış vilayət müdiri Kamal Şabdanov və digər fəxri şəxslər, kütləni bu çıxışın nəticəsizliyinə əmin etməyə çalışdılar, lakin kütlə qışqırırdı. Silah və patronlar gətirdilər" kimi yazılsa da, **"Sonra Sarıbağış vilayət müdiri Kamal Şabdanov və digər fəxri şəxslər, kütləni bu çıxışın nəticə verməyəcəyinə əmin etməyə çalışırdılar, lakin kütlə qışqırırdı: "Cihada qalxmalı". Bu məqamda bir qrup qırğız çaparaq gələrək, silah və patronlar gətirdilər"** kimi oxunmalıdır.

69-cu səhifədə getmiş "Siyasi bölmənin rəisi" isə **"Polis bölməsinin rəisi"** kimi oxunmalıdır və s. 37-38-ci səhifələrdə getmiş 21 №-lı sənəddə "Kütlə azğınlaşdı və gözlərinə görünən müsəlmanları vurub döyməyə başladı" kimi getmiş yazı **"Kütlə azğınlaşdı və əllərinin altına düşən**

---

[1] Восстание 1916 года в Киргизистане. – Соцэкгиз, 1937.

**müsəlmanları vurub döyməyə başladı"** kimi oxunmalıdır. 38-ci səhifədəki "Tez-tez yolda kütlə onları əsgərlərin əlindən alırdı" kimi getmiş qeyd **"Tez-tez yolda kütlə onları əsgərlərin əlindən dartlb alırdı"** kimi oxunmalıdır. 39-cu səhifədə "Dərhal kömək göndərildi" yazısı **"Dərhal polis göndərildi"** kimi oxunmalıdır. Göstərilən toplunun 84-cü səhifəsindəki 31 №-lı sənəddə getmişdir: "Siz Yeddisu vilayətinə göndərilmiş ordunun yatırılması üçün dəstəyə rəis təyin edilirsiniz", halbuki **"Siz Yeddisu vilayətinə göndərilmiş ordunun gücləndirilməsi üçün dəstəyə rəis təyin edilirsiniz"** oxunmalıdır.

"1916-ci ildə Qırğızıstanda üsyan" toplusunda sadalanan yanlışlıqlar və buraxılmış hissələr bəzi hallarda sənədlərin məğzini təhrif edir. Buna görə də 5, 13, 21, 31 və 59 №-lı sənədlər ikinci dəfədir ki, nəşr olunur və həmçinin birinci topluda getmiş bütün yanlışlıqlar və səhvlər aradan qaldırılmışdır. Sənədlər tam dərc edilmədikləri halda isə, başlıqda çıxışlıq hal şəkilçisindən istifadə edilir. Mətndəki bütün kupyuralar *(ötürmələr, ixtisarlar, tərc. qeydi)* üç nöqtə ilə bildirilir, mötərizəyə alınmış bütün sözlər toplunun tərtibatçılarına məxsusdur və mətndə anlaşılmaz hissələri aydınlaşdırmaq üçün verilir. Bölmənin içərisində olan sənədlər, ümumiləşdirici sənədlər istisna olmaqla, xronoloji şəkildə düzülmüşdür. Sənədlərin bütün başlıq və qeydləri toplunun tərtibatçılarına məxsusdur.

Topluda aşağıdakı ixtisarlar qeyd olunmuşdur: Qırğız.SSR DİN MDA – Qırğızıstan SSR DİN-in Mərkəzi Dövlət Arxivi, Özbək.SSR MDTA – Özbəkistan SSR-in Mərkəzi Dövlət Tarixi Arxivi, Qazax.SSR MDTA – Qazaxıstan SSR-in Mərkəzi Dövlət Tarixi Arxivi.

Toplu SSRİ Elmlər Akademiyası Qırğızıstan Filialının Dil, Ədəbiyyat və Tarix İnstitutunun elmi kollektivi və Qırğızıstan SSR DİN-in Arxiv Şöbəsinin əməkdaşları briqada rəhbəri D.M.Məcidov və O.D.Morozov, A.T.Morozova tərəfindən tərtib edilmişdir.

Materialların toplanmasında iştirak etmişlər: SSRİ EA Qırğızıstan Filialının Milli Mədəniyyət Muzeyinin böyük elmi işçisi, tarix elmləri namizədi Z.İ.Amitin-Şapiro, Qırğızıstan SSR DİN-in Arxiv Şöbəsinin

böyük elmi işçisi N.İ.Batmanova və SSRİ Elmlər Akademiyası Qırğızıstan Filialının Dil, Ədəbiyyat və Tarix İnstitutunun kiçik elmi işçisi X.Yusurov.

Qırğızların 1916-cı il üsyanı ilə bağlı mühüm hadisələrin xronologiyasına əlavəni bu müqəddiməni yazan artırmışdır.

***Tarix elmləri namizədi, dosent C.Məcidov***

10.10. 1947

# I BÖLMƏ

# QIRĞIZLARIN 1916-CI İLDƏ ÜSYANA QALXMASININ SƏBƏBLƏRİ

**1-38 №-lı sənədlər**
**1908-1915-ci ilin sənədləri**
**18 (31).12. 1908.**

## PİŞPƏK UYEZDİNİN BÖYÜK TOKMAK KƏNDİNİN SAKİNİ KOÇKORBAY AKÇALOKUN VERNI DAİRƏ MƏHKƏMƏSİNİN PROKURORUNA TOKMAK DÖVLƏT MƏHKƏMƏ HAKİMİ ŞUSTOVUN RÜŞVƏT ALMASI BARƏDƏ ŞİKAYƏTİ[1]

Pişpək uyezdinin B-Tokmak kəndində yaşayan Koçkorbay Akçalokun Vernı dairəvi məhkəməsinin prokuroru adına ərizədə, bəyan edir ki, Pişpək uyezdində məhkəmə hakimləri üçün iki sahə vardır, onlardan biri Pişpəkdə, o biri Tokmakdadır. Sonra ərizəçi qeyd edir ki, əvvəllər Tokmakda dövlət məhkəmə hakimi Vissendorf olmuşdur və o, işini namusla və ədalətlə aparmışdır, lakin sadəcə, çoxlu araq içirmiş; ondan sonra gələn Qavriloviç olmuşdur ki, o da işini namusla və ədalətlə aparmışdır, hal-hazırda isə Şustovdur ki, o da 1907-ci ilin iyulunda Tokmaka gəlmişdir və dərhal ərizələrə görə Susamır vilayətinə getmiş və tanınmış manaplardan Murzabəyov, Yemelbəy, Dikarabayov, Qabdula Koybəyov və Qasımbəy Rüstəmovu basqında ittiham edilən bir neçə nəfərlə birgə Pişpək həbsxanasında hər biri 6 ay olmaqla saxlamışdır. O, Şustov sadalanan bu şəxslərdən başqa hamı ilə (ittiham edilən) ciddi davranırdı. Cənab Şustovun xidmətə ciddi münasibətini görərək, mən və digər şəxslər (mənim kimi sadə xalq) razı idik. Sonradan bəlli oldu ki, cənab Şustov at oğrularını və digər sifətdən çıxmışları ifşa etməkdən və xalqı sakitləşdirməkdən ötrü belə ciddi davranmırmış.

---

[1] Qazax. SSR MDTA F. 44, siyahıyaalma 2, iş 7505, v. 37, ob. Əslidir.

Ona görə edirmiş ki, xalqı qorxutsun və cibini doldursun. Cənab Şustov aşağıdakı şəxslərdən rüşvət götürmüşdür: Dikanbayevlərin və Turksen Sarpekovun işindən ötrü – 1 000 rubl və bir yaxşı xalça. Sarpekovdan pulu almış və ona, Şustova Tokmakda yaşayan marafili sart Miraltov vermişdir, xalça isə Sarpekovun puluna Şeyxülsilamdan 100 rubla alınmışdır. Marafili Suusamır vilayətində hakimlə bir yerdə yaşamış və kef məclisləri qururmuşlar. Gəzən şayiələrə görə o, Pokrovski kəndində yaşayan kəndli Kiryanov vasitəsilə iki min almış və altı aydan sonra Dikanbayevləri həbsxanadan azad etmişdi. Cumqal vilayətindəki qırğız Kurman Lepesovdan üç yüz rubl almış və söz vermişdi ki, məhkəmədən onu azad edəcək (bəraət qazandıracaq) və Cumqal vilayətinin indiki başçısı İsmanbəy Kokumbayevdən də 150 rubl almışdı ki, vəzifəsini dəyişdirəcəkdir. Bu pulları ona tokmaklı kəndli Petrov çatdırmışdır.

Sonra şikayətçi bəyan edir ki, pristav İlyinix, müavin Petrov və hakim Şustov rüşvətləri almaqla əlbir fəaliyyət göstərirlər. C-b Şustov Bulekpayev vilayətindən qırğız Akdeiz Çalovdan 100 rubl və Sarıbağış vilayətindən qırğız Otorbaydan 200 rubl almışdır. Bu pullar Pokrovski kəndinin sakini Kiryanov vasitəsilə alınıb-verilibdir. Hərgah hakim rüşvət alırsa, buradakı işlərə hansı ədalətlə baxılar? Tokmakda yaşayan sartlar, tatarlar, eləcə də qara-qırğızlar və qırğızlara bəllidir ki, c-b hakim rüşvət alır. Harada ki, rüşvət almaq mümkündür, o özü ilə Kiryanovu götürür, tərcüməçisini isə qoyur.

Xahiş edirəm, bu şikayət ərizəmin araşdırmaları gizli aparılsın, hərgah c-b hakimin əməlləri açıq üzə çıxarsa (məlum olarsa), rica edirəm vəzifəsindən kənarlaşdırılsın. C-b Şustov yuxarıda göstərilənlərdən əlavə, çox rüşvət götürmüşdür. C-b Şustovun yuxarıda sadalanan əməlləri barədə Zati-alilərə məlumat verərək, belə işlərinə diqqət yetirməyi və xalqı bu sayaq natəmiz əliəyri insandan azad etmənizi xahiş edirəm.

**Öz imzamla mən, Koçkorbay Akçalok, yazdığımı təsdiq edirəm; sənədi Pişpək uyezdinin tərcüməçisi, kollej qeydiyyatçısı Düsebayev tərcümə etdi.**

**14 (27).02.1909.**

## SUSAMIR VİLAYƏTİNİN SAKİNİ ŞAHİD MURZABƏY DİKAMBAYEVİN PİŞPƏK UYEZD RƏİSİ STARŞİNA ZATİNŞİKOV TƏRƏFİNDƏN TƏRTİB OLUNMUŞ SUSAMIR VİLAYƏTİNİN 2 SAHƏSİNİN PRİSTAVI İLYİNİN RÜŞVƏT ALMASI BARƏDƏ DİNDİRMƏ PROTOKOLU[1]

1907-ci ilin iyun, yaxud iyul ayında 2-ci sahənin hakimi və pristav İlyinıx bizim vilayətdə idilər. Pristav mənə dedi ki, hərgah ona pul verməsəm, məni silahlı gözətçi dəstənin nəzarəti altında Pişpəyə göndərəcək və haqqımda bəd məlumatları rəhbərliyə və hakimə çatdıracaq; bu sözlərdən sonra Pristav İlyinixə 100 rubl verdim və o, hədələrini kəsdi. Pulu pristava verəndə bunu mənimlə birgə vilayətdən olan qırğız Toxtoqul Urnazayev görməli idi, bu, Emel aşırımında yurtada cərəyan etmişdi...

İkinci hadisə. Pristav İlyinıx keçən 1908-ci ilin sentyabrın sonu, yaxud oktyabrın əvvəllərində Susamır vilayətində olmuşdu; mənim qışlağımda vilayətin bütün böyükləri, vilayət rəhbəri özü, xalq hakimləri toplaşmışdılar, pristav hamının üstünə qışqırmağa başladı və hər kəsi özü ilə Tokmaka aparacağını dedi və bildirdi ki, buradan əliboş getməyəcək. Bundan sonra biz öz aramızda məsləhətləşdik və orada olanlardan iki yüz rubl topladıq. Həmin pulları mən pristava verdim və o sevincək olub, bizimlə xoş rəftar etməyə başladı. Pristav vilayətdə olduğu müddət ərzində həmişə sərxoş halda olurdı.

Üçüncü hadisə. Bu ərəfədə pristav Qarakeçi vilayətində idi, vilayətin ədavət aparan iki firqəsi vardı. Onlardan biri pristava qarşı partiyanın qırğızlarını göstərdi və dedi ki, onlar oğurluqla məşğuldurlar. O, ərizəyə əsasən, pristav onları Tokmaka qovmaq istədi. Lakin onlar Balbanın partiyasından idilər və o, pristava 130 rubl verdi, bundan sonra pristav həmin seçilmiş adamları Tokmaka qovmaq fikrindən vaz keçdi. Bu hadisəni mənə Balban özü danışıb.

---

[1] Qazax. SSR MDTA F. siyahıyaalma 2, iş 7507, v. 115-116. Əslidir.

Dördüncü hadisə. Keçən 1908-ci ilin yayında Temirbulat vilayətində Kanaat Abukin Cumqal məktəbindən səkkizə yaxın parta götürmüşdü, pristav İlyinıx bundan xəbər tutdu və Kanaatı Tokmaka tələb edib çağırtdırdı, qorxutmağa başladı ki, onu məhkəməyə verəcəkdir, sıxma-boğmaya saldı və o da pristava 100 rubl vermək məcburiyyətində qaldı. Bundan sonra pristav Kanaatı rahat buraxdı. Bu olay 1908-ci ilin payızında vaqe olub. O haqda mənə Kanaat özü danışıb.

Beşinci hadisə. Kapitan İlyinıx Tokmak pristavı seçiləndə, mən o zaman Susamır vilayət başçısı idim və özümü pristava tədqim etdim, o mənə 30 rubl dəyərində olan xalat bəxşiş verdi və ona yorğa at hədiyyə etməyimi xahiş etdi. Pişpək meşşanı İvan Boçkaryovdan 100 rubla yorğa kəhər at alıb pristava verdim.

**Hakim Şustovla[1] bağlı onun rüşvət alması barəsində heç nə eşitməmişəm. Başqa heç bir ifadəm yoxdur.**

**11 (24).03.1911.**

## YER QURULUŞU VƏ ƏKİNÇİLİK ÜZRƏ BAŞ RƏHBƏRİ...[2] TÜRKÜSTAN DİYARININ GENERAL-QUBERNATORU A.V.SAMSONOVA YEDDİSUDA ƏHALİNİN ƏHVAL-RUHİYYƏSİ İLƏ BAĞLI MƏKTUBU[3]

Daxili işlər naziri əvəzi yoldaş ştalmeyster Kuqulov məni məlumatlandırdı ki, Daxili İşlər Nazirliyində Yeddisu vilayətinin əhalisinin son 6 ay ərzində əhval-ruhiyyəsi ilə bağlı informasiyalar alınmışdır. Bu məlumatlara əsasən, rus əhalisinin Yeddisuya köçürdülüb yerləşdirilməsi və cəmi yerli əhalinin hərbi mükəlləfiyyətə cəlb edilməsi qırğızları son dərəcə narahat etmiş və vilayət qurultaylarında

---

[1] Hakim Şustovun rüşvətxorluğu barədə bax: bu toplunun əvvəlki sənədinə.

[2] Soyadı müəyyənləşdirmək mümkün olmadı.

[3] Qazax. SSR MDTA F.44. Yeddisu vilayət icra şöbəsi. Siyahıyaalma 1, məq. 2, iş 7834, v. 56. Əslidir.

(məsləhətlərdə) canlanma yaratmışdır, özü də yığıncaqlarda mövcud hazırki vəziyyətin müzakirəsi, eləcə də bununla bağlı görüləcək tədbirlər zərurəti ilə ümumvilayət qurultayının çağırılması fikrinə gəlinmişdir.

Təyin olunmuş qurultay keçən il oktyabrın 21-də Uzun-Ağac adlanan yerdə baş tutmuş və orada iştirak etmiş vilayət nümayəndələrinin iştirakı ilə qərara alınmışdır: 1) qırğızların topraqla təminatı və ərazinin bundan sonra köçkünlərlə məskunlaşdırılması prosesini saxlamaq barədə zati-alilərə ərizə verməli; 2) bundan ötrü xüsusi nümayəndə heyəti təsis etməli; 3) nümayəndə heyətinin məxaricinə vəsait əldə etmək üçün vilayətlərdən haqq təyin etməli və pul yığımını məscidlərdə həyata keçirməli; 4) bu nümayəndə heyəti özünü Buxara əmirinə təqdim etməli və ondan əlahəzrət imperatorun qəbuluna düşmək üçün vasitəçilik təvəqqe etməlidir. Sırtanov qurultayın səlahiyyətlərini qəbul edərək Vernıya getdi, orada bəzi yerli möhtərəm şəxslərlə müzakirələrdən sonra qəbul olunmuş qərarlar daha da dəqiq formalaşdırıldı, başqa sözlə: torpaq quruluşunu, Orenburq quberniyası kazaklarının torpaq istifadəsini nümunə kimi götürərək, dəyişdirməli və bu islahatın tətbiqinə başlanması haqqında vəsatətnaməni Dövlət Dumasına müsəlman fraksiyası vasitəsilə qəbul etdirməli.

Dekabrın 26-da Sardıbəy Sartanov yerli jandarm zabitinin yanına şəxsən özü gələrək müsəlmanların, əsasən, Yeddisu vilayətinin qırğızlarının təxirəsalınmaz ehtiyacları, eləcə də əhalinin təminatını ödəmək üçün üsul və vasitələrdən danışmağı vacib bildi və əlavə etdi ki, o, yerli müsəlmanların səlahiyyətli nümayəndəsi və prinsipiallıq sarıdan hər şeydə qanuniliyin tərəfdaşıdır. Sonra Sırtanov təsdiq etdi ki, oktyabrın 21-də Vernı, Pişpək, eləcə Kapal və Prjevalsk uyezdlərinin bir hissəsinin qırğızlarının qurultayı keçirilmişdir və bu qurultayda qərara alınmışdır ki, o, Sırtanov, Dövlət Duması da daxil olmaqla bütün instansiyalarda vəsatətnamələr təqdim etsin, əgər zərurət yaransa, müti şəkildə əlahəzrət imperator c-blarının özündən qırğızların torpaqla təmin olunması, köçürülmə üsulları ilə əkin-səpinə yararlı torpaqların işğalına son qoyulmasını rica etsin. Yeddisunun müsəlman əhalisinin arzuları hal-hazırda 4 əsas bənd üzrə qruplaşmışdır: 1) yer quruluşu

ilə bağlı; 2) ümumi təhsillə bağlı; 3) məhkəmə ilə bağlı; 4) ruhani məsələlərlə bağlı. Bu zaman qeyd olunnalıdır ki, əhali hər hansı panislamist tendensiyalardan sanki uzaqdır və Sırtanovdan ötrü pul yığımı həyata keçirilməmişdir, lakin hərbi qubernator tərəfindən hansı bir maneə yaranmasa, bu kimi tədbirlər görüləcəkdir.

Ştalmeyster Kurlovun göndərdiyi məlumatla bağlı bildirməyə borcluyam ki, köçürülmə adı altında qırğızlardan artıq torpaqların alınmasında fırıldaqlar artıq digər qırğız məkanlarında da, Çöllük general-qubernatorluğunda, Turqay və Ural vilayətlərində baş vermişdir. Hər dəfə qırğızlar arasında torpaq dəcləmə işləri başlayanda, narazılıqlar baş qaldırır, müxtəlif hökumət müəssisələrinə bütün qırğız əhalisinin torpaqla təchizatının sahmanlanmasına qədər işləri saxlamaq xahişi ilə nümayəndə heyətləri göndərilirdi.

Qırğızlar tərəfindən bu sayaq vəsatətnamələr daha çox Dövlət Dumasının I və II çağırışı zamanı göndərilmişdi. Lakin hökumət çöllükdə rusların yerləşdirilməsi vəzifəsini yenilməz qaydada yerinə yetirərkən gördüyü qətiyyətli tədbirlər, köçürülmə sahələrinin yaranması ilə bağlı işlərə xitam verilməsinin qeyri-mümkünlüyünu qırğızlara izah edib, lap əvvəldən qırğızlar arasında baş qaldırmış bu hərəkatın qarşısını alaraq saxlamışdı.

Zati-aliləri mültəfit surətdə, Türküstan general-qubernatorluğu vəzifəsinə keçən məqamda öz qarşısınıza əsas məqsədlərdən biri kimi, lütflə c-bınıza həvalə edilmiş diyarın bütünlüklə rus müstəmləkəsinə çevirməyi qoymuşdunuz. Dərin məmnunluq hissi ilə Yeddisu vilayətində ərazi boyu yoxlama apardığınız zaman artıq qırğız torpaqlarının alınması və köçkünlərin yerləşdirilməsi haqqında dəyişilməz mütləq qərarın həyata keçirilməsindən qırğızlara şəxsən verdiyiniz izahatlardan, həmçinin diyarın müstəmləkələşdirilməsi üzrə dostyana və birgə işlərin zərurəti barədə administrasiyanızda və köçürülmə təşkilatında çalışan məmurlarınıza verdiyiniz göstərişlərinizdən xəbərdar oldum.

Mən qəti əminəm ki, zati-aliləri, vilayət qırğızlarının indiki həyəcanlı dövrü zamanı Yeddisu administrasiyasının tabeliyində olduğu məmurlara köçürülmə partiyasına onun çətin fəaliyyəti dövründə yardım göstərmək xahişinə etiraz etməzsiniz və qırğızlara izah etməyə

təklif sürərdiniz ki, köçürmə sahələrinin yaradılması ilə bağlı işlər sırf qanuni əsaslarla aparılır, bu işlər heç bir halda saxlanılmayacaqdır və möhkəm oturaq yaşayışı istəyən qırğızlar bunu hər hansı xüsusi əsaslandırmalarla deyil, köçürülmə ruslarla bərabər surətdə alacaqlar.

Bununla bahəm, ümidvaram, əlahəzrət fikrimə şərik olacaqdır ki, əsas obyekti köçürülənlərin yerləşdirilməsi olan köçürülmə partiyası oturaq qırğızlara yalnız ondan müstəmləkəçilik üçün sərfəli hallar olduğu təqdirdə torpaq payı ayıra bilər və qırğızlara oturaq pay torpaqları üzrə aparılan işlər köçürülmə ruslar üçün nəzərdə tutulmuş bütün ərazi payının hamısının hazırlanmasına maneçilik törətməyəcək.

***Dərin hörmət və sədaqətimi qəbul ediniz.***

**İyul 1915**

**Yeddisu köçürülmə bölgəsinin statistik şobəsinin alaçıq toplamının 1915-1917-ci il üçün artırılması barədə arayışı**[1]

1914-cü ildə hər köçəri qırğız təsərrüfatından zemstvo rüsumu 1 rubl 71 qəpik və alaçıq rüsumu 4 rubl, cəmi götürəndə hər alaçıqdan 5 rubl 71 qəpik alınırdı. Statistik məlumatlara görə, Yeddisu vilayətinin 01.01.1915 tarixinə olan köçəri əhalisinin sayı hər iki cinsdən 871 331 nəfər təşkil etmişdir, beləliklə, zemstvo və alaçıq vergisi adambaşı 1 rubl 20 qəpik təşkil edir.

Nazirlər Kabinetinin 04.10.1914 tarixdə təsis etdiyi alinəsəb qərarlar məcəlləsinə və Nazirlər Sovetinin 04.07.1915 tarixli xüsusi jurnalına istinadən, əhalinin köçəri hissəsindən toplanan alaçıq vergisi 1915-1917-ci illərdə bir alaçıqdan 4 rubldan 8 rubla qaldırılmışdır, amma bu artımın nəticəsi olaraq yeddisulu qırğızların xərci cəmi 2 rubl 4 qəpik qaxlır.

---

[1] Qazax. SSR MDTA F. 13, siyahıyaalma 2, iş 1, v. 54. Əslidir.

## 1916-cı il iyun ayının sənədləri

**05. (18).06.1916**

**Daxili işlər naziri yoldaş knyaz V.M.Volkonskinin Türküstan general-qubernatoru ... qazaxların, qırğızların, özbəklərin və Türküstan diyarının digər millətlərinin hərbi mükəlləfiyyətə cəlb etmək ehtimalı barədə sorğusu**[1]

Diyarın 1910-cu ildə hələ bu mükəlləfiyyəti keçməmiş əcnəbilərinin hərbi mükəlləfiyyətə cəlb etmək məsələsi, yerli hərbi qubernatorlar tərəfindən müzakirəyə çıxarılmış və həmin müzakirələrin nəticəsi DİN-də Siz əlahəzrətin canişininə[2], əhalinin hərbi mükəlləfiyyətə borclu olmayan hissəsinin hərbi işlərə cəlb edilməsi barədə ümumi məsələnin nəzərdən keçirilməsi üçün material kimi təqdim olunmuşdur. Sonda bildirilmişdir ki, diyarda məskunlaşmış əcnəbilər – sartlar, qırğızlar, özbəklər, qaraqalpaq və taciklər – nəzərəçarpacaq dərəcədə inkişafdan geri qaldıqlarına, eləcə də fiziki keyfiyyətlərinə görə cari hərbi xidmətə xeyir vermək məqsədi ilə cəlb edilə bilməzlər, yalnız dunqanlar, tarançinlər və tatarlar rus ordusunda tətbiq üçün kifayət qədər yaxşı hazırlanmış material hesab edilirlər.

Bu informasiyalar öz vaxtında yuxarıda göstərilmiş ümumi məsələ ilə bağlı qanun layihəsi üzərində işləyən hərbi nazirə bildirilmişdir. Qanun layihəsi hərbi nazir tərəfindən keçən ilin sonunda Nazirlər Sovetinə daxil olunmuşdur, hərbi nazirlik üstəlik təklif irəli sürmüşdür ki, hərbi mükəlləfiyyəti olanlarla bahəm, Sizə həvalə edilmiş diyarın orduya cəlb edilməsi hələlik qəbuledilməz sanılan yuxarıda sadalanan əcnəbilər qrupu da hərbi işlərə qoşulsun. Hərbi nazirlik bu tədbirlərin layihəsini işləyib hazırlarkən onun tutarlı əsas hesab etmişdir ki, hərbi mükəlləfiyyətin həyata keçirilməsi, ümumilikdə, əcnəbilərin, əsasən də, qırğızların maariflənməsi işində qüdrətli amil olacaq və onların imperiyanın köklü əhalisi ilə qarışmasını sürətləndirəcəkdir.

---

[1] Qazax SSR MDTA Yeddisu vilayət icra şöbəsi 1, məq.2, iş 16928, 1916-cı il, v. 10-11. Əslidir.

[2] Əslində belə getmişdir.

Nazirlər Soveti adıçəkilən mövcud qanun layihəsini diqqətlə nəzərdən keçirərək, məsələnin qanunverici orqanlarda təsdiq olunması üçün qanunvericiliyə daxil edilməsinə qədər, hal-hazırda davam edən müharibəni nəzərə alaraq, göstərilən məsələnin müzakirəsi zamanı bəzi əlavə məlumatları əldə etməyi zəruri hesab etmişdir. Həmin əlahiddə məlumatlar faş edilmədən, təşvişli hadisələri göz önünə gətirmədən və əcnəbilər arasında müxtəlif xoşagəlməz şayiələrin yayılmasının qarşısını alıban mümkünat daxilində yerlərdə toplanılmalıdır. Nazirlər Sovetinin bu cür qərarının nəticəsi kimi, ali-həzrətlərdən rica edərdim ki, Nazirlər Soveti tərəfindən göstərilən şərtlərlə məlumatları tam ehtiyatlılıq şəraitində toplamaqla sadalananlar araşdırılsın:

1) Orduya çağırışdan əvvəl ailə hesabı ilə siyahıların yenidən tərtibatı, yainki artıq mövcud olanların yenidən baxılması və düzəlişlər verilməsi kimi mürəkkəb iş prosesinə rəhbərlik üçün yerli inzibati idarələrdən əcnəbi sakinlər olan rəhbər vəzifəli şəxslərin yetərincə sayda tapılması mümkünat daxilində hesab olunurmu; zira, əhalinin hərbi mükəlləfiyyətə cəlb edilməsi prosesi, bu işlər ilk növbədə gerçəkləşdirilməsə, həyata keçirilə bilməz.

2) Əcnəbilərin hərbi mükəlləfiyyətə çağırışı gedişatında məhz cari zaman kəsiyində (Türkiyə ilə müharibə) dini və siyasi əsaslara söykənərək ehtimalən mənfi, yaxud hətta düşməncəsinə ovqat nümayiş etdirəcəkləri təqdirdə və ortalığa çətinliklər çıxsa, Sizə həvalə olunmuş diyarda polis və hərbi qüvvələrin vəziyyətinin qiymətləndirilməsinə görə, güman ki, baş verəcək hərc-mərclik, yainki təlatümün yatırılmasının təminatına hətta qismən belə təhlükə yoxdurmu;

3) Artıq cari müharibə gedişatında yuxarıda sadalananları nəzərə alıban rus qoşunları sıralarına götürülmüş əcnəbi gənclərin inkişafdan geri qaldıqları və rus dilini bilmədiklərinə görə rus əsgərlərinə çevrilmə ehtimalının yetərincə əsasları olması mümkünat daxilindədirmi.

Bununla bahəm, eyni məramla, 1910-cu ildə sartların, qırğızların, özbəklərin, qaraqalpaqların və taciklərin hərbi mükəlləfiyyətə buraxılmasının qeyri-məqbulluğu haqqında əsas rolunu oynayan fərziyyələrin nəticəsinin, ələlxüsus, cari müharibə ərzində əhəmiyyətini

hələ də saxlayıb-saxlamadığını aydınlaşdırmaq zəruridir. Bu məsələlərin təhqiqatından sonra dərin, təfərrüatlı, tam dəyərləndirmə verilməlidir. Zati-alilərdən acizanə surətdə bu təhqiqatların yekunu və və öz nəticəniz barədə DİN-i məlumatlandırmağınızı təvəqqe edirəm.

***Sənədin əslinə daxili işlər naziri əvəzi yoldaş knyaz Volkonski, İdarə rəisi Kukol-Yasnopolski imza atmışlar***

**25.06. (08.07.) 1916.**

**Fərqanə hərbi qubernatoru Gippiusun Fərqanə vilayətində yerli əhalinin arxa cəbhədəki işlərdən ötrü toplanması ilə əlaqədar baş vermiş hadisələrlə bağlı hesabatından**[1]

… Oş uyezdinin Balakbaşin vilayətinin Xocavət və Çekar kəndlərində (Xocavətin 9 verstliyində) kiçik çaxnaşmalar baş vermişdir. Xocavət kəndi Oşdan Əndicana gedən poçt yolunun üzərində yerləşir. Qarğaşalar özünü onu təzahür etdirdi ki, camaat kişi əhalisinin siyahısının tutulmağının əsas səbəbini bilmədən, yerlilərin hərbi mükəlləfiyyətinə cəlb ediləcəkləri barədə mənasız şayiələrin təsiri altında və bu zəmində digər uyezdlərdə baş qaldırmış iğtişaşlarla bağlı şişirdilmiş axtarışlarla əlaqədar, toplaşıb vilayət başçısının evinə getmiş və siyahının təhvil verilməsini tələb etmişlər. Balakbaşin vilayəti idarəsinin müvəqqəti işlər icraçısı namizəd Mullo Muhamedcan Sali Xociyev, Xocaabad starşinası Raimbaba İsmayıl Xociyev və Çeker kənd starşinası Nasır Barvat Xociyev özlərini itirmiş, yaranmış ab-havadan qorxmuş, vilayətlə kənd camaatını taleyin ümidinə buraxaraq baş götürüb qaçmışlar və bu səbəbdən də işdən azad edilmişlər.

200 nəfərdən ibarət izdiham izahat almaq və siyahıya nəzər yetirmək üçün onları axtarmağa başlamışdır. Kütlənin bir hissəsi vilayət başçısını və starşinaları axtararkən, vilayət başçısının evinə gəlmiş, bir neçə pəncərə və nimçə sındırmışdır. Evdə qalan qadın, uşaq və nökər-qaravaşa qarşı heç bir düşməncəsinə hərəkət nümayiş etdirilməmişdir. Vilayət rəhbəri və starşinaların səyli-diqqətli axtarışlarından sonra kütlə dağılışmışdır.

Bütün bunlar bir saat-saat yarım ərzində baş vermişdir.

[1] Özbək. SSR MDTA F. № 11. s. iş 1133, v. 2. Əslidir.

**29.06. (12.07.). 1916**

**Türküstan general-qubernatoru vəzifəsini müvəqqəti icra edən Yerofeyevin Yeddisu vilayətinin hərbi qubernatoru Folbauma Orta Asiya xalqlarının arxa cəbhədəki işlərə çağırışı haqqında teleqramı**[1]

Mənim tərəfimdən aşağıdakı məzmunlu teleqram alınmışdır: “Bu ilin iyunun 25-də alinəsəb əmr: birinci – mühafizə tikililərinin inşası üçün və bölgədəki hazırki orduda hərbi əlaqələr üçün hazırki müharibə dövründə müsadirə üsulu ilə müvəqqəti olaraq imperiyanın hərbi mükəlləfiyyətindən azad edilmiş əcnəbiləri, əsasən də, Sizə həvalə olunmuş quberniyadakıları, evsiz-eşiksiz veyil əcnəbilər istisna olmaqla, cəlb etməli.

İkinci – müsadirəyə aparılacaq əcnəbiləri müəyyən etməli, onların qəbulunu və siyahıya alınmaqlarını əlahəzrət tərəfindən 03.08.1914 tarixdə təsdiqlənmiş müvafiq qaydalarla uzlaşdırmalı və daxili işlər və hərbi nazirlərin razılığını almaq üçün təqdim etməli.

Bunun əsasında qəbul edilmişdir: birinci – qəbul ilk növbədə, 1897 və 1885-ci illər ərzində doğulanlar, daha doğrusu, 19 yaşından 31 yaşınadək olan əcnəbilərə şamil edilsin.

İkinci – vəzifə sahibləri və digər hörmətli əcnəbilərə mütləq şəkildə izah edilsin ki, indiyə qədər müharibənin ağırlığını öz üzərlərində daşımayan əcnəbilər, indi əlahəzrət imperator tərəfindən müharibənin qalan dövründə arxa cəbhədəki işlər üçün çağrılırlar, xəzinədən donluq, ərzaqla təmin edilirlər, eləcə də əcnəbilərin mütləq surətdə bəyan olunmuş sənəd əsasında işlərə cəlb edilməsinin uğuru bütünlüklə şəxsən əcnəbi mənşəli idarəçilik vəzifəsini tutanların üzərinə düşür.

Üçüncü – göstərişə əsasən, yuxarıda göstərilmiş yaşı çatan bütün əcnəbilərə işə aparılmaq üçün ən yaxın məntəqələrdə qısa müddətdə və təxirə salmadan əcnəbi idarələrin müdiriyyəti tərəfindən yerindəcə adbaad siyahılar tutulsun, fəhlə qüvvəsi kimi nəzərdə tutulan bütün əcnəbilər siyahı ilə birlikdə əcnəbi soydan vəzifəli şəxsin iqamətgahına, yaxud ona müvafiq digər idarəyə göndərilib çatdırılsın.

---

[1] Qırğız. SSR MDA F. 75. iş 42, v. 9-11. Surətidir.

Dördüncü – əvvəlki bənddə göstərilən məntəqələrdə, yerli və ya ezam olunmuş həkimin nəzarəti və rəhbərliyi altında toplanışa gəlmiş bütün əcnəbilərin yalnız işə yararlı vəziyyətlərini təyin etmək məqsədi ilə deyil, eləcə də əsas məsələ – yoluxucu xəstəliklərə düçar olanların aşkara çıxarılması qəsdilə diqqətli tibbi yoxlanması keçirilsin.

Beşinci – bundan sonra əcnəbilərin fəhlə dəstəsi onların təyinat yerinə çatdırılması üçün cavabdeh idarə başında duran əcnəbi mənşəli vəzifəli şəxslərin rəhbərliyi altında hərbi rəislərin idarələri nəzdində ən yaxında yerləşən toplanış məntəqəsinə göndərilməli, orada adbaad sıyahılarla sayılıb yoxlanılmalı və ardınca gətirilmiş əcnəbi fəhlələr hərbi rəhbərliyin ixtiyarına keçməklə, cəbhənin müvafiq sahələrinə yollanmalıdırlar.

Altıncı – yerli şəraitin tələblərinə isnadən, əcnəbilərin, fəhlələrin, çatışmayan təqdirdə mülki həkimlərin qəbulundan sonra hərbi rəhbərliyə təhvil verməkdən ötrü yeni, yaxud əlahiddə toplantı məntəqələrinin təyinatını verməli və işləri dairə qərargahı ilə uzlaşdırmalı.

Yeddinci – ən qısa müddət ərzində külli miqdarda fəhlələrin əldə olunmasının böyük zərurət doğduğunu əsas götürərək, yuxarıda sadalanan bütün sərəncamlar və onların nəticəsi olacaq işlərin hamısı ən az vaxt sərf edilərək və son dərəcə qısa zaman kəsiyində icra olunmalıdır. Ərz ounan hər şey haqqında əlahəzrəti məlumatlandıraraq, bunlardan asılı əmrlərin bəyan edilməsini təvəqqe etməyi özümə borc bilirəm.

Bu barədə Sizi hali edərək, vaxt itirmədən fəhlələrin toplanış vaxtının təyinatını təüdim edərək, göstərilmiş yaşlara şamil edilən yerlilərin siyahılarını tərtibat əmrini elan etməyinizi rica edirəm, pambıq bölgələri üçün isə, ilk növbədə, münasib yaş həddində olanlar barədə əlahiddə göstərişlər veriləcək.

Təvəqqe edirəm, bütün sadalananların həyata keçirilməsinin qayda-qanununun hərtərəfli müzakirəsi üçün iyulun 2-də axşam saat 7-də Daşkəndə təşrif buyurasınız. Hər bir halda, bu məsələ ilə mülahizələrinizi teleqrafla elə indi də iltifatla bildirsəniz, yaxşı olardı. Ətraflı qeydlərinizi poçtla yollaya bilərsiniz".

***Yerofeyev***

**1916-cı ilin iyul sənədləri**

**1 (14).07.1916.**

**Yeddisu vilayətinin hərbi qubernatoru M.A.Folbaumun Türküstan general-qubernatoru vəzifəsini müvəqqəti icra edən piyada qoşunu zabiti Yerofeyevə fəhlələrin arxa cəbhədəki işlərdən ötrü toplanması üçün görüləcək zəruri işlər haqqında teleqramı**[1]

**Hərbi vəziyyətə uyğun olaraq**

558 və 571-ci saylar. Birincisi, yerli əhalidən olan fəhlələrin tələbləri ilə əcnəbilərin hərbi mükəlləfiyyətə çağırılması arasında böyük ziddiyyət tapıram. Eyni zamanda bu haqda dəftərxana məndən çıxarış tələb edir.

547 sayla yalnız məsələnin prinsipial həllinə baxılır, hərçənd o halda ki, əgər qırğızların xidmətə çağırışı yekun olaraq Nazirlər Soveti tərəfdən qəbul edilərsə. Yaxşı olardı ki, 19 yaşından 20 yaşınadək olanlar işlərə göndərilməsin, ələlxüsus, vilayətin ordu qərargahı üzrə qırğız diviziyası yaratmaq barədə artıq sərəncam almışam. Bəyan edirəm, 547 say barədə xülasəm müsbət olacaqdır, belə ki, yerlilərdən ayrıca hərbi hissələr yaratmaq şərtilə hərbi mükəlləfiyyətə cəlb olunması tamamən vaxtında verilmiş qərardır.

İkincisi, təlimata istinadən, 19 yaşından 31 yaşınadək olan yerlilərin işə çağırılacağı təqdirdə, vilayətdən 100 mindən artıq fəhlə gözlənilə bilər; buradan xəstələri, şikəstləri, çəkisi az olanları (3 puddan az olanlar), yerli qoturluq və digər dəri xəstəlikləri, o cümlədən sifilis tutanları çıxarmaq vacibdir. Bundan əlavə, vilayət başçılarını, aul kəndxudalarını, əllibaşıları, adı çəkilən mollaları, həmçinin təsərrüfatda yeganə çörəkgətirən işçiləri, müstəqil alaçıq sahiblərini, daha doğrusu, ailə başçılarını azad etmək lazımdır. Daha sonra, ən azı muzdluluq əsasında, dövlət müəssisələrində iyunun 25-ə qədər çalışanları. Bütün sadalanan istisnalar, eləcə də 19 və 20 yaşlılar siyahılardan çıxarılsa, vilayət üzrə sərəncama istinadən işə 50 min, yaxud hər uyezd üzrə 8, 5

---

[1] Qazax. SSR MDTA F. Yeddisu vilayət icra şöbəsi 1, s.2, iş 16928, 1916-cı il, v.12412, ob. Əslidir.

min nəfər olacaq. Həmçinin, 40 yaşına qədər əvəzedicilərə əvəzetmədə maraqlı tərəfin ikisinin də razılaşmasını könüllü öhdəsinə götürmək təklifini sürən fəhlələrə də icazə vermək olar.

Üçüncüsü, yeni siyahıların tutulması artıqdır, sui-istifadədən qaçmaq məqsədi ilə təlimatın 1915-ci il təkrar siyahıyaalmasında yoxlanılmış ailəvi siyahılarla yerinə yetirilməsini gerçəkləşdirmək olar; eləcə də yerli administrasiyaya mövcud siyahılara müxtəlif səbəblərdən gözdən qaçaraq salınmamışları, eləcə də vilayətə gəlmə rus təbəələri yerlilərin də siyahılarını əlavə etmək həvalə edilsin. Şəhərlərdə və rus kəndlərində müxtəlif dindən və millətdən olanların siyahılarını polis idarələri, atamanlar və vilayət kattaları tərtib etsinlər.

Dördüncüsü, 6 uyezd və Vernı şəhər polis idarəsinə hər biri 300 rubl olmaqla dəftərxana pul məbləğinin gücləndirilməsi məramı ilə vəsaitin buraxılması zəruridir.

Beşincisi, ümumiyyətlə, güclü dərəcədə qanun pozuntuları gözlənilməsə də, amma buna baxmayaraq, qayda-qanunu fövqəladə üsullarla saxlamalıyıq, əsasən də Çinə köçün qarşısını almaqdan ötrü. Ümumilikdə fərz edirəm ki, xidmətdən ötrü kazak yığma qoşununun bir hissəsini dərhal çağırmaqla ən azı 4 ayrıca kazak yüzlüyü yaratmağa ehtiyac var.

Altıncısı, sərəncamın yerinə yetirilməsi toplaşma məntəqələrində böyük sayda yerlilərin yığışmasına səbəb olacaq, buna görə də, uyezd şəhəri istisna olmaqla, hər uyezddə izdihamın paylaşdırılması üçün 2-3 əlavə məntəqə təsis edilsin ki, onlarda xəzinə hesabına azuqə və yurtaların qurulması təşkil olunsun. Elə bu işlə də bağlı sanksiya və müvafiq ilkin ödənişlər rica edirəm, çünki öz hesablarına qidalana bilməyəcək fəhlələrin qəbul və seçimi ədalət naminə və epidemiyalardan qaçmaq xatirinə yolverilməzdir.

Ümumiyyətlə, məsələnin qaydaya salınması üçün, yerli fəhlələrin çağırışı zamanı ərzaq təminatı məqsədilə vilayətlərdən toplanan fəhlə dəstələrinin gəliş müddətinin cədvəli tutulacaq. Payın həcminin sonra hərbi rəisdə olacaq qədər müəyyənləşdirilməsi arzuolunandır. Vilayətin

böyük sahəsini və köç dövrünü nəzərə alaraq xəbərdar etməliyəm ki, 50 min nəfər fəhlənin çağırış əməliyyatına, ümumilikdə, iki aya yaxın vaxt sərf ediləcək.

**Folbaum**

**05.(18) 07.1916**

**Yeddisu vilayətinin hərbi qubernatoru M.A.Folbaumun Yeddisunun müsəlman əhalisinə fəhlələrin arxa cəbhədəki hərbi işlərə çağırışı barədə müraciəti**[1]

Xalqların alman zülmündən azad edilməsi uğrunda böyük mübarizədə anamızın – Vətənin – Böyük Rusiyanın üzərinə azman düşmənin gücünü sındırmaq üçün müttəfiqlərindən daha çox zəhmət çəkərək onlardan artıq sayda döyüşçü vermək kimi vəzifə düşmüşdür. Artıq 2 ildir, Rusiyanın oğulları nəsilləri naminə və işıqlı gələcəkləri uğrunda qanlarından keçirlər. Minlərlə rus döyüşçüsü etiraz etmədən öz başlarını döyüş meydanlarında çar və vətən şərəfi uğrunda qoyur. Minlərlə digər insanlar arxa cəbhədə döyüşçülərə silah döyür, onlara barıt və güllə hazırlayırlar. Böyük bir rus insan kütləsi ordunun tox və geyimli olmasının, həmçinin yaralılara zəruri tibbi yardım göstərilməsinin qayğısına qalır. Qətiyyətlə demək olar ki, Rusiyada hər insan müharibə üçün faydalı nə isə edir.

İndi, qüdrətli dövlət rəhbərimizin başçılığı altında ordumuz düşmənə qalib gəlməyə başlayanda, daha çox xalq qüvvəsi toplamağa ehtiyac yaranmışdır. Bütün rus əhalisi əlinə silah almağa hazırdır. Lakin müharibədə əlisilahlılardan əlavə, həm də fəhlə qismində adamlar da çox lazımdır. Həmin adamların əlləri ilə müdafiə qurğuları, istehkamlar qurulur, yollar salınır və ümumiyyətlə, ordunun işi yüngülləşdirilir. Bu cür işçilərin sayını artırmaq məqsədi ilə qanunla əli silahlı döyüş meydanına getməkdən azad olunan şəxsləri həmin işlərə qoşmaq lazımdır. Buna görə də, iyunun 25-də əlahəzrət imperator, bizim ali

---

[1] Qazax. SSR MDTA F. Yeddisu vilayət icra şöbəsi 1, s.2, iş 16928, 1916-cı il, vərəq 27. Əslidir.

Qırğız dilində paralel mətn vardır.

sərkərdəmiz, bu sayaq işlərə 19 yaşından 31 yaş da daxil olmaqla bütün rus müsəlmanlarını cəlb etməyə qərar vermişdir.

Fəhlə müsəlmanların çağırış qaydası aşağıdakı kimi müəyyənləşdirilsin: vilayət başçıları fəxri və seçilmiş şəxslərin köməyi ilə dərhal vilayətdə yaşayan bütün rus təbəələri müsəlmanların, sartlar, sart-kalmıklar və başqaları da daxil olmaqla, təvəllüd tarixi 1885-ci ildən 1897-ci ilə qədər olan gənclərin siyahısı tutulsun. Vilayət başçıları xüsusi tapşırıqla təyin edilmiş gündə siyahıda göstərilən bütün şəxsləri uyezd başçısına təhvil versinlər.

Burada həkimlər gəncləri müayinədən keçirsin və yalnız ən sağlamları seçsinlər, həmçinin uyezd başçısı sərəncamın şamil edilmədiyi şəxsləri azad etsin. Bura aiddir: vilayət rəhbərləri, aul kattaları, cigitlər, iyunun 25-dək xidmətdə olan qasidlər və təsərrüfatın saxlanması üçün həqiqətən də ədalət naminə mükəlləfiyyətdən azad olunmaları zəruri sayılacaq alaçıq sahibləri, məs., ailədə işləyən yeganə şəxslər.

Şəhərlərdə və rus kəndlərində siyahı tutulma vəzifəsi polis məmurlarının öhdəsinə düşür. Fəhlə komandalarına qəbul olunmuşların hamısı dövlət hesabına qidalanacaqlar, onların işi üçün xüsusi donluq ödəniləcək. Bu barədə vilayətlərə elan verərkən, bütün yerli əhaliyə əlahəzrət-imperatorun əmrini ixlaskarlıqla yerinə yetirməyə çağırıram. Bütün bu fəhlə toplanışı tam sakit şəraitdə, qayda-qanunla həyata keçirilməlidir. Vilayət başçılarına xatırladıram ki, əlahəzrət imperator toplanmanın uğurlu keçməsi məsuliyyətini onların üzərinə qoyur. Aul kəndxudaları, əllibaşılar, eləcə də bütün fəxri şəxslər, xüsusilə də mollalar qüvvə əsirgəmədən vilayət başçılarına bu işi həyata keçirməkdə kömək etməlidirlər.

Əhaliyə xüsusi qayğı ilə təşviq etmək lazımdır ki, mövcud toplantı əsgərlik deyildir, pul müqabilində fəhləlikdir. Müharibə bitən kimi, bütün fəhlələr xəzinənin hesabına dərhal geriyə, öz yerlərinə qaytarılacaqlar.

Göstəriş verirəm. Heç bir cəfəng söz-söhbətə yol verməməli və bu əmrin əleyhinə çıxan hər bir kəsi dərhal uyezd başçısının ixtiyarına

təslim etməli. Əminəm ki, bizim işlərimiz o dərəcədə rəvan gedəcəkdir ki, qüdrətli əlahəzrətimizin qəlbi riqqətə gəlib şad olacaqdır. Düşünürəm, ona görə belə olacaqdır ki, iyulun 1-də monarxın iradəsini şəxsən ərz etdiyim qırğız, tarançin və başqa vilayət başçıları mənim göstərişimi cəsarətlə qəbul etdilər və qarşıdakı toplamın təfərrüatlarını müzakirə edərək, qüdrətli monarxın şərəfinə ucaltdıqları "Ura!" qışqırtısı mənim onlarla birlikdə söhbət etdiyim qubernator evinin pəncərələrini cingildətdi.

Beləliklə, müsəlmanlar, hamılıqla, hərçənd əlində bel də olsa, bir nəfər kimi, düşmənə qalib gəlmək qəsdilə Rusiyaya əsgərlərə köməyə gedək.

**Vilayətin hərbi qubernatoru general-leytenant Folbaum**

**6 (18).07. 1916.**

**Hərbi nazir Şuvayevin qeyri-rus əhalinin kişi hissəsinin fəaliyyətdə olan ordunun bölgəsində istehkamların inşasına cəlb olunması haqqında elanından**[1]

İmperiya uğrunda fəaliyyətdə olan ordunun bölgəsində müdafiə qurğularında işlərdə, eynən dövlətin müdafiəsi məqsədilə digər işlərdə çalışmaqdan ötrü əhalinin əcnəbi hissəsinin cəlb edilməsi məramı ilə Əlahəzrət imperator 25.06.1916. tarixdə mültəfit surətdə bəyan etməyə lütf buyurmuşdur:

1) fəaliyyətdə olan ordunun bölgəsində müdafiə qurğularında işlərdə, eynən dövlətin müdafiəsi məqsədilə digər işlərdə əhalinin əcnəbi hissəsinin cəlb edilməsi məramı ilə... a) hal-hazırki müharibə ərzində imperiyanın aşağıda adı çəkiləcək 19 yaşından 43 yaşınadək əcnəbi kişi əhalisini... b) Sır-Dərya, Fərqanə, Səmərqənd, Akmolin, Semipalatinsk, Yeddisu, Ural, Turqay və Zakaspiysk vilayətlərinin əcnəbi əhalisini cəlb etmək;

2) İşləməyə cəlb edilən əcnəbilərin yaşının müəyyənləşdirilməsi əvvəlki maddəyə əsasən (1), eləcə onların bu işlərə qoşulmağının

---

[1] "Семиреченские обл.ведомости" qəzeti № 67. 19 avqust 1916.

təfərrüatlı qaydalarının müəyyənləşməsi 03.08.1914 tarixdə əlahəzrət tərəfindən lütflə təsdiq olunmuş Hərbi Şura Məcəlləsində öz təzahürünü tapmışdır. Bunlar Daxili İşlər Nazirliyi və Hərbi Nazirlik tərəfindən razılaşmaya təqdim edilsin.

**08 (21).07. 1916.**

**Türküstan general-qubernatoru vəzifəsini müvəqqəti icra edən Yerofeyevin yerli əhalinin arxa cəbhədəki işlərdən ötrü səfərbərliyə çağırılması ilə bağlı əmri**[1]

İyulun 25-də mövcud müharibə dövründə fəaliyyətdə olan ordu rayonunda müdafiə xarakterli tikililər və hərbi əlaqələrin qurulması üçün işlərə Rusiya imperiyasındakı hərbi mükəlləfiyyətdən azad olunmuş əcnəbilərin, əsasən də Türküstan diyarında yaşayan yerlilərin, cəlb edilməsi haqqında əlahəzrətdən mültəfit qərar gəlmişdir. Yaxin günlərdə qəbul ilk növbədə 19 yaşından 31 yaşına qədər olan yerlilərə şamil olunacaqdır. Bütün çağırışçılar pulla işləyəcək və gəlirlərini xəzinədən alacaqlar.

Bu sərəncamla bağlı c-b hərbi qubernatora və c-b Zakaspiysk vilayətinin başçısına müvafiq göstərişlər verərək əminlik izhar edirəm ki, diyarın indiyə qədər çiyinlərində böyük məsuliyyətli müharibənin ağırlığını daşımamış və hal-hazırda ali qərarla arxa cəbhədə orduya əməyə cəlb olunmuş yerli əhali tam hazırlıqla çağırışa gələcək, sonra isə əlahəzrət imperatorun Ali sərkərdəlik etdiyi müzəffər rus ordusunun arxa cəbhə bölgəsində xüsusi əzmkarlıqla çalışacaqdır.

**General-qubernator vəzifəsini müvəqqəti icra edən piyada qoşun generalı Yerofeyev**

---

[1] Qırğız. SSR MDA. F. 75, iş 46, vərəq 75. Surətidir.

**09 (22).07. 1916.**

**Kokand uyezdinin 4-cü sahəsinin dövlət məhkəmə hakiminin Aravan vilayətinin Qazı-Yağlıq bölgəsindəki çaxnaşmalar haqqında istintaq protokolu**[1]

Bu il iyulun 9-u səhər saat 4-ə yaxın vilayət başçısının evinin yanında Aravan vilayətinin müxtəlif yerlərindən bir neçə yüz sartdan ibarət kütlə toplaşdı. İzdiham başçının gecələdiyi dəftərxanaya yaxınlaşaraq onu vilayətinin mövcud orduya çağırılacaq bütün kişi əhalisinin hamısının siyahısını tutmaqda məzəmmət etməyə başladı və ondan bu yazıları ləğv etməyi tələb etdi. Sonra izdihamdan bir neçə nəfər başçının dəftərxanasına girərək, onu küçəyə baxan pəncərədən dartıb çıxardı və orada da daş-qalaq edərək öldürdü. Başçının kargüzarı Niqmacan Molla İshaqov və cigit Satıbaldı Xocayev də eyni aqibəti yaşadılar.

Mücadilə zamanı vilayət başçısının sabiq starşinası Ubaymar Xalmatov kütləyə tapançadan iki atəş açmış və görünür, vilayət başçısına hücumda iştirak etmiş Aravan vilayəti Türkmən qışlağının sakini İrqaşbəy Tuşmanovun sol böyrünə dəymişdi, çünki o, aldığı güllə yarasından yerindəcə keçinmişdi.

**Dövlət məhkəmə hakimi Afanasyev**

**10 (23).07. 1916.**

**Qazı-Yağlıq kəndindəki çaxnaşmalar və vilayət rəhbəri İrqaşbəy Tursumatovun qətlə yetirilməsi ilə bağlı Skobelevsk dairə məhkəməsinin müstəniqi Adilov tərəfindən tərtib edilmiş şahidlərin dindirmə protokolu**[2]

**Baymat Xalmatov ifadə vermişdir:**

Mən, cümə günü axşam xuftaşda (bu il 08.07. axşam saat 9 radələrində) Aravan vilayətinin Turt Ayğır kəndində, Qazı-Yağlıq

---

[1] Özbək. SSR MDTA F. Skobelevsk dairə məhkəməsinin ???istintaqı, iş 161-a, vərəq 3. Əslidir.

[2] Özbək. SSR MDTA F. Skobelevsk dairə məhkəməsinin ???istintaqı, iş 161-a, vərəq 35-39. Əslidir.

kəndinin təqribən 6 verstliyində idim və əllibaşı Mumıtçay (soyadını bilmirəm), Xusinbəy Ruzımatbəyov və Taşmatla birgə çayxanada oturmuşdum. Çayxanın artırmasında oturarkən, yaxınlıqdakı qonşu türkmən kəndindən səs-küy eşitdim. Öz cigitim Mamacanı orada nə baş verdiyini öyrənməkdən ötrü göndərdim. Cigit qayıdıb xəbər gətirdi ki, həmin kənddə böyük xalq kütləsi toplaşaraq öz uşaqlarını hərbi qulluğa verməyəcəklərini bəyan edirlər. Belə olan təqdirdə, mən cigitim Mamacanla birgə başçılıq etdiyim starşinalığa baş çəkməyə yollandım və Çamanbi kəndinə çatanda orada da böyük sayda adamın yığışdığını gördüm. “Onlara nə lazımdır?” sualıma izdiham cavab verdi: “Əgər bizim uşaqlarımızı müharibəyə aparsalar, vilayət başçısını öldürəcəyik”. Kütləni hələ dəqiq heç nəyin aydın olmadığını deməklə sakitləşdirməyə çalışdım, lakin onlar cavab verdilər ki, biz özümüz bilirik. Əhalinin təşvişə düşməsindən əmin olduqdan sonra Mamacana bu xəbəri Aravan vilayət başçısına çatdırmaq tapşırığı verdim, tezliklə onun dalınca özüm də getdim. Vilayət dəftərxanasında vilayət başçısının özünü, kovxa Seli Amili, mirzə Niqmacanı, katta Mirzəbabanı, eləcə də Mananıbəy vilayət başçısının yanında çalışan işçini gördüm və vilayət başçısını sakinlərin çaxnaşması haqqında xəbərdən agah etdim. Vilayət başçısı dedi ki, əgər kütlə ora getsə, onlara zəruri izahat verərik. Bu, dan yeri sökülməmiş baş vermişdi.

Bir qədər keçdikdən sonra böyük xalq kütləsi dəftərxanaya yaxınlaşıb vilayət başçısını tələb etməyə başladı. Mən və cigit Satılbaldı izdihamın qarşısına çıxaraq nə lazım olduğunu soruşduq. Kütlə darvazaları açmağı tələb edirdi. Bu tələb barədə vilayət başçısına xəbər verdim, o, dəftərxanada bulunan digər şəxslərlə birgə həyətə çıxdı. Vilayət başçısının “Nə baş vermişdir?” sualına kütlə qışqır-bağırla cavab verdi: “Biz xəbər tutmuşuq ki, siz uşaqlarımızın adını müharibəyə yazırsınız, bizi öldürərsiniz, sonra uşaqlarımızı apararsınız”. Vilayət başçısı izahat verdi ki, ev sahiblərinin və onların ailələrinin adicə siyahısı hazırlanır və hal-hazırda siyahıyaalma dayandırılmışdır. Belə olan təqdirdə, izdiham siyahını onların əlinə verməyi tələb etdi. Vilayət başçısı dəftərxanaya daxil olub siyahını götürdü və Çamanbi kəndinin

sakini Hüseyn Vatvana verdi. Lakin kütlə buna qane olmadı və vilayət başçısından onların uşaqlarının müharibəyə aparılmamasını möhür və imzası ilə təsdiqləməsini tələb etdi. Vilayət başçısı söylədi ki, bunu edə bilməz və dedi: "Mən vilayət başçısıyam və yalnız hökmdarın əmrlərini yerinə yetirirəm. Yəni doğrudanmı siz bu əmrə tabe olmaq istəmirsiniz?" Bundan sonra izdiham təlatümə gəldi və vilayət başçısına hücum çəkdi, o isə öz mirzəsi Niqmacan və katta Seli Amillə birgə qaçıb özünü dəftərxanaya salmağa və qapını içəridən bağlamağa macal tapdı. Cigit Mamacanla həyətdə qaldım, Satılbaldı və katta Mirzəbaba isə həyətdən çıxaraq anbara yönəldilər. Mən kütləni sakitləşdirməyə çalışsam da, inanmadılar və üzərimə hücum çəkdilər, yumruqlamağa, dəyənək və qırmanclarla vurmağa başladılar (şahid qançır və çapıqlarla dolu başını göstərdi)...

Bu məqamda atəş səsi eşitdim, sonradan mənə Mamacanın dediyinə görə, balaxananın damından bərayi-ehtiyat havaya atəş açılmışdı. Camaatın əlindən zorla çıxaraq balaxanaya dırmaşıb orada qapını bağladıq. Kütlə üzərimə hücum çəkdi, amma qapını sındıra bilmədi və geri çəkilərək dəftərxananın üstünə getdi. Bu müddət ərzində mən kütləni qorxutmaq məqsədi ilə iki dəfə tapançamdan balaxananın açıq pəncərəsinə atəş açdım. Sonra nələr baş verdi, görmədim, amma səs-küy və haray-həşir dəftərxananın həyətində olduğu kimi, küçədə də davam edirdi, hətta qulağıma üç-dörd atəş səsi də çatdı, amma güllələr kim tərəfindən atılmışdı, deyə bilmərəm. Kütlə rəhbərlik özü gələnə qədər səs-küy saldı və qışqırdı... "Qoy pristav, uyezd başçısı gəlsin, daşlayıb öldürəcəyik, amma dağılışmayacağıq". Dəftərxananın yanında və həyətdə camaatın arasında aşağıdakı şəxsləri gördüm: Tilləbay, User Palvan, Arif Ağsaqqalov (Aravan kəndi), Uralbəy İmam Nəzərov (eyni kənddən), Nurmat İrmatbəyov (Çamanbi kəndi), Nişanbəy (eyni kənddən), Curabəy Mazibəyov (Minqlər kəndi), Satar Makzum Umarbayev. Adlarını çəkdiklərim şəxslərdən User Palvan, Curabəy, Əkbər Əli Tiləbay və Uralbəy kütlənin başçıları idilər və camaatı dağılmamağa çağırır, eləcə də "vilayət başçısını öldürək" şüarını qışqırırdılar. Satar Makzum da bunu qışqıranlardan idi. Kütlədə daha

çox adam gördüm, amma adlarını bilmirəm, lakin göstərsələr, tanıya biləröm. Ev sahiblərinin siyahıları bu hadisələr başlamazdan hələ üç gün əvvəl kattalar tərəfindən yazılmışdı. Minqlər və Qaşğar-Qışlaq cəmiyyətləri üzrə siyahılar qurtarmışdı. Mənim cəmiyyətimdə işlər hələ bitməmişdi.

**Mirzəbaba Tahirbabayev, Minqlər kənd cəmiyyətinin kattası, ifadə vermişdir:**

"Mən, vilayət başçısı İbrahimcan Xasanbayev və Mirzə Niqmacan bu ilin cümə günü iyulun 8-dən şənbə gününə keçən gecə saat birə yaxın dəftərxana artırmasında plov yeyirdik. Yemək vaxtı vilayət rəhbəri xəbər verdi ki, Aravan vilayətinin xalq hakimi Zakir Xoca bu dəqiqə onun yanına gəlmiş və demişdir, kənddə təlaşlı anlar yaşanır, onları sakitləşdirmək üçün ora, əsasən də, Minqlər və Barançi kəndlərinə, getmək lazımdır. Mən və Niqmancan vilayət başçısı ilə şamdan sonra balaxanada yatmağa uzandıq, növbədə olan qarovulçu Ulmaz, vilayət başçısının xidmətçisi Butabay və Kamqor kəndxudası Seli Amil isə dəftərxanada qaldılar. Dan yeri ağarmamış Baymat gəldi və vilayət başçısına camaatın qarşıdan gələn toplam ilə bağlı təlatümə düşdüyü xəbərini çatdırdı. Elə buradaca gördüm ki, vilayət başçısının evinə sarı böyük bir izdiham gəlir. Vilayət başçısı sahə pristavının yanına getməyi və bu barədə ona xəbər çatdırmağı tapşırdı. Bu təxminən səhər saat beş radələrində vaqe olmuşdu. Mən piyada şəhər ətrafında olan sahə müvəkkilinin yanına yollanaraq kütlənin vilayət başçısına hücumu barədə məlumat verdim. Mən hadisə yerinə geri qayıtdıqda, artıq müdiriyyət yerində idi. Baymatı, vilayət başçısını və Mirzəni necə döydüklərini görməmişəm və bilmirəm. Kütlə içərisində Curabəy Cumabəyov Taxtasunu (Qazı-Yağlıq kəndinin sakini), Əbdurrəhman Yulçibayevi (eyni kənd sakini) gördüm. Bu şəxsləri kütlənin içərisində görmüşdüm. Kütlənin vilayət başçısına doğru hərəkət etdiyi məqamda yalnız bircə nəfəri, Xocimat Baybaçinin qardaşı Saqranı (Minqlər kənd sakini) tanıdım. Yaxınlaşan kütlədən səslər eşidilirdi: "tutun, vilayət başçısının, kattaların və cigitlərin əl-qolunu bağlayın". Adlarını

çəkdiklərimdən savayı daha bir neçə nəfəri də, əgər nişan versəniz, göstərə bilərəm. Savadsızam".

**Masali Abdukayimov, Qaşğaron cəmiyyətinin kənd kovxası ifadə vermişdir:**

"Mən kütlə gələn məqamda vilayət rəhbərliyinin dəftərxanasında idim, vilayət başçısı özü, Mirzə Niqmacan və Mirzə Bayev də orada idilər. Kütlənin tələbinə görə, vilayət başçısı və Baymat izahat üçün dişarı çıxdılar. Bir müddətdən sonra vilayət başçısı Mirzə Niqmancanla birgə qəflətən dəftərxanaya qaçdılar və içəridən qapını bağladılar. Belə olan təqdirdə, kütlə onların dalınca yüyürdü və artırmadan pəncərələri döyməyə, şüşələri sındırmağa başladı. Kütlə içərisindən hədələyici qışqırtılar gəlirdi: "kattaları tutun, vilayət başçısını tutun, onları döyün". Onda vilayət başçısı və Mirzə dəftərxanadakı o biri pəncərədən küçəyə atıldılar. Səs-küy getdikcə çoxalırdı, amma sonra nə baş verdi və Mirzə ilə vilayət başçısı kim tərəfindən öldürüldü, mən bilmirəm. Mən dəftərxanada dolabın arxasında gizlənmişdim. Satılbaldı hansı şəraitdə öldürülüb, xəbərim yoxdur, çünki həmin gecə və həmin axşam mən onu qətiyyən görməmişəm. Dəftərxanada olarkən vilayət başçısı tapançadan atəş açmayıb, eləcə də nə mən, nə də Mirzə atəş açmamışıq. Vilayət başçısı dəftərxanada olanda cəmi bircə dəfə güllə səsi eşitmişəm, yeri gəlmişkən, vilayət başçısı bunu eşitcək, demişdi ki, nahaq yerə güllə atırlar. Şamdan sonra kütlə gələnə qədər, təqribən gecə saat bir radələində vilayət başçısı cigitlər Madaminbəy və Mamacanı kəndlərə baxışa göndərdi ki, orada sakitlik olub-olmadığını yoxlasın. Təxminən saat yarım sonra Madaminbəy qayıtdı və mənə məruzə etdi ki, Qaşğar-Qışlaq, Minqlər Çəmənli kəndlərində[1] ... . Və izdiham vilayət başçısı səmtində hərəkət edir. Bu barədə vilayət başçısına xəbər verdim, amma o məni sakitləşdirərək dedi ki, darvazanın qarşısında cigitlər dayanıblar, heç nədən qorxmaq lazım deyil və bundan sonra Mirzə Niqmancan və Mirzəbaba ilə birgə balaxanada yatmağa uzandı, mən isə dəftərxanada. Kütlə yaxınlaşanda, oyandım. Baymatla Mamacan dəfərxanaya bir

[1] Sonrakı üç sözü oxumaq mümkün olmamışdır.

qədər tez gəlmişdilər. Kütlənin içərisindən üzdən kimisə sezmədim, amma səslərindən mənim kəndimin sakinlərindən Tilləbəyi, Molla Niqmatulun, Mirzə Kali (soyadını bilmirəm, amma zənnimcə Nasretdin, yaxud, Saliyevdir) və Madumar Usta Akilovu yaxşı tanıdım. Onların necə qışqırdıqlarını eşidirdim: "Vilayət başçısını öldürün".

Həmin ərəfədə, axşam saat 8 radələrində, Çamanbi kəndinin əllibaşısı Abdukəriminin oğlu Xocaqul yanıma gəldi və xəbər verdi ki, kənddə əhalinin siyahıya alınması ilə əlaqədar çaxnaşmalar düşüb və məndən atasını öldürmək təhlükəsi gözlədiyinə görə ora getməyi xahiş etdi. Mən dərhal ora yollandım və böyük bir kütlə qadın, qoca gördüm ki, onlar övladlarının siyahıya alınmasından qeyzlənmişdilər və əgər onların uşaqlarını aparsalar, əllibaşılarla məni öldürəcəklərini təhdid etməyə başladılar. Kütlə içərisində camaatı daha çox qızışdıran Nişanbəy Pirmatov, Abdulla Mşinarvanov, Xusanbay Qasımvalvanov və Kanç Xocu Camat Xocayevi gördüm, Arif Xusanbayev isə üzərimə atılaraq məni döyməyə başladı, lakin onu elə öz qardaşı kənara çəkdi və sonra mən[1] ... kütlədən ayrılıb gedə bildim. Bir müddət keçəndən sonra vilayət başçısının yanına Aravan xalq hakimi gəldi və onunla təklikdə söhbətləşdilər, təkcə onu eşitdim ki, xalq hakimi gələrkən artırmaya çıxan kimi vilayət başçısından vilayətdə çaxnaşma olub-olmamasını soruşdu. Xalq hakimi çıxıb getdikdən sonra şam vaxtı vilayət başçısı bizə dedi ki, xalq hakiminin əhali arasında təbliğat aparmasından şübhələnir. Mən xalq hakiminin vilayət başçısının yanından çıxıb gedərkən başçını sakitlik yaratmaqdan ötrü qışlaqlara aparmaq istəyini özüm eşitdim, lakin o etirazını bildirdi və getmədi.

Vilayət başçısı Aravan xalq hakimi ilə yaxşı münasibətdə idi. Kütlə həyətdə Baymat Alişovu döyməyə başlayanda, dəftərxananın divarındakı dəliyi mən özüm qılıncla açmışdım ki, dəliyə girib qonşu həyətə keçim. Həmin oyuğu heç qurtara bilmədim, çünki izdihamın qonşu həyətə dolduğunu gördüm, qorxdum, məni də tutarlar. Vilayət başçısı qara brauninqlə silahlanmışdı, məndə isə "Smit və Visson" sistemindən olan dövlət nümunəli (orta ölçülü) tapança vardı. Kim və

---

[1] Sonrakı üç sözü oxumaq mümkün olmamışdır.

hansı anda İrqaşbəy Tursumatovu öldürə bilərdi, bilmirəm və ayırd etməkdə çətinlik çəkirəm. Savadsızam".

**12 (25).07.1916.**

**Skobelevsk dairə məhkəməsi müstəntiqinin Aravan vilayətinin Qazı-Yağlıq kəndindəki çaxnaşmalar barədə qətnaməsindən**[1]

Cari il iyulun 9-da sübh ertədən Kokand uyezdinin Aravan vilayətinin Qazı-Yağlıq kəndində Aravan vilayət başçısının dəftərxanası qarşısında Aravan vilayətinin qonşu kəndlərindən çoxlu sayda camaat toplaşmışdı. Vilayət başçısı İbrahimcan Xasanbayev özü, onun mirzəsi Niqmacan Molla İshaqov, cigit Satıbaldı Abid Xocayev, eləcə də Aravan cəmiyyətinin kənd kovxaları: Baymat Xalmatov, Minqlər cəmiyyətinin kəndxudası Mirzəbaba Tahirbəyov, Qaşğar cəmiyyətinin kattası Masali Abduqayimov və cigit Mamacan Madaminbəy dəftərxanada idilər. Kütlə vilayət başçısının dişarı çıxmasını tələb etməyə başladı. Başçı izdihamın qarşısına çıxıb onlara nə lazım olduğunu soruşanda, camaat arasından qışqırmağa başladılar: "Biz öyrənib bilmişik ki, uşaqlarımızı müharibəyə aparmaq üçün siyahıya alırsınız, bizi öldürərsiniz, sonra balalarımızı apararsınız". Vilayət başçısı camaata izah etdi ki, ev sahiblərinin və onların ailələrinin adi siyahıları tutulur və hal-hazırda bu siyahıyaalma dayandırılmışdır. Belə olan təqdirdə, kütlə siyahını onların əlinə verməsini tələb etdi.

Vilayət başçısı dəftərxanaya daxil olaraq siyahıları götürdü və onu camaat içindən bir nəfərə – Çemanbi kəndinin sakini Hüseyn Palvana verdi. Bu, kütləni qane etmədi və onlar vilayət başçısından öz imza və möhürü ilə onların uşaqlarının müharibəyə aparılmayacağını təsdiqləməsini tələb etdilər. Vilayət başçısı imza atmaqdan imtina etdikdə isə, kütlə vilayət başçısının üzərinə cumaraq, onu daş-qalaq edib öldürdü, eləcə də onun mirzəsi Niqmacan Molla İshaqov və cigit Satılvaldı Abid Xocayevi də qətlə yetirdi, yerli inzibati idarənin digər vəzifə sahibləri isə izdihamın əlindən qaçıb qurtularaq gizlənə

---

[1] Özbək. SSR MDTA F. Skobelevsk dairə məhkəməsinin məhkəmə müstəntiqi, iş 161-a, vərəq 56. Əslidir.

və ölümdən xilas ola bildilər. Səhər saat təqribən 6-da hadisə polisə məlum oldu və o da aşağı rütbəli piyada vzvodu ilə dərhal vilayət başçısının dəftərxanasına gəlib çıxaraq kütləni əhatəyə aldı. Sonra yerli administrasiyanın buna qədər gizlənmiş məmurları – kənd kattaları, eləcə də cigitlər gəldilər və kütlənin iştirakçılarının qruplaşdırılması başlandı. Əvvəlcə yerli administrasiyanın göstərişi ilə camaat içindən fəal iştirakçılar, sonra əyin-başlarında və bədənlərində qan ləkəsi, cızıq, qançır və s. olanlar, nəhayət, sadəcə, izdihamın arasında bulunanlar tutuldular. Saxlanılmış 346 şəxsdən 29 nəfər azyaşlı azad buraxılmış, 317 nəfər isə həbsə alınmışdı.

**13 (26).07. 1916.**

**Vernı şəhərinin polismeyster vəzifəsini icra edən V.İ.Porotikovun vilayətin hərbi qubernatoru Folbauma Bular Moğuyevin başçılıq etdiyi 11 vilayətin qırğızlarından arxa cəbhədəki işlərə səfərbərliyin ləğv olunması barədə ərizə ilə Vernı şəhərinə gəlmək təklif barədə raportundan**[1]

Mənim 12.07. 357 №-lı raportuma əlavə olaraq c-blarınızın nəzərinə çatdırmaq istəyirəm ki, hal-hazırda tərəfimdən Uzun-Ağac vilayətində Ulkum-Saz tərəfdə keçirilmiş 8 vilayətin qurultayından sonra həmin vilayətlərin və 3 başqa vilayətin qırğızları başda Pişpək uyezdinin Nikolayevsk dunqanlarının başçısı Bular Moğuyev olmaqla, cəmi 11 vilayətin təmsilçiləri yerlilərin hərbi işlərə çağırışının ləğvi haqqında vəsatətnamə ilə Vernıya gələcəkləri haqqında informasiya əldə edilmişdir.

Məlumatlara görə, qırğızlar böyük kütlə ilə gələcəklər və şəhərə bu gün çatacaqlar. Bular Moğuyev haqqında hələ Türkiyə ilə müharibə elan olunmazdan əvvəl yerli əhali arasında Yeddisu vilayətinin bütün müsəlmanlarını rəhbərliyi altında birləşdirəcəyi, xüsusi müstəqil əyalət yaradacağı və hökumət əleyhinə yönlənmiş təbliğatlar aparması barədə informasiyalar qəbul olmağa başlamışdı. Bular Moğuyev təkcə

[1] Qazax. SSR MDTA F. Yeddisu vilayət icra şöbəsi 1, iş 16926, v. 16. Əslidir.

dunqanlar arasında deyil, eləcə də Pişpək və Prjevalsk uyezdlərinin qara-qırğızları arasında nüfuz qazanmışdır.

**Polismeyster vəzifəsini icra edən ştab-rotmistr Porotikov**
**Katib Okonişnikov**

**14 (27).07.1916.**

**Yeddisu vilayətinin hərbi qubernatoru Folbaumun uyezd başçılarına fəhlələrin arxa cəbhədəki işlərdən ötrü səfərbər edilməsi barədə teleqraf göstərişindən**[1]

Vilayət başçılarına əmrdə işlərə cəlb ediləcək fəhlələrin sayını təqdim edərək, məsuliyyətli şəxslər tərəfindən hərəkət edin, yəni ki, növbəti uyezdlə münasibətlərə sakit yanaşın və müqavimət göstərənləri haupvaxtalarda saxlayın, işləri sakit, fəqət inadla aparın, yaş və digər məsələlərdə xırdaçılığa yol verməyin. Şərəfli şəxslər vasitəsi ilə xalqa başa salın ki, onlar əsgər getmirlər, fəhləliyə gedirlər və müharibədə fəhlələrə yaxşı məcavib verilir. Digər tərəfdən, bütün vilayətlərdən mötəbər şəxsləri çağırmaqla, siz hökmdarın iradəsinin nəyin bahasına olursa-olsun, həyata keçəcəyini vurğulayın, yəni ki, Daşkənddə xalq sakit gedir, bizim qırğızlar, tarançinlər, dunqanlar və bizim sartlar öz talelərini risk altına salmasınlar, əks halda, göstəriləcək müqavimət müharibə dövrünün amansız qanunları ilə sərt cəzalandırılacaq. Bu teleqramın surətlərini çaparlar vasitəsilə öz pristavlarınıza və sahə rəislərinə çatdırın.

**Folbaum**

**15. (28).07.1916.**

**Fərqanə vilayətinin hərbi qubernatoru general Gippiusun yerli əhalinin arxa cəbhəyə səfərbərliyə alınması barədə elanı**[2]

Əlahəzrət imperator bu il iyun ayının 25-də fəaliyyətdə olan ordunun arxa cəbhəsində torpaq işlərinə rus dövlətinin bu günə qədər hərbi xidmətdən azad olunmuş əcnəbilərinin cəlb olunması haqqında

---

[1] Qazax. SSR MDTA F. Yeddisu vilayət icra şöbəsi. F.4, siyahıyaalma 16602, v. 31-32. Əslidir.

[2] Özbək. SSR MDTA F. TGQD 11. s. iş 1132, vərəq 36. Əslidir.

əmr etdi. Bu alinəsəb əmr sözsüz yerinə yetirilməlidir. Əlahəzrətin verdiyi sərəncamın düzgün anlaşılmamasından qaçmaq məqsədi ilə növbəti izahatları verməyi faydalı sandım:

Yerli əhali hərbi döyüşlərə qoşulmaq məqsədi ilə aparılmır, yalnız fəaliyyətdə olan qoşunun arxa cəbhəsində torpaq işlərində, yolları düzəltməkdə, körpüləri təmir etmək və s. bu sayaq yerlərdə orduya kömək edir, yəni əhalinin sülh zamanı vərdiş etdiyi məşğuliyyətə cəlb edilir. Yerli əhali öz təsərrüfatlarında tarla işlərindən ayrı düşəcəklərindən təşvişlənməsin deyə, hökumət gənc kişilərin hamısını götürməmək göstərişi verir, ilk günlər hər beş həyətdən bir fəhlə hesablanacaq. Hərgah tanrı imkan versə, müharibə tezliklə bitsə, gələcəkdə səfərbərliyə ehtiyac olmayacaqdır.

Hər beş həyətdən bir fəhlə götürüləcək, yaxud könüllü gələcək, hərgah könüllü tapılmazsa, püşk atılacaq, əgər atılan püşk sahibi hansısa səbəbdən gələ bilməsə, indiki natural mükəlləfiyyətdə olduğu kimi, öz yerinə kimi isə əvəzləyici qoya bilər. Bununla bərabər, onu da nəzərə almaq lazımdır ki, hökumət qalan ailənin vəziyyətini yüngülləşdirməyə çalışacaq və hər qəbul olunmuş fəhləyə əməyə görə məvacib veriləcəkdir. Məvacibin məbləği hələ müəyyən edilməmişdir, lakin sonra dəqiqləşdiriləcəkdir. Bundan əlavə, fəhlələrin yaşayışı bütün xidmət ərzində tamamən dövlət hesabına keçəcək. Bu cür şərtlərlə tələb olunan qədər fəhlə qüvvəsinin sayı Fərqanə vilayətinin əhalisi üçün heç də çətin olmayacaqdır.

Yerli əhaliyə xeyirxah məsləhət verirəm: bizim əlahəzrət imperatorun çağırışına sevinc hissi ilə, böyük vətənimizin oğlu hissi ilə yanaşın və unutmayın ki, rus silahının qələbəsinin rəhni həm də yerlilərə xoşbəxtlik və firavanlıqdır, çünki rus döyüşçülərinin qələbəsindən sonra fərqanəli yerlilər də fəxarətlə deyə bilsinlər – biz, əlahəzrətin əmrini yerinə namusla yetirdik.

**Hərbi qubernator general-leytenant Gippius**

**16. (29).07. 1916.**

**Fərqanə vilayətinin hərbi qubernatoru general-leytenant Gippiusun yerli əhaliyə elanı**[1]

Yerli əhaliyə ərz edirəm ki, artıq ordu artilleriya ilə Fərqanə vilayətinə gəlib çatmışdır. Bu ordu fərdi və müstəqil surətdə yalnız mənim – hərbi qubernatorun tabeliyinə verilmişdir. Göndərilmiş ordu, bu gündən başlayaraq, Fərqanə vilayətinin, demək olar ki, bütün şəhərlərində və yerlərində baş vermiş iğtişaşlara oxşar hərc-mərclik baş versə, təkcə tabesizlik göstərən kütləni sakitləşdirməyə deyil, həm də hər yaşayış məntəqəsini yerlə yeksan edərək əhalisini qırmağa, şəhərdə isə hər hansı məhəlləni və hətta yerli şəhəri dağıtmağa artıqlaması ilə kifayətdir. Bu iğtişaşları onunla izah edirəm ki, xalq əlahəzrətin bu il 25 iyunda verdiyi sərəncamı yanlış anlayaraq, fəhlələrin zor gücünə aparılacaqlarını zənn edir.

Yerli əhaliyə bəyan edirəm ki, mən əsla fəhlələri zor gücünə aparmaq niyyətində deyiləm. Əlahəzrətin o məqsədlə verdiyi alinəsəb əmrin icrası üçün narazi fəhlə qüvvəsi qətiyyən gərək deyildir, bizim ordumuza yalnız padşahımız və dövlətimiz uğrunda vuruşaraq düşmən üzərində qələbə qazanan rus döyüşçülərinə qardaş yardımını göstərmək istəyən fəhlə dəstələrinə könüllü, öz arzuları ilə qoşulan işçilər lazımdır.

Alinəsəb qərar bu ilin 25 iyulunda qeyd-şərtsiz həyata keçiriləcəkdir, amma onun əsil mənasında. Çoxsaylı əhali ilə müqayisədə Fərqanə vilayətinə o dərəcədə cüzi fəhlə sayı təyin edilmişdir ki, Fərqanə vilayətində indi müəyyənləşdirildiyindən ümumi götürəndə, iki, üç, hətta dörd dəfə çox könüllü tapılacağına tam əminəm. Bütün məsələnin mahiyyəti və çətinliyi bu könüllülərin səfərbərliyinin və toplanışının qayda-qanununu təşkil edib sahmanlamaqdadır. Bu sayaq qayda-qanun hələ elan olunmamışdır və hökumət tərəfindən işlənib hazırlanmamışdır, Fərqanə administrasiyası fəhlələrin toplanmasına hətta başlamamışdır.

Hələ hər şey irəlidədir. Hərgah qəti əminliyimə baxmyaraq, Fərqanədə zəruri sayda tələb olunun qədər könüllülər tapılmazsa, əksinə, sayı az və ya tələbatdan da aşağı sayda olarsa, yaxud öz

[1] Özbək. SSR MDTA F. TGQD 11. s. iş 1132, vərəq 134. Əslidir.

istəyi iləmi və ya 10 iyul tarixindəki birinci elanımda deyildiyi kimi, Fərqanədə püşk atılandan sonra ikimilyonluq əhalidən yalnız bircə şəxs elan olunarsa, mən həmin o yeganə şəxsi götürərəm, onun adını bəyan edərəm və əlahəzrətə məlumat verərəm ki, əlahəzrətin alinəsəb əmrini həyata keçirmək üçün külleyi Fərqanədən yalnız bu insanı tapmışam; sonra isə ali hökumətdən necə addım atacağımı acizanə xəbər alaram: heç bir fərqinə varmadan güc tətbiq edərək, kişilərin hamısını götürüb aparmaqmı, yoxsa Fərqanə vilayətindən bu dar macalda dövlətə könüllü kömək alacağıma ümidimi tamamən üzməkmi. Belə göstəriş almaq üçün isə heç bir güc üsullarına əl atmayacağam.

Könüllü-fəhlələrin şəxsi müraciətlərinə görə, yaxud püşkatma yolu ilə toplanış qayda-qanununu özüm işləyib hazırlamayacağam, mən bu məsələni əvvəlcə ictimaiyyətin müzakirəsinə buraxacağam, bu ilin 25 iyununda bəyan olunmuş alinəsəb əmri təcrübi olaraq necə həyata keçirmək üçün işin gedişatını müəyyənləşdirən qayda-qanun tam səhihliklə işlənib hazırlanandan sonra mən bu qaydaların sözsüz, qeyd-şərtsiz icrasını elan edəcəyəm. Ona görə də, indiki dövrdə əhali narahat olmasın, təlaşlanıb kütlə halında toplaşmasın. Xəbərdarlıq etməyi özümə borc bilirəm ki, bizin qanunumuzla hər hansı izdihamın qoplaşması ciddi şəkildə qadağandır...

Hər kəs bilməlidir ki, istənilən kütlə, hətta dinc məqsədlə və ya məqsədsiz surətdə yığışıbsa, əsla özü gözləmədən hansısa boş qışqırtıdan, yaxud hadisədən qəflətən qeyzlənə və daş atmaqla, adam öldürməklə və s. qarmaqarışıqlıq yaratmağa qadirdir. Məhz buna görə, ordunun kütlə əleyhinə silahdan istifadə etməsi məntiqəuyğun və zəruri tədbir kimi, qanuniləşdirilmişdir. Bu halda bir neçə insanın yaralanması və yaxud öldürülməsi, kütlə vaxtında dağılmayacağı təqdirdə törədəcəyi zərərə nisbətən az itki hesab olunur.

Bütün bu hazırki vəziyyətin olduğu kimi izahatını verərək və niyyətimi ərz edərək, elan olunmuş gündən etibarən xalqı aşağıdakılara əməl etməyə çağırıram:

1. Daha fəhlələrin yığılması və ya siyahı tutulması barədə heç bir narahatlıq olmasın. Düzgün tərtib edilməmiş siyahılar əgər dəqiq

deyillərsə və ya həqiqətə uyğun gəlmirlərsə, yaxud sadəcə, tərtibatı şübhələr doğurursa, heç kimə lazım deyildir və hətta xətərlidir; buna görə də göstəriş verdim ki, əhalinin kişi hissəsinin siyahıya alınması saxlanılsın və həmin səbəbdən də, siyahılar mənim ixtiyarıma təqdim olunmayacaq və nəticə etibarilə heç bir əhəmiyyət daşımayacaqdır.

2. Mənə inanın ki, əlahəzrətin 25 iyun tarixli alinəsəb sərəncamında fəhlələrin zorakılıqla toplanmasına dair göstərişlər qaibdir və mən indi fəhlələri zor gücünə toplamayacağam.

3. Əhali mənim növbəti göstərişlərimi gözləsin, onlar bu dəfə fəhlələrin toplanmasının yalnız əhalinin razılığı əsasında və tərtib olunacaq qaydalara müvafiq aparılacağı təqdirdə bəyan ediləcəkdir.

4. Kütlələrin toplaşmasının qarşısını almaq üçün qoy hər dərrakəli yerli sakin hər hansı saatda harada isə bir yerdə toplaşmaya ucadan çağırış eşitsə, müraciətin kim tərəfindən səslənməsinə diqqət yetirsin və onların adını yadında saxlasın. Kütləni toplayan həmin şəxslər camaat cəm olduqdan sonra törətdikləri azğınlığın, zorakılıqların, məğlubiyyətlərin və qətllərin ən başlıca və yeganə günahkarlarıdır, ordunun silah tətbiq etməsi nəticəsində bütün öldürülən və yaralanan qurbanların qanının baiskarlarıdır. Nəticədə, iğtişaşlar yatırıldıqdan sonra, hərbi məhkəmələr təsis ediləcəkdir, amma əgər, artıq bu barədə xahiş etdiyim kimi, Fərqanə vilayətində hərbi vəziyyət elan olunarsa, təxirə salınmadan hərbi-səhra məhkəmələri təyin olunacaq və cəmi vəzifələrin sürətli təhqiqatından sonra, şahid ifadələrinin əsasında izdihama çağırışda günahları isbata yetirilənlərə ölüm cəzası kəsiləcək. Əgər yerliləri toplaşmağa çağıran şəxslər müəyyən edilməzsə, iğtişaşın baş verdiyi hər kənd mənim sərəncamına görə yerli-dibli yerlə yeksan ediləcəkdir, torpaqları isə xəzinəyə qatılacaqdır. Bu halda nə mədrəsə və ona aid olan torpaq, nə məscid və ona aid olan torpağa, nə də şəxsi mülkiyyətə məhəl qoyulmayacaqdır.

T Ə K R A R  E D İ R Ə M: ilk növbədə, günahkarlar kütləni toplaşmağa səsləyənlər olacaqlar, əgər əhali bu şəxsləri mənə, yaxud məhkəməyə göstərməyəcəksə, bundan sonra iğtişaş baş verəcək kəndlərlə və onların torpaqları ilə yuxarıda qeyd etdiyim kimi rəftar edəcəyəm.

5. Buna görə də, yuxarıda sadalanan bəlalardan uzaq durmaq üçün yerli əhalini heç bir həyəcan yaradacaq şayiələrə və söz-söhbətlərə etibar etməməyə, yalnız mənə, mövcud elanda ərz etdiyim kimi, Fərqanə vilayətinin Hərbi Qubernatorunun bəyanatına inanmağa çağırıram. Bütün əhalini sakit qalmağa, dinməz-söyləməz öz dinc əməkləri ilə məşğul olmağa və hələlik fəhlələrin yığılması barədə düşünməməyə çağırıram; əhalinin kişi hissəsinin siyahısının tutulması ilə əlaqədar fikirləşməməyə səsləyirəm, çünki həmin siyahılar iş üçün heç bir əhəmiyyət kəsb etmir; mənim şəxsən özüm tərəfimdən tərtib olunmuş və şəxsən özüm tərəfimdən iyunun 16-da Əndican şəhərində imzalanmış hazırki müraciətimə inanmağa və sakitliyə riayət edərək, bundan sonrakı göstərişlərimi gözləməyə çağırıram.

6. Toplaşan hər kütləyə qarşı isə, bu günə qədər vaqe olduğu kimi, silah gücü tətbiq ediləcəkdir.

**Fərqanə vilayətinin hərbi qubernatoru general-leytenant Gippius**

**Əndican şəhəri, 16.07.1916.**

**İyul. (ikinci yarısı) 1916.**

**Yeddisu vilayətinin qubernator müavini Ostaşkinin Pişpək uyezd başçısından əhali arasında arxa cəbhəyə səfərbərliklə bağlı narahatlıqlar barədə sorğusu**[1]

Hərbi qubernator tərəfindən alınmış məlumata görə, yerli əhalidən hərbi ethiyaclardan ötrü səfərbərliyə fəhlələrin yığımı ilə bağlı teleqram alındıqdan sonra iyulun 7-də və 8-də ətraf vilayətlərin hörmətli şəxsləri Pişpək yaxınlığında İssıqatinsk mineral suları tərəfdə adamların verilib-verilməməsi barədə məsələnin müzakirəsi ilə əlaqədar toplaşmışlar. İyulun 11-də elə həmin möhtərəm insanlar Pişpəyə qırğız Dardail Abdullinin yanına getmişlər, o özünü müdafiə qəsdilə mənzilində yığışmağa imkan verməmiş, başqa məkan axtarıb tapmışdır. Burada adıçəkilən Abdullinin təkidi ilə səfərbərliyin ləğv edilməsi ilə bağlı şayiə yayılması qərara alınmışdır. Bu, insanların verilməməsi məqsədi ilə edilmişdi. İyulun 12-də eyni yığıncaq Kənci Surançinin evində baş

[1] Qırğız. SSR TGQD F. 1, iş 75, v. 1. Surətidir.

tutmuşdur, ayın 13-də isə Çolponkul Tınalinin. Dağarxası vilayətlərin başçıları şəhərətrafı vilayətlərin başçıları ilə yaxın münasibətdə olduqlarına görə inadkarcasına adamları verməmək qərarına gəlmişlər. Vilayət idarəçiliyi bu barədə məlumat verərək əlahəzrətin tapşırığı ilə belə hallar barədə agah olub-olmamağınız barədə bəndəniz C-larımızı hali etməyinizi təklif edir.

**Qubernator müavini Ostaşkin**
**və məsləhətçi podpolkovnik Qusev**

**17 (30).07. 1916.**

**Türküstan hərbi dairəsi qərargahının rəisi Prasolovun Vernı uyezdinin hərbi rəisinə yığıncaq və toplanışların qadağan edilməsi barədə teleqramı**[1]

Dairə qoşunları komandanı Türküstan general-qubernatorunun *"Туркестанские ведомости"* qəzetində 1915-ci ildə çap olunmuş 101 №-lı və bu il çap olunmuş 56 №lı sərəncamlarının mütləq surətdə həyata keçirilməsi əmrini vermişdir ki, açıq səma altında və qapalı məkanlarda bütün növ toplantılar, yığıncaqlar, habelə küçələrdə, meydanlarda kütlə ilə gəzmək, işsiz-bikar veyillənmək və damlarda toplaşmaq qadağandır. Hər növ toplantılar və izdihamlar hərbi qüvvə ilə dağıdılacaqdır.

**17 (30).07. 1916.**

**Yeddisu vilayətinin hərbi qubernatoru Folbaumun elanı**[2]

Əlahəzrətin alinəsəb qərarına əsasən, cari il iyulun 17-də külleyi Türküstan diyarında hərbi vəziyyət elan edilmişdir. O səbəbdən bəyan edilir ki, vilayətdə hərbi vəziyyət elan olunduğuna görə, artıq bütün qanun pozuntuları vətəndaş məhkəməsində baxılmayacaq, hərbi məhkəmə və müharibə dövrünün qanunları ilə ittiham olunacaqlar.

**Yeddisu vilayətinin hərbi qubernatoru general-leytenant Folbaum**

---

[1] Qırğız. SSR MDA F. 77, iş 40, vərəq 1. Əslidir.

[2] Qazax. SSR MDTA. Yeddisu vilayət icra şöbəsi 1, məq. 2, iş 16934, 1916-cı il, v. 11. Əslidir.

**21.07. (03.08.) 1916.**

**Türküstan hərbi dairəsi rəisi vəzifəsini müvəqqəti icra edən Mixaylovskinin Daşkənddən Yeddisu vilayətinin hərbi qubernatoru Folbauma əhalinin kütlə halında toplaşmasının qadağan olunması haqqında teleqram**[1]

Ordu komandanı yerlilərin kütlə halında toplanmasını qadağan olunması barədə əmri təsdiqləmək haqqında sərəncam verdi. Yerlilərə bu informasiyanın çatdırıldığı barədə məlumat verin.

**Mixaylovski**

**21.07. (03.08.) 1916.**

**Türküstan general-qubernatoru vəzifəsini müvəqqəti icra edən general Yerofeyevin Daşkənddən Yeddisu vilayətinin hərbi qubernatoru Folbauma yerli əhalinin rus zabit və məmurlarını mütləq şəkildə salamlaması haqqında teleqramı**[2]

Yerli əhalinin rus hakimiyyətinə itaətini nümayiş etdirmək məqsədi ilə bütün yerlilərə rus zabit və hər səviyyəli idarələrin məmurlarını həmişə hörmətlə salamlamaq, ayağa qalxmaq və təzim etmək barədə göstəriş verilsin.

**Yerofeyev**

**26.07. (08.08.) 1916.**

**Prjevalsk uyezd başçısı polkovnik İvanovun Yeddisu vilayətinin hərbi qubernatoru Folbauma Kopal, Prjevalsk, Vernı uyezdlərinin yerli əhalisinin üsyana hazırlaşmağı barədə teleqramı**[3]

505 №lı Podvarkov xəbər verir: əldə olan məlumatlara görə, Şaurukovun həbsi ərazidəki rus əhalisinin talanına səbəb olacaqdır.

---

[1] Qazax. SSR MDTA F. Yeddisu vilayət icra şöbəsi 1, səh.2, iş 16934, v. 12. Əslidir.

[2] Qazax. SSR MDTA F. Yeddisu vilayət icra şöbəsi 1, səh.2, iş 16934, v. 15. Əslidir.

[3] Qırğız. SSR MDA F. 75, iş 35, v. 1-2. Surətidir.

Qırğızlar güllə istifadəsinə qurğuşun və barıtdan ötrü kalmıkların yanına adam yollamışlar. Bütün dəryazları süngüyə və nizələrə çevirmişlər. İvanovsk vilayətində beş yüzdən çox silah var. Batalarda[1] Kopal, Prjevalsk, Vernı uyezdlərinin qırğızları iştirak etmişlər. Kazakların iştirakına baxmayaraq, qırğızlar və tacirlər özlərini meydan oxurcasına aparırlar. Şaukurovun Prjevalska yığıncağa gəlməsi münasib hesab edilir – sakit camaat Şaukurova sözsüz təsir göstərəcəkdir. Kifayət qədər döyüşçü qüvvəsi olmadan hazırlıqsız həbs qeyri-mümkün hesab edilir, çünki sahədəki əhaliyə gecə hücum təhlükəsi vardır. Kravçenko komandası ilə birgə indicə yola çıxmışdır.

**1916-cı il (iyulun sonu).**

**Fəhlələrin arxa cəbhədəki işlərə çağırışla bağlı çaxnaşmalar barədə gündəlik xəbərlərdən**[2]

İyulun 10-da Əndican uyezdinin Altınkul vilayətinin Dalvarzin kəndində qeyzlənmiş kütlə tərəfindən vilayət başçısı Molla Həkimbəyov, Molla Ruzıbəyov və onların iki cigiti – Temirbəy Payqambarkulov və Kərimcan Əbdül Vahab Xociyev öldürülmüşlər. İğtişaşa başçılıq edənlər tutulub saxlanılmışlar.

İyulun 11-də Oş uyezdinin Xoca-Abad kəndinin Bulaq-Başin vilayət başçısının yanına camaat dəstə ilə toplaşıb gəlmiş və ondan kişi əhalisinin adbaad tərtib olunmuş siyahını tələb etmişdir. Vilayət başçısı siyahını verməkdən imtina etmişdir, çünki onda həmin siyahı yox imiş və kütlənin təhdidli ovqatını görcək, Oş şəhərinə qaçmışdır.

İyulun 12-də elə həmin izdiham vilayət başçısının qardaşı İşan-Axun Sali Xocayevin evinə doğru istiqamət götürmüşdür, amma nə vilayət başçısını, nə də onun qardaşını evdə tapmayanda, pəncərələrin şüşələrini və qab-qacağın bir hissəsini sındırmışdır.

İyulun 13-də təqribən gecə saat 11-də Oş uyezdinin Bulaq-Başin vilayətinin Çakar kənd icmasının sakinlərindən ibarət kütlə, təqribən 200 nəfər adam, elə həmin icmanın əllibaşıları Mirzə Alim Xoca, Molla

---

[1] Bata – “and” mənasını bildirir.

[2] Özbək. SSR MDTA F. TGQD, iş 39, v. 17. Əslidir.

Mədraimov və Usman Pir Nəzərova hücum edərək tutmuş, onları kötəkləyərək, kişi əhalisinin siyahısını tələb etmişlər, lakin əllibaşılar onların əlindən qurtulub çıxmış və izdihamın arasından yol tapıb qaçmışlar.

İyulun 13-də təqribən gecə saat 12-də Oş uyezdinin Bulaq-Başin vilayətinin Çakar kənd icmasının sakinlərindən ibarət kütlə, təqribən 200 nəfər adam, elə həmin icmanın əllibaşısı Əbdücəlil Xoca Baltı Xocayevə hücum etmiş, səs-küy salaraq onu çağırmış və kişi əhalisinin siyahısını tələb etməyə başlamışlar. Əllibaşının qardaşları izdihamın içəri daxil olmasına imkan verməmişlər, bundan sonra kütlə hədə-qorxu gələ-gələ və "öldürəcəyik" deyə qışqıra-qışqıra bir qədər haray-həşir salmış, sonra evdən uzaqlaşmışdır.

İyunun 13-də təqribən gecə saat 12-də Oş uyezdinin Bulaq-Başin vilayətinin Çakar kənd icmasının sakinləri, təqribən 40-60 nəfər adam, elə həmin icmanın əllibaşısı Niyaz Əli Mədəlibəyevin evinə yaxınlaşmış və "əllibaşını öldürəcəyik" deyə qışqırmışdır. Mədəlibəyev izdihamdan qorxaraq bağçadan keçməklə Oş şəhərinə qaçmışdır.

İyulun 14-də elə həmin camaat əllibaşının evinə doğru yürümüş, evin bir hissəsini korlamış, əmlakın və pulun bir qismini qarət etmişdir.

İyunun 14-dən 15-nə keçən gecə saat 12-də Oş uyezdinin Bulaq-Başin vilayətinin Çakar kənd icmasının sakinləri, başda Yuldaş Süleymanov və başqaları olmaqla təqribən 200 nəfər adam, əllibaşı Urumbəy Artukbəyovun evinə hücum çəkmiş və onu öldürməklə hədələyib kişi əhalisinin siyahısını tələb etmişlər. Artukbəyov Oş at belində şəhərinə doğru çapıb getmişdir. Camaat o mürəxxəs olandan sonra evinə girmiş və sandıqları sındırıb 150 rubl pul və 25 rubl dəyərində iki kəsik ipək parça götürərək talançılıqla məşğul olmuşdur.

**<u>1916-cı ilin avqust-sentyabr sənədləri</u>**

**09(28).08. 1916.**

**Vilayətin hərbi qubernatoru M.A.Folbaumun Türküstan general-qubernatoru A.N.Kuropatkinə vilayət əhalisinin əhval-ruhiyyəsi haqqında teleqramdan**[1]

... Kütlə təkcə rəhbərliyə deyil, öz xoş düşüncəli və nüfuzlu qırğızlarına da inamını itirmişdir. "Qəribçilikdə ölməkdənsə, öz evində ölmək" kimi təzə məsəllər yaranmışdır. Şübhə yoxdur ki, bir çox tanınmış manaplar da siyahıların tutulmasında öz təsir qüvvələrindən istifadə etmiş və yaxınlarını həmin siyahıdan çıxardaraq, ədalətsiz olaraq kasıbların və firqədaxili rəqiblərinin adlarını ora salmaqla iri hərc-mərclik və qarğaşalıq salmışlar. Bəzi rəhbərlər qırğızların başlarını itirərək çaşıb qaldıqlarından və qismən də hiddətləndiklərindən uzağı görmədən, fəqət cəsarətlə sui-istifadə etmişlər. Meydana rusları qovmaq barədə qızğın təbliğatlar gəlmişdi. Üsyançı əhalinin dalğası o zaman çox beyinləri doldurmuş və rus hakimiyyəti üçün daha çox zərərli ünsürləri rəhbər mövqelərə çıxarmışdı. Əsla söz yox ki, xeyirxah niyyətli qırğızların əksəriyyəti üsyan əleyhinə olmuşlar, lakin həm onlar, həm hörmət sahibləri, həm də vilayət başçıları aciz qalmışlar. Kütlə, həmişə olduğu kimi, bu sayaq hadisələrdə daha qətiyyətli hərəkət edən cinayət tinətli başçıların müraciətlərinə qulaq asır.

Ruslar tərəfindən provokasiya ilə mübarizə qeyri-mümkündür və buna görə də günahkar olmur. Lakin çox böyük təəssüf hissi ilə onu da vurğulamalıyam ki, qırğızların qiyamının ruslara sərfəli yekunla həm üsyanın yatırılması ərzində, həm də sonra torpaqların mümkün müsadirəsi ilə bitəcəyini zənn edən qəzəbli araqarışdıranlar da vardı. Belə təxribatçılardan biri hətta tərəfimdən həbsə alınmışdır, baxmayaraq ki, sübutlar azdır və o, hər şeyi boynundan atır. Yerli araqarışdıranlara divan tutulması, təbii ki, onlar saxlanılacaq halda mümkündür, bundan ötrü isə rus qanını axıtdığına və itaətsizliyinə görə bütün dəstələr ilkin surətdə ibrət dərsi verməklə görk qəsdilə cəzalanmalıdır. Prjevalsk və

---

[1] Qazax. SSR MDTA. F. 44. Yeddisu vilayət icra şöbəsi 1, məq. 2, iş 16921, 1916-cı il, vərəq 25. Əslidir.

Kopal uyezdlərində hələ ki, dəyişiklik yoxdur, siyahılar çıxarılır, lakin Balxaş yaxınlığındakı kopallı qırğızlar da narahat olmağa başlamışlar və casus naməlum qruplar görmüşdür. Lepsin və Carkənd uyezdlərində kiçik dəstələrlə xaricə üz tutmaq müşahidə olunur.

**Folbaum**

**18 (31).08.1916.**

**Yeddisu vilayətinin Vernı hərbi qubernatoru Folbaumdan Türküstan general-qubernatoru Kuropatkinə qırğızların üsyanının səbəbi barədə teleqram**[1]

6424. Yaşanan hadisələr Yeddisunun torpaqbölən dəstələrəinin və ərazinin müstəmləkələşdirilməsinin gərgin gedişatı ilə şərtlənmişdi. Torpaq genişliyinin daraldılması və yalnız yeni müstəmləkəçilərin qayğısına qalınması, şübhəsiz, qırğızları büsbütün çaşdıraraq suallar içinə salmışdı. Yerli administrasiyanın köhnə sakinləri və yerliləri eyni səviyyədə qayğıkeşliklə yerləşdirmək barədə çoxsaylı ərizələri uzun müddət diqqətsiz qalmışdı. Köçərilərin təxirəsalmadan siyasi tərbiyəsinə başlamaq zərurəti – onların tədricən orduya çağrılmağı, – diqqətsiz qalmışdı, hərçənd padşah həzrətləri mənim hələ 1910-cu il hesabatımda dərkənar qoyaraq qeyd etmişdi: "Buna başlamaq lazımdır". Qırğızlar tərəfindən çoxlu kiçik etirazlara, mənim tərəfimdən onların iqtisadi mahiyyətinin nəzərdən keçirilməsi üçün göstərişlərimə baxmayaraq, yanlış olaraq qeyri-müsəlman çalarlı izahat verilirdi. Böyük müharibənin başlanğıcı ərəfəsində torpaqların tutulması zəminində qırğızların əhvalı sakitləşdi, köçürülmə əməliyyatına dinc gedişat vermək mümkün oldu və qırğızların torplaqla təmin olunması istəyim qismən, Pişpək uyezdinin Belovodsk sahəsində və azca Vernı uyezdinin şərq hissəsində, həmçinin vilayətin şimalının da bir bucağında həyata keçdi.

Müharibənin qızğın çağında təbiətən xeyirxah və sözəbaxan qırğızlar əhalinin ümumi ruh yüksəkliyini bölüşdürdülər və müharibənin ehtiyaclarını ödəməkdən ötrü həm maddi nemətlərini, yurta və s.

---

[1] Özbək. SSR MDTA. F. TGQD 11, s. iş 1136, vərəq 17-18. Əslidir.

səxavətlə təhvil verir, həm də fiziki əməklərini əsirgəmir, bununla da 1914 və 1915-ci illərin məhsul yığımında rus əhalisinə əl tutmaqla onların zəhmətini yüngülləşdirirdilər. 10.11.1915 tarixdə müharibədən qayıtdıqdan sonra Yeddisuda bir qədər başqa mənzərəni gördüm. Qırğızlar sanki kim tərəfindənsə təlqinə məruz qalmış, elə bil müharibəyə qarşı soyumuşdular, rus əhalisi arasında isə söz-söhbətlər gəzirdi ki, qırğızlar müharibənin uzanmasını nəzərə alaraq Çin tərəfindən hansısa çıxışları gözləyir, Almaniyanın 1915-ci il uğurlarını göz önünə götürür, hətta ordu üçün onlardan pul ödənişi ilə yurta, keçə, çul və s. tələb olunanda, deyinib narazılıqlarını izhar edirdilər. Agentura kəşfiyyatı faktlar aşkara çıxara bilmirdi, fəqət mənim vəziyyəti möhkəmlətmək, ələlxüsus, yaxında hər cürə yoluxma ocağının, təbir caizsə, Gülcənin yerləşməsi ucbatından arxayınlıq qazanmaq əminliyim qəiyyətlə artdı. Artıq 16.12.1915 tarixdə 114 №-lı raportumla ordu komandanına zəruri minimal tədbirlər barədə məruzə etmişdim. Yazışma bütün qışı getmişdi. Mayın 3-də 68№-lı raportumla arzuolunan nəticə üçün addım atdım, fəqət cəhdim uğursuzluğa düçar oldu.

İyulun 1-də qırğızlara müsadirə haqqında xəbər verildi. Çaxnaşma və çaşqınlıq bütün çölü bürüdü. Buna avqustun 9-da 2684 №-lı raportumda xəbər verdiyim təxribatın hamısı əlavə edildi, ardınca dünən 144 №-lı məruzəmdə dediyim Gülcə qara qüvvələri çıxış etdilər. İndi vəziyyət hədsiz təhlükəlidir: bizim dunqanlar və tarançinlər vasitəsi ilə daimi sıx əlaqələrimiz olan Gülcə ilə, daha dəqiq desək, məhz Prjevalsk, Pişpək və Carkənd uyezdlərində. Bu üç uyezddəki, ələlxüsus, Prjevalskdakı böyük tiryək işi gülcəli və qaşğarlı gəlmələrin axınını, Çuy suvarma işini və Pişpək uyezdindəki dəmir yol işlərini yüngülləşdirmişdi.

Əlavə edim ki, bədnam ad çıxarmış bahalıq təmsilində iqtisadi şərtlər də böyük əhəmiyyət kəsb edirdi. Söyləmək kifayətdir ki, çöllüklərdə qənd 60 qəpiyə və hətta funtu bir rubla çatmışdı, çitin arşınının məzənnəsi isə bir rubla çatırdı. Bu barədə bəyan etmişdim ki, köçərilər bunda da hakimiyyətin zəifliyini görəcəklər. İndi, ordu gələndə və üsyançılara, xüsusilə də Prjevalsk və Pişpək qara-qırğızlarına zərbə vurulanda, vilayəti sakitləşdirmək, əsasən də, köçürülmə işini canlandırmaq üçün xeyli vaxt lazım olacaqdır.

Amma əgər kifayət qədər çətin və enerjili sakitləşdirmə proqramı həyata keçirilsə, bütün zəruri nəticələri, hətta fəhlələrin müsadirəsini də, əldə etmək olar. Zira, belə zənn edirəm ki, Gülcə və üsyanı qızışdıran ünsürlər iflic vəziyyətə salınsa, qırğızların həm kütlə halında hamısı, həm də ayrı-ayrı qrupları tədricən ağılları başlarına gəlib düz yola düşərlər. 1914-cü və 1915-ci ildə vilayətdən çıxarılmış hər silah, hər tüfəng, onların başçıları tərəfindən nəzərə alınmışdı və hal-hazırda eynilə mənim gözlədiyim yeni qüvvələri də hesaba alacaqlar, qırğız kütləsinə xas xeyirxahlıq keyfiyyəti isə qalan işləri tamamlayacaq.

Xırdalıqlara gəldikdə, vəziyyət indi belədir: Prjevalsk uyezdi barədə dəqiq informasiyalar yoxdur, amma Pişpək uyezdində qiyam inkaredilməzdir. Pişpək uyezdinin şimal hissəsində həyəcanlar yaşanır, amma Belovodsk vilayəti və Pişpəyin rus əhalisi və ordusu olan şəhərətrafı yerlərində sakitliyə riayət nəzarət altındadır. Kurday yaylasında daha çox dinclikdir. Pişpək uyezdinin cənub hissəsindəki köçəri bölgələr və Kəbən vadisi üsyana qərq olmuşdur. Ən azı on iki vilayət üsyana qalxmışdır.

Çunun aşağı axarlarında beşə yaxın vilayət üsyandan kənarda qalmış, on yeddisi isə təlatümlə çalxalanır, doqquzunda açıq-aşkar qiyam alovlanmışdır. Artıq hal-hazırda bəzi vilayətlərdə üsyan güc sayəsində yatırılmışdır, bunun nəticəsi olaraq, qalanları səhraya çəkilmişlər. Orada vaxtı gələndə, cəzalarını alacaqlar. Lakin Carkənd uyezdində cənub Qarqara uyezdini çalxantı bürümüşdür, lap şimalda yerləşən əyalətlərdə isə hadisələr qaynayır. Qırğızlar Kopal uyezdində də, yoxlanılmamış məlumatlara isnadən, qruplaşırlar və xəbər verdiyim kimi, artıq Altın Yəməl bölgəsində isə hətta Tezikovu xan seçmişlər. Çinə yaxın Lepsin uyezdində həyəcan hökm sürür. Carkənd uyezdindəki oturaq tarançinlər də təşvişə düşmüşlər, az-az dəstələrlə Çinə yollanırlar. Vernı uyezdinin tarançinləri çox sakit oturublar. Uyezd başçılarının söylədiklərinə görə, Pişpək və Prjevalsk dunqanları özlərini farağat saxlamışlar, amma agentura əks informasiyalar da verir, ordunun dislokasiyası barədə xüsusi 2815 №-lı məruzəmdə söyləyəcəyəm.

**20.08.1916.**

**Daşkənddən Türküstan general-qubernatoru Kuropatkindən hərbi nazir Şuvayevə Yeddisuda üsyanın səbəbləri haqqında[1] göndərilmiş teleqram[2]**

Yeddisu vilayətinin qubernatorunun 19.08. tarixli məlumatına əsasən, qırğız üsyanının səbəbləri bunlardır: birincisi – fəhlələrin müsadirəsi barədə elan; ikincisi – iqtisadi xarakterli səbəblər, əsasən də torpaq islahatları ilə bağlı işlər, bu zaman qırğızlar müstəsna surətdə yalnız rus müstəmləkəçilərinin maraqlarının güdülməsini görürdülər; üçüncüsü – qırğızların hakimiyyətin zəifliyi kimi qələmə verib izah etdikləri həyatın bahalaşması; dördüncüsü – Gülcə diyarının alman casusları tərəfindən rəhbərliyi altında çinlilərin təbliğatı. Onlar qırğızlara Almaniyanın məğlubedilməz olduğuna və guya yaxın müddətdə Çinin də daxil olacağına təlqin edirdilər; beşincisi – qırğızların Yeddisudan topların və digər odlu silahların çıxarılmasının Rusiyanın zəiflik əlaməti kimi dərk etmələri. Gülcə konsulunun verdiyi məlumatlara görə, anarxiya cəmiyyətinin üzvü olan bir çinli tərəfindən üsyanın qızışdırılıb odlanması qəsdilə təbliğatçı köməkçisi göndərilmişdi.

Hal-hazırda Prjevalsk uyezdinin Narın sahəsi, Kəbən vadisi və sayı iyirmidən az olmamaqla Pişpək uyezdinin cənub hissəsinin köçəri vilayətləri, Carkənd uyezdinin Cənubi Karkolinsk bölgəsi və Vernı uyezdinin doqquz vilayəti üsyanla əhatə olunmuşlar. Pişpək uyezdinin bir hissəsində, Çunun çayaşağı beş vilayətində, Vernı uyezdinin on yeddi vilayətində, Carkənd uyezdinin şimal vilayətlərində və Lepsin uyezdinin Çinə yaxın vilayətlərində təlaş hiss olunur. Rus əhalisinin tabeliyində olan Kurda yaylası, Belovodsk bölgəsi və Pişpəyin şəhərətrafı vilayətlərində nisbi sakitlikdir.

Vernı uyezdinin bir neçə vilayətində üsyan artıq yatırılmışdır. Vernı uyezdinin tarançinləri artıq sakitdirlər, Carkənd uyezdininkiləri isə təlatümdədirlər və Çinə doğru getməkdədirlər. Pişpək və Prjevalsk

---

[1] Surəti Daxili İşlər nazirinə.

[2] Özbək.SSR MDTA. F. Məxfi №i 11, siyahıyaalma №i 1, iş 1140, v. 101. Əslidir.

dunqanları haqqında bir-birinə zidd xəbərlər gəlir. İskrinsk sahəsinin qırğızları fəhlələri verməklə itaət və razılıq göstərmişlər.

**Kuropatkin**

**23.08. (05.09.) 1916.**

**Yerli əhalinin bəzi təbəqələrinin arxa cəbhədəki işlərdən ötrü naryaddan azad olunması barədə Türküstan diyarı üzrə 220 №-lı qərarına 2 №-lı əlavədən**[1]

AYRI-AYRI KATEQORİYAYA AİD YERLİLƏRDƏN AZAD EDİLİRLƏR:

1) Vəzifə sahibləri (vilayət, kənd, aul).

2) Yerlilərdən ibarət aşağı vəzifəli polis məmurları.

3) Üzərlərinə düşən vəzifələr administrasiya tərəfindən yoxlanılmaqla imamlar, mollalar, mədrəsə müəllimləri.

4) Kiçik kredit müəssisələrində haqq-hesab aparanlar və mühasiblər.

5) Təhsil müəssisələrində təhsil alanlar.

6) Müəssisələrdə yüksək vəzifə tutan yerlilər.

7) Zadəganların və əsil-nəcabətli vətəndaşların hüquqlarından istifadə edən yerlilər.

8) Tokmak at alayında və ya digər hərbi hissədə xidmətdə olan yerli şəxsin hər birinə görə, qardaşları, oğulları, qardaşı oğlanları, bacısı oğlanları sırasından olan 3 yaxın kişi qohumu.

**25.08. (07.09.)1916.**

**Yeddisu vilayəti idarəsinin 1-ci bölməsinin məsləhətçisi podpolkovnik Qusevin Yeddisu vilayəti üzrə müsəlmanların arxa cəbhədəki işlərə yığılması ilə bağlı məruzəsi**[2]

Daşkənddən bu il avqustun 17-də göndərilmiş 1064 №-lı teleqrama istinadən, “kişi nəslinin hamısı üçün eyni normadan, 8 faizdən yanaşma”nı əsas götürərək, əvvəl Yeddisu vilayətinə verilmiş 60 000 fəhlə naryadı adyudant Kuropatkin tərəfindən 17 000-ə azaldılmışdır,

---

[1] Qazax.SSR MDTA. F. 44, siyahıyaalma 4, iş 1140, v. 47-47. ob. Əslidir.

[2] Qazax.SSR MDTA. F. Yeddisu vilayət icra şöbəsi, məq №i 2, iş 16918, v. 17. Əslidir.

beləliklə, Yeddisu fəaliyyətdə olan orduda arxa cəbhədəki işlər üçün 43 000 nəfər yerli işçi göndərməli olacaqdır. Bu naryadı 6 uyezd və millətlər arasında paylaşdırmaq üçün əvvəlki kimi, ilk növbədə yerli əhalinin hərbi xidmətdə olmamış kişilərinin hamısının sayını özündə ehtiva edən statistik məlumatlardan yararlanmaq gərək olacaqdır, çünki həmin yaşda olan yerlilərin (19 yaşından 31 yaşa qədər) sayı bu günün özünə qədər aydınlaşdırılmamış qalmaqdadır və bu istiqamətdə uğur gözləmək düzgün deyildir.

Bərayi-ehtiyat, bəzi uyezd başçılarının ayrı-ayrı xalqlara aid ilkin sərəncama isnadən, əsasən də sart-raznoçinlər yaşayan vilayətdəkilər, onların konkret sayları ilə üst-üstə düşmədiyi barədə bəyanatlarını hesaba almaq lazımdır. Məs., Carkənd uyezd rəhbəri 28 iyul və 11 avqustda 1434 №-lı bildirişli raportda çatdırmışdı ki, uyezdə çağırış yaşlı cəmi 179 dunqan, 17 sart vardır. Kopal və Lepsin uyezd başçılarının da sartlara aid bildirişləri üst-üstə düşür. Həmin vaxt Gulcənin konsulu 12 avqustdakı 1400 №-lı teleqramı ilə Gülcədə rus təbəəliyindən olan çağırış yaşlı yerlilərdən 45 nəfər dunqanın və 105 nəfər sartın yaşadığını xəbər verir.

Statistik hesabatın rəqəmlərini nəzərə alaraq, əlahəzrətə verilən 1913-cü il üçün hesabatına əlavə edilmiş və sonradan nisbətən gec toplanmış məlumatlarla (Yeddisu inzibati quruluşundan 1915-ci ilə görə) hesablaşaraq və uyezd başçılarının məlumatları, eləcə də Gülcə konsulunun informasiyaları ilə Yeddisuda yaşayan müsəlmanların ümumi sayını aşağıdakı rəqəmlərlə ifadə etmək olar:

| **Uyezdlər** | Qırğızlar | Tarançinlər | Dunqanlar | Sart-kalmıklar | Sartlar |
|---|---|---|---|---|---|
| Vernı | 95 000 | 24 000 | - | - | 1 500 |
| Kopal | 95 000 | - | - | - | 400 |
| **Uyezdlər** | Qırğızlar | Tarançinlər | Dunqanlar | Sart-kalmıklar | Sartlar |
| Lepsin | 77 000 | - | - | - | 100 |
| Carkənd | 55 000 | 22 000 | 1 500 | - | 500 |
| Gülcə kəndi | | | | | |
| Prjevalsk | 84 000 | - | 2 000 | 1 500 | 2 000 |
| Pişpək | 102 000 | - | 5 000 | - | 3 000 |
| **Cəmi** | **508 000** | **46 000** | **8 500** | **1 500** | **7 500** |

Bu rəqəmlərin üzərində dayanaraq vilayətin yerli müsəlmanlarının ayrı-ayrı xalqlarının fəhlələrinin sayı belə qoyulacaqdır: qırğızlar – 38 000 nəfər, tarançinlər – 3 400 nəfər, dunqanlar – 600 nəfər, sart-kalmıklar – 100 nəfər, sartlar – 400 nəfər fəhlə.

6 uyezd arasında vilayətlər aşağıdakı kimi bölünür:

| Uyezdlər | Qırğızlar | Tarançinlər | Dunqanlar | Sart-kalmıklar | Sartlar | Cəmi |
|---|---|---|---|---|---|---|
| Vernı | 7120 | 1800 | - | - | 80 | 9000 |
| Kopal | 7480 | - | - | - | 20 | 7500 |
| Lepsin | 6000 | - | - | - | - | 6000 |
| Carkənd | 4260 | 1600 | 100 | - | 40 | 6000 |
| Prjevalsk | 7500 | - | 150 | 100 | 110 | 6500 |
| Pişpək | 7500 | - | 350 | - | 150 | 8000 |

***Podpolkovnik məsləhətçisi Qusev***[1]

**7 (20) 09 1916.**

**Yeddisu vilayəti Vernı hərbi qubernatorundan Prjevalsk uyezd başçısı polkovnik İvanova Yeddisuda səfərbərliyin təxirə salınması barədə**[2] **teleqram**[3]

General Kuropatkinin 220 saylı göstərişi ilə Yeddisuda fəhlələrin müsadirəsi sakitlik yaranana qədər təxirə salınmışdır. Türküstanın digər vilayətlərində müsadirə sentyabrın 15-dən başlanacaqdır.

**Folbaum**

**Prjevalsk uyezdinin 3-cü sahəsinin dövlət məhkəmə hakimi V.N.Runovski tərəfindən şahid general-mayor Y.M.Korolkovun qırğızların üsyanının səbəbləri və gedişatı barədə dindirmə protokolundan**[4]

---

[1] Folbaumun "Təsdiq edirəm" qətnaməsi.

[2] Teleqram Lepsins uyezdinin başçısına, surətləri isə Carkənd, Kapal, Pişpək qarnizonlarının rəislərinə göndərilmişdir.

[3] Qazax.SSR MDTA. F. 44, siyahıyaalma 2, iş 16928, v. 304. Əslidir.

[4] Qırğız.SSR MDA. F. 75. iş 17, v. 12-18. Surətidir.

Şahidi dindirmə PROTOKOLU

**01.10.1916.**

Prjevalsk uyezdinin 3-cü sahəsinin, Vernı dairəsinin dövlət məhkəmə hakimi aşağıda adı çəkilən şəxsi Cinayət məhkəmə kargüzarlığı məcəlləsinin 443-cü maddəsinə uyğun şahid qismində dindirmiş və dindirilmiş söyləmişdir:

***Yaroslav İvanoviç Korolkov, istefada olan general-mayor, Prjevalskda yaşayıram, 73 yaşım var, pravoslavam, savadlıyam, ittiham olunmamışam***

Ümumiyyətlə, qırğızları (qazaxlar və qara-qırğızlar) xeyirxah, kinsiz, qonaqpərvər, müdiriyyətin cigitindən tutmuş müdirinə qədər hamısına böyük hörmət bəsləyən bir xalq kimi görməyə vərdiş etmişəm. Yeddisunun təkcə dağlarında at belində 13 000 verstdən çox yol gəzmişəm. Hər yerdə məni yaxşı qəbul etmişlər. Hər yerdə gecələməyə yer tapmış və əllərində olan yeməyi bölməyə hazır ev sahibləri görmüşəm. Heç zaman dağlarda silahla gəzməmişəm. Qılıncım məni müşayiət edən cigitimin belinə bağlı olmuşdur. Rus əhalisi ilə qırğızlar arasında olan münasibətə gəldikdə isə, deyə bilərəm ki, ünsiyyət, ümumi götürəndə yaxşı olmuşdur, fəqət torpaqdan istifadə məsələsində siyasətimizdəki səbatsızlıq və hətta Çöl Nizamnaməsinin özünün qoyuluşundakı mahiyyətin uğursuzluğundan tutmuş sənədin bəyan edilməsi sonradan bir çox qanlı toqquşmalara gətirib çıxardı, fəqət qırğızlar bu mücadilədə cəfakeş tərəf idilər.

Məsələ burasındadır ki, bizim kəndlilərimiz Çöl Nizamnaməsinin bəyanatına qədər, 15.10. tarixinə qədər mütləq tarladan buğdanı toplayıb aparmalı idilər, çünki qırğızlar həmin tarixdən etibarən bütün zəmi sahələrindən yaşıl ot üçün istifadə etmək hüququ alırdılar. Mənə elə hallar məlumdur ki, uyezd məhkəmələri həmin ərəfələrdə kəndlilərin, biçənəyin tələf edilməsi barədə qırğızlara qarşı sürülmüş iddia tələblərinə, qırğızlar mal-davarlarını həmin biçənəklərdə oktyabrın 15-dən sonra otardıqları sübut olunduqda, kəndlilərə rədd cavabı vermişlər.

Şayiələr gəzirdi ki, Preobrajensk kəndindən olan bəzi kəndlilər biçənəyə mal-qara buraxmış qırğızları tarlada öldürmüş və cəsədləri Tüp çayına və ya gölə buraxmışlar. Bu sayaq söz-söhbətlər Kurmentin monastırı barədə də gəzirdi: monastırda külli miqdarda quru ot hazırlanıb tayalara vurularkən, qırğızlarda “cut” olanda, qonşu vilayətin qırğızları onların quru otundan, payızda artıqlaması ilə qaytarmaq şərti ilə, istifadə etməyə icazə istəyibmişlər, lakin etiraz cavabı almışlar.

Ot-ələf qıtlığı qırğızları möhtac qoyub monastırın quru otuna əl atmağa vadar edəndə, rahiblər tərəfindən həm heyvanlara, həm də insanlara atəş açılmışdı. Əlbəttə, rus xalqının nümayəndələrinin qırğızlara belə münasibəti bu iki xalq arasında xoş əlaqələr üçün əsas ola bilməzdi. Bununla bahəm, deyə bilmərəm ki, bizim aramızda münasibətlər pisdir. Rus kəndliləri burada bir qədər varlandıqdan sonra qırğızlardan fəhlə qüvvəsi kimi geniş istifadə etməyə başladılar. Preobrajensk kəndinin kəndlilərinin birinin təbirinə görə, “burada Rusiyadakı kimi deyil, burada ən əfəl-aciz kişi də öz evində nökər-qırğız saxlayır”. Əlbəttə, təbii ki, bütün məmurların və ticarət adamlarının kişi nökərləri qırğızlardan ibarət idi. Bəzən hətta qadın qırğız qaravaşlara da rast gəlinirdi.

Çöl Nizamnaməsinin qəbul edilməsi torpaqdan istifadəyə baxış bucağını dəyişdirdi. Bir tərəfdən, həmin vaxtda artıq torpaqlar gəlmələr tərəfindən bölüşdürülmüş və mərzlənmişdi, digər tərəfdən, kəndlilərə çatmayan torpaq qırğızlardan artıq icarəyə götürülürdü və bu səbəbdən, zəmilərə biçindən sonra mal-qaranın otarılmağa buraxılması sanki qanuni əsaslarla bitmişdi.

Lakin vilayətdə Dövlət Əmlak Nazirliyinin əməkdaşları peyda olmağa başladılar. Əvvəlcə bunlar meşəbəyilər idi. Vaxtın sonunda İssık-Kul sahillərində qismən Turgenev vilayətinin qırğızlarından icarəyə götürülmüş bağ qəsəbəsi ucaldı. Meşəbəyi tərəfindən bu torpaqları qırğızların əlindən Dövlət Əmlak Nazirliyinin xeyrinə almaq üçün iş qaldırıldı. Səhra general-qubernatorun qırğızlara bu torpağı nazirliyə güzəştə getməyi təklif kimi irəli sürəndə, qırğızlar razılıq verməmiş və bunu onunla əsaslandırmışdılar ki, torpaqdan ötrü icarə pulu alırlar. Eşitdiyimə görə, general-qubernator bunun baş vermə səbəbini

qırğızları həmin güzəştə getmək üçün inandıra bilməməsində görərək, dərkənarında bu mülahizəni təsdiqləmişdi. Qırğızları, şübhə yeri yoxdur ki, "inandırdılar".

Və artıq o zaman (1897-ci il) dövlət tərəfindən müddətsiz istifadəyə verilmiş kimi tanınan torpaqların qırğızlardan alınmasına başlanıldı. Sonra Köçürülmə İdarəsinin üzvləri zahir oldular. Yeddisu vilayətində həmin təşkilatın məmurlarının nalayiq davranışı barədə üç-dörd il bundan qabaq "Sovremennik" *("Современник")* dərgisinin nömrələrinin birində çap olunmuş məqalədə ərz edilmişdir. Mən bildiyimə görə, məqalə cavabsız qalmışdı. Mən burada həmin idarənin bəzi məmurlarının vicdansız hərəkətlərini xatirlamıram, amma elələri də cərəyan etmişdi...

...İyulda bəlli olanda ki, qırğızları fəhlə qüvvəsi kimi çağıracaqlar, bir qədər təşviş qalxdı. Qarqarada gözlənilən çağırışla bağlı baş vermiş çaxnaşmalar barədə söz-söhbət buralara da çatmışdı. Şayiə yaydılar ki, guya qırğızlar adamlarını fəhlə qüvvəsi kimi verməyəcəklər. Hətta belə şayiə də yayılmışdı ki, qırğızlar öz təbirlərinə görə "cəncəl"[1]qaldırıb səs-küy qopardacaqlar. Onu da sezdim ki, görüşlərdə mənə nəzərəçarpacaq dərəcədə az təzim edirlər. Bunlara rəğmən, buradakı əhalidən tiryək qəbul edən kimyəvi laboratoriya onu dəstə-dəstə gətirənlərin əlindən zinhara gəlmişdi.

Tiryəyi təhvil verənlərin böyük hissəsi qırğızlar idilər, sonra sayına görə dunqanlar gəlirdilər, daha sonra isə ruslar. Tezliklə təlatümlər səngidi. Uyezd başçısından eşitdiyimə görə, qırğızlar da, dunqanlar da bəyan edibmişlər ki, onlar fəhlə verəcəklər. Bu azmış kimi – qırğızlar təyin olunan yerə, Cəlalabad kəndinə Prjevalsk uyezdindən yığılacaq 9 000 fəhlənin hamısını atla, Kuqarta dağdan keçməklə göndərməyi təklif etdilər ki, həmin 9 000 nəfər miniyin atlarından Cəlalabadda hərbi-süvari mükəlləfiyyətə müvafiq təhvil veriləcək 6 000 at seçilsin. Yolüstü yetərincə qoyun, çörək, carma və at yemi ilə təmin olunmuş gecələmə məntəqələri təşkil etmək təklifi sürülmüşdü.

---

[1] Cancal – cəncəl, qalmaqal.

Heç bir şübhə yoxdur ki, yuxarıda haqqında danışdığım qırğız və rusların torpaq bölgüləri, sonradan qırğızların əlindən torpaqların alınması, qırğızların üsyanına qalxmasında, çox da olmasa, öz rolunu oynamışdır. Onların cəbhə işinə çağırılmaları ilə bağlı narazılıq (hətta qırğızlardan bəziləri bu cəhdə onların əsgər aparılması kimi baxırdılar) daha bir əlahiddə səbəb idi. Nəhayət, Şabdanın oğlanlarından birinin prjevalsklı qırğızlara xitabən ünvanlanmış məktubu gəldi. Oğlan sarıbağışların uğurla başladığı və Pişpəklə Tokmakın müvəffəqiyyətlə məhv edilməsi (namədə yazılana istinadən) və dövlətə mənsub ilxının ələ keçirilməsi barədə yazıb qırğızları ümumi işdə dəstək durmağa səsləyirdi.

Bu məktub qırğızların səbir kasasını dolduran və ayağa qalxmasına təkan verən son damla oldu. Məktub, özü də qara-qırğızların arasında xüsusi hörmət sahibi olan Şabdan kimi birisinin oğlu tərəfindən yazılmış, özündə sanki artıq vaqe olmuş böyük-böyük uğurları əxz etdirən məktub kütləni cəlb edib şirnikləndirməli idi. Sözsüz, sarıbağışların tərəfində dayanmaq ideyası qırğızlar arasında xüsusi hörməti olan, məs., ən azı Batırbəy kimi şəxslər tərəfindən qızğınlıqla dəstəklənirdi.

Mariinsk kəndinin dunqanlarını yerindən oynadaraq qırğızlara qoşan səbəblərdən mən hali deyiləm. O xatirimdədir ki, 1882-ci ildə bu dunqanlar Çində qırğınlardan qaçaraq bura pənah gətirdilər, bir qismi Mariinsk kəndində, bir qismi şəhərdə məskunlaşdılar. Həmin dövrdən etibarən, dunqanlar əməksevərlikləri və gözüaçıqlıqları ilə varlandılar. Belə zənn etmək olardı ki, yaşadıqları furavanlığa, yaxşı rifahlarına görə rus hökumətinə minnətdar olmalıdırlar. Lakin bir xırdalığa diqqət çəkmək lazımdır ki, onların icmalarında daimi çəkişmələr, firqələrin ikitirəliyi, nifaqı hökmfərma idi. Üstəlik, on il bundan qabaq firqələrin seçki mübarizəsi möhtərəm bir dunqanın, səhv etmirəmsə, Matyanşin Maşanlonun qətli ilə nəticələnmişdi.

Maşanlonu qətlə yetirmiş firqənin rəhbəri həmin vaxta qədər vilayət başçısı idi və növbəti dörd ildə də vəzifə başında qalmaqdan ötrü seçki siyahılarına çoxlu sayda Çin təbəələrinin adını yazmışdı. Çox mümkündür ki, həmin vilayət başçısının (soyadını xatırlamıram), ha-

belə onun valisinin səhlənkarlığı ucbatından Çin təbəələrinin sayı, o qədər artıbmış ki, onlar Mariinsk kəndinin dunqanlarının bir hissəsini qırğızlara qoşularaq yolda rastlarına çıxan rusları döymək üçün yola gətirə bilibmişlər. Sonra əhalinin rus hissəsi tərəfindən onların ağsaqqallarına qarşı məhkəməsiz cəzalandırma tətbiq edilməyə başlananda, bu sayaq özbaşına məhkəmə qorxusu qətiyyətsizləri əvvəlcə özününkülərə qoşulmağa, sonra isə onlarla çıxıb getməyə sövq etmişdi.

Dunqanlar tiryək məsələsində əvvəllər də nəzərəçarpacaq əhəmiyyət daşımışdılar. Həmişə onların torpağında bundan əqdəm də xaşxaş əkilir və tiryək əldə edilirdi. Tiryək əksər hissəsi etibarilə qaçaqmalçılıq yolu ilə Çinə aparılırdı. Bu ilin yayında isə dunqanlar güclü surətdə tiryəkə qurşanmışdılar. Hətta belə sözlər də eşitmişəm ki, bəzi dunqanlar söhbətlərdə iştirak edən rusların dil bilməməsini ehtimal edərək, qırğızlara tiryəki onlara deyil, xəzinəyə verəcəkləri təqdirdə hədə-qorxu gəlibmişlər.

Yuxarıda qırğızların əlindən torpaqların alınması səbəbini indiki üsyanın səbəblərindən biri olduğunu göstərmişdim. Qətiyyən zənn etmirəm ki, torpağı onlardan almaq lazım deyildi. Qırğızlar heç əvvəllər də torpaq dalınca çox qaçan deyildilər. Onların torpaqları həddən ziyadə çox idi. Qırğızlar torpaqlarını onlardan icarə istəyən hər kəsə həvəslə verirdilər. Sonuncu məqamın parlaq təsdiqi kimi, təkcə rus əhalisinin deyil, başqalarının da istifadə etdiyi uzun müddətə (30 illiyə) verilmiş çoxsaylı icarələri göstərmək olar. Bundan başqa, onlar torpaqların müəyyən hissəsinin tutulmasına qarşı müqavimət göstərmirdilər. Buna bariz nümunə kimi, neçə onilliklərdir, göl ətrafındakı bağ sahələrini göstərmək olar. Və hərgah bunlara rəğmən, hər halda, qırğızların narazılıqları cəmlənib toplanmışdısa və bura torpaqların tutulmasını da əlavə etmişdilərsə, düşünmək lazımdır ki, buna səbəblərdən biri, Yeddisu köçürülmə bölgələrindən birinin başçısı tərəfindən qoyulmuş prinsip olmuşdu. Bu prinsip, onun itaətində olan məmurların qabiliyyətlərini qırğızların əlindən alınacaq ərazilərin lahiyələşdirilməsinin miqyasından asılı olaraq qiymətləndirməsi imiş. Belə ki, Köçürülmə İdarəsinin rəhbərlərinin özlərinin etiraflarına görə, müəssisənin sıravi əməkdaşları

nə zəruri ağıl, nə dərrakə, nə təhsilə malik olmayan bəndələrdən ibarət olduğuna görə, təbii ki, bu cür işçilər müdiriyyəti qane etmək üçün əllərindən gələni əsirgəmirdilər və həddi aşaraq, heç nəyin ağına-bozuna baxmırdılar.

**21.10. (03.11.) 1916.**

**Şahid Belovodsk sahə pristavı İ.Q.Qribanovskinin Pişpək uyezdi 4-cü sahənin dövlət məhkəmə hakimi tərəfindən Pişpək uyezdində arxa cəbhədəki işlərə səfərbərliklə bağlı siyahının tutulması ilə əlaqədar iğtişaşlar barədə dindirilmə protokolundan**[1]

İosif Georgiyeviç Qribanovski – Belovodsk sahə pristavı – fəaliyyətdə olan orduya arxa cəbhədəki işlər üçün qırğızlardan ibarət fəhlələrin toplanması haqqında əlavə göstərişi Belovodsk kəndində bu il iyulun 3-də almışam və elə həmin gün göstəriş tərəfimdən kənd rəhbərlərinə çapar vasitəsi ilə ötürülmüşdür ki, vilayət kattaları, kəndxudalar, vəzifəli şəxslər və mirzələr iyulun 5-də müvafiq təlimatları almaq üçün yanıma gəlsinlər və 05.06. tarixində bütün çağırılanlar gəldilər. Cəmi üç yüzə qədər adam gəlmişdi ki, onlardan da yetmişi vəzifəli şəxs idi. Onlar hamısı mənim həyətimdə toplaşmışdılar və orada tərəfimdən hamısına eyni zamanda səfərbərlik haqqında sərəncam elan olundu. Mən özüm qırğız dilini bilirəm və əmrin məzmununu şəxsən bəyan etdim. Bir çox izahatlarımdan sonra qırğızlardan kimsə soruşdu: möhlət barədə teleqram göndərilməsi mümkünmü, çünki, qırğızlar buna hazır deyillər, onlar öz uşaqlarını on yaşından təhsilə verməyə hazırdırlar ki, təhsil aldıqdan sonra orduya çağrılsınlar. Cavab verdim ki, qırğızlar əsgərliyə çağrılmırlar, fəhləliyə aparılırlar, bundan ötrü heç bir təhsil-filan lazım deyil və qırğızlar qeyd-şərtsiz və dəqiqliklə əlahəzrətin iradəsini yerinə yetirməlidirlər. Bundan sonra səslər ucaldı: “Hərgah əmr verilibsə, biz razıyıq, buna qarşı getməyəcəyik, hamını götürün”. Mən möhlət haqqında teleqram göndərməyi xahiş edən qırğızın adını indi deyə bilmərəm, lakin sonra söylərəm. Qırğızların etirazı məni nar-

[1] Qırğız.SSR MDA. F. 75, siyahıyaalma 1, iş 18, v. 27-32. Əslidir.

ahat etdi və onları qovdum. Vilayət başçılarını və hörmətli qırğızları öz yanıma çağırarkən, bildirişdə nəyə görə onları topladığımın səbəbini deməmişdim. Möhlət haqqında danışanın öz şəxsi fikrini ərz etdiyini, yoxsa orada toplaşanların ümumi sözünü izhar etmək üçün vəkil olunduğunu təsdiqləyə bilmərəm. Yanıma gələn qırğızlar əlahəzrətin qərarından xəbərdar idilər, yoxsa şəxsən məndən bu barədə xəbər tutdular, söyləyə bilmərəm.

Qırğızlarla söhbətdə Canqaraçevsk vilayət koxası Samarkul Canqaraçev kömək edirdi, onunla da söhbətdən əvvəl mövzu barədə danışmamışdım. Qırğızların çağırışı ilə əlaqədar qırğızlarla bu yığıncağıma plan hazırlamışdım və ondan yalnız mirzələr xəbərdar idilər. O planda çağırışçıların siyahısının tutulmasından, toplanış məntəqələrinə gəliş qaydasından və yayınanların məsuliyyətindən bəhs edilirdi. İyulun 15-də hərbi qubernatorun çağırış texnikasının izahatı barədə teleqramının surəti tərəfimdən alındı. Tərtib etdiyim plan bu izahatla üst-üstə düşürdü. Elə həmin teleqramda işin bitmə vaxtı iyulun 25-nə təyin edilmişdi, başqa sözlə, iyulun 25-də bütün siyahılar artıq Vernı şəhərində olmalı idi.

Buna müvafiq, vilayətdəki siyahıların mənə iyulun 20-də çatdırılması barədə göstəriş verdim. İyulun 14-də mənə xəbər çatdırıldı ki, Pişpək uyezd başçısı iyulun 20-də Belovodsk kəndinə gəlir. Mənim sahəmin bütün vilayətlərindən min nəfərə yaxın qırğız toplaşdı. Uyezd başçısı qırğızlarla rus dilində danışırdı, qırğız dilinə, deyəsən, Canqaraçayevsk vilayət koxası tərcümə edirdi. Qırğızlar tərəfindən hər hansı nəzərə çarpan çıxış, hərəkət görünmürdü. Onlar nədən ötrüsə uyezd başçısına yan alırdılar, amma məhz nəyə görə, eşidə bilmədim, belə ki, kənara çəkilməli olmuşdum.[1] Hərgah qırğızlar nə isə diqqətəlayiq bir şey barədə danışsaydılar, uyezd başçısı, sözsüz ki, mənə işarə vuraraq xəbərdar edərdi. Uyezd başçısı ilə söhbətdən sonra qırğızlar sakitcə dağılışdılar və onların əhval və davranışlarında heç bir dəyişiklik nəzərə çarpmadı.

---

[1] Əslində belə getmişdir.

Əlahəzrətin qırğızların işə çağırışı ilə bağlı sərəncamından sonra fəhlə qırğızlar öz sahibləri rusların, dunqanların, qırğızların evlərini tərk etməyə başladılar. Mən bunu normal hesab edirdim, çünki fəhlələr əsasən, çağırış yaşında olan qırğızlar idilər, onlar tutulmuş siyahıya düşmək və arxa cəbhədə işlərə hazırlaşmaq üçün kənd icmasına gəlməli idilər. İyulun 20-də daha bir teleqram aldıq ki, təyin olunmuş qırğızlara arxa cəbhədəki işləri tərk etməmək tapşırılır, çünki çağırış gününə hələ uzun müddət vaxt qalmışdır. Bu göstərişə uyğun olaraq vilayət başçılarına tapşırıqla müraciət etdim ki, çıxıb gedən qırğızlara öz əvvəlki sahiblərinin yanına qayıtmağa təsir göstərsinlər, çünki çağırış hələ yaxın müddətdə olmayacaqdır. İyulun 26-da tərəfimdən yeni tapşırıq alındı ki, çağırışçıların adları olan qeydiyyatın tərtibatı avqustun 5-də bitməlidir. Qərarın avqustun 4-dən gec olmayaraq mənə təhvil verilməsi şərtilə yeni göstəriş elan etdim. Təyin olunan günə yalnız Canqaraçayevsk vilayətindən bildiriş gəldi, digər vilayətlərdən isə yalnız 9 siyahı göndərildi, deyəsən, ancaq Camansart və Tleuberdin vilayətlərindən bildirişlər gəlməmişdi.

Tleuberdin vilayətindən, hər halda, dörd kənd istisna olmaqla bildirişlərin hamısı gəlmişdi, Camansart vilayətindən isə heç bir bildiriş göndərilməmişdi. Ləngimə onunla izah edildi ki, əhalinin başı həmin ərəfədə atların müsadirəsinə qarışmışdı və mirzələr qaib idilər. Mənə bəlli olan məlumatlara görə, Camansart vilayətində də siyahılar tutulubmuş, amma mirzələr olmadığından köçürülməmişlər. Camansart vilayətindən siyahı bildirişləri iğtişaşlar sakitləşdirildikdən sonra daxil olmuşdu. Tleuberdin vilayətinin yuxarıda adı çəkilən dörd kəndi imkan tapmadıqlarına görə deyil, istəmədikləri səbəbindən siyahı tutmaqdan imtina etmişdi.

Avqustun 2-də hərbi qubernatorun teleqramını aldım: “hərgah yerli şəraitə münasib hesab edirsinizsə, belə olan təqdirdə, hər rus kəndində kəndlilərdən və kazaklardan özünümüdafiə və kəndin mühafizəsi məqsədilə xüsusi gecə kəşfiyyat dəstələri üçün drujinalar yaratmağa icazə verirəm. Silahlanma, kəndlilərdə nə varsa, onunla həyata keçirilməlidir, lakin bu təhlükəsizlik tədbiri artıq səs-küy salmamaq üçün

ehtiyat tələb edir”, avqustun 8-də isə Pişpək uyezdinin komendantı Pisarjevskidən sərəncam alınmışdır: “bütün kəndlərdə, qubernatorun teleqramında göstərildiri kimi, qeyd-şərtsiz drujinaçılar yaradılsın”. Bu teleqramlara isnadən, dərhal tərəfimdən drujinaçı dəstələr yaradıldı. Eyni zamanda, qarnizon rəisinə teleqrafla bildirdim ki, mənim sahəmdə hərtərəfli sakitlikdir. Həmin teleqramı avqustun 9-da göndərmişdim. Qırğız kattaları, kovxaları və hörmətli şəxsləri ilə sonuncu dəfə avqustun 9-da söhbət aparmışam. Fəhlə qırğızların təyinat yerlərinə aparılma üsulu ilə bağlı məsələni araşdırdıqda isə, qırğızları xəbərdar etdim ki, özlərini sakit aparsınlar və rus əhalisini incitməsinlər, əks halda, qırğızlara qarşı silahlı qüvvə tətbiq ediləcəkdir.

Mənim sahəmdə avqustun 10-a qədər sakitlik idi. Belovodskda şəxsi rəhbərliyim altında drujina təşkil edilmişdi, digər yerlərə isə, həmləni dəf etmək üçün kimdə hansı silahın olmasının aşkara çıxarılması və tədbirlərin görülməsi üçün gizli təlimat göndərilmişdi. Silahların və drujina üzvlərinin siyahısı tərtib edilmişdi. Belovodskdakı toplantıda drujinanın yığılmasına dair kəndlilərə şəxsən özüm izahat verdim. Silah faktiki olaraq yoxlanılmırdı və toplanışa heç kim silahla gəlməmişdi. Durjinalara rəhbərlik hərbi qüvvələrdə xidmət keçmişlərə həvalə olunurdu. Avqustun əvvəlində mən atların müsadirəsi ilə məşğul idim. Səfərbərlik avqustun 2-də sona yetməli idi, fəqət atların mənzil başına çatdırılması gedişatı yaxşı təşkil olunmadığı və gətirilmiş atların arasından çox yüksək çıxdaşlıq seçildiyi səbəbindən səfərbərlik avqustun 12-dək uzandı.

Tleuberdin vilayətində iğtişaşların necə başlanması barədə artıq ifadə vermişəm. Avqustun 12-də Tleuberdin vilayətində saxlanılan 138 qırğızı dindirərkən, kəndlər üzrə bölünmüş qırğızlar belə cavab vermişdilər: bir qrup demişdi ki, onlar sərəncamda nəzərdə tutulan gənclərin dəstəyə yığılması üçün nəticə tərtib edilməsi ilə bağlı toplaşıblar və tələb edirlər ki, fəhlələr nəticə ilə deyil, siyahı ilə götürülsünlər və nəticə tərtib etməyə imkan verməmişlər. Digərləri demişdilər ki, nəticələr tərtib etməklə razı deyildilər, çünki varlıların övladları bu nəticələrə aid edilmirdilər və fəhlələrin siyahılara istinadən verilməy-

inə razılaşmışdılar. Üçüncülər demişdilər ki, fəhlələrin yığım barədə sərəncamı ilə bağlı nəticələrə möhür vurdurmağa getmişdilər və s. Bu izahatlara inanmadım, çünki kəndxudalar bu barədə mənə heç bir xəbər verməmişdilər və eləcə də Tleuberdin kattasının söylədiyinə görə, Tleuberdin vilayətinin dörd kəndinin nümayəndələri toplantılarında nəticələri verməmək qərarına gəlmişdilər, bu səbəbdən də tutulub saxlanılmış 138 qırğızı həbsə almağa qərar verdim.

Həbsə alınanlar Belovodsk vilayət idarəsinin üç həbs otağında yerləşdirildilər. Mənim yanımda həbsə alınmışlar öz aralarında ərzaq üçün pul topladılar. Bu pul kimə verildi, azuqə alındımı, xəbərim yoxdur. Həbsə aldıqlarım mənə aclıqdan şikayət etməmişlər. 13.08. tarixdə 138 nəfər həbsə alınmış Pişpək həbsxana rəisinə ünvanlandı. Həbsə alınanların Pişpəyə bir günə çatdırılmasına dair sərəncam verilməmişdi, əgər həbsə alınanlar bir gün ərzində Pişpəyə çatdırılmışdılarsa, bu ona görə baş tutmuşdu ki, yolüstü vilayət idarələrində kifayət qədər geniş həbs məkanları yox idi. Pişpəyə böyük partiya ilə dustaqların göndərilməsi barədə xüsusi göstəriş verməmişəm.

**28.10. (10.11.) 1916.**

**Mühəndis Tınışpayevin Türküstan general-qubernatoru Kuropatkinə Kəməl və Aman Şabdanovların üsyanda iştirakı barədə məlumatı**[1]

Şəxsi əmrinizi yerinə yetirmək üçün Şabdan Cantayevin uşaqlarının üsyanda iştirak etməsi ilə əlaqədar Şabdanın həyatının son illərində baş vermiş hadisələr barədə zati-alilərə xəbər çatdırmağı özümə şərəf bilirəm. 1908-ci ildə Şabdanın aulunda yaşayan sakinlərlə birgə Ak-Piket adlanan və istifadəsində olan suvarılan torpaqlardan kifayət qədər böyük hissə müsadirə edilərək götürülmüşdü. 1909-cu ildə Sultan Dolbayev adlı birisi Şabdanovla firqə nifaqları ucbatından onun aul əhalisi ilə birlikdə başqa xüsusi bir vilayətə (Atekin) köçürülmək haqqında ərizə vermişdi. Qarışıq torpaqdan istifadəyə rəğmən, (Çöl Nizamna-

---

[1] Qazax. SSR Oktyabr İnqilabı Mərkəzi Arxivi (OİMA), F.76, siyahıyaalma 11, iş 2140-a, şəhad.92, v. 426-426 ob. Əslidir.

məsinin 67-ci bəndi) Dolbayevin vəsatətnaməsi qəbul olunmuşdu.

Xüsusi tapşırıqlar üzrə baş məmur Prokopovun apardığı məxsusi təhqiqat Dolbayevin şikayətini təsdiqləmədi; bununla belə, Şabdana da eyham vuruldu ki, onun dövranı artıq getmişdir. 1910-cu ildə general Samsonov general İonovun Şabdana Ak-Piketdə miras qalacaq 400 desyatin torpaq ayrılması barədə vəsatətnaməni müdafiə etməyə vəd verdi. Şabdanın özünün ölümündən sonra isə Köçürülmə İdarəsi Kiçik Kəbəndə[1] olan bu torpağın – Samsonov kəndinin – ələ keçirilməsinə başladı; arıçılıq və xutorların inşası məqsədi ilə çoxlu topraq mənimsənildi.

Son üç il ərzində Şabdanın oğlanlarından biri yenə vilayət başçısı seçilmişdi. Şabdanın qardaşı Alagöz vilayətdə yeni torpaq bölgüsü keçirmək fikrinə düşmüşdü. Uyezd başçısı qarışıq torpaq istifadəsinə görə bölgünün yolverilməz olduğunu bildirdi. Vilayət rəhbərliyi Alagözün iradına tərəfdar durdu və hər nəyin bahasına olursa-olsun, Şabdanovların cilovunu çəkmək qərarına gəlindi. Uyezd başçısından savayı bu işləri yoxlamaq onun köməkçisi Rımşeviçə həvalə olundu və o da Alagözün şikayətini əsassız hesab etdi.

İğtişaşlar başlananda, ilk olaraq Atekin vilayətindən, yuxarıda qeyd edildiyi kimi, Şabdanovskdan (Sarıbağış) olan qırğızlar qalxdılar. Üsyana qalxan qırğızlar Şabdanovlara qarşı rus hakimiyyətinin törətdiyi bütün pislikləri xatırlatdılar və bir qədər tərəddüddən sonra Mokuş Şabdanov da onlara qoşuldu. Kəməl Şabdanov qardaşı ilə birlikdə bütün bu əlverişsiz şəraitə baxmayaraq, son ana qədər onların qərarına qarşı mübarizə aparıbmış və hətta mənə deyilənlərə görə, başlanğıcda onlar Novorossiysk qəsəbəsini də qoruyurmuşlar. Təlatüm dalğası Pişpək uyezdinin bütün şərq hissəsini dövrələyəndə, Kemel və Aman Şabdanovlar haqqında xəbərlər kəsildi. Şabdanov qardaşlarının bu sayaq hərəkətləri barədə uyezd idarəçiliyində də analoji məlumatlar vardır.

---

[1] Kiçik Kəmin.

**06. (19). 11.1916.**

**Kənd təsərrüfatı təlimatçısı Qaraköşün Prjevalsk uyezdi 3-cü sahənin dövlət məhkəmə hakiminə üsyanın səbəbləri haqqında ifadəsindən**[1]

... Üsyanın səbəbi kimi bunları hesab edirəm: 1) torpaq məsələsini, başqa sözlə, qırğızların əlindən, demək olar ki, əkin-biçinə yararlı torpaqların hamısının alınmasını. Qırğızların əlindən əvvəl meşələrin, sonra isə kolluqların (Türgən vilayəti) xəzinənin xeyrinə tam mülkiyyət hüququ ilə alınması. Bunun ucbatından qırğızlar öz mal-qaralarını həmin yerlərdə otarmaq imkanından məhrum oldular. Qırğızların torpaqlarına, suvarmanı yaxşılaşdırma sarıdan, heç kim məhəl qoymurdu. 2) aşaği dərəcəli inzibatçıların, mühafizəçilərin, onbaşıların və b. qırğızların hesabına yaşayanların münasibəti...

**1916-cı il (ilin sonu)**

**Üsyanın başçılarından biri Kanaat Abukinin – Pişpək uyezdinin Abaildin vilayətinin qırğızının üsyanın qalxmasının səbəbləri üzrə məsələlər haqqında ifadəsindən çıxarış**[2]

**(Birinci çıxarış)**

Mən öz ictimai fəaliyyətimə 25 yaşımdan başlamışam, xalq idarəçiliyi sahəsində müxtəlif vəzifələr tutmuşam. Xidmətimin ilk illəri seçkilərlə bağlı, rus sakinlərlə münasibət yaxşı idi – nə mübahisə, nə də digər anlaşılmazlıq olmurdu. O dövrdə uyezd rəhbərliyi seçki işinə müdaxilə etmirdi. Vəzifəyə xalqın inamını qazananlar seçilirdi. Pişpəkdə də qırğızların maraqlarını müdafiə edən uyezd başçısı Zatinşikov öz vəzifəsindən gedənə qədər işlər belə davam edirdi. Altı il bundan əvvəl uyezd başçısı vəzifəsinə podpolkovnik Putintsevin gəlməsi ilə seçkilərin istiqaməti dəyişdi, yəni, məhz müdiriyyətin təzyiqi ilə yalnız varlı şəxslərin seçilməyi başlandı. Hər şey belə cərəyan edirdi: varlı şəxslər Putintsevə, Tokmak sahə pristavı – Kutukova yaxın adamlar idilər, ondan sonra Bayqulov, polis bölməsinin rəisi Menşikov gəlir-

---

[1] Qırğız. SSR MDA. F. 77, iş 2, v. 14, 14 ob. 15. Əslidir.

[2] Qırğız. SSR MDTA. F. 75, iş 48, v. 17-21. Surətidir.

dilər və bu müdirlər varlı adamların mənafeyinə uyğun olaraq seçkiyə öz təsirlərini göstərirdilər. Belə uyezd rəisinin təzyiqi altında Aşir Özbəyov Tolkan vilayətində uyezd başçısı, Dardail Abdulin isə Camansart vilayətində seçilərək vilayət başçısı oldular. Bu şəxslər məxariclərini xalqdan çıxarmağa başladılar. Hamıya bəlli idi ki, onlar uyezd rəisinə pul verirdilər. Belə ki, həmin vilayətlərdə xüsusi təyinatla, məhz uyezd rəisi üçün "çıqım"[1] adı altında vergi yığılırdı.

Uyezd başçısı Putintsevin və sabiq pristav Kutukovun təzyiqi altında Türkpen İsarpəyov Susamır vilayətinin başçısı keçdi və həmin vilayətdə də Putintsevlə Kutukov üçün "çıqım" toplanmağa başlandı. Deməyi unutdum ki, Dardail Abdulin rəhbərlikdə müddəti bitdikdən sonra Pişpək uyezd idarəçiliyndə tərcüman keçdi. Pristav Bayqulinin təzyiqi altında vilayət başçısı vəzifəsinə keçdilər: Abaildin vilayətində Manapovun oğlu, Temirbulat vilayətində Mamonkul Esinaliyev, Susamır vilayətində Kudaybergen Rahimbəyov – bunlara Putintsev, Bayqulov və polis bölməsinin rəisi yardımçı olurdular. Sarıbağış vilayətində Putintsev və Bayqulov Şabdanın xeyrinə əhaliyə təzyiq göstərirdilər. Təzyiq altında Atekin vilayətinə Baimbet Boronbayev keçdi. Bu təzyiq ondan ibarət idi ki, aul seçkiləri zamanı namizədlər vilayət başçısı seçilərkən, seçkilərə rəhbərlik edən uyezd rəisi və ya pristavın göstərişi ilə həmin seçki tənzimlənir. Görəndə ki, xalqın böyük hissəsi əleyhidarın tərəfindədir, cigitlərin köməyi ilə seçiciləri çaşdırır və öz himayələrində olan firqəni çoxunun səs verdiyi kimi tanıyırlar.

Beləliklə, bu minvalla "çoxu"nun adından "Çöl Nizamnaməsi"nə müvafiq bütün seçilməli olunanlar əks tərəfin lehinə verilən səslərin hesabından asılı olmayaraq seçilirdilər və seçilənlər 50 alaçıq sahibinə bir səslə hesablanırdılar – hamı çoxluqla seçilirdi. Beləliklə, vilayət toplanışlarında da seçicilər uyezd rəisinin və ya pristavın havadarlıq etdiyi şəxsin tərəfində dururlar. Müdiriyyət üçün "çıqım" bütün alaçıq sahiblərindən toplanılır. Məsələ ondadır ki, müdiriyyətə pul seçkiyə qədər ödənilir, artıq seçkidən sonra isə alaçıq sahiblərindən yığılır. Vilayət başçısına və digər vəzifələrə seçkilər keçən il baş tutmuşdu,

[1] Əslində belə getmişdir.

elə həmin ilin payızında. Dağarxası vilayətləri pristav Bayqulov və Dağarxası vilayətlərin başçısın müavini Menşikov yerlərə səfər etmişdilər. Onlardan ötrü "çıqım" toplanmışdı: Abaildin və Temirbulatov vilayətləri üzrə 1 rubl 50 qəpikdən, Koçkor vilayəti üzrə 3 rubldan, Abaildin vilayəti üzrə 1 000-ə yaxın alaçıq, Koçkor vilayəti üzrə 900 alaçıq, Temirbulat vilayəti üzrə 500 alaçıq pul təhvil verildi. Bu ilin yanvar ayında yenə də pristav Bayqulin və Menşikov gəlmiş, yenə də "çıqım" toplamışdılar. Digər Dağarxası vilayətlərdə də toplayıbmışlar, amma nə qədər, dəqiq bilmirəm. Buna onu da əlavə edərdim ki, digər qanuni vergilər ayrıca toplanırdı, amma haqqında danışdığım "çıqım"ın digər qanuni töycülərlə heç bir ümumi cəhəti yoxdur, zemstvo xəracı və xeyriyyə vergiləri ilə onları heç nə birləşdirmir.

Müharibədən ötrü ianələr siyahılarla toplanırdı. Mən deməzdim ki, xeyriyyə vergiləri üçün təzyiq olurdu. İanələrin məbləği çox olurdu. Pristav Bayqulovun belə yanvar gəlişində 100 varlıdan ianə toplanmışdı – onlar adambaşı 30 rubl, 15 rubl və 10 rubl – məhz bu rəqəmlərlə xeyriyyə pulu vermişdilər. Bu pullar strajnikin və Menşikovun iştirakı ilə vilayət başçısı Karasayevə verilmişdi, amma o pullar lazımi yerə çatdı-çatmadı, mənə bəlli deyil. Həmin gəlişləri zamanı həm pristav, həm məhkəmə pristavı üçün icraçı vərəqələrinə müvafiq və verstbaşı yol haqqı toplanırdı[1].

Pristav Bayqulov ailəsi– onun böyük ailəsi var – cigitlərlə birlikdə müsafir kimi bir varlı qırğızın evinə guya qonaq gəlir və xoşlarına gələn nə varsa, onlara hədiyyə edilməsini xahiş edirlər. Onlar vilayət başçısının müşayiəti ilə birlikdə, demək olar ki, bütün imkanlı qırğızların evlərini gəzir və at, inək və əsasən də pul bəxşiş götürürlər. Bayqulov iki oğlu ilə birlikdə mənim oğlum Kərimbəyin də evində olmuş, ondan qurd dərisindən kürk və 300 rubl götürmüşdü, əgər pristav Bayqulovun əşyalarının içinə baxsanız, düşünürəm ki, həmin kürkü görərsiniz. O, canavar dərisndəndir, tünd-göy mahudla örtülmüşdür, xalça-filan və başqa əşyalar da yəqin ki, çıxardı. Bu töycülər, bu seçkilərə müdaxilələr və ümumiyyətlə, ədalətsizlik Pişpək və Prjevalsk uyezdlərində üsyanın əsas səbəbləri olmuşdu.

---

[1] Əslində belə getmişdir.

Bir neçə il öncə qırğızlardan kəndlilərin və kazakların itmiş mal-qaralarına görə inzibati qaydada, daha doğrusu müdiriyyətin göstərişi ilə, cərimə alınmağa başlandı. Mənə faktlar məlumdur ki, kəndlilər guya onların mal-qarası itdiyi barədə yalançı ifadələr verirdilər və müdiriyyət mövcud olmayan heyvanlar üçün cərimə ödəməyi tələb edirdi. Bu cür hallar Stolıpino kəndində baş verirdi, Koçkor, Burunçin, Cuvanarık və digər vilayətlərin qırğızları da guya itmiş mal-qara üçün cərimə ödəməli olurdular. Mənim Abaildin vilayətimdə də belə cərimə ödəmək məcburiyyətində qalmışdıq, halbuki biz 600 verstlikdə, uzaqda yerləşirdik və heç bir günahımız yox idi, fəqət mən polis şöbəsinin rəisi Menşikovu bizdən cərimə tutulmaması ilə bağlı nə qədər dilə tutsam da, alınmadı.

İtmiş mal-qaraya görə qırğızlardan alınan bu cərimə qaydasını kim tətbiq edib, bilmirəm. Bütün bunlar köhnədən gəlmə ruslarla qırğızların münasibətlərinə öz təsirini göstərirdi, onların əlaqələri korlandı, amma lap pis həddə çatmamışdı. Beləliklə, ruslarla, əsasən də yeni köçmüş ruslarla və qırğızlarla, ruslar tərəfindən aşkar, qırğızlar tərəfindən gizli düşmənçilik yarandı. Öz ifadəmdə varlıların müharibəyə ianə toplaması ilə bağlı düzəliş edərdim. Bu ianə toplaması könüllü deyildi, pristav Bayqulovun tələbi ilə idi, o, vilayətimizdə bəyan etmişdi ki, digər vilayətlərdə varlılar 60 rubl xeyriyyə vəsaiti veribmişlər. Biz onu dilə tutmağa başladıq ki, vilayətimizdən az götürsün, pul və əşya sarıdan bir neçə dəfə artıq ianə vermişik. Müdiriyyətin qırğızlara ianə toplamaq haqqında müraciəti zamanı inzibatçılar vurğuladılar ki, bizi hərbi xidmətə götürmürlər, biz insanları müharibəyə verməklə kömək etmirik və bunun əvəzində pulumuzdan, əşyalarımızdan keçməliyik. Belə ki, Dağarxası vilayətlərin polis rəisi Menşikov keçən ilin payızında "manap" və dağlıq vilayətlərin vəzifəli şəxslərinin hamısını Ak-Uçuk (Ağ hündürlük) məkanına topladı və hərbi mükəlləfiyyətdən azad olunduğumuza görə ruslara pul və əşyalarımızla yardım etməyə borclu olduğumuzu bizə bəyan etdi.

Biz böyük həvəslə 1 rubldan 26 rubladək ianə verdik. ... Şəxsən mən özüm 10 rubl ianə ödədim. Pulu Menşikovun özünə oradaca nağd vermişdik. Menşikov heç bir qəbz-filan vermədi, öz qeyd dəftərində

yazdı. O zaman nə qədər ianə toplandığını hesablamaq çətin olar. Camaat çox gəlmişdi və 1 000 nəfərə qədər adam pulundan keçdi. Hər halda, orta hesabla adambaşına 5 rubldan az olmamaqla ianə düşürdü. Həm bu gün, həm də o gün vilayətimizin 100 qırğızından pul toplanmasına dair Bayqulovun əlində sərəncam yox idi. Yerli fəhlələrin çağırışı haqqında elan veriləndə yanlış anlaşılmışdı, yəni, qırğızlar əmri hərbi mükəlləfiyyət borcu yerinə yetirmək kimi anlayaraq müzakirəyə çıxmışdılar, ianə toplanarkən onlara izah olundu ki, biz məhz həmin o hərbi mükəlləfiyyətə borclu olmadığımız səbəbindən, bu vergi toplanır. Mən özüm savadsızam, amma qırğızlardan eşitmişəm ki, qubernatorun ianə toplamağa çağıran və qırğızların hərbi mükəlləfiyyətinin olmamasını söylədiyi müraciəti olmuşdu.

Ötən il payızda qırğızlar qəzetdən oxuyub bildilər ki, qırğız əhalisindən əsgər götürülməsi təklif olunubmuş. Qırğızlar bu məsələ ilə qızğın surətdə maraqlanıb onu müzakirə edirdilər. Qırğızların ümumi fikri o oldu ki, onlar bu sayaq xidmət çəkməyə hazır deyillər, çünki dil bilmirlər, heç şəhər həyatından da xəbərləri yoxdur və yerlilərin çağırış barədə şayiələri uydurmadan başqa bir şey deyildir. Qocalardan eşitmişdim, ağ çarlardan biri (Ağ Paşa) rus təbəəliyinə keçərkən söz veribmiş ki, qırğızları heç zaman əsgər götürməyəcəklər, bu barədə bütün qırğızlara agahdır.

Fəhlələrin fəaliyyətdə olan orduya çağırışı barədə ilk məlumatlar iyul ayında müxtəlif vilayətlərə fəhlələrin işçi qismində deyil, əsgər çağırılması barədə şayiə şəklində çatırdı. Bu şayiələr qırğızları təlaşlandırmağa başladı, lakin onlar mütərəddid qalmışdılar, belə ki, ağ çarın qırğızları əsgər götürməməsi haqqındakı yazılı vədindən xəbərdar idilər. Bu şayiələr yayıldıqdan sonra Pişpək uyezd rəisi vilayət başçılarını cigitlər vasitəsi ilə yanına çağırtdırdı və onlar da getdilər. Qayıtdıqdan sonra vilayət başçıları izah etdilər ki, qırğızları əsgər aparmırlar, fəaliyyətdə olan ordudakı digər işlərdən ötrü çağırırlar, ancaq sözsüz ki, əsgər qulluğuna. Qırğızların bu fikri həm də ona görə güclənirdi ki, bəzi ruslar onlara deyirdilər: “Sizin də hərbi xidmətə getmək vaxtınız çatdı”.

Dağarxası vilayətlərdən nüfuzlu şəxsləri və manapları idarədən heç kim çağırmadı və heç kim çağırış haqqında məsələyə aydınlıq gətirmədi. Uyezd rəisi, Tokmak pristavı və polis şöbəsinin rəisi yalnız vilayət başçılarını çağırmış və onlarla söhbət etmişdilər, vilayət başçılarına isə (əhali) inanmırdılar. Vilayət başçıları müdiriyyətin adından vilayətlərdə fəhlələrin adı olan bildirişlərin tərtib olunmasını tələb edirdilər. Bu göstərişləri qırğızlar belə anlamışdılar ki, qubernatordan başlayaraq daha aşağı rütbəli yerli rəhbərlik yuxarı müdiriyyətin qarşısında yerini şirin salmaq xatirinə bizim hərbi xidmət keçmək istəyimizə aid sərəncamımıza qarşı çıxmaq istəyir. Bu mülahizənin əsası var idi, belə ki, keçən il Prjevalsk uyezd başçısı bir neçə nəfər qırğızın könüllü olaraq fəaliyyətdə olan orduda hərbi xidmət keçmək barədə bildiriş tərtib etmək tələbi qırğızlara bəlli idi, həqiqiətdə isə bu adamları vilayətdən təyin etmişdilər.

Şəxsən mən özüm keçən il bu könüllülər Rusiyaya yola salınanda Tokmakda olmuş və onlarla danışmışam. Onlar könüllü getməyiblər, ona görə gediblər ki, müdiriyyət tələb edirdi. Bu faktdan belə nəticə çıxardım ki, burada hərbi xidmətlə bağlı yerli vilayətlərdə nə isə hiylə var. İki il bundan qabaq vergini artırmışdılar və heç kim tərəfindən bildiriş tələb olunmadı, birbaşa ödəmək əmr edildi. Eləcə də iki il bundan əvvəl hərbi xidmət çəkməyənlərdən hərbi vergi tələb ediləndə, biz hər alaçıqdan 1 rubl 84 qəpik ödəyirdik, heç kim bildiriş tələb etmirdi, sadəcə, ödəməyi əmr edirdi. Bildiriş tələbi ilə əlaqədar bizim tərəfimizdən hərbi xidmət əvəzinə ödənilən verginin verilməsindən sonra bir daha əmin olduq ki, çağırış "könüllü"dür, yerli hakimiyyət tərəfindən müəyyənləşdirilir və etiraz etmək hüququmuz var, hərgah bizdən israrla tələb edirlərsə, demək, müstəsna surətdə yerli məmurlar özlərini göstərmək qəsdini güdürlər.

Hər vilayətdə, demək olar ki, hər gün arxa cəbhədə işlər üçün səfərbərliyə götürüləcək gənclərin yığıncaqları keçirilirdi və həmin toplantılarda bəlli olurdu ki, cavanlar getməyə razı deyillər, bu səbəbdən də Çin hüdudlarına qaçmağa qərar vermişlər. Vəzifəli şəxslərin və manapların iştirakı ilə qurultaylar keçirildi, hərçənd, manaplar çağırışın

yerli rəhbərliyin təşəbbüsü olmasına əmin idilər, amma buna baxmayaraq, bu tələbin yerinə yetirilməsinə meylli idilər və əllərindən gələni edirdilər, çünki etiraz ediləcək təqdirdə, müdiriyyətin intiqamından qorxurdular, lakin cavanlar öz razılıqlarını verməkdən qəti surətdə imtina edirdilər. Polis şöbəsinin rəisi Menşikov iyulun sonunda vəzifəli şəxsləri Cumqala, bildirişlərin tərtib olunması üçün dövlət məktəbinə çağırdı, lakin gənclər həmin əllibaşıları buraxmadılar, bəzilərinin əllərindən möhürləri aldılar, dedilər ki, vəzifəli şəxslər onları əsgər göndərməyə təhvil vermək istəyirlər. Gənclərin toplaşdığı yerlərdə eşitmişəm ki, onların hər vilayətində ayrıca “bata” dilə gətirilir, amma bir neçə vilayətin ümumi yığıncağı və ümumi “bata” olmamışdır. Sözsüz ki, mən bidiyim qədər, hər vilayətdə qonşu vilayətlərdə baş verənlərdən yaxşı hali idilər.

Unutdum söyləyim ki, bizim vilayətlərdə rus mirzələri var. Həmin mirzələr də əsgər aparılmaq barədə buraxılmış şayiələrə tərəfkeş idilər. Bunu nəyə görə edirdilər, bilmirəm, amma düşünürəm ki, sadəcə, qırğızları lağa qoyurdular. Heç kim silah hazırlamayıb və Dağarxası vilayətlərdə söz-söhbət olmayıb. Gənclər hamısı Çinə qaçmağa meyl göstərirdi. Bildirişlər hələ hazırlanmamışdı. Ayın əvvəlində, 5 avqust tarixi ərəfəsində uyezd rəisi vəzifəsini icra edən Rımşeviç vilayət başçılarını Pişpəyə çağırdı və avqustun 6-da axşam onlarla danışaraq iki gündən sonra fəhlələrin siyahısı olan bildirişlərin təqdim olunmasını tələb etdi.

Avqustun 7-də Pişpəyə, uyezd başçısının yanına bütün vilayətlərdən möhtərəm insanlar və vəzifəli şəxslər çağrılmışdılar. Biz getdik, uyezd rəisi Putintsev qarşımıza çıxdı, biz ona ərizə ilə müraciət etdik ki, cavanlar adamları verməklə razılaşmırlar. Uyezd rəisinə başqalarının müşayiəti ilə üç nəfər xitab edirdi, onlar bu şəxslər idilər: Xisamutdin Şabdanov (Sarıbağış vilayəti), Kurman Lepesov (Kurmanxoca vilayəti) və mən. Tərcüməni dilmanc Abdukərim Sadıkov aparırdı.

Uyezd başçısı cavab verdi ki, o, vəzifəsini təhvil vermişdir[1] və biz

---

[1] Pişpək uyezd başçısı podpolkovnik Putintsev öz köməkçisi podpolkovnik Rımşeviçə vəzifə vermiş, istefa haqqında ərizə yazmış və həmin ərəfədə istefaya çıxana qədər məzuniyyətdə olmuşdur.

yeni uyezd başçısı Rımşeviç ilə danışmalıyıq, o isə vəzifədən getməyi ilə əlaqədar Arasanda (İssıkatın mineral suları) xəstələr üçün barak tikdirmək üçün bizə xitabən müraciət etmək istəyir, biz də dərhal buradakı vilayətlərin hər alaçığından 30 qəpik toplamağa razılaşdıq. Putintsevlə söhbət zamanı Rımşeviç qarşımıza çıxdı, biz ona da eyni xahişlə, cavanların sərəncama və siyahıların tutulması tələbinə itaətsizlik göstərməsi ilə bağlı xitab etdik və ondan ordu çağırılmasını istədik. Bu bəyanat Putintsevin yanında dilə gətirildi və əlavə edim ki, qoşunun çağırılmasını biz habelə Putintsevdən təvəqqe etmişdik.

Avqustun 1-də, 2-də, yaxud 3-də qoşun çağrılması xahişi ilə yanımıza at seçimi üçün gəlmiş Menşikova müraciət etdik. Menşikov bizə cavab verdi ki, Pişpəyə özü gedəcək və uyezd başçısına da özü məruzə edəcək. Bundan sonra o, Pişpəyə getdi və avqustun 7-də biz uyezd başçısının qəbuluna düşəndə, orada idi. Rımşeviş bizimlə danışmadı, sadəcə, üzünü çevirdi və çıxıb getdi, bundan belə nəticə çıxardıq ki, bizi fəhlələrin səfərbərliyi ilə bağlı başağrıdan məsələdən ötrü bura çağırmayıblar, bizi bura Arasanda Putintsev ad. barakın tikintisindən ötrü pul toplamaq üçün gətizdiriblər.

**Üsyanın başçılarından biri Kanaat Abukinin – Pişpək uyezdinin Abaildin vilayətinin qırğızının üsyanın qalxmasının səbəbləri üzrə məsələlər haqqında ifadəsindən çıxarış**[1]
**(İkinci çıxarış)**

“... on il bundan əqdəm bizim əsas yaşayış mənbəyimiz olan mal-qara təsərrüfatı üçün kifayət qədər torpağımız var idi. Öz qışlaqlarımızda da torpaq təsərrüfatı aparır, özümüz üçün qışa buğda, mal-qara üçün yonca tədarük edirdik. Bizim qış otlaqlarımız köçəbə yerlərilə birlikdə vadilərdə yerləşirdi, yay otlaqlarımız isə “caylau”da, orada heyvanat üçün yayda yaxşı ot bitirdi. Burada dağlarda, belə desək, xəzinəyə məxsus qırğız meşələri vardı: biz o torpaqlarda mal-qara otarmaq hüququna

[1] Qazax.SSR MDTA. F. 19, siyahıyaalma 1, a, iş 130, vərəq 364-365. Surətidir.

malik idik, amma meşə xəzinənin əmlakı idi, meşədən götürdüyümüz yanacaq üçün pul ödəyirdik, əvvəl bir alaçıqdan 30 qəpik, ardınca 90 qəpiyə qədər, indi isə 3 rubl. Meşənin qırılmaqdan mühafizəsi ötrü artıq çoxdan meşəbəyilər, atlı qoruqçular təyin olmuşdular. Həmin atlı qoruqçular özlərinin protokol tərtib etmək hüququndan sui-istifadə edirdilər. "Kapral" atlı qoruqçular aula gələrək həmişə meşədən qanunsuz istifadə barədə protokol tərtib edə və bu minvalla da qırğızları təqib etmək imkanına malik idilər. Bu hüquq protokollarla xüsusi mübarizə növünü yaratmışdı. Vilayətlər meşəbəyilərə və atlı qoruqçulara müxtəlif növ peşkəşlər verməyə şərtləşirdilər, başqa sözlə, elə ki, atlı qoruqçu gəlirdi, ona 100-200 rubl pul yığılıb verilirdi, o da aulları gəzib-dolaşmadan geri, qoruq məntəqəsinə qayıdırdı.

Abaildin vilayətində meşəlik heç yoxdur və olanlar da uzaqdadır, amma buna baxmayaraq, atlı qoruqçular bizə də gəlirdilər, çünki bu tərəflərdə kolluqlar bitirdi, meşənin qırılması ilə bağlı protokolun tərtib edilməməsi ucbatından onun üçün pul yığırdıq, onlar da çıxıb gedirdilər. Son on ildə bizim meşəlikdə və meşələrin arasında çəmənlikdə yerləşən otlaqları da əlimizdən alaraq, xəzinənin hesabına verdilər və xəzinə oraların yeganə istifadəçisinə çevrildi, mal-qaramızı isə dağlara doğru sıxışdırdılar. Eşitdiyimə görə, meşəlik olan vilayətlərdə qırğızlar öz mal-qaralarını otarmaqda davam edirlər, amma bunun əvəzində meşəbəyilərə rüşvət vermək məcburiyyətindədirlər. Yayın əvvəlində Abaildin və Temir-Bulatov vilayətlərində Qaragöldən mal-qaranın bir hissəsini Şəmsin aşırımından keçməklə Çu vadisinə sürürlər və bu yolun bir hissəsi yolun iki tərəfində olan meşələrdən keçir. Buna görə yenə də "kapral"lara muzd ödəmək lazım gəlir və bu da onlara sərf edir. Hər təsərrüfatdan 10-20 rubl ödəyirdilər, belə təsərrüfatlar isə çox gəlib keçirdi, məs., 1915-ci ildə 1 000-ə qədər təsərrüfat köçünü sürmüşdü. Şəmsin aşırımında cəmi 2 "kapral" vardır, amma onlar öz hesablarına yoldan keçən mal-qaranın sahibini tutan və onları meşəbəyi "kapral"ın hüzuruna aparan cigitləri saxlayırlar.

Yuxarıda qeyd etdiyim kimi, torpaqlar əvvəllər yetərincə idi, amma 10 il bundan əqdəm bizim yerlərdə köçürülmə məmurları

peyda oldular və ərazilərimizdə köçənlər üçün torpaqları mərzləyib bölməyə başladılar. Bu köçürülmə sahələr adı altında bizim ən yaxşı torpaqlarımızı, yoncalıqlarımızı və suvarılan yerlərimizi əlimizdən aldılar. Hər şey köçürülənlərdən ötrü edilirdi, bizə isə məhəl qoyulmurdu. Üstəlik, təkcə köçürülmə sahələri üçün torpaq götürmürdülər, həm də töycü verən təhkimli kəndlilərə də "ehtiyat" sahələr ayırırdılar. Köçürülmə sahələri adı altında qışlaqlarımızda tövlələrimizi götürür, bizi isə suvarılmayan, taxılçılığa və maldarlığa yaramayan torpaqlara sıxışdırırdılar. Qalan torpaqlarda mal-qara otarmağa imkan tapmırdıq və maldarlıq, eləcə də taxılçılıq üçün külli miqdarda pul ödəməklə köçürülənlərdən, kazaklardan, töycü verən təhkimli kəndlilərdən torpaq icarəyə götürmək məcburiyyətində qalırdıq. Maldarlıq təsərrüfatı günü gündən tənəzzülə uğrayırdı, amma köçürülmə idarəsi bununla qətiyyən maraqlanmırdı. Beləliklə, köçkün gəlmələr, kazaklar və töycü verən təhkimli kəndlilər üçün vadini əlimizdən aldılar, meşə – meşəçilik idarəsinin ixtiyarına keçdi, bizə isə cüzi miqdarda münbit torpaq və barsız-bəhrəsiz dağları qoydular".

**21.11.1916 tarixdə Kanaat Abukin ifadəsini davam etdirir:** "Bu torpaq qıtlığı qırğızları köçürülmə gəlmələr, kazaklar və dövlət əmlakı idarəsində töycü verən təhkimli kəndlilərdən icarə götürməyə məcbur etdi. Bizə oturaq həyata keçmək təklif edilirdi, lakin bu, qırğızları qane etmirdi, belə ki, əsas məşğuliyyət maldarlıq olduğuna görə, torpaq məhdudiyyətləri oturaq həyata keçməyə, onu davam etdirməyə imkan vermirdi. Oturaq həyata keçmək üçün vilayət idarəçiliyndən sərəncam lazımdır. Köçürülmənin əvvəllərində oturaq həyata keçməyə qarşı varlılar çıxdılar, onlara oturaq həyat sərfəli deyildi, kasıb təbəqə isə oturaq həyata tam razı idi. Beləliklə, əngəl əvvəlcə imkanlılar tərəfindən gəldi ki, onların iştirakı olmadan vilayət qərarlarını almaq mümkün deyildi. Lakin elə hallar olurdu ki, razılaşma baş tuturdu. Bu zaman köçürülmə idarəsi düzgün hərəkət etmirdi, yəni, məhz sərəncamı əldə tutarlı əsas tutaraq, təbir caizsə, "artıq qalan" qırğız torpaqlarını tutub qanuna salırdı, faktiki olaraq isə, qırğızlara ayrı-ayrı yerlərdə ən pis

sahələri saxlayaraq, ən yaxşı torpaqları götürürdülər. Nəticədə, qırğız torpaqlarında adda-buddalıq yaranırdı, ruslar üçün isə bütöv sahəni ayırırdılar. Sonda belə vəziyyət yaranırdı ki, oturaq həyata keçən sahib-qırğız ayrı-ayrı yerlərdə kiçik sahələrə yiyəlik edir və doğru-düzgün əkin-biçin təsərrüfatı apara bilmirdi. Bunu öz üzərlərində hiss etdikdən sonra həmin keçidin əleyhinə təkcə varlılar deyil, kasıblar da çıxdılar. Yerlilərə qarşı bu nahaq hərəkət qırğızların ruslara qarşı qəzəbinin səbəblərindən biri idi.

Köçürülmə işlərinin özündə onların icraçıları – köçürülmə məmurları və ümumiyyətlə, köçürlmə idarəsinin bütün əməkdaşları, özlərini düzgün aparmırdılar, daha dəqiq desək, onlar qırğızlarda torpağın daha çox saxlanılması üçün rüşvət alırdılar. Bu rüşvətləri qırğızlar torpaqların saxlanılması üçün verirdilər. Məs., Murzabəy Dikambayevin oğlu Asanbəyin vilayət başçısı olduğu Koçkor vilayətində köçürülmə məmurlarına rüşvət verməmişdi, orada demək olar ki, bütün torpaq töycü verən kəndlilərə verilmişdi, Koçkor qırğızları isə həmin torpağın özünü isə icarəyə götürürlər. Tutulmuş həmin torpaqlarda qırğızların qışlaqları qalmışdı və qırğızlar indi Dövlət Əmlak İdarəsindən həmin torpaqları icarəyə götürərək öz əvvəlki qışlaqlarında yaşayırlar. Bu yerlərdə köçürülmə idarəsinin məmurları Boquşeviç və Mazurenko işləmişlər – birinci, Kutımaldada yaşayırdı, ikincidən xəbərim yoxdur.

Mənə bəllidir ki, adını çəkdiyim məmurlardan biri Kumanxoca vilayətindən olan qırğız Kurman Lepesovdan 500 rubl almış, müqabilində torpağı ona saxlamış, Kurmanxoca vilayətinin digər hissəsindəki torpaqları götürmüşdü. Söhbət gedirdi ki, onlardan kimsə Temirbulat vilayətindən olan qırğız Toktosun Bektenovdan da 500 rubl almış və onun torpaqlarına dəyməmişdi. Mənim Abaildin vilayətimdə 1911-ci ildə də köçürülmə işləri üzrə məmur var idi, soyadını xatırlamıram, Vernıdan gəlmişdi, vilayətdəki torpaqların əldən alınmaması üçün oğlum Kərimbəyə və Əhməd Kudaybergenova ona 600 rubl verməsini təklif etmişdi. Biz o pulu vermədik və torpaqlar əlimizdən Temirbulatov vilayətinin xeyrinə alındı, həmin vilayətlə aramızda o torpaq parçasının davası düşürdü. Sonradan eşitdim ki, Temirbulatçular bu

köçürülmə üzrə məmuruna 500 manat veribmişlər. Boquşeviç və Mazurenko Abaildin vilayətində şumlanmış yerlərimiz və yoncalıqlarımız yerləşən bütün Qaragöl vadisində 4 000 desyatinə yaxın yeri ələ keçiribmişlər. Bu, köçürülmə işinin başlanğıc vaxtında baş vermişdi və biz o zaman hələ bilmirdik ki, həmin məmurlar rüşvət alırlar. Hal-hazırda biz özümüz Qaragöl vadisi tərəflərdə əlimizdən alınmış torpağı icarələyirik. Bir il ərzində əlimizdən alınmış torpağa görə 1900 manat ödəyirik. Həmin torpaqlar icarəyə sövdələşmə ilə verilir, istəsək də, istəməsək də, hansı qiymətə olursa-olsun, götürmək məcburiyyətindəyik, çünki başqa çıxış yolumuz yoxdur. Bizim Abaildin vilayətinin qırğızları Çu vadisində Borbulaq adlanan məkanda gəlmə kəndlilərdən torpaq icarə etməyə məcburdurlar. Şaltay və İssıqatıda hər desyatinə görə bir manat ödəmək lazımdır, yeri gəlmişkən, kəndlilər ödənişi qış mal-ara yemindən asılı olaraq təyin edirlər, yəni, qırğızların yemə xüsusi ehtiyacı olarsa, baha verirlər, tələbat azdırsa, ucuz verilir.

Bizdə belə bir adət var ki, əgər qırğızın yanına fəxri şəxslərdən kimsə gəlirsə – onların sırasına məmurları da salmaq lazımdır – o zaman qurban (qoyun) kəsilir, qonaqpərvərlik nümayiş etdirilirdi. Bu mehmannəvazlıq onlara da göstərilirdi. Amma həmin qonaqpərvərlikdən köçürülmə məmurları sui-istifadə etməyə başladılar, yəni onlar qoyunları özlərinə götürməyə başladılar. Adətən, iş zamanı onlara yaşamaq üçün yurta qurulardı. Onlarla birgə qırğız çapar "cigit"lər də gəlirdilər, heç kimdən utanıb-çəkinmədən öz ağaları üçün qoyunları aparır, onları düşərgəyə salır, əvəzində pul ödəmirdilər, qırğızlar haqq istəməyə cürət etmirdilər, tələb ediləndə isə öz dəyərini yox, ondan qat-qat aşağı məzənnəni verirdilər, bunu da ona görə edirdilər ki, pul ödəmədiklərini deyə bilməsinlər. Qoyuna görə heç kim şikayətə getməyəcək, zira, səfər baha başa gələcək, üstəlik, heç nə alınmayacaq, idarədən özləri gələndə də belə hərəkət edirdilər. Köçürülmə işləri üzrə çalışan fəhlələrlə çox kobud rəftar edirlər, özləri nadir hallarda döyürdülər, amma onların cigitləri fəhlələri çox tez-tez kötəkləyirdilər.

... Qırğız fəhlələrə çox az məvacib verirdilər və naryada görə götürürdülər. Bütün qırğızlara çox gözəl bəlli idi ki, köçürülmə işlərinə

baxan məmurlar xəzinəni və qırğızları aldadır, fəhlələrə az məvacib verir, cədvəl üzrə isə çox pul yazırdılar, bu səbəbdən də, qırğızlar o şərəfsiz insanları tanıdıqlarına görə onlara hörmət bəsləmirdilər. Əlbəttə, bunu hamısı etmirdi, amma çoxusu əliəyri idi. Yeddisu vilayətinə ilk ruslar haçan gəlmişdi, yadımda deyil və əvvəl gəlmə ruslarla qırğızların münasibəti necə idi, bilmirəm, amma köçürülmə hərəkatına qədər rusların da qırğızlara və əksinə, qırğızların da ruslara münasibətləri yaxşı idi, kəskin, yaxud kütləvi narazılıqlar olmamışdı, ayri-ayrı hadisələr baş vermişdi, amma onlar elə böyük əhəmiyyət kəsb etməmişdi. Lakin 9-10 il bundan qabaq köçürülmə gəlmələrin qırğızlara münasibəti dərhal ədavətə çevrildi. Qırğızlar onları "it" adlandırırdılar.

Əvvəlcə mal-qaranın otarılması ilə bağlı anlaşılmazlıqlar başlandı, sonra qırğızların heyvanlarına hücumlar çoxaldı. Çox zaman kəndlilər dəstələrlə qonşu qırğız torpaqlarına gəlir və qoyun-quzunu bizim çobanların əlindən alır, öz kəndlərinə sürür, sonra isə biçənəkdə otarmaq üçün "dırnaqaltı toplam"a pul tələb edirdilər, halbuki əslində belə bir şey mövcud deyildi. Bu hələ hamısı deyildi, daha çox işlər görürdülər: gecələr aula yaxınlaşır və mal-qaranı elə aulun özündən qovub aparır, sonra isə "dırnaqaltı toplam" tələb edirdilər. Bu, hər at və iribuynuzlu heyvan üçün 1 rubl 50 qəpikdən hesablanırdı. Elə hallar olurdu ki, qırğızlar şikayət edirdilər, amma şikayət gedib mənzil başına çatanadək heyvan çərləyib öləcəkdi deyə, pulu ödəyib mal-davarı geri alırdılar.

Şikayətlər idarəyə daxil olur, hakimlərə verilirdi, amma son nəticədə, məhkəmələrdə get-gələ düşməmək üçün məsələlər sülh şəraitində sona yetirdi. Mal-qara sürülüb aparılarkən, kəndlilər tərəfindən heyvanları vermək istəməyən çobanların öldürülməsi hallarına da rast gəlinirdi. Məs., 3 il bundan əvvəl İssıqatin vilayətində qırğız Malaşi qətlə yetirilmişdi. Qarqara, Camansart və digər vilayətlərdə də qətllər baş vermişdi. Bu sayaq qətllərin sayı çox idi".

**20.12. 1916 (02.01. 1917).**

**Müşavir vəzifəsini müvəqqəti icra edən Teskovun qırğızların üsyana qalxmasının səbəbləri və üsyan yatırıldıqdan sonra qırğız əhalisinin əhval-ruhiyyəsi ilə bağlı məruzəsi**[1]

... Qırğızların açıq-aşkar hiddətinə səbəb olmuş narazılıqlarının əsas səbəbləri kimi hesab etmək olar: 1) son 10 il ərzində dövlətin fonduna 2 milyon desyatin torpağın, bəzən nəzərəçarpacaq dərəcədə qarışıq təsərrüfatlarla alınması və nəticədə, qırğızların torpaqlardan sıxışdırılması, köçəriliyin məhdudlaşdırılması; xüsusilə qırğızlar sonradan ora yalnız ayrı-ayrı sahələrə biletlərlə buraxıldığı iri sahəli meşə zonalarının yerlilərin əlindən alınıb xəzinəyə daxil edilməsi; Yeddisu partiyasının fəaliyyətinin ilk illərində 40 minə yaxın özbaşına gəlmiş kəndlinin zor tətbiq etməklə Pişpəyin və Prjevalskın ən yaxşı torpaqlarına aparılıb yerləşdirilməsi. Bunlar həmin uyezdlərdəkı bir çox qırğız təsərrüfatlarına böyük iqtisadi zərər vurdu və kəndlilərə qarşı ikrah, ədavət hissi yaratdı; 2) Qarqaraya və Prjevalska çoxlu sayda gəlmiş dunqanlar və çinlilər vasitəsi ilə fəaliyyət göstərən alman casuslarının olduğu qonşu Çindən (Gülcə, Qaşğar) tərəfdən sızmış təbliğat. Alman casusları ilə əlaqəli olan "Qelyao" firqəsinin çinli anarxiyaçılarının Yeddisudakı çaxnaşmalarda əli olduğunu göstərən məqamlar aşkara çıxarılmışdır. 3) Vilayətdə böyük ərazinin mühafizəsi üçün çox az sayda qoşunlar qalmışdı. Bundan əlavə, vilayətin rus əhalisi səfərbərliyin nəticəsi olaraq, gənc və güclü kişi sarıdan zəifləmişdi: ev sahibləri qismində, əsasən, qadınlar və qocalar qalmışdılar. Ehtiyatda olan silah və patronlar həmçinin vilayətdən çıxarılıb aparılmışdı. 4) Narazılığın bilavasitə səbəbi isə fəhlələrin çağırışı oldu; qırğızlar bunu birbaşa müharibəyə yığılma kimi qəbul etdilər. İzahatlara etibar etmirdilər. Qırğızlar müharibə naminə hər cür maddi vəsaitlərindən təmənnasız olaraq keçirdilər, lakin bu gözlənilməz çağırışdan karıxdılar... Siyahılar və bildirişlər tərtib edilən zaman bəzi hörmətli şəxslər və manaplar sui-istifadəyə yol verdilər, aldatma, hədə-qorxu ilə pul qoparma və s. əlbəttə ki, kütlənin əhvalına tə-

[1] Qazax.SSR MDTA. F. Yeddisu vilayət icra şöbəsi 1, səh. 2, № 16920, 1916-cı il. Əslidir.

sir göstərdi. İnzibatçıların sayı az olduğuna görə, bu əliəyriliyin kökünü kəsmək mümkün olmadı.

**Yerlilərin çaxnaşmalar zamanı həmlələri haqqında**

Qırğız kütlələrinin qarışıq və təşvişli əhvalından istifadə edən bəzi nüfuzlu qırğızlar təbliğatın təsiri altına düşərək, belə qərara gəlmişdilər ki, Rusiya müharibənin təsirindən zəifləyib, guya Yeddisuda mühafizə yoxdur və qırğız xanlığını yaratmaq üçün rus hakimiyyətini məhv etməyin əsil məqamıdır, – deyə mötəbər şəxslər üsyan rəhbərləri timsalında çıxış etdilər. Xoşbəxtlikdən, üsyan edən vilayətlərin heç də hamısında camaat düşmənçilik əhval-ruhiyyəsində deyildi: onların arasında razılıq yox idi, adi firqə nifaqları davam edirdi. Fəal ünsür çox zaman güc ilə mütərəddidləri üsyana qalxmağa vadar edir. Qeyd etmək lazımdır ki, qara-qırğızlar və dunqanlar köməksiz ruslara qarşı xüsusi qəddarlıq göstərdikləri, öldürməzdən qabaq əzab-əziyyət verdikləri halda, çöl qırğızları öz qurbanları ilə daha yumşaq rəftar edirdilər... Lakin onlar qüvvəni görəndə və təhlükəni hiss edəndə əllərində olan əmlaklarını qoyaraq qaçmağa başlamışdılar. Narazılıq və gözləmə mövqeyi dinc vilayətlərdə ordu gələnə qədər həmişə davam edirdi, yerlilər sakitləşməyə başlayanda tarla işləri, qırğızlarla ruslar arasındakkı ticarət və təsərrüfat əlaqələri bərpa olundu.

**İğtişaşların yatırılması zamanı əhalinin sakitləşdirilməsi üçün ardıcıl surətdə və müxtəlif vaxtlarda görülmüş tədbirlər barədə**

Artıq söylənilmişdi ki, hələ iyul ayından yerlərdəki ordular iğtişaşlar olacağı təqdirdə tutulmuş plan üzrə paylaşdırılımışdı. Quldur dəstələrinin hücumu barədə məlumatlar daxil olan kimi təxirə salmadan aşağıdakı tədbirlər həyata keçirilmişdi: Yeddisu kazak yığma qoşununa xidməti çağırış elan edildi, təsadüfən artilleriya anbarında saxlanılan 2 köhnə top dolduruldu, bütün qeyri-sıravi komandalardan istifadə olundu. Dəstələr şəhər vətəndaşlarından ibarət könüllülərlə və məzuniyyətdə olan aşağı rütbəlilərlə tamamlandırıldı, silahlanma üçün bütün ordu silah və patronlarından istifadə edildi, həmçinin dükanlardakı ov tüfəngləri müsadirə olundu.

Ümumiyyətlə, qırğız iğtişaşlarını yatırarkən əsas məsələ kimi rus

əhalisinin həyat və əmlakını qorumaq qoyulmuşdu. Silah daşımağa qadir bütün rus əhalisi şəhərlərdə, yuxarıda qeyd edildiyi qaydada təşkil edilmişdi, kəndlərdə isə odlu və soyuq silahla, eləcə də balta ilə silahlanmış kəndlilər onluqlara, yüzlüklərə, drujinalara bölüşdürülmüş və başçılıq edən şəxsləri camaat özü seçmişdi. Drujinanın bir hissəsi atlarla təmin edilmişdi.

Bütün şəhər və kəndlərdə, gündüzlər olduğu kimi, gecələr də mümkün qəfil hücumların qarşısının alınması üçün uzağı göz altına alan mühafizə təşkil olunmuşdu. Şəhər və kəndlər mümkünat daxilində möhkəmləndirilmişdilər. Vilayətə gələn ordu çalxantıları qabaqcadan hazırlanmış plan üzrə yatırmaq üçün istiqamət götürürdü. Yerli əhalinin arasında dinc qırğızları öz əvvəlki köçəbə məkanlarına çağıran, üsyançıları isə öz başçılarını və araqarışdıranları təhvil verməklə tabe olmağa səsləyən xüsusi müraciətnamələr geniş yayılmışdı.

**Yerli əhalinin hal-hazırki əhval-ruhiyyəsi barədə**

Sentyabrın əvvəlində vilayətin bütün uyezdlərində, Prjevalsk, həmçinin Carkənd və Pişpəyin cənub hissələri istisna olmaqla, nəzərəçarpacaq sakitlik çökmüşdür: zəmilərdə yığım başlanmışdır, əsasən, Kopal uyezdində ordu üçün atların toplanması uğurla gedir.

Prjevalsklılar və dağlar arxasında yaşayan pişpəkli qara-qırğızlar, eləcə də Carkənd uyezdinin "atbaş" tayfasından olan qırğızlar nəinki tabe olmamışdılar, əksinə, inadla onlara qarşı həm Pişpək tərəfindən, həm də Əndican və Narın istiqamətindən göndərilən ordu hissələrinə müqavimət göstərirdilər. Ordunun təzyiqi altında üsyançı güruhlar geri çəkilmiş, Qarqara və Təkəs vadilərində cəmləşərək, Çin sərhədlərinə sıxılmışdılar, ehtimalən, son uğursuzluğa düçar olacaqları təqdirdə, oktyabrdakı kimi, Çinə qaçmaq niyyətində idilər. Sonkul, Sırt rayonlarının bandaları o zaman Cumqal, Koçkor və Ulaxola yeridilmiş qoşunlardan güclü zərbələr aldıqdan sonra, əvvəlcədən ailələri və mal-qaralarının göndərdikləri Çinə doğru üz tutmuşdular. Çin hüdudlarında qonaqpərvərliklə qarşılanmayan qara-qırğızlar tezliklə Narına öz nümayəndələrini itaət ərzi və öz hüdudlarımıza qayıtmaq xahişi ilə

göndərmişlər. Belə icazə yalnız o şərtlə verilmişdi ki, bütün əsirlər qaytarılmalı, silahlar və başçılar təslim olunmalı, eləcə də ordu ehtiyacları üçün hər vilayətdən 200 yaxşı at seçilib təhvil verilməli idi.

Noyabrın 1-də Çindən qayıtmış üsyançı vilayətlərin qalıqlarından, eləcə də Narın bölgəsindəki öz köçəbə yerlərində qalanlardan ümumi sayı 17 min alaçıqdan ibarət olan 17 vilayət yaradıldı. Uyezd başçılarının məlumatlarına görə, itaətə vadar edilmiş vilayətlərin əhval-ruhiyyəsi həddən ziyadə sıxıntılı, əzici idi, çünki onlar öz günahlarını dərk edərək rus əhalisinin qisasından qorxurlar, bundan əlavə, Çinə qaçarkən bünüt heyvanlarını və varidatını itirdiklərindən, müflis olmuşlar və indi böyük ehtiyac içərisində məhrumiyyətlərə uğrayaraq hər şeydə korluq çəkirlər. Tələb olunan fəhlələrin, atların, yurtaların təhvil verilməsi onlar tərəfindən rəvan həyata keçirilir.

Vaxtında öz buğdasını və samanını yığmış dinc qırğız əhalisinin çoxu özünü tam laqeyd aparır və keçmiş üsyanın başçılarını üzə çıxarmaqda əhəmiyyətli dərəcədə köməklik göstərirlər. İndiki zamanda hesab etmək olar ki, ruslarla qırğızların ticarət və təsərrüfat münasibətləri, Prjevalsk istisna olmaqla, bütün uyezdlərdə bərpa olunmağa başlayıb. Hərçənd, Prjevalska kifayət qədər qırğız gəlsə də, camaat arasında qarşılıqlı inam-etibar yoxdur. Əks tərəflərin bir-birinə qəzəbi, hiddəti, şübhələri və etibar bəsləməməsi normal dinc qonşuluq əlaqələrin qurulmasına hələ uzun müddət ciddi maneə törədəcəkdir ki, bu da sözsüz, şiddətli ziyan görmüş rayonun ticarətində, təsərrüfatında və ümumi iqtisadi durumunda öz dərin izini buraxacaqdır.

***Əlavə:*** *1) qətlə yetirilmiş və itkin düşmüşlərin siyahıları, 2) Yeddisu vilayətinin qırğız çaxnaşmalarının getdiyi yerlərin qeyd olunduğu xəritəsi.*[1]

---

[1] Sənədin müəllifinin haqqında danışdığı xəritə tapılmamışdır.

**04 (17).01.1917.**

**6-cı yığma korpusu qərargahı başçısının Türküstan hərbi dairəsinin ordu komandanı general-leytenant Kuropatkinə Yeddisu vilayətində qırğızların üsyana qalxmalarının səbəbləri haqqında məruzəsi**[1]

Yalnız hərbi dəstənin başçısı timsalında Yeddisu vilayətində qırğızların üsyana qalxmasının səbəblərinin mahiyyətinə varmağa nə hüququm, nə də imkanlarım vardı, bu məsələ ilə bağlı təsadüfən daxil olan məlumatları heç yoxlamağa belə şəraitim yox idi. Amma əlahəzrətin sərəncamını yerinə yetirərkən özümü məlumat verməyə borclu sanıram ki, üsyanın əsas səbəbinin lazımi səviyyədə həll edilməmiş torpaq məsələsi olduğunu deyim, yerlilərin arxa cəbhədəki işlərə çağırışı isə bu üsyanın başlamasına yalnız bəhanə oldu.

Qırğızlara əkib-bikin üçün ancaq yararsız torpaqlar qalmışdı, ən yaxşıları isə əllərindən alınaraq köçürülmüş ruslara təqdim olunmuşdu ki, onlar da özləri torpağı əkib-becərmək, belə desək, diyarda kulturtregerlik *(mədəniyyət daşıyıcıları, tərc. qeydi)* funksiyasını yerinə yetirmək əvəzinə, zəhmətə qatlaşmamağa, işləməməyə, o torpaqları qırğızlara icarəyə verməyə, yaxud qırğızlara cüzi miqdarda zəhməthaqqı ödəməklə onları muzdla tutub çalışdırmağa üstünlük verdilər. Belə çıxırdı ki, özünün ən yaxşı torpağından məhrum olmuş qırğız eyni zamanda bundan ötrü pul da verirdi. Bu cür anormal vəziyyət, təbii ki, qırğızlarda köçürülmüş ruslara qarşı narazılıq yaradırdı və qırğızlar, belə desək, köçürülmə ruslara öz bəlalarının əsas baiskarı kimi baxırdılar. Bu narazılıq çoxdan idi, daha çox torpaqların tutulması, yekunda yeni rus qəsəbələrinin salınması ilə nəticələnib artırdı və nəhayət, üsyan formasını aldı ki, buna da təkan fəhlələrin çağırışı oldu. Məqsəd isə qırğızların haqlarını tapdayaraq onların yerində geninə-boluna oturub torpaqlarına sahib duran köçürülmə ruslardan can qurtarmaq idi.

Bu üsyan ona görə alovlandı ki, qırğızlar vilayətin kişi əhalisinin hərbi xidmətə çağrıldıqlarını çox gözəl bilirdilər və köçürülmə ruslar tərəfindən müqavimətlə rastlaşacaqlarını nəzərdə tutmamışdılar, or-

[1] Qırğız. SSR MDA. F. 44, siyahıyaalma 2, iş 16920, v. 162-163. Surətidir.

dunun vaxtında gəlməsi barədə isə heç duşunməmişdilər, belə zənn edirdilər ki, ordunun başı müharibədə qarışıqdır. Bunun ən yaxşı sübutu odur ki, üsyan, ümumiyyətlə, ruslara qarşı deyil, birbaşa olaraq köçürülüb gəlmə ruslara qarşı yönəlmişdi, buna dəlil kimi isə onu göstərmək olar ki, bölgəyə mənim tərəfimdən dəstə yeridilən və əməliyyatlar aparılan zaman bircə dəfə də olsun, lap əhəmiyyətsiz, zəif kazak stanitsası qırğızların hücumuna məruz qalmamışdı.

Həmin ərəfədə isə yaxındakı keçmiş rus qəsəbələri özülünəcən yandırılaraq külü göyə sovrulmuşdu. Burada bir daha qeyd edirəm ki, qırğızların kazaklardan guya qorxmaları və bu səbəbdən də stanitsalara hücum etməmələri barədə söhbət gedə bilməz, çünki onlar, qəsəbələrdə olduğu kimi, stanitsalarda da yalnız qocalar, qadınlar və uşaqların qaldıqlarından çox gözəl agah idilər. Mənə həvalə edilmiş dəstələrin olduğu bölgədə həmləyə məruz qalan yeganə stanitsa Samsonov stanitsası idi, amma ora da qırğızlar o səbəbdən hücum etmişdilər ki, həmin stanitsada Çu vadisinin suvarılması təşkilatında çalışan mühəndislər yaşayırdılar, həmin təşkilat isə işləri elə həmin köçürülüb gəlmə ruslardan ötrü aparırdı.

Köçürülmə rusların yerləşdirilməsindən əlavə, qırğızların narazılıqlarının və üsyana qalxmalarının əsas səbəblərindən biri də, mən bildiym qədər, yerli idarəetmə ilə qırğız əhalisi arasında olan anlaşılmazlıqlar idi. Mənim düşüncəmə görə, qırğızlar sülhsevər, fanatizmdən uzaq və rus dövləti ilə bütün səviyyəli münasibətlərdə qaynayıb-qarışmaq üçün müsbət məramlı yaxşı materialdır. Bu xalq əsrlərlə yerli şəraiti öyrənərək, Yeddisunun maldarlıq üçün elə bölgələrindən istifadə edirdi ki, digər kənd təsərrüfatı bitkilərinin əkilib becərilməsi işlərinə yaramırdı. Rus rəhbərliyiniə onların kənd təsərrüfatı üçün münasib olan həmin torpaqlardan ağılla istifadə etməsinə azacıq təkan vermək kifayət idi, onsuz da qırğızların böyük hissəsində əkin-biçinə təşəbbüs cəhdi vardı.

Köçürülənlər üçün qırğızlara heç də yararlı olmayan, hətta maldarlıqdan əkinçiliyə keçdikdə belə, təsərrüfata yaramayan torpaqlar verilməli idi, köçürülmə üçün, ümumi götürəndə, meliorasiya yolu ilə yeni

bölgələr salınmalı idi; Yeddisuda torpaq məsələsinin həlli dövlətə məhz belə şərtlərlə sərfəli idi.

Bununla yanaşı qırğızların inzibati idarələrin digər məmurları ilə hamısının eyni hesab etdikləri köçürülmə idarələrinin nümayəndələri torpaqların bölünməsi zamanı işlərini kifayət qədər ehtiyatlı tutmamışdılar və köçürüləcək ruslar üçün torpaqlar bölünərkən qırğızların əkinçilik həyatına keçidi nəinki çətinləşdirmiş, hətta onların maldarlıq işlərini də qəlizləşdirmişdilər. Məs., hətta mal-qaranın yaylaqdan qışlağa maneəsiz aparılması üçün də tədbirlər tökülməmişdi. Bütün sadalananlar son nəticədə qırğızların təkcə inzibati idarələrə deyil, həm də onlardan daha yaxınlıqda olan köçürülmə ruslara da qarşı kükrəmiş hiddətləri anlaşılandır.

Sonra isə məlumat verirəm ki, bu və ya digər səbəblərdən rastlaşdığım qırğızlar dəfələrlə mənə demişdilər ki, yerli idarəçilikdən bəziləri onlardan qeyri-qanuni töycü yığmaqla məşğuldurlar. Həmin iddiaları yoxlamağa nə hüququm, nə də imkanım çatırdı, buna görə də onların Yeddisu iğtişaşlarının səbəblərinin araşdırılmasında nə dərəcədə dəyərli material olub-olmadığını deyə bilmərəm.

Lakin həmin iddialar həddən ziyadə çox olduğuna görə, onların üstündən susub keçə bilmərəm. Yeri gəlmişkən, buna aid qeydlər üsyan başçılarından biri olan Kanaat Abukin tərəfindən mənə ünvanlanmış və tərəfimdən vilayət ordu komandanına təqdim olunmuş ərizədə var. Madam ki, bu cür hədə-qorxu faktları həqiqətən də baş vermişdi, belə olan təqdirdə, onlar sözsüz ki, çalxantıların baş qaldırmasına ciddi səbəblərdən biri olmalı idi.

Bundan əlavə, o məqam barədə də susa bilmərəm ki, çox güman, əgər yerli müdiriyyət tərəfindən müvafiq tədbirlər görülsəydi, qırğızların narazılıqları üsyan halını almazdı, çunki qırğızlar arasında olan narahatlıqlardan müdiriyyət əvvəlcədən xəbərdar idi. Vernı mühafizə şöbəsinin rəisi rotmistr Jeleznyakov deyirdi ki, üsyandan hələ bir ay əqdəm Petroqrada qırğızlar arasında olan təlaşlar barədə məlumatlar çatmışdı və bu barədə qubernatora xəbər verilmişdi.

Əlahəzrətə çatdırmağı özümə borc bilirəm ki, hal-hazırda Yeddisu vilayətinin üsyançılar tərəfindən ələ keçirilmiş həmin bölgələrində yaşayan qırğız əhalisinin vəziyyəti olduqca ağırdır. Gündəlik tələbat və ərzaq ehtiyatı olmadığına görə onlar rus qəsəbələrinə enməli və alqı-satqı üçün rus əhalisinə müraciət etməli olurlar, ruslar isə aydın məsələ kimi kin-küdurət saxlayaraq, qətiyyən onların acınacaqlı halına yanmırlar. Mən bildiyimə görə, hətta rus qəsəbələrinə müxtəlif alqı-satqıdan ötrü yaxınlaşan qırğızlara bu, qanları bahasına başa gəlmişdi. Belə vəziyyət, sözsüz ki, anormaldır və təcili olaraq, onun tənzimlənməsi üçün tədbirlər tökülməlidir, əks halda, aclıq əsasında yeni iri asayiş pozulmaları beş verə bilər.

**İmza anlaşılmazdır**

**1917-ci il (ilin əvvəli).**

**Pokrovka kəndinin sakini Kiryanovun 1916-cı il üsyanının vurduğu zərərləri araşdıran komissiyaya verdiyi ifadələrindən**[1]

... Hələ c-b pristav A.Q.Bayqulovun Kalquta qırğızlarının üsyana hazırlaşdıqları barədə gəzən söz-söhbətlərin təsdiqi üçün gəlişinə qədər, pokrovkalılar dəfələrlə öz qırğız dost-tanışlarından və fəhlələrindən qırğızları narahat edən nə haqqındasa ehyamlar eşitmişdilər, amma bunun mahiyyətinə varmamışdılar.

Hətta bəzən belə ehyamlar da olurdu: “Bəy, taxılı yığmaq fikrin yoxdur?” – deyə rus “tamır”dan[2]soruşurdu. – “Nəyimə gərək ki”, deyə “tamır” da öz növbəsində soruşur və əlavə edirdi: “Allah görür ki, bu taxıl kimə qismət olacaqdır”. Yaxud, fəhlə-qırğız öz sahibi ilə birgə əkin sahəsində oturub deyir: “Bax, qarpıza qonaq edirəm, gəl danışaq. Yaşayış lap çətinləşib: başqa fikir-zikir çox, istəyirəm, kiminləsə bölüşüm”. “Çətinləşmək niyə?”. “Bax, görürsən, sizin rus rəhbərliyi – pristavlar, ya da başqaları – bizim üstümüzə olmazın töycülər yıxmağa başlamışsınız: atlarımız götürülür, pul alınır, deyirlər, hamısı müharibə üçündür”. “Axı bizim də atlarımızı əlimizdən alıblar və biz də töycü

---

[1] Qırğız. SSR MDA. F. 77, iş 48, vərəq 40. Surətidir.

[2] Tamır – “dost” deməkdir.

veririk. Həm də ki, götürülən atlar müqabilində axı pul ödəyirlər", deyə rus cavab verir. "Qardaş, müharibədir, vəziyyət ağırdır. Bu müharibə qurtarsa, asan olar". Qırğız onun sözünü kəsir: "Bir tərəfdən də buradan, əsgərlik ortalığa çıxıb. Yox, qardaş, müharibədə ölmək, burada öz vətənində ölməkdən qat-qat əziyyətlidir".

**1917-ci il (ilin əvvəli)**

**Yeddisu vilayətinin hərbi qubernator vəzifəsini icra edən podpolkovnik Alekseyevin 1916-cı il üçün alinəsəb hesabatından**[1]

Hesabat ilinin ikinci yarısı Yeddisu vilayətində qırğızların üsyana qalxması ilə baş vermiş ciddi çaxnaşmalarla yadda qaldı. Yerli köçərilərin narazılıqlarının səbəbi hələ tam dəqiqləşdirilməmişdir, amma şübhəsiz ki, ən başlıcası, əvvəlki genişliyin itirilməsi, bəzi hallarda isə yerlilərin torpaq və suyun bolluğunu itirmələri ilə nəticələnən Yeddisunun rus ünsürləri ilə geniş şaxəli müstəmləkələşdirilməsi idi. Qırğızların yeni məskunlaşmışlarla narazılıqları əsas etibarilə köçərilərin altdan-altdan bir qədər oturaq həyat tərzi əlamətləri qazandıqları məkanlarında baş qaldırmışdı. Fəqət, ələlxüsus, keyfiyyətli torpağın və nisbi bol suvarılma imkanı olan torpaqlar "özbaşına"ların diqqətini çəkir və onlar həmin ərazilərdə yerləşməyə cəhd göstərirdilər. Özbaşınalar vilayətdə çox zaman qırğızların özləri ilə müxtəlif sövdələşmələr aparıb müvəqqəti oturaq həyat əldə edir, öz bildikləri kimi yerbəyer olanadək, qırğızlar nəinki bu sayaq özünəməxsus müstəmləkəçiliyə qarşı çıxmırdılar, əksinə, bunda özlərinə sərfəli cəhətlər tapıb alqışlayırdılar: gəlmələr onlara xeyli pul verirdilər, bundan başqa, qırğızların ixtiyarında ucuz çörək olurdu. Amma Yeddisu on minlərlə "özbaşınalar"la dolanda, bu zaman onların böyük əksəriyyəti qırğızlar arasında xoşluqla və müstəqil yerbəyer ola bilməyəndə və 1906-cı ildə hökumətin Yeddisunun müstəmləkələşdirilməsi taleyinə müdaxilə etmək zərurəti yarananda, vəziyyət büsbütün dəyişikliyə uğradı.

1906-cı ildə yaradılmış Yeddisu Köçürülmə İdarəsi yaxın üç il ərzində, əsasən, Pişpək, Vernı, Prjevalsk uyezdlərinin ərazisində 40 000

[1] Qırğız. SSR MDA. F. 75, iş 46, v.1-29. Surətidir.

"özbaşına" yerləşdirməyə məcbur oldu. Əlbəttə, torpağa belə bir iddiaçı kütləsinə münasib yerlərin axtarılıb tapılması üçün başdansovdu və tələsik şəkildə görülən işlər lazımi mütəmadiliklə həyata keçirilə bilməzdi. Bundan əlavə, "özbaşına"lar öz arxalarında məlum birlik və güc-qüvvəni hiss edərək, təşkilatın işini çətinləşdirir, onlara təklif olunan məkanlara getmir və onlara istəklərincə olan yerlərdə torpaq ayrılmasını tələb edirdilər. Bunun nəticəsi olaraq, köçürülmə idarəsinin torpaq yerləşdirmə işləri ilk illər bir çox qırğız təsərrüfatlarını təkcə sıxışdırılma sarıdan deyil, digər qətiyyətli üsullarla da çox şeydən məhrum etdi: "Çöl Nizamnaməsi"nin 125-ci maddəsinin əleyhinə olaraq, qırğızların eyni zamanda bəhərsiz torpaqlara sıxışdırılaraq, dəyərli torpaqlarının əllərindən alınması, artıq torpaqların təkrarən ayrılıb götürülməsi və s. baş verdi. Sonradan "özbaşına"lar vilayətin şimal tərəflərində peyda olanda, mənzərə eynən orada da təkrarlandı.

Əlavə etmək lazımdır ki, həmin illər Yeddisudakı köçürülmə işləri bir tərəfdən kor-koranə aparılırdı, çünki müvafiq ilkin tədqiqatlar və plan materialları yox idi, digər tərəfdən isə, kortəbii güc tətbiq edilirdi, çünki "özbaşına"lar müstəmləkələşmənin planlı surətdə həyata keçirilməsini gözləmək istəmirdilər, heç gözləyə də bilməzdilər. İstəmirdilər, ona görə ki, yaddaqalan 1905-1906-cı il hadisələrindən sonra əhvalları yüksəlmişdi, gözləyə bilməzdilər, ona görə ki, öz torpağı olmadan, yerlilərin arasında məlum iqtisadi qəbalədə yaşayarkən, onlar haqlı surətdə bu cür müstəqillikdən əziyyət çəkir, bəzən isə hətta açıq-açığına kasıbçılıq içində dolanırdılar, çünki heç kim tərəfindən rəsmiləşdirilməmiş və bu səbəbdən etibarsız, zəif əsaslı müqavilələrin qırğızlar tərəfindən kobud pozuntularına tez-tez təsadüf olunurdu.

Başdansovdu və bacarıqsızlıqla gerçəkləşdirilmiş köçürülmə işi bir qədər öz çəmini 1909-1911-ci illərdə taparaq sahmana düşdü, hətta 1910-cu ildə vilayət leqal köçürülmə üçün açıq elan edildi. Lakin çox gec idi, məqamlar ötürülmüş, düzəldilməsi mümkünat xaricində olan səhvlər buraxılmışdı. Artıq ən yaxşı torpaq ehtiyatları "özbaşına"lara paylanmışdı, qırğızlar nəzərdə tutulduğundan da çox yerlərdə sıxışdırılmış və yerlərini dəyişdirmişdilər, yeni sakit və planlı iş üçün

isə hədsiz məhdud sahə qalmışdı, belə ki, əvvəlki gümanların əksinə olaraq, Yeddisunun müstəmləkə ərazisi çox geniş deyilmiş.

Köçürülmə işinin sonrakı mərhələləri artıq özgə özülə əsaslanırdı, torpaq bölgüsünün əhalinin qruplaşmasına görə deyil, ərazi üzrə aparılmasının qaçılmaz olduğu qəbul edildi, bu zaman yeni köçürülənlərlə bahəm köhnədən gəlmə kəndlilərin, kazakların və oturaqlaşmış yerlilərin də eyni vaxtda yerləşdirilməsinə qərar verilmişdi, əsas o idi ki, yeni müstəmləkəçilik fondunu hazır qırğız torpaqlarının qalığı ilə doldurmaq lazım deyildi, orada artıq münasib heç nə qalmamışdı, həmin fondu Əkinçilik Nazirliyi hesabına geniş irriqasiya işləri sayəsində qurmaq lazım gələcəkdi. Amma təkrar etməliyəm ki, qırğız iqtisadi rifahının tərpənişi, özü də nəzərəçarpan azman miqyasda, göz önündə idi. Yerlilərlə yeni köçürülmüşlərin arasındakı qarşılıqlı düşməncəsinə münasibətlərdə baş verən qismən qığılcımlar xroniki hal almışdı.

Lakin şübhəsiz, qırğızların xarakterlərindəki yumşaqlıq və üzüyolalıq tam ümid verirdi ki, zaman keçdikcə keşməkeşlər yoluna düşüb düzələcək, ələlxüsus da, yeni şəraitdə qırğızlar hər halda, sırf maldarlığı və köçəri həyat tərzini təsərrüfat və yarıəkinçiliyə, yarımaldarlığa dəyişməklə iqtisadi cəhətdən möhkəmlənə biləcəkdilər, xüsusilə də bu sayaq təkamül təkcə dağətəyi yamacları boyu köçlə məşğul olan vilayətlərə şamil olunurdu. Dağlarda və balxaşyanı bərri-biyabanda köç sürən vilayətlər isə, demək olar ki, köçürülmə müdaxiləsindən bütünlüklə kənarda qalmışdı.

Qırğızların uyğunlaşan xasiyyətlərinə ümid bəsləmək bihudə iş deyildi. Buna həm də Avstriya-Almaniya müharibəsi elanı zamanı köçərilər arasındakı müşahidə edilmiş ruh yüksəlişi dəlalət edirdi. Bütün yerlilər həvəslə, əliaçıqlıqla müharibə üçün pul və mal-qaralarını əsirgəmədən verirdilər, düşmənə qarşı vuruşmaq istəyən könüllülərin də sayında əskiklik yox idi, 1914-1915-ci illərdə isə qırğız cəmiyyəti ehtiyata çıxmış və müharibədə savaşan əsgərlərin ailələrinə çöl-tarla işlərində cani-dildən kömək göstərmişdilər. Eləcə də böyük həvəslə və məmnuniyyətlə müdiriyyətin ordu üçün yurta, keçə, çul təhvil vermək tələblərini yerinə yetirir, dinməzcə hərbi verginin tam həcmini ödəyirdilər.

Lakin rus silahına qərb cəbhəsində məlum uğursuzluqlar gətirən 1915-ci il, görünür, Yeddisuda da öz izlərini buraxmışdı. Döyüşçülərin təkrarən cəbhəyə çağrılması, əsgərliyə yeni qüvvələrin toplanması, vilayətdən ordunun çıxarılması və bu sayaq hadisələr, ehtimalən, qırğızlarda belə fikir yaratdı ki, Rusiyanın düşmənləri çox güclüdür. Bəlli "arxa cəbhə" yorğunluğu da, sözsüz ki, şəxsən müharibədə iştirak, həmçinin onun yekunu üçün öz canlarını və qanlarını qurban verməyə hazır olmayan qırğızların davranışlarının üstünə gəldi... İğtişaşların başlanmasına birbaşa səbəb kimi isə, yerlilərin arxa cəbhədəki işlərə çağırış sərəncamının düzgün anlaşılmaması oldu.

Yeddisuda hesabat ayı iyulun 1-də elan olunmuş bu sərəncam bütün vilayətdə qəfil çaşqınlıq yaratdı. Xəbərə hazır olmayan yerlilər özlərini itirdilər və ruhdan düşdülər. İdarənin izahatları şüuri və təhtəlşüuri pis dərk edildi. Fəhlələtin birbaşa cəbhə xəttinə, səngərlərə aparılması barədə yanlış düşüncə çöllərə qısa zaman ərzində elə sürətlə yayıldı və möhkəmləndi ki, yerlilərin şüuruna hansısa fikrin qətiyyətli təsiri barədə bit müddət heç söhbət də gedə bilməzdi. Anlaşılmaz çaxnaşma bütün uyezdləri bürüdü. Bəzi uyezdlər birbaşa Çinə doğru tərpənib baş aldılar, digərləri Balxaşın qumluqlarına getdilər, üçüncülər isə öz sürüləri və mal-dövlətləri ilə dağların keçilməz dərələrinə çəkildilər.

Yerlilər arasında çaxnaşmalar bütün iyul ayı ərzində davam etdi. Gah çağırışçıların işə çıxmağa etriazı barədə məlumat daxil olurdu, gah ovqatlarında işin yaxşı tərəfinə yönəlməyi, fikirlərinin dəyişməyi haqqında, gah bir qrup, bəzən hətta bir vilayət çağırışçının Çinə qaçması, sonradan qayıtması, eləcə də qırğızların rus sahiblərinin yanından qaçışına dair xəbərlər gəlirdi. Lakin bütün bu faktlar ilk günlər yalnız asilik və passiv itaətsizlik xarakteri daşıyırdı, sakinlərin ən çox təlaşları isə sabahın naməlumluğundan idi. İyul ayında yeganə iri hadisə Vernı uyezdində Kərəm tarançin vilayətinin başçısını öldürülməsi idi, lakin istintaqın müəyyənləşdirdiyinə görə, bu qətlin üsyanla heç bir əlaqəsi yox idi, cinayətin səbəbləri köhnə firqə zəminində yaranmışdı.

Bir çox vilayətlər fəhlələrin arxa cəbhəyə təyinatı barədə sərəncamları təqdim etmişdilər, amma çağırışçıların siyahılarının tutul-

ması, demək olar ki, hər yerdə mübahisələr və firqədaxili çəkişmələr yaradırdı, belə ki, kütlə bir çox hallarda, əsasən də qadınların təsiri altında, müqavimət göstərir, hətta yerli müdiriyyətin siyahı tutmaqda israrlı təmsilçilərinə hədə-qorxu da gəlirdi. Həmin ərəfədə uyezddən daxil olan məlumatlardan ümumən belə təəssürat yaranırdı ki, naməlum gələcək qarşısında həyəcan və qorxu qırğız kütləsinin əsas ovqatını əks etdirir, onlar da iki qrupa – fəhlələrin müsadirəsinin "lehinə" və "əleyhinə" olanlara bölünmüşdülər. Ümumi təlaş, pəjmürdəlik dalğasının yuxarı qaldırdığı bəzi möhtərəm yerlilər bundan sui-istifadə etdilər. Rusiyanın müharibədə zəiflədiyini, Yeddisunun müdafiəsiz qaldığını qət edərək belə zənn etdilər ki, hökmfərma olan dağıntıdan istifadə edərək, diyarda rus hakimiyyətinin ləğv olunmasının əsil vaxtıdır və onun qalıqlarının üstündə yeni Qırğız xanlığı yaratmaq olar və başlarını itirib üsyan qaldırdılar...

... Gəzən söz-söhbət onu göstərir ki, başçıların qətiyyəti qəflətən yaranaraq möhkəmlənmişdir, çünki onların yanlışlıqlarına Rusiyanın zəifləməsi, Almaniyanın məğlubedilməzliyi və Rus Türküstanına çinlilərin yaxın zamanda müdaxiləsi barədə kimlərinsə proklamasiyaları dayaq verirdi. Rəsmən bu mülahizə öz təsdiqini tapmır, amma alman casuslarının türküstanlı əcnəbilərə ümid bəsləmələri barədə Qaşğar və Gülcədəki konsullarımızdan etibarlı informasiyalarımız var. Eləcə də ixtiyarımızda Yeddisudakı iğtişaşlara, işlə əlaqədar Gülcə bölgəsindən gələnlərin arasında peyda olmuş çinli anarxistlərin də aidiyyatı barədə işə daxil edilmiş faktlar var.

... Elə ki, qırğızlar arasındakı narahatlıqların xarakteri müəyyənləşdirildi, vilayətin az saylı qoşunları yerli qərargah tərəfindən işlənib hazırlanmış plan üzrə mühüm məntəqələrdə yerləşdirildi. Qarqara yarmarkasına tərkibində piyada və əlli nəfər kazakın olduğu xüsusi dəstə göndərilmişdi. Eyni zamanda Daşkənd diyarının rəisinə telefonla yerli qarnizonların gücləndirilməsi barədə sərəncam göndərilmişdi. Lakin Daşkəndlə Yeddisunu ayıran məsafə böyük olduğundan, bu fikrin vaxtında həyata keçirilməsinə ümidlər az idi, buna görə vilayət boyu xüsusi drujinaların yaradılması tövsiyə olundu. Təəssüf ki, hərçənd, hətta

xəzinə anbarlarında saxlanılan cüzi ehtiyatlardan istifadə olunmasına və mülki şəxslərdən silah və döyüş sursatlarının müsadirə edilməsinə rəğmən, təkcə kəndlərdə deyil, hətta şəhərlərdə də bu drujinaları lazımi səviyyədə silahlandırmaq qeyri-mümkün idi. Lazımi dərəcədə silahlandırılmama özünü Prjevalsk uyezdində daha qabarıq göstərdi ki, bunun da nəticəsi olaraq, həmin vilayət üsyançıların əlindən daha çox ziyana düşdü.

Üsyançıların ilk açıq çıxışları zamanı Yeddisu kazak qoşununun güzəştli yüzlükləri tələsik səfərbər edildi. Avqustun 6-da üsyana qalxan qırğız dəstələri Vernı şəhərinin qərb istiqamətinin 75 verstliyində peyda oldular. Onlardan biri – həmin dəstədə bir neçə vilayətin qırğızları vardı – çağırışçı qırğızların siyahısını tutmaq üçün Botpayev vilayətinə gedən Otar sahə pristavına hücum etdilər və onun silahlı mühafizəsi ilə atışma başlandı. Pristav hücumu dəf edə və uğurla Kazanskoye-Boqorodskoye kəndinə çata bilmişdi. Belə olan təqdirdə, üsyançılar daha böyük qruplarla toplaşaraq Vernıdan Pişpəyə aparan poçt yolunu tutdular, teleqrafı kəsdilər, yol üstündə olan bütün çöl poçt stansiyalarını qarət etdilər və poçtla birgə gəlib-gedənlərə hücuma başladılar. Bir neçə nəfər öldürüldü və elə o qədər də əsir götürüldü. Hücuma həm də poçt yolunun cənub tərəfində salınmış yeni rus köçkün kəndləri məruz qaldı, amma vaxtında görülmüş özünümüdafiə tədbirləri sayəsində həmin hücumlar uğurla nəticələnmədi. Üsyançılar yalnız tarlada işləyən bir neçə nəfər kişi, qadın və uşaqları əsir götürə, az miqdarda mal-qaranı sürüb apara bildilər. Sonradan bütün əsirlər azad edildilər.

Artıq avqustun 7-də üsyanın yatırılması üçün Vernıdan piyada qoşunları və kazak yüzlükləri yola düşdülər və onların peyda olması, qətiyyətli hərəkətləri üsyançıların arasına çaşqınlıq salıb onları pərən-pərən etdi. Onların bir hissəsi dağ aşırımlarından keçməklə Çu vadisinə doğru qaçdı, digər qismi isə öz yurta, mal-qara və var-dövlətlərini yolda qoyub qaçaraq, Balxaş gölünə sarı üz tutdu. Avqustun 18-də artıq Vernı vilayətində qiyam yatırılmışdı və qırğızların ruslara kütləvi hücumu kəsilmişdi. Daha ciddi nəticələrə gətirib çıxaran üsyan isə qara-qırğızların vilayətin cənub tərəfindəki çıxışları oldu, çünki səbəbi qiyamın nisbi yaxşı təşkilatçılığa malik olmasında idi.

Üsyanın səbəbkarları eləcə də Pişpək uyezdinin Tokmak sahəsinin Sarıbağış və Atekin vilayətləri oldu, onlar Yeddisu tarixində ad çıxarmış manap Cantayın nəslindən idilər. Cantay Çu vadisində rus hakimiyyətinin bərqərar olmasına qarşı inadlı müqavimət göstərmişdi. Qara-qırğızların arasında azman hörmət sahibi olan "cantayçı"lar asanlıqla özlərinə Tokmak sahəsinə daxil olan qohum vilayətləri, həmçinin qara-qırğızların İssık-Kul gölü ətrafında, Prjevalsk uyezdindəki gölü çevrələyən dağlarda və Carkəndin cənub hissəsində yaşayan əqrəbaları "buğu" tayfasını da öz tərəflərinə çəkmişdilər. Danışıqlar o dərəcədə ehmal və gizli aparılırdı ki, onlar nəinki yerli rus əhalisinin, eləcə də polis casuslarının da nəzər-diqqətindən yayınmışdılar.

Sarıbağışların düşmənçilik hərəkətləri avqustun 8-də Böyük Kəbən çayının dərin dərəsində yerləşən köçürülmə kəndi Novorossiyskə qəfləti hücumla başladı[1]. Kəndlilərin toplaşdığı və üsyançılardan qəhrəmancasına müdafiə olunduqları üç ev istisna olmaqla, bu kənd axşama bütünlüklə yandırıldı. Novorossiysklilərin mal-dövləti talan edildi, mal-qarası aparıldı. İnformasiyalar var ki, "sarıbağışlılar" həmin gün adətlərinə uyğun "bata" – andı içmişdilər. Onlar "fəhlələri verməmək, qırğızların hamısını tədricən ruslara qarşı yönəldərək ruslarla mübarizədə ölmək" deyərək, heyvanların qanına and içmişdilər. Əsirlikdə olmuş kəndlilərin söylədiklərinə görə, elə burada da qədim adətə müvafiq, bu yaxınlarda Məkkəyə və Konstantinopola ziyarətdən qayıtmış manap Makuş Şabdanov – Cantayın nəvəsi – ağ keçə üzərinə qaldırılmış və xan elan edilmişdi.

Avqustun 9-da üsyanın yanğını qara-qırğız köçəriləri tərəfindən tutulmuş Çu çayı hövzəsi və İssık-Kul gölü vadisinin bütün ərazisini bürüdü. Üsyançılar Pişpəkdən Prjevalska gedən poçt yolunu və Rıbaçye kəndindən Narın istehkamına aparan yolu möhkəmlənmək üçün tutdular, yoldakı körpüləri yandırdılar, teleqraf xətlərini dağıtdılar, bütün poçt stansiyalarını talana məruz qoyub odladılar və yollarda müşahidə dəstələri qoydular. Ruslar peyda olanda, onları soyur və öldürür, meyitləri hər cür təhqir edir, arvad-uşağı əsir aparırdılar.

[1] Böyük Kəbən.

“Sarıbağış”lar tərəfindən Boom dərəsinın İssık-Kul gölünə çıxışında yerləşdirilən dəslələrdən birinin bəxti gətirdi. Dəstəyə Prjevalsk şəhərinə göndərilmiş sursat nəqliyyat vasitəsini pusquya salmaq, silahlı mühafizəni qırmaq, tüfəngləri və hərbi patronları ələ keçirmək nəsib oldu. Bu qənimətin bir hissəsi dərhal “buğu”ların vilayətinə göndərildi. Bu cür qələbədən ruhlanmış qiyamçılar cəsarətlə rus kəndlərinə hücum edir və örüşdəki mal-qaranı sürüb aparmağa, tarlada işləyən sakinləri öldürməyə və əsir almağa başladılar.

Pişpək uyezdinin rəisi vəzifəsini icra edən podpolkovnik Rımşeviç “sarıbağışlar”ın ilk hücumu barədə xəbər eşidən kimi Tokmak kəndinə gəldi, tünlük adamlı həmin ticarət məntəqəsinin ixtiyarında olan ehtiyat ordu hissələrindən və könüllü drujinaçılardan tələsik hazırlanmış müdafiə təşkil etdi. O, üsyançıların təhdid etdikləri kazak Samsonovka stanitsasına sahə müvəkkili pristavının başçılığı altında azsaylı süvari dəstəsi göndərdi, özü isə 26 süvari əsgər ilə birgə cənub-şərqdə yerləşən köçkün kəndləri – Belo-Piketnoye, Bıstroretskoye və b. – istiqamətinə tələsdi. Yol üstündə Kiçik Kəbən (Kəmin) dağ gədiyi tərəfdə Rımşeviçin dəstəsini qəflətən üsyançıların sayı 300 nəfərə qədər olan bandası mühasirəyə aldı, amma dəqiq qatar atəşi ilə üzləşmiş banda dağıldı və dağlara geri otuzduruldu. Köçürülmə kəndlərin sakinləri əngəlsiz Tokmaka aparıldılar.

Üsyançıların Samsonovka stanitsasına da ilk həmləsi uğurla dəf olundu. Ora ertəsi gün Vernıdan, Kastek aşırımından yüzbaşı Veliçkinin başçılığı altında gələn kazak dəstəsi mühasirəyə alanları dağlara doğru sıxışdırdı, Çu çayı vadisini müvəqqəti olaraq üsyançılardan təmizlədi, tarlalarda öldürülmüş kəndlilərin, eləcədə də mühəndis Vasilyevin arxının çəkilməsində işlərkən qətlə yetirilmiş fəhlələrin nəşlərini axtarıb tapdı və dəfn etdi. Təəssüf ki, üsyançılarla avqustun 12-ə baş tutmuş yeni savaşda yüzbaşı Veliçkin və ehtiyat dəstələrə komandanlıq edən praporşik Kiselyov qəhrəmancasına həlak oldular; vaxmistrin başçılığı altında qalan dəstə üsyançıların dağlarda təqibinin davamına cürət etmədi və  stanitsanı mühasirəyə yatmış üsyançı dəstələrin yeni hücumlarından qorumaqla məhdudlaşmalı oldu.

Avqustun 13-də "sarıbağışlar"ın böyük kütləsi Tokmak kəndinin ətraflarında toplaşmağa başladı. Bu müddətə kiçik yasavul Bakureviçin Vernıdan tərkibində yüz kazak və pulemyotu, eləcə də yetmiş aşağı rütbəli piyadası olan cəza dəstəsi gəlib özünü çatdırdı. Üsyançıların növbəti dəfə Tokmakı ələ keçirmək barədə fikirlərindən xəbərdar olan dəstə, hərəsi yüz nəfər tərkibli iki və yüz əlli nəfərlik bir süvari dəstəsi olmaqla bizim könüllü drujinamızla gücləndirildi. Avqustun 14-dən 22-nə qədər üsyançılar hər gün səhər saat yeddidən axşam saat doqquza qədər müxtəlif tərəfdən hücumlara keçməklə Tokmakı mühasirəyə aldılar. Kənd gecələr hücum edənlərin düşərgələrində qaladıqları tonqallarla çevrələnirdi. Avqustun 20-də üsyançıların hücumu o dərəcədə şiddətli baş tutdu ki, bütöv sıralarını biçib-tökən pulemyot qatarı atəşinə rəğmən, onlar üç dəfə həmləyə keçdilər və yalnız müdafiəçilərin soyuqqanlılığı və mətanəti sayəsində uğur qazanmağa müfəvvəq olmadılar.

Hücum edənlərin əsəbilik səbəbləri tezliklə üzə çıxdı. Avqustun 22-də sübh ertədən Tokmaka podpolkovnik Geytsiqin Daşkənddən göndərilmiş üç silah növündən ibarət dəstəsi yaxınlaşdı. Səhər saat 9 radələrində üsyançılar böyük qüvvə ilə toplaşdılar və hər tərəfdən yenə də həmləyə keçdilər, amma güclü tüfəng, pulemyot və artilleriya atəşi ilə üzləşib geri otuzduruldular və dağıdıldılar. Bundan böyük ibrət dərs alaraq və öz işlərinin məğlubiyyətə düçarlığını görəndən sonra İssık-Kul gölünün cənub sahilindəki yüksək dağ sırtlarına qaçmağa üz qoydular. "Sarıbağış"lar tərəfindən ələ keçirilmiş nəqliyyat vasitəsindən tüfəng və patronların paylanması Tokmakdan cənubdakı dağarxası vilayətlərdə və İssık-Kul vilayətinin çökəkliyində köçəbəlik edən "buğu"ların açıq-aşkar üsyanının başlanmasına işarə oldu.

Avqustun 9-da dağətrafı Qarakeçi vilayətinin min beş yüz nəfər qara-qırğızından ibarət dəstəsi qəflətən Cumqal vadisində salınmış köçkün kəndi olan Belo-Tsarska hücum etdi, yandırdı və camaatını qırıb-çatdı. Üsyançılar ertəsi gün dağarxası vilayətlərdə polis bölməsinin rəisi Menşikovu öldürdülər və hidrometrik stansiyanı talan edib dağıtdılar, işdə olan bütün texnikləri qətlə yetirdilər, ailələrini isə əsir apardılar. Menşikovun yanındakı kiçik qarovul dəstəsi doqquz sutka ərzində

mühasirəyə davam gətirdi, amma doqquzuncu gün aclığa dözməyərək təslimata getdi və məhv edildi.

Avqustun 9-da sayı beş min nəfərə çatan digər üç dəstə Koçkor vadisində Stolıpino kəndini mühasirəyə aldı. Kənddə olan 18 kazak və əsgərdən ibarət komanda üsyançıların ilk həmlələrinə qoçaqlıqla davam gətirib onları geriyə atdı. Axşam Narından Atbaşi sahə rəisi məmur Xaxalev 20 kazakla birgə stolıpinlilərə köməyə gəldi. Sakinləri müdafiə vəziyyətinə gətirən Xaxalev avqustun 10-da bütün gün ərzində qara-qırğızların şiddətli həmlələrinə sinə gərdi, fəqət patron qıtlığı ucbatından daha müqavimətin mümkünat xaricində olduğunu anlayandan sonra kənd əhlini toplayıb gecə zülmətindən sipər kimi istifadə edərək Tokmak istiqamətində geri çəkildi. İssık-Kul gölünün şimal-qərb küncündə salınmış Rıbaçye kəndinə qədər qaçqınlar gözə dəymədən keçdilər, lakin Rıbaçyenin yaxınlığından başlayaraq, Boom dərəsinin dibi boyu yol gedərkən, dağların başı ilə onları təqib edən və vaxtaşırı qaçqınların başına güllə yağışı yağdıra-yağdıra dabanbasma gələn qiyamçılarla atışmaq məcburiyyətində qaldılar. Dəstə Çu çayını ayaqla dayaz hissəsindən keçməli oldu, çünki körpülər yandırılmışdı. Sonuncu həmləyə Cil-Arık stansiyasının yanında tab gətirən dəstə üçüncü sutka özünü Çu vadisində Belı Piket kəndinə çatdırdı. Buradan Xaxalev yaralıları da özü ilə götürüb dəstənin az qismi ilə sağ-salamat Tokmaka gəldi, dəstənin qalanı və cəmi Stolıpino kəndinin əhli isə Mixaylovskoye kəndinə, ardınca Kastek aşırımından keçməklə Vernı uyezdinə göndərildi. Xaxalevin dəstəsi geri çəkilərkən öldürülən, Çu çayında batan, yaralı və itkin düşmüşlərlə 53 nəfər canlı qüvvə itkisi vermiş, əhali tərəfindən tərk edilmiş Stolıpino kəndi qiyamçılar tərəfindən yandırılmışdır.

Elə həmin avqust ayının 9 və 10 tarixində qara-qırğızların İssık-Kul hövzəsində açıq-aşkar hücumu başlandı və qısa vaxt ərzində iri dalğa kimi qərbdən şərqə doğru baş aldı... "Buğu"ların rus kəndlərinə silahlı hücumları yerli sakinlər olduğu kimi, inzibati idarə üçün də həddən ziyadə naqafil oldu.

Bütün vilayətlər hələ həmin ərəfədə hakimiyyətə tam itaət göstərərək, orduya arxa cəbhədəki işləri üçün göndəriləcək fəhlələrin si-

yahılarını tuturdular. Bununla ümumi sayıqlığı yatızdırıb sakitləşdirən, üsyançılar müvəqqəti uğurlar əldə edibən böyük bədbəxtçiliklər törətdilər. Kəndlərə hücum hər yerdə mal-qaranın aparılması, ev-eşiklərin talanı, yandırılması, yanğınlarda ölümlər, vəhşicəsinə qətllər, qadınların zorlanması, sonra isə öldürülməsi, yaxud əsir aparılması ilə müşayiət olunurdu. Qəflətən hücuma məruz qalmış kənd əhalisi çox zaman hətta müqavimət göstərməyə cəhd göstərmirdi. Təlaşa düşərək evlərini, mülkiyyətlərini hətta bəzən yaxınlarını, doğmalarını da qoyub tərk edir, daha çox sakinləri olan kəndlərə, yaxud Prjevalsk şəhərinə qaçmaqla qurtulmağa tələsirdilər. Lakin yolda qaçqınlar qiyamçıların hər yerə səpələnmiş, iyləyib çüyləyən dəstələri ilə rastlaşırdılar ki, onlar da camaatı tutur, kişiləri öldürür, qadın və uşaqları əsir aparır, tərk olunmuş yaşayış məntəqələrini isə yandırırdılar. Üsyançılar tərəfindən ağ bayraqdan sui-istifadə hallarına rast gəlinmişdi.

Gölün şimal sahilindəki Ozerno-Folbaumsk kəndində əhali qırğızların vədinə inanaraq, müqavimətsiz təslim olmuş, kişilər dərhal öldürülmüş, qadın və uşaqlar dağlara aparılmışdı. Uyezd rəisinin köməkçisi Kayçiyev üsyançıların hücumu günü işlə bağlı gölün cənub sahilindəki Koltsovka kəndində idi, silahlı qarovulu dəstəsində cəmi 10 nəfər əsgərin və az miqdarda patron ehtiyatı ilə müqavimətin mənasız olduğunu görcək, hücum edənlərlə kənd əhlinin Prjevalsk şəhərinə sərbəst keçidi haqqında danışıqlara başlamışdı. Üsyançılar keçidə razılaşmışdılar və Kayçiyev arabaları qoşaraq bütün sakinləri özü ilə götürüb yola düşdü, amma heç iyirmi verst uzaqlaşmamış üsyançıların dəstəsinin hücumuna məruz qaldı və qətlə yetirildi. Yol yoldaşlarının da çoxu eyni tale yaşayaraq öldürüldü, yolların kənarlarında sıx çaytikanı kolları arasında gizlənə bilən bir neçə nəfər istisna olmaqla, qalanlarını dağlara apardılar.

Gölün cənub sahilinin digər kəndlərinin sakinləri, bəzi istisnalar olmaqla, şəhərə yaxşı çatmışdılar. Ən barbarcasına divanı vəhşi “buğu”lar Prjevalskın 15 verstliyində yerləşən kənd təsərrüfatı məktəbinin fermasına pənah gətirmiş azsaylı qaçqınların başına gətirmişdilər. Fermada gizlənmişləri güc sayəsində ələ keçirə bilməyən üsyançılar mək-

təbdəki bütün cins mal-qaranı qovduqdan və nə mümkündürsə, talan etdikdən sonra binanı yandırmışdılar. Şəhərdən köməyə gəlmiş milislər yalnız yaralıların aparmaqla və öldürülənlərin eybəcər hala düşmüş meyitlərini daşıyıb dəfn etməklə kifayətlənməli olmuşdular. Şimal sahildə qaçqınların əksəriyyəti əhalisi çox olan qədim kənd Sazanovkada yerləşmişdilər və şəhərdən gəlmiş kiçik milis dəstəsi ordu gələnə qədər yeddi gün onları qara-qırğızların azğın hücumlarından qorudu. Sazanovka kəndi artıq o zaman yandırılmışdı.

Prjevalskdan vaxtında göndərilmiş yardım göl ətrafındakı pərakəndə yerləşmiş kəndlərə çata bilmədi. Onun qarnizonu yalnız azsaylı piyada komandasından ibarət idi; şəhərdəki vəzifəlilərin silahı yox idi. Şəhərli sakinlər özləri şəhərə kütlə ilə gələn qaçqınların üsyançıların vəhşilikləri barədə danışdıqları hekayətlərdən və Prjevalska hücum niyyətlərindən qorxu içərisində idilər. Tam sakit məkan olan Mariinsk kəndinin dinc dunqanlarının üsyançılara qoşulduğu və onlara yollarda qaçqınları tutmaqda, öldürməkdə yardım göstərdikləri xəbərlərini eşidəndə, bu sayaq hücumların qarşısında qorxu hissi daha da artdı. Özünümüdafiə hissi hər şeyə qalib gəlirdi. Bütün sakinlər tələsik barrikadalarla möhkəmləndirilmiş Qışla (Kazarma) meydanında toplaşdılar, şəhər ətrafına aparan bütün küçələr haçalı manelərlə çəpərləndi, qarnizonun möhkəmləndirilməsi üçün ehtiyatdan və könüllülərdən milis yaratdılar, onların silahlanması üçün uyezd idarəsinin arxivində saxlanılan on üç berdan tüfəngi və ayrı-ayrı şəxslərdən müsadirə edilmiş ov tüfəngləri götürülmüşdü. Milislərin kənd sakinlərinə kömək məqsədi ilə göndərilməsi barədə ilk günlər kimsə düşünməmişdi.

Prjevalskda nisbi sakitlik yalnız avqustun 15-də, rotmistr Kravçenkonun Qarqara dəstəsi gəldikdən sonra bərqərar oldu, ertəsi gün şəhərə xorunji Uqrenikovun kazak yüzlüyü daxil oldu ki, bu da dəstəni üsyançılar tərəfindən əhatəyə alınmış Sazanovka kəndinin azad edilməsi üçün göndərməyə imkan verdi. Avqustun 25-də Uqrenikovun milislərlə möhkəmləndirilmiş yüzlüyü gölün cənub sahillərindəki sakinlər tərəfindən tərk edilmiş kəndlərə, əldə edilən informasiyaya görə, çaytikanı kollarında gizlənmiş ayrı-ayrı sakinləri yığıb xilas etmək üçün

daxil oldu. Bu tapşırıq uğurla həyata keçirildi, üstəlik, dəstə dağlarla hərəkət edərkən, çoxlu sayda üsyançılardan ibarət dəstə ilə rastlaşdı, onları dağıtdı və xeyli əsiri azad etdi.

Əsirlərin ifadələrinə görə, qara-qırğızlar avqustun 27-dən 28-nə keçən gecə Prjevalska hücum üçün toplaşıbmışlar, lakin ifadələr öz təsdiqini tapmadı. Gölün cənub sahilləri boyu dağlarda böyük dəstə ilə köçərilərin peyda olması onunla bağlı idi ki, üsyanın tamamən yatırılmasından ötrü Tokmakdan hərəkətdə olan podpolkovnik Geytsiqin dəstəsindən savayı, Fərqanə tərəfdən Orenburq kazaklarından ibarət güclü dəstə də göndərilmişdi, Vernıdan isə dağlardan keçən birbaşa yolla İssık-Kula starşina Bıçkovun tərkibində kazak yüzlüyünün, pulemyotlu piyada rotasının və 50 könüllü olan döyüşçü bölüyü yollanmışdı. Üç tərəfdən sıxışdırılmış üsyançılar xilas olmaq yolunu qaçmaqda görürdülər, bəziləri gölün cənub sahillərinin uca sırtları ilə Çinin Qaşğar əyalətinə, başqaları gölün şimal sahil ilə Qarqaradan və Tekes çayının yuxarı axarından keçməklə Gülcə diyarına. Birincilər öz məqsədlərinə demək olar ki, maneəsiz çatdılar, çünki üsyançıların qaçdıqları dağ aşırımları və dərin dərələr onların təqibinə əngəl törədirdi. Yalnız özlərini Koçkor vadisinə və Son-Kul gölünə salan bandalar ordu dəstələri tərəfindən yaxalanmış və görk məqsədi ilə cəzalandırılmışdılar. Bu zaman onlar tərəfindən sürülüb aparılmış mal-qaranın bir hissəsi geri alınmışdı. İssık-Kulun şimal sahilləri boyu qaçan qiyamçılar isə bir neçə dəfə cəza dəstələri ilə Preobrajensk kəndi, Kensuy dərəsi, Qarqarada, təzə ayrılıb salınmış Oxotniçi kəndi həndəvərində toqquşmuş, böyük çətinliklə Çin sərhədinə çatmışdılar və bu zaman yolda xeyli sayda adam və eləcə də mal-qara itkisi vermişdilər...

Üsyançıların xainliklə rus kəndlərinə nagahani hücumları, vəhşicəsinə qətlləri, əsir götürülənlərlə barbarcasına rəftarı və illər boyu əziyyətlə, ağır zəhmətlə topladıqları varidatı, bir çox hallarda isə bütöv ev-eşiyi, ailə ocağını itirmələri rus əhalisini onlara qarşı həddən ziyadə qeyzləndirdi. Yalnız baş verəcək təhlükə qarşısındakı qorxu hissi keçib gedəndən sonra yerini başqa, yandırıcı intiqam hissinə verdi. Bu yanğı öz gücünü duyduraraq, məhkəməsiz cəzalandırma və qisas

hissini alovlandırdı və əlbəttə, qarşıdakı adamın üsyana aid olub-olmamasının mahiyyətinə varılmadı. Məhkəməsiz cəzalandırmanın ən əzazil təzahürü Prjevalsk şəhərində yaşayan, Mariinsk vilayətindən olan dunqanlara tutulan divanda gerçəkləşdi. Həmkəndlilərinin üsyançılara qoşulmaq xəbəri yayılan kimi, bütün şəhər dunqanları qırılıb-çatıldılar, onların mülkləri isə talan olundu. Prjevalsk uyezdinin Teploklyuçensk və Preobrajensk kəndlərində anlaşılmazlığa görə gözlərini qan tutmuş qəzəbli kəndlilərin ürcahına qətiyyən bu üsyana aidiyyatı olmayan müsəlman-tacirlər çıxdılar. Rotmistr Kravçenkonun dəstəsi ilə Qarqara bazarından və Sazanovka kəndindən gələn qeyri-əsilzadə mənşəli ziyalı (raznoçinlər) müsəlmanlar məhkəməsiz cəzalandırmanın qurbanı olmuşdular. Pişpək uyezdinin Belovodsk kəndində kütlə vilayət başçısının həyətində həbs edilmiş qırğızlara məhkəməsiz cəzalandırma tətbiq etdi. Yerli polis hakimiyyəti bu kədərli hadisələrin qarşısını, onlar qəfil baş verdiyinə, eləcə də zəruri vəsaitlər olmadığına görə almaq iqtidarında deyildi, amma artıq məhkəmə hakimiyyəti araşdırmalara başlamışdır və məhkəməsiz cəzalandırmada günahkar olanlar qanunla nəzərdə tutulmuş cəzalarına çatacaqlar.

Köçərilərin rahatlıqla Çin ərazilərinə yerləşmək ümidləri doğrulmadı. Kəşfiyyatçıların sonrakı araşdırmalarına görə, Qaşğara yollanan dəstə qarlı çovğunlarla müşayiət olunan soyuqların tez düşməsi və heyvanların əl altında yeminin olmaması ucbatından sırtlarda, demək olar ki, bütün heyvanatı itirmiş və Çin hüdudlarına müflisləşmiş halətdə gedib çatmışdı. Tekesə köçüb getmiş köçərilər öz mal-qaralarını nisbətən sağ-salamat sürüb aparmışdılar, lakin burada da ayazların tez vurması ilə dərin qarın yağması və yem ehtiyatının qaibliyi sürülərdə böyük tələfata səbəb olmuşdu. Çin hakimiyyəti qaçqınlara laübalı yanaşmış, amma əhalinin aşağı zümrəsi onları hədsiz dostcasına qarşılamışdı.

Köçəri kalmıklar yüngül qazanca sevincək olub qaçqınlardan mal-qaranı, var-dövlətlərini və hətta qadınlarını da aldılar, sonra isə onları geriyə, bizim tərəflərə qovmağa başladılar. Çıxılmaz vəziyyətə düşən və hər şeydə müdhiş məhrumiyyətlər çəkən üsyançıların itaət göstərməkdən savayı yolu qalmamışdı.

Üsyanla bağlı vilayətdə köçəri əhalinin sayının əksilməsi dəqiqliklə alaçıqların qarşıdan gələn, 1917-ci ilin yanvarında baş tutacaq hesabaalmada məlum olacaq. O təxminən hər iki cinsin nümayəndələri ilə birgə 150 min nəfərdən artıq sakinli 38 min alaçıq hesablanmışdır.

**Fevral 1917-ci il**

**Yeddisu vilayəti köçürülmə işləri üzrə müavini Korsakın Baş Köçürülmə İdarəsinə Kanaat Abukinin ifadələri haqqında raportundan**[1]

Kanaat Abukinin ifadəsinə əsasən məlumat verirəm: 1) keçmiş istehsalçılar Mazurenko və Boquşeviçin rüşvət almaları barədə məsələyə gəldikdə, bu barədə heç nə deyə bilmərəm, çünki heç biri mənim dövrümdə bölgəmdə qulluq etməmişlər. Mazurenko və Boquşeviçin əliəyri hərəkətləri barədə şayiələr gəzirdi, amma bu söz-söhbətlər heç kim tərəfindən yoxlanılmamışdır. 2) Köçürülmə idarəsinin məmurlarının və onların cigitlərinin qırğızlardan qoyunları pulsuz götürmək, yaxud aşağı qiymətə almaqda ifrata varmaları barədə də, ələlxüsus, son illərdə çoxlu şayiə gəzirdi, təəssüf ki, həmin söz-söhbətlərin kifayət qədər əsası olmamışdır. 3) O ki, qaldı Kanaat Abukinin qırğızlardan Keçkin vilayətinindəki bütün münasib torpaqların alınması barədə ifadəsinə, bu sayaq şikayətləri həmin vilayətdə çox qırğızdan oktyabr və noyabr ayında Narında olarkən eşitməli olmuşam, o zaman polkovnik Kolosovski ilə itaət göstərən qırğızları yerbəyer edirdik.

Etiraf etmək lazımdır ki, qırğızların əlindən Keçkin vilayətinin alınması əsla düzgün deyildi və qanunsuz idi, o vilayətin qırğızlarının torpaqdan istifadəsinə güclü zərbə vurmuşdu, əllərindən torpaq alındığına görə onlar sahələri icarəyə götürməyə məcburdurlar. Ümumiyyətlə, Narın yarımrayonunda torpağın alınması həddindən artıq tələsik və səhv aparılmışdı, belə ki, mərzlənmə orada aparılmamış, qırğızların ümumi torpaqların alınmış, bərəkətsiz sahələrə çox cüzi qiymətlə endirim qoyaraq göndərilməsi vaqe olmuşdu. Artıq torpaqlar bu torpaq sahələrindən çıxış edərək hesablanırdı. Nəticədə, qırğızlara çox

[1] Qırğız. SSR MDA. F. 77, iş 34, v. 24-45. Surətidir.

yöndəmsiz yerləşmiş və bərəkətsiz torpaqlar saxlanıldı, yaxşı torpaqlar isə onların əllərindən alındı, bununla bahəm, həmin yaxşı torpaqlarda məskunlaşma aparmaq mümkün olmadı, bu səbəbdən də qırğızların özlərinə icarə yolu ilə istismara verildi.

Qırğızlarla yeni köçürülənlər arasında münasibətlər barədə də Kanaat Abukinin ifadələri həqiqətə uyğundur, belə ki, köçürülənlər tez-tez qırğızları istismar etməyi özlərinə rəva bilir, onlardan bica yerə biçənək pulu alırdılar. Şəxsən özüm Vernı uyezdinin Vilyamovski kəndində köçürülənlərin qırğız torpaqları ilə qarışıq yerlərində tez-tez mal-qaranı az ot örtüyü olan, iri qumlu yerlərə qovması kimi hadisədən xəbərdaram. 1916-cı ilin yayında Vilyamovski kəndinin bütün torpaqlarını artıq torpağın kəsilib ayrılması məqsədilə gəzmişdim, çünki həyətyanı bağları sulamaq üçün suyun kasadlığı ucbatından həmin sahəni azaltmaq və torpağın bir hissəsini kəsmək lazım gəlmişdi...

Vilyamovçuları yaxşı yerbəyer etmək üçün pis torpağı və heç otlaq kimi də əhəmiyyət kəsb etməyən iri qumlu sahəni kəsməyi təklif etmişdim. Vilyamovçular bu əkin sahəsini bölməkdən imtina etdilər, əvəzinə başqa yerdə daha aşağı keyfiyyətli torpaq sahəsini bölməyi təklif etdilər. Əvvəlcə bunun mahiyyətinə vara bilmədim və yalnız digər kənddən köçürülən şəxs mənə izah etdi ki, vilyamovçular bu ensiz paz formasında olan sahədən yazda və payızda nəf götürürlər – onlar sərbəst gəlib keçən qırğız mal-qarasını qırğızların ərazisindən kəndli torpağına rahatlıqla sürürlər. Beləliklə, demək lazımdır ki, qırğız Kanaat Abukinin ifadələri, ümumiyyətlə, gerçəkliyə əks deyil, təəssüf ki, təkcə ifadələrin tam mətni deyil, yalnız ifadənin xülasəsi göndərilmişdir. Bəzi hallarda torpaqların tutlmasının düzgün keçirilməməsinin sayəsində, qırğızların fikirlərinə məhəl qoyulmaması sayəsində, həmin hadisələrin xüsusi qeyd edilməsi sayəsində ali inzibati idarədə belə təəssürat yaranır ki, qırğız üsyanının başlıca səbəbi qırğız torpaqlarının əllərindən alınmasına görə narazılıqları olmuşdur.

**21.02. (06.03.)1917.**

**Yeddisu vilayətində dövlət əmlakının idarə edilməsi və köçürülmə işləri üzrə müdir vəzifəsini icra edən şəxsin üsyanın səbəbləri barədə raportu**[1]

Qırğız üsyanının başçılarından biri, Pişpək uyezdinin Abaildin vilayətindən olan Kanaat Abukinin qırğız üsyanının partlayışı səbəbləri barədə ifadəsindən çıxarışın surətini təqdim edirəm. Sənədin surəti Yeddisu vilayətinin Hərbi Qubernatorunun vəzifəsini icra edən şəxsin əmrinə isnadən mənim "ixtiyarıma verilmişdir". İfadə verən Abaildin vilayətinin sakini qırğız Kanaat Abukin qırğız üsyanının başçılarından biri idi. O, Koçkor vadisində və Cumqala çayı vadisi boyu bütün qırğızlara başçılıq edirdi. Öz yığma dəstələri ilə Stolıpino (Koçkorka) kəndini işğal edərək, bir aya yaxın orada qaldı. Qırğızlar onu Koçkor xanı adlandırırdılar.

Oktyabrın əvvəlində polkovnik Slinkonun bölüyü tərəfindən yığma dəstəsi darmadağın edilməsindən sonra nüfuzlu qırğız **Kurman Lepesov oğlu İshaqla** birlikdə tutulmuş və hər ikisi dar ağacından asılmağa məhkum edilmişdilər. O zaman İshaq Kurmanov sübut etməyə başladı ki, atası ilə özünün üsyana heç bir aidiyyatları yoxdur və üsyançılar arasında yalnız Kanaatın onları zor gücünə saxladığına görə bulunurmuşlar. O, atası Kurman Lepesovu girov kimi saxlamağı və onu, yəni İshaqı buraxmağı, özü isə Kanaat və onun oğlunu tutmağı təklif etmişdi. Polkovnik Slinko bu şərtlərlə razılaşmış və İshaq Kurmanov buraxılmışdı. Bir neçə gündən sonra o, Kanaatın oğlunu gətirmişdi və gətirilən şəxs dərhal asılaraq edam olunmuşdu, oktyabrın yarısında isə o, Kanaatın özünü tutub gətirmişdi. Kanaatın və oğlunun tutulmasına görə Kurman Lepesov və onun oğlu İshaq əvf edilmişdilər, sonradan İshaq mükafatla təltif edilmiş və vilayət başçısı təyin olunmuşdu.

**Yeddisu bölgəsində köçürülmə işləri üzrə müdir vəzifəsini icra edən – imza**

---

[1] Qazax. SSR MTA. F. 19, siyahıyaalma 1, iş 130, v. 361-365. Əslidir.

**... 1917-ci il**

**Podpolkovnik Putintsevin Yeddisu vilayət idarəçiliyinə Kanaat Abukinin ifadələri barədə raportu**[1]

Fevralın 10-da verilmiş 250 №-lı məktublaşmanı qaytararaq ərz edirəm ki, Pişpək uyezdinin Abaildin vilayətinin qırğız sakini Kanaat Abukin ifadəsində əməlinə haqq qazandıraraq qeyri-həqiqət, daha doğrusu, yalan izhar edir. Qırğızların arxa cəbhədəki işlərə çağırış barədə sərəncam aldıqdan sonra tərəfimdən Tokmak, Belovodsk və Pişpək vilayətlərində vəzifəli və hörmətli şəxsləri toplamaqla qurultaylar çağrıldı və orada şəxsən ərz etdim: qırğızlar hara, hansı qayda ilə, hansı yaşda səfərbər edilirlər. Gənclərin işləməyə getməkdən imtina etməsi barədə bəyanatlar olmamışdı. Lepesov, Şabdanov, bəlkə də Abukin, sonuncunu xatırlamıram, mənə bu barədə, qoşunların göndərilməsi haqqında deməmişdilər, yalnız işləməyə çağrılanların sayının azaldılmasına dair deyilmişdi, mən də onlara söyləmişdim ki, çağırışçıların sayını müdiriyyət təyin edir və onu ixtisara salıb azaltmaq ixtiyarında deyiləm.

Fikrimə görə, qırğızların üsyanı yalnız qırğızların əlindən bir hissəsinin köçürülmə ruslar üçün, digər hissəsinin isə, sadəcə, mədaxilin çıxarılması üçün geniş çöllüklərin alınması oldu. Qırğızların əlindən torpaqların alınması zamanı çoxlu ədalətsizliyə yol verilmişdi – bütün bunlar qırğızları qəzəbləndirdi, çağırış barədə sonuncu sərəncam isə alova yağ tökdü.

---

[1] Qırğız. SSR MDA. F. 75, iş 48, v. 16. Əslidir.
Özbək. SSR MDTA. F. 3 11 s, siyahıyaalma 31, iş 1140, v. 25. Surətidir.

## II BÖLMƏ

## ÜSYANA QALXMIŞ QIRĞIZLARIN ÇİNƏ MÜHACİRƏTİ

**229-241 №lı sənədlər**
**<u>1916-cı ilin iyul-avqust ayı üçün sənədləri</u>**
**20.07 -12.08.1916**

**Türküstan general-qubernatoru Yerofeyevin hərbi nazir Şuvayevə qırğızların Çinə qaçmaq niyyətləri haqqında teleqram**[1]

Yeddisu vilayətinin qubernatorunun məlumatına görə, Narın sahəsindən qırğızların Çinə kütləvi qaçışı gözlənilir. Bununla bağlı qabaqlayıcı tədbirlər görülmüşdür. Digər mənbələrə görə, Yeddisu vilayətində qırğızların yığıncaqlarının birində natiqlər demişlər, ruslar müsəlmanların ən sağlam elementlərini götürüb aparmaq, onları müharibə meydanında rus əsgərlərindən irəliyə göndərmək fikrindədirlər ki, onları ruslar və almanlar öldürsünlər, bununla da ruslar tərəfindən düşünülmüş müsəlmanlığın məhvi məqsədinə nail olunsun. Ayın 17-də verilən məlumatlara görə, Dağlıq Kattaurqansk uyezdinin stansiyasına göndərilmiş drezina yerlilərin izdihamını atəşlə dağıtmışdır.

**Yerofeyev**

**Avqust. 1916-cı il.**

**Türküstan general-qubernatoru Yerofeyevin köməkçisinin hərbi nazir Şuvayevə üsyana qalxmış qırğızlarla Çin hökuməti arasında danışıqlar barədə Daşkənddən teleqramı**[2]

Yeddisu qubernatorunun məlumatlarına görə, mərhum milis mayoru Şabdan Cantayevin oğlanları Prjevalsk uyezdinin qara-qırğızları ilə Çin hökuməti arasında vasitəsiçilik edərək, həmin ölkəyə getmək barədə danışıqlar aparırlar. Çinlilər, guya Prjevalsk, Narın, eləcə də

---

[1] Surəti daxili işlər nazirinə.
Özbək. SSR MDTA. F.Məxfi № 11, siyahıyaalma 1, iş № 1140, v. 104.
[2] Surəti daxili işlər nazirinə.

Tokmak vilayətinin qara-qırğızlarını qaçqın deyil, vuruşan tərəf qismində qəbul etməyə razılaşıbmışlar.

Sonuncu məqam dolayısı yolla təsdiqini onda tapır ki, artıq bütün qırğızların, hətta Vernı qırğızlarının da arasında üsyanın adı hallanır[1], çünki qırğızlar öz ailələrini və mal-qaralarını artıq Çinə göndərirlər.

**Yerofeyev**

**Avqust. 1916-cı il.**

**Skobelevdən Fərqanə hərbi qubernatoru İvanovdan Türküstan general-qubernatoru Kuropatkinə üsyana qalxmış qırğızların Çin ərazisinə keçmək yolları və üsyançıların mümkün darmadağın edilmə planları barədə teleqramı[2]**

Kapitan Burzi məlumat verir: Kuqart aşırımı. Yamacda gecələmək zərurəti yarandı, belə ki, aşırımı güclü çovğunda keçərkən pulemyotları endirməyi səhərəcən saxlamaq lazım gəlmişdi. Artilleriyanı minik heyvanlarının bellərinə şəlləyib taylarda endirərkən, qayadakı köhnə çıxıntıların birində bellərindəki qutulara partladıcı maddələr şəllənmiş üç atın ayaqları sürüşüb qayadan uçdu, atların biri öldü, ulaqlar yaralandı. Qarovulçu Katuntsevin və yerli sakinlərin dediklərinə görə, Narının sağ sahilində berdanka və üçatan tüfənglə silahlanaraq üsyana qalxan qırğızların sayı son günlər artmaqdadır. Qarnızon kəşfiyyat məqsədi ilə irəli çıxmaq istəyəndə atəş açmışdılar. Avqustun 19-da sahildə iri mal-qaya naxırı peyda oldu ki, bundan da belə nəticə çıxarmaq olar: qırğızlar Tokuztarau – Oyxane aşırımı – Qızıl-Bələs dağ silsiləsi – Artsu düzənliyi istiqaməti ilə Çin tərəfə keçmək və talan etdikləri heyvanları ora sürmək niyyətindədirlər. Bu istiqamətdən əlavə, Pişpək uyezdindən Çinə Narın istehkamından keçməklə aparan yalnız bircə yol var, lakin orada yerləşmiş qoşunlar onların qarşısını saxlayır.

Yerli qırğızların dediklərinə əsasən, Tokmakdan 7 rota gəlir, qırğızlar bölüklərin təzyiqi altında Toquztarauya geri çəkilirlər. Narın-

---

[1] Əslində belə getmişdir.

[2] Özbək. SSR MDTA. F. siyahıyaalma 1, iş № 1133, v. 279-282. Əslidir. Özbək. SSR MDTA. F. TGQD, iş № 1132, v. 260. Əslidir.

dan gəlmiş cigitin dediklərinə görə, Şatkov, Çirikovck, Şarkitinsk və Buçikovsk qırğızları Çinə doğru köç etmişlər, altı nəfər qırğız gizlində saxlanılmışdır. Narından gələn Kazakın söylədiklərinə görə, yasavul Nikitinin yüzlüyü ora avqustun 25-də çatacaqdır. General Folbauma teleqraf etdim: "Pişpək uyezdinin Dağarxası vilayətlərindən Çinə keçid üç səmtdədir: birincisi – Toquztarau Monagəldidən keçməklə, Alabuğu çayının körpüsündən, Arpa-Aksay yaylasından, Turuqart aşırımından; ikincisi – Sonkul gölü, Narın, Atbaşı, Beşpelçir və Kaşğariyaya gedən aşırımlardan".

Burzinin çıxartdığı nəticələrlə razıyam. Üsyançılar Kəbən, İssık-Kul rayonu tərəfdən sürətlə birinci istiqamətə doğru tələsirlər. Əgər burada buraxılmasalar, ikinci istiqamətə, tam sərbəst tərəfə yön alacaqlar. Hərgah Burzinin dəstəsi hələ Narının sağ sahilində Toquztaraudadırsa, onun dəstəsinə əmr verməyə imkan varmı? Sonra Burzinin üç rotası topla birgə tələsik Narına getsinlər, onun dalınca Seleznyov 3 rota və 6 pulemyotla qırğızları darmadağın etmək üçün Təkək-Ağ Kürtkə bölgəsinə yollansın, yüzlük və dörd pulemyotlu rota isə Toquztarauda qalsın. Belə olan təqdirdə, üsyançılar əhatəyə alınacaq və mühasirəyə düşəcəklər. Əks halda, halqanı yarıb keçəcək, cəzasız qalacaq, sadiq qalmış qırğızların olan-qalanını soyub-talayacaq, əsir tutulmuş rusları özləri ilə aparacaqlar. Dəstələrin komandirlərinə təşəbbüsü boğmamaq şərtilə ümumi direktivlər verməyə mümkünat hesab edirsinizmi? Əhatəyə aldıqdan sonra üsyançıların tamamən darmadağın edilməsi üçün tərəfimizdən müvafiq tədbirlər görüləcəkdir.

**20.09. – 03.10.1916**

**Skobelevdən Fərqanə hərbi qubernatoru İvanovdan Türküstan general qubernatorunun köməkçisinə Alay qırğızlarının Çinə köçüb getmək niyyətləri barədə teleqram**[1]

Oş uyezdinin başçısı Alay qırğızlarının Çinə köçüb getmələri barədə İrkeştam qarnizonunun rəisi, yüzbaşı Novokreşenovun fikirlərini

[1] Teleqramın surəti – Ştabın və Türküstan general-qubernatorunun dəftərxanasının rəisi.

çatdırır. Dərhal köçərilərin rayonunun pristavına ezam olmaq tapşırığı verdim. Onların köçlərini sürüb getmək niyyətində olmalarının başlıca səbəbi, zənnimcə, kazakların özbaşınalıqları, soyğunçuluğudur, bu barədə məlumatlar alırdım[1]. Göstəriş verdim: birincisi – pristav səbəbləri araşdırsın, sorğu-sual aparsın, izahatla, inandırma yolu ilə, ədalətə riayət olunmaqla qırğızları yola gətirib saxlamaq üçün tədbirlər görsün; ikincisi – yüzbaşı Novokreşenov pristav gələnə qədər heç bir fəal iş görməsin, zira onun yalnız bircə tapşırığı vardır – 399 №-lı gömrük postunu mühafizə etmək.

**İvanov**

**21.09. - 04.10. 1916**

**Şahid Tulembay Düsebayevin, Prjevalsk uyezd idarəsinin yazılı tərcüməçisinin, arxa cəbhədəki işlərə səfərbərliklə bağlı qırğızların Çin hüdudlarına qaçışı barədə Prjevalskın 3-cü sahəsinin dövlət məhkəmə hakiminin tərtib etdiyi dindirmə protokolu**[2]

Prjevalsk uyezdinin rəisi polkovnik İvanov bu il iyunun 12-də, yaxud 13-də Prjevalsk şəhərinə yaxın vilayətlərin nümayəndələrinə qırğızların arxa cəbhədəki işlərə çağırışı barədə ali sərəncam haqqında elan vermişdi. Yaxın vilayətlərin təmsilçiləri ondan, polkovnik İvanovdan Prjevalsk sahəsinin nümayəndələrinin Prjevalsk şəhərinə gəlmələrinə icazə, yaxud gözləmə qərarı verilməsinə təvəqqe etmişdilər, çünki şəhərə gəlib danışıqlar aparmalı və ona, polkovnik İvanova danışıqların nəticəsini bildirməli idilər. Mən Zaukin vilayətinin qırğızları Bayqazi İsabəyov, Keruk Canayev və Cetı-Oğuz vilayətindən olan Abdulla Sarindən xəbər almışdım ki, Mariinsk, Konsul, Tüp, Turgenev və Birkar vilayətlərindən Çin hüdudlarına çağırış yaşında olanların qaçışı başlanmışdır. Hələ o zaman bu barədə polkovnik İvanova məruzə etmişdim, bildiriş İsambəyov, Canosov və Sarin tərəfindən təsdiqlənmişdi. İyunun 14-də uyezd idarəsinin dəftərxana əməkdaşı, Sart-Kalmak vilayət mirzəsi vəzifəsini müvəqqəti icra edən Cumabəy Kereksizovdan belə

[1] Əslində belə getmişdir.

[2] Qırğız. SSR F. 70, iş № 8, v. 3,4,5. Əslidir.

bir məlumat aldım ki, Mariinsk vilayətinin dunqanları sart-kalmıkların torpağında otlaqlarda otlayan mal-qaralarını sürüb aparır və tələsik Prjevalsk şəhər bazarında satırlar. Bu barədə həmin tarixdə polkovnik İvanova xəbər çatdırdım, çünki mal-davarın belə tələsik satılması mənə şübhəli göründü.

Uyezd rəisi polkovnik İvanov yuxarıda ərz etdiyim məruzələrə əsasən, adıçəkilən vilayətlərin və Mariinsk vilayətinin nümayəndələrini öz həyətinə çağırtdırdı və onlara öz sahələrinin nümayəndələrini Çin ərazisinə buraxmamaq göstərişi verdi. Öyrənib biləndə ki, Mariinsk vilayətindən "Kiçik həzrət" tayfasından Çinə 50 nəfərdən çox adam qaçmışdır, bu barədə iyulun 14-də, yaxud 15-də polkovnik İvanova məruzə etdim. Polkovnik Mariinsk vilayət başçısı Macin Marafunu yanına çağırıb və mənim iştirakım olmadan öz həyətində qaçqınların siyahısını tutmağa başlamışdı. Ayın 6-da Zaukin vilayətinin qırğızları Bayqazi İsabəyov və Kurmentin vilayətinin sakini Kıdırbəy Tunqatarovdan məlumat almışdım ki, Carkənd uyezdinin Narın-Çarıp sahəsinin Kurman vilayətində məhkəmə yolu ilə hüquqlarından məhrum olmuş qırğız Uzak Saurukov Qarqarada fəhlələrin yığımı əleyhinə təbliğatla məşğuldur. Bu barədə polkovnik İvanova çatdırdım, ona öz fikrimi bildirdim ki, Saurukovun təbliğatı Prjevalsk uyezdinə yönələ və qırğız əhalisinə mənfi təsir göstərə bilər.

Uzak Saurukov barədə məruzəmi polkovnik İvanova rotmistr Mixayil Emmanuiloviç Kravçenkonun yanında da təkrarladım. Rotmistr Kravçenko dərhal elə yanımdaca telefonla Saurukov haqqında məruzəmi təsdiqlədi. Həmin hadisənin ertəsi günü, yəni, iyulun 17-də qarovulçu Konovalov və iki nəfər şəhər polisi ilə Qarqaraya, Saurukovu Prjevalsk şəhərinə çatdırmaq üçün ezam olunduq. Narıngöl-Çarıp sahə rəisi c-b Podvorov mənə Saurukovu tutub saxlamağa izin vermədi və izacə verməməyinin səbəbini Prjevalsk uyezd rəisinin adına verilmiş iki məktubunda ərz edib mənə verdi və onlar iyulun 22-də polkovnik İvanova mənim tərəfimdən təqdim olundu.

Vilayət nümayəndələri: Türgəndən – Kıdır Baysarin, Zaukindən – Bayqazi İsabəyov, Keruk Canayev, Kurmnetindən – Kadırbəy Tunqatarov, Bakaçindən – Tolkombay Kedeyev, Çolponbəy Nardövlətov,

Berdıbəy Gərəksizov, Qurdkamergendən – Maksad Soltayev, Semizbeldən – Saqın Niyazbəyov, Ulayuldan – Düşəmbə Yesenalin, Caambəyovdan – Bəkən Omurov, Torqayevdən – İshaqalı Alenatoyev, Barskaundan – Kərimbəy Saltanayev, 3-Cetıoğuzdan – Abdulla Sarin, Abdulla Musin, Kurmanbet Çəkirov, Konsupdan – Bayrık Mambetov, Tüpdən – Banqastık Noqayev, Rıskeldı Betikov. Və bir çox başqa ad və soyadlar ki, onları xatırlamıram. Nümayəndələr Kıdır Baysarin, Bayqazi İsabəyov, İsahan Almatayev, Kıdırbəy Tunqatarov, Kubarək Matayev öz aralarındakı ümumi söhbətdən sonra iyunun 23-də polkovnik İvanovdan bütün vilayət nümayəndələrini, o cümlədən onların özlərini, həbsxanaya salmağı xahiş etdilər, çünki vilayətlərinin əhalisi itaətdən çıxıb onların sözlərinə məhəl qoymaya bilər, çağırış yaşlı qırğızlar isə açıq-aşkar deyirlər ki, fəaliyyətdə olan orduya fəhlə sifətilə getməzdən əvvəl, hərgah nümayəndələr müdirə onların fəhlə qismində göndərilməyinə razı olduqlarını bildirsələr, qırğızlar onları, yəni nümayəndələri öldürəcəklər.

Polkovnik İvanov elan etdi ki, əsas olmadan onları dustaqxanaya salmayacaqdır. Təmsilçilər Baysarin, İsabəyov, Soltayev və Sarin yenə də digər nümayəndələrin adından uyezd rəisindən onları istisnasız qazamata salmağını rica etdilər, belə olan təqdirdə, xalqın özünün onlara ürəyi yanacaq, hüzuruna gələcək və fəhlələrin sihayısını tutacaqdır, əks təqdirdə, başqa sözlə, əgər nümayəndələr xalq adından fəhlələrin göndərilməsinə razılıq verəcəklərsə, çağırış yaşlı qırğızlar və onların qohumları öz nümayəndələrini çapıb öldürəcəklər.

**03-16.10.1916.**

**Türküstan general-qubernatoru Kuropatkinin Yeddisu vilayətinin hərbi qubernatoru Folbauma qırğızların Çindən qaytarılması haqqında teleqramı**[1]

3520. Güman edirəm ki, itaət göstərmiş qırğızların bizim hüdudlara qaytarılması, onlardan tələb olunan sayda at alınacağı halda, müm-

---

[1] Özbək. SSR MDTA. F. TGQD. 11. iş 1136, v. 9. Surətidir.

kün olsun. Qarşıdan qışın yaxınlaşdığını, sərhədyanı keçidlərdə gediş-gəlişin çətinləşəcəyini nəzərə alaraq, yaxşı olardı ki, qırğızlar Çin hüdudlarında çox ləngidilməsinlər. 7786.

**Kuropatkin**

**13-26.10.1916.**

**Polkovnik Kolossovskinin Yeddisu vilayətinin hərbi qubernatoru Folbauma Çin hüdudlarına getmiş vilayətlərin sayı barədə, eləcə də onların oradakı yeri, dinc və üsyankar qırğız vilayətlərinin yerləşməyi ehtimal olunan tədbirlərin keçirməsi barədə raportundan**[1]

Narında məlum oldu ki, Prjevalsk uyezdinin Atbaşı sahəsinin 13 vilayətindən hal-hazırda yalnız səkkiz vilayət mövcuddur, onların da bəziləri natamamdır. Qalan vilayətlər qiyamçı manaplarının arxasınca və rus cəza dəstələri tərəfindən cəzalandırılmaqdan qorxaraq Çinə qaçmışlar. Bu zaman onların bir hissəsi anlaşılmazlıq ucbatından rus dəstələrinin qılınclarının zərbəsinə və güllələrinə tuş gəlib tələf oldular, digər qismi isə dağ dərələrində aclıqdan və qəfil düşmüş şaxtadan həlakət tapdılar. Polkovnik Slivkonun Narına gəlişindən sonra aydın oldu ki, Yeddisu dəstəsinin hərbi əməliyyatlarını bitmiş hesab etmək mümkündür, bu səbəbdən də, oktyabrın 13-də mənim tərəfimdən qiyama qalxmış yerlərin üsyanda iştirak etmiş, öz günahını dərk etmiş, general Sokolski tərəfindən ərz olunmuş tələblərə itaət göstərən yerli qırğızlara xitabən müraciətnamə dərc olundu, onların öz əvvəlki yerlərinə qayıtmalarına və sülh şəraitində dinc işləri ilə məşğuliyyətə davama çağrıldı.

Bir neçə gün əvvəl, məhz keçmiş Stolıpino kəndinin yerindəki yol dayanacağında polkovnik Slinko ilə razılığa əsasən, tərəfimdən Tokmak sahəsinin bir neçə nəfər dinc möhtərəm şəxsi eyni tapşırıqla Pişpək uyezdinin dağarxası hissəsinə göndərilmişdi, Narın kəndindən isə Kokşal (Tyan-Şan) silsilə dağlarının arxasına, Çin tərəflərə mötəbər ağsaqqallar ezam olunmuşdular. Nəticədə, mənimlə yol yoldaşı olmuş

[1] Qırğız SSR MDTA. / F 75, iş № 32, v. 1-4/ Surətidir.

saray müşaviri Korsakın dostcasına yardımı və Yeddisu idarəçiliyinin məmurlarının, kollec assesoru Şabalin, kollec məsləhətçisi Xaxalevun sayəsində hərbi qubernator tərəfindən qırğız əhalisi üçün ayrılmış, mənim tərəfimdən müxtəlif qalıqlardan təşkil olunmuş və Narın vilayəti adlandırılmış məkanda 17 vilayəti yerləşdirmək mümkün oldu. Həmin qalıqlar birləşmiş torpaq istifadəsi tətbiq olunan, yaxud qohumluq əlaqələri ilə işlədilən ərazilər idi.

Qaytarılmış və işləri sahmana qoyulub yerləşdirilmiş vilayətlər, sözsüz, keçmiş hərbi qubernator general Sokolevski tərəfindən onların qarşısında qoyulan bütün tələblərə, o cümlədən, fəhlələrin çağırışı elan edilən kimi dərhal təqdimat və vaxt itirmədən Tokmaka təzminat atlarını göndərmək sərəncamına tabe oldular. İssık-Kul bölgəsində yerlilərin baş qaldırmış üsyanının səbəbləri məsələsini isə kənara qoyuram. Gələcəkdə belə vaqiənin ən yaxşı üsullarla aradan götürülməsi üçün onun yalnız bugünkü vəziyyətini təsvir etməyi özümə rəva bilrəm, belə ki, hal-hazırda cərəyan edən kədərli hadisələri heç də sonadək bitmiş hesab etmək olmaz.

Hal-hazırda Tyan-Şan dağ silsiləsindəki Bədəl aşırımından keçməklə sərhəddən o yana Pişpək vilayətinin, əsasən də Prjevalskın, 32 qırğız vilayəti qaçmışdır. Onlar Çinin Ak-Çiy təbii sərhədi tərəfdəki Qara-Bulaq çayı vadisi boyu, Kokşala zirvəsindən aşağı üç günlük yol məsafəsində, Üç-Turfan dağına sarı yerləşmişlər, onların yanında üsyanın 50-dən çox əsas başçısı, rus qəsəbələrini darmadağın məhv etdirən təşkilatçı manaplar vardır. Söz-söhbətə görə, onlardan üçü başlıca şəxslərdir: manap Sağalı və Şabdanın üç oğlu /dördüncüsü – Kəməl, gəzən şayiələrə istinadən, üsyanda iştirak etməmişdi/. Onlardan birincisi Bədəl istiqamətində, Çin tərəfdə Ağ-Çiy təbii sərhədində durmaqdadır, sonuncular isə Üç-Turfan şəhərindədirlər və qohumlarını Çində yerləşdirməyin qayğısına qalırlar. Ümumiyyətlə, Çin hökuməti üsyançılara mərhəmətlə yanaşır, əvvəlcədən manaplardan bəxşiş qəbul etmişdir. Qaşğarda bulunan qaçqınların silahını və əsirləri təhvil vermək barədə göstəriş verilməsinə rəğmən, çinlilər bu tələbin yerinə yetirilməsinə inad etmirlər. Üç-Turfanda təxminən 1 000-ə yaxın atlı

cəmləşmişdir, Qaşğarda isə bu yaxınlarda Çinin daxili əyalətlərindən gəlmiş 6 000 piyada; Bədəl aşırımının özünə qədər azuqə və at yemi aparılır; gəzən şayiələrə görə, orada çinlilərin sayı 100-ə çatan süvari postu quraşdırılır.

Öz günahlarının miqyasını dərk edən qaçqın manaplar Rusiyaya qarşı həddindən artıq düşmənçilik münasibətdədirlər və şəxsi qarovulu, silahlı ardıcılları olan və yaxşı silahlanmış başçılarını təslimata verməkdən başqa, çoxu peşman olub rus hökumətinin bütün tələblərini dərhal yerinə yetirmək istəyən sadə xalq kütlələri arasında kin-küdurət saxlamağa, ədavət qızışdırmağa cəhd göstərirlər. Talan etdikləri var-dövlət sayəsində manaplar özləri qənaətbəxş yaşayırlar və hətta elə hallara rast gəlinmişdir ki, onlar çinlilərin kağız əskinaslarını rus puluna çevirərək, bir rus kağız rublunu çinlilərin pul vahidi ilə 25 qəpiyə isə satmışlar. Sadə xalq isə korluq çəkir, aclıqdan və yemsiz yarımac mal-qara ilə birgə şaxtadan donaraq dəstə-dəstə qırılır. Manaplar öz aralarında lovğalanır və xalq arasında arxayın təəssürat yaratmaq istəyirlər ki, gələn ilin baharında may ayının 10-dan sonra əsas Tyan-Şan dağ silsiləsindəki aşırımlar açılanda, Çinin köməyi ilə rus tərəflərinə yenidən basqın edəcəklər və orada yekun kimi müstəqil dövlət qurub özlərini təsdiqləyəcəklər.

Güman edirəm ki, hal-hazırda Çin sərhədinin arxasında gizlənən və manaplar tərəfindən yubadılan qırğız əhalisinin əsas kütləsi yay fəslinin gəlməsi ilə yenidən rus hüdudlarına qayıdacaq və Rusiya imperiyasına sadiq qalmış müttəfiqlərə qoşulacaqdır. Mənim tərəfimdən general Sokolinskinin qərarına istinadən, yerləşdiyi məkana görə Narın şöbəsi adlandırılan xüsusi rayonda təcridata məruz qalmış sadiq müttəfiqlərin taleyi, bu müddət ərzində elan edilən və nəzərdən keçirilmək üçün zati-alilərinin ixtiyarına ayrıca kitab şəklində təqdim olunan mənim əmrlərimdən asılıdır.

Sonda söyləməyi özümə rəva bilərdim ki, məsələnin daha münasib həlli üçün İssık-Kul gölündən cənubda Çin Respublikası ilə sərhəd boyu dinc və üsyana qalxmış Pişpək və Prjevalsk qırğız vilayətlərinin yerləşdirilməsi üçün aşağıdakıların həyata keçirilməsini ehtimal edərdim.

1. Hal-hazırda Narın şöbəsini təşkil edən 17 qırğız vilayətinə, çox güman, gələn ilin yayından xaricdən 32 vilayət əlavə olunacaq ki, bu da müstəqil Narın uyezdinin yaradılması üçün yetərincə vilayət sayının artmasına gətirib çıxaracaq. Bu və ya hansısa başqa səbəbdən belə tam təcridatın qəbul edilməyəcəyi təqdirdə, güman edirəm ki, Narın şöbəsinin əsasına uyezd rəisi köməkçisindən kiçik olmayan səlahiyyətli inzibati şəxs təyin edilsin və ona yardımçı kimi sahə pristavlarından biri təyin olunsun. Narın şöbəsinin özü isə rabitə cəhətdən və əhalinin qohumluq əlaqələrinin saxlanılması baxımından təbii yerləşməsinə görə narahatlıq törətdiyi səbəbindən Prjevalsk uyezd rəisinin səlahiyyət dairəsindən alınaraq, Pişpək uyezdinə bitişdirilməlidir.

2. Gələn ilin yazı üçün Narın bölgəsi tərəflərə inzibati-vəzifəli şəxslərlə bahəm əsas əhalinin yekun siyahıyaalınmasını və şöbənin vilayətlərinə daha dəqiq sərhəd çəkilməsini həyata keçirəcək köçürülmə məmurları ezam etmək lazımdır.

3. Çin hakimiyyəti ilə təxirəsalınmaz əlaqələrə girərək, bahara qədər üsyana başçılq etmiş bütün qaçmış manapların hamısının təslimatına nail olmaq lazımdır. Həmin manaplar Vernı şəhərinə çatdırılmalı, orada həqiqi günahları müqabilində cəzalarını çəkməlidirlər. Ayrı-ayrı ordu rəislərinin təşəbbüsü ilə səyyar məhkəmələrin təsisini, gümanıma görə, əhalini və ordunu ruhdan saldığı üçün təxirə salmadan ləğv etmək lazımdır.

4. Mənim üçün anlaşılmaz mövqe olan Atbaşı sahəsinin komendantı vəzifəsi, güman edirəm, dərhal ləğv edilməlidir, çünki bu, əhalinin nəzərində Atbaşı sahə rəisinin hakimiyyətini hörmətdən salır və nəinki bir sıra anlaşılmazlıqlara, eləcə də mənfi nəticələrə gətirib çıxarır.

5. Narın bölməsinin qırğız əhalisinin tərkibində baş vermiş kəskin dəyişiklikləri nəzərə alaraq, fəaliyyətdə olan ordunun səhra işləri üçün ilkin yığma naryadı tərəfimdən ləğv edilmiş və onun yerinə, bir alaçığın əvəzinə üç vergi ödəyən alaçıqdan bir nəfər fəhlə götürmək göstərişi verilmişdir. Bu, bütün vilayətə şamil ediləcək hesabla götürüləcəkdir. Prjevalskdan tutmuş Pişpək uyezdinədək olan fəhlələrin ümumi sayı,

bu halda, çox güman, azalacaqdır, amma özgə sayı nəzərdə tutacaq naryad hazırki vəziyyətdə əhalinin imkanı xaricində olacaqdır. İndiki sərəncamımı həyata keçirməyin vacibliyini və mümkünat daxilində tezliklə Narın bölməsinin fəhlələrinin hara göndərilməsinin və gediş tarixinin yaxın vaxtda müəyyən edilməsini zəruri güman edərdim.

6. Bütün müəssisələrin casusları xəbərdarlıq edilsin ki, hal-hazırda Yeddisu vilayəti hüdudlarında hərbi əməliyyatlar yekunlaşmışdır, buna görə də, üsyanın yatırılması ərzində boş buraxılmış hər hansı asayiş pozuntusu hallarına daha dözülməyəcəkdir və kim tərəfindən edilməyindən asılı olmayaraq, əməli törədən şəxs cinayət məsuliyyətinə cəlb ediləcəkdir.

7. Qırğız əhalisi mühitindən olan, öz vəzifəsinə sadiq qalan və rus hökumətinə xüsusi xidmət göstərən bütün şəxslər qısa müddət ərzində mükafatlandırılmalıdırlar. Onlar barədə xüsusi təqdimatım irəli sürülmüşdür.

**Kolosovski**

**03-16.11. 1916.**

**Polkovnik V.N.Kolosovskinin Narının istehkamından Yeddisu vilayəti hərbi qubernatoru vəzifəsini icra edən polkovnik Alekseyevə üsyanda iştirak etmiş vilayətlərdən Narın şöbəsinin yaradılması və qırğızların Çindəki vəziyyəti barədə raportu**[1]

Mənə oktyabr ayında ...№-lı əmrlə tapşırılan vəzifəni icra edərək, saray müşaviri Korsakın və kollej assesoru Şebalinin müşayiəti ilə Narın kəndinə keçən oktyabrın 13-də gəldim. Bizdən sonra polkovnik Slinkonun komandanlığı altında Yeddisu dəstəsinin gəlişi gözlənilirdi.

Pişpək uyezdinin Tokmak sahəsinin rus kəndi Qarabulaqdan başlayaraq və Narın kəndinə qədər gəzdiyimiz bütün məkanlar tamamən dağıntı xarakterində idi. Və bu viranəliyin nəticəsi kimi, bütün hərəkətimiz müddətində rastımıza yalnız zabit silahlı qarovulunun

[1] Qırğız. SSR MDTA. F. Yeddisu vilayət icra şöbəsi 1, s.2, № 16924, 1916-cı il, v. 104-107. Əslidir.

müşayiəti ilə Prjevalskdan Tokmaka gələn xəzinə poçtu, qaçqınlar, tacirlər və dövlət məmurlarından ibarət xüsusi “təsadüf”lər çıxırdı, bəzən xüsusi təyinatı olan kiçik döyüş taqımları ilə üzləşirdik. Adi, sülh şəraitli həyat əlamətləri ilə heç yerdə qarşılaşmadıq.

**Polkovnik Kolosovski**

**Əlavə: Narın şöbəsi üzrə sərəncamlar kitabı**

**07-20.11. 1916.**

**Hərbi nazir Şuvayevin Türküstan hərbi dairəsi hərbi dəstəsinin komandanına qırğızların Çinə qaçışı haqqında teleqramı**[1]

Torpaq nazirliyi mənə, Yeddisu vilayətinin müdirinin köməkçisinin aşağıdakı teleqramını ötürmüşdür: “Otuz doqquz qırğız vilayəti Çinə qaçmışdır. Demək olar ki, onların bütün mal-qarası tələf olmuşdur, qaçqınlar yolda aclıqdan və soyuqdan ölürlər. Carkənd və Prjevalsk uyezdlərinin yeddi vilayəti Gülcə əyalətinin Təkəs vadisində yerləşmişdir, Pişpək və Prjevalsk uyezdinin otuz iki vilayəti Qarqara çayı vadisində Qaşğar əyalətində yerləşmişdir”.

**07-21.01. 1917.**

**Yeddisu hərbi kazak dəstəsinin starşinası Bıçkovun və Qaşğar baş konsulluğunun tərcümanı**[2] **Stefanoviçin qırğızların Çindəki vəziyyəti barədə protokolu**[3]

1917-ci ilin yanvarın 7-si. Biz, aşağıda imza atanlar, Yeddisu kazak dəstəsinin starşinası Pyotr Vasilyeviç Bıçkov və Qaşğar Baş Konsulluğunun tərcümanı Qriqori Fyodoroviç Stefanoviç növbəti məzmunda protokol tətbiq etdik: birinci, qırğızların əlindən aldığımız, qırğızların 1916-cı il avqust üsyanında rus sərhədini keçmiş əsirlərimizin dindirmələrindən; ikinci, tutulmiş, daha doğrusu, Çin torpaqlarına keçmiş üsyan iştirakçıları qırğızların dindirmələrindən; üçüncüsü,

---

[1] Qazax. SSR MDTA. F. 75, iş 46, v. 40. Surətidir.

[2] Tərcüman – tərcüməçi

[3] Özbək. SSR. OİMA. Müvəqqəti Hökumətin Türküstan Komitəsi F. İş № 10, v. 202. Surətidir.

Qaşğar, Üç-Turfan və Ak-Suydakı rus təbəələri ağsaqqallarının dindirmələrindən; dördüncü, yerli mal-qara tacirlərindən və beşinci, şəxsən özümüzün gördüklərimizdən bizə aydın olur ki, Prjevalsk və Pişpək uyezdinin üsyançı-qırğızları sentyabrın ortasından ... əvvəlinə qədər aşırımlardan keçməklə Çin ərazisinə qaçmaları zamanı, demək olar ki, ruslardan qənimət ələ keçirdikləri bütün mal-qaranı itirmişlər: buynuzlu mal-qara yoxdur, atların 10 %-i, qoyunların dörddə bir hissəsi və dəvələrin yarısı qalmışdır, amma öz müşahidələrimizə görə, qalan üzülmüş mal-qaranın yem azlığı səbəbindən yaza, daha doğrusu, yaşıl otluğun çıxmasına qədər qalmasına ümid yoxdur.

Hal-hazırda quru yem həddindən artıq bahadır, yonca dərzinin 5-6 funtu 1 rubl, arpanın pudu 5 rubl 50 qəpikdir, bizim rublun kursu isə 75 % düşmüşdür, yəni onu 25 qəpiyə alırlar. Son zamanlar qırğızlar, əvvəllki kimi, Çinin içərilərinə doğrü getməkdə davam edirlər, muzdla minik tapsalar da, çoxusu piyada gedir, hətta elə hallar da var ki, analar öz südəmər körpələrini qoyur, yeniyetmələrini isə, oğlanları da, qızları da satırlar. Son geyimlərini satırlar, bütün Üç-Turfan bazarı qırğız əşyaları ilə doludur: keçə yurtadan tutmuş, qazan, yəhər və digər məişət əşyalarına qədər.

**Dəstə starşinası Bıçkov**
**Qaşğar baş konsulluğunun tərcümanı Stefanoviç**

**09-22.12. 1916 – 15-28.01. 1917.**

**1-ci Yeddisu kazak yığma qoşun yüzlüyünün starşınası, komandir Bıçkovun Çinin Üç-Turfan əyalətinə səfərindən Yeddisu üsyanının iştirakçılarının Çinə qaçışı və oradakı həyatlarının təsvirindən çıxarış**[1]

... Üç-Turfanda olduğum 23 gün ərzində yerli həyatı müşahidə etdim, bizim əsirlərlə, ağsaqqallarla söhbət apardım, üsyanın həbsə alınmış başçılarını dindirdim, sartları danışdırdım və çox şey öyrəndim və qırğızların ruslara qarşı bu cür atkeçməz vəhşi hərəkətlərinin səbəbi-

[1] Qazax. SSR MDTA. F. siyahıyaalma 2, iş № 16920, şəh.266, vərəq 184-193. Əslidir.

ni anladım. Özümün bu şəxsi müşahidələrim keçmiş qüssəli hadisələr haqqında bəzi nəticələr çıxarmağa imkan verir.

İlk növbədə, onu tam dəqiqləşdirdim ki, üsyana qalxmış qırğızlar oktyabrın əvvəllərində sırtlardan uzaqlaşaraq, Çin hüdudlarına doğru getməyə başlamışlar. Sentyabrın birinci yarısında Tokmak, Koçkor, Barskaun və Prjevalsk şəhəri yaxınlığındakı bəzi ciddi toqquşmalardan sonra onlar Sırtı səmtinə qaçmışlar. Üsyançılar və onlara qoşulmuş hər cür adam dəstələri çoxaldaraq artıq tam güc-qüvvə toplamışdılar. Bir aləm sərvət, saysız-hesabsız at ilxıları, başlıcası isə qaçağan çöl çapar atları onların ovqatını yüksəldirdi. Sentyabrın ikinci yarısından Sırtı qar ilə örtülməyə başladı, havalar soyuyub ayaz vurdu, arxasınca isə əsil şaxtalar gəldi. Çöllülərin qaynar beyinləri tədricən soyudu. Onların düşünmək qabiliyyəti qayıtdı, gələcək taleləri barədə ilk tənqidedici fikirlər oyandı. Avqustda və sentyabın əvvəlində törədilənlər peşman etirafla rusların yanına qayıtmaq barədə qətiyyən düşünməyə imkan vermirdi. Və budur, oktyabrın əvvəlində, soyuq, onun arxasınca isə sədaqətli yolçu aclıq da özünü çatdırıb qırğızları zinhara gətirdi və onlar Çinə üz tutmaq qərarına gəldilər.

Oktyabrın yarısında başları işləməyən düşüncəsiz üsyançılar gözlərini qan tutmuş başçıların – manapların ardınca Çin sərhədinə doğru istiqamət götürdülər və onu keçdilər. Burada yorucu aşırımlardan və uzun sürən yemsizlikdən şil-küt olmuş heyvanlar üzülüb ayaq üstə yıxılmağa başladılar. Şaxta kəskinləşirdi, əl altında olan yem zəifləmişdi, geyim pis hala düşmüşdü, qarşıdan dəhşətli bəla – aclıq gəlirdi. Çin əyalət hakimiyyət üzvləri xeyirxahlıq simasını alıb yalnız ərazilərində ölməyə imkan vermək üçün misli görünməmiş töycülərlə qırğızları soyub talayırdılar. Heyvanlar minlərlə qırılırdı, insanlar on-on həlak olurdu, əlbəttə, onların içində bizim zavallı əsirlərimiz də vardı. Bunu həm tərəfimizdən azad olmuş əsirlər, həm də qırğızlar təsdiqləyirlər. Bədbəxtçilik artırdı və heç kimin bəlanın qarşısını saxlamaq, yaxud vəziyyəti yüngülləşdirmək niyyəti yox idi.

Qırğızlar özlərini aşırımlara doğru atdılar və dağlardan Çin hüdudlarına doğru enməyə başladılar. Onlar əsasən, Atbaşı tərəfdən Tyue-

Quyruq, Bədəl, Çiqar istiqamətdə (Aksay, Kuqart tərəf), Narından İrqanak, Uzun-Kuuş, Biştaik (Üç-Turfan, Muzduaka qarşı tərəf) və Külcə (ən şərqi səmtdən) tərəfdən keçirdilər. Bu cür vəziyyətin və ağlasığmaz ağır dağ yollarından çətin keçidin nəticəsi kimi, qaçqınların həm özlərinin, həm də ruslardan talan etdikləri mal-qarası gündə minlərlə tələf olurdu.

Nəticədə, iribuynuzlu heyvanlar bütünlüklə həlak oldu, əvvəlki ilxılardan cəmi 10 % at, 25 qoyun və 60 % dəvə qaldı. Amma elə Çin hüdudlarına keçdikdən sonra da qaçqınların aqibətində dəyişiklik baş vermədi. Hüquqsuzluq, çinli məmurların ifrat dərəcədə iştahları, əl altında yemin tam qaibliyi, quru yemin isə həddindən ziyadə bahalığı Üç-Turfan əyalətinin təbiətinin kasadlığı ilə bərabər, üsyançıların ümidsizcəsinə, qorxunc sürətdə müflisləşməsinə səbəb oldu...

Mən və dəstəmin adamları Üç-Turfandakı üsyançıların həyat tərzini müşahidə edərək olmazın əcaib hadisələrin şahidi olurduq. Üç-Turfanda həftədə iki dəfə, bazar ertəsi və cümə axşamı günləri baş tutan bazar günləri biz qaçqınlara doyunca baxa bilmişdik. Onların sayı iki mindən az deyildi. Həmin günlər Üç-Turfan bazarı qırğızların müxtəlif malları ilə, sözün əsil mənasında, dolub daşırdı. Burada məişət avadanlığından tutmuş dəbdəbəli əşyalar və bəzək-düzək əşyasınacan hər şeyə rast gəlmək olardı. Hətta qırğız qadın və qızlarının çox xoşladıqları ziynət əşyaları indi onlar tərəfindən çörəyə dəyişdirilirdi.

Qırğızların öz arvad-uşaqlarını satdıqları hallar da az deyildir. Həm də təkcə qızları deyil, oğlanları da həmçinin satışa qoyurdular. Bir hadisənin şəxsən şahidi olmuşdum ki, sart qırğızdan onun 12 yaşlı qızını almaq üçün haqq-hesab aparırdı. Ata qızından ötrü 126 rubl istəyirdi, alıcı-sart isə diqqətlə canlı məhsulu sanballayıb satıcıya dedi ki, əgər bazarlıq mal bir qədər dolu, yaşca üç il böyük olsaydı, o, kursa görə 100 rubl verərdi ki, bu da 25 rubl nağd pul edir.

Bazar günləri bizim qrığızları Üç-Turfanda gördükdə, onların kasıbçılığına təəccüblənməmək olmur: hamısı yarımçılpaq və ayaqyalındırlar. Geyimləri dabadan tikilmiş xalatdan ibarətdir. Ayaqlarında qoyun dərisindən paypak, ayaqaltı özü isə xam heyvan dərisindən

tikilmişdir. Haradan olmaqları barədə sualımıza isə qaçqınlar özlərini, adətən, çin təbəələri çiriklər kimi təqdim edirlər. Çoxusunu bizim bələdçilərimiz tanıyırdılar. Kimlikləri tanınmış bu qırğızlar manapların arxasınca danışıb şikayət edir və bütün bədbəxtçiliklərdə onları günahkar hesab edirlər. Mənim gördüyüm bəlalar barədə 3 №-lı protokol tərtib olunmuşdur və buraya əlavə edilmişdir. Yuxarıda şəxsən şahidi olduğum söylənilənlər əsasında aşağıdakı nəticəyə gəlirəm:

Bütün üsyan manap-atekinlər və şabdanovçular tərəfindən təşkil edilmişdir. Şabdanovçular mərhum ataları, hamı tərəfindən hörmət edilən görkəmli şəxs Şabdan Cantayevin şərəfinə üsyanın müqəddəs bayrağını qaldırlmışdılar. Şabdanovçuların məktubları Prjevalsk uyezdinin qara-qırğızlarını ayağa qaldırmışdır. Vaxtında görülmüş tədbirlərlə nəinki qırğızları ağıllandırıb yola gətirmək, özlərini və onlarla birlikdə sürülərlə heyvanı həlakətdən xilas etmək, həm də Sırtıya aparılan yüzlərlə rus əsirlərini də qurtarmaq olardı.

Bu məqsədlə sentyabrda təxirə salmadan Prjevalskdan Sırtıya cəza dəstələri göndərilməli idi. Vaxtında irəliləyən dəstələr qırğızların başının üstünü Sırtıda alar, əvvəl rus əsirlərini azad edər, sonra qırğızların özlərini də, saysız-hesabsız sürülərini də ələ keçirər, cəzalandırar və geri qaytarardılar. Yüzlərlə insan həyatı və minlərlə baş heyvan mütləq ölümdən xilas olunardı.

Qırğızlar yaranmış vəziyyətdə bahara qədər bütün mal-qaralarını itirəcək, aclıqdan yatalaq tutacaq və sinqadan həlak olacaqlar. Gününü bahara qədər uzadıb sağ qalan, özünü saxlaya biləcək adam, nəqliyyat vasitəsi olmadığından bizim tərəflərə qayıda bilməyəcəklər. Turfanın təbiətinin yoxsulluğu, torpaqlarının məhdud rahatlıqları və əhalinin mədəniyyətsizliyi – bizim qaçqınlarımızın məhvinin sabiq müttəfiqləridir.

Qüvvənin əksəriyyətini Prjevalsk şəhərində toplayan və yerli əhaliyə ərzaq sarıdan ziyan vuran hərbi rəislər tərəfindən bağışlanmaz səhv buraxılmışdır. Təxirə salmadan sentyabrda Sırtıya yürüş təşkil etmək lazım idi. Tam əminəm ki, Atekinlər və Şabdanlar kimi bir çox başlıca qırğız rəhbərləri qırğızların məfkurə rəhbərləri deyil, cinayət aləminin islahedilməz ünsürləridir.

**09-22.12. 1916 – 15-28.01. 1917.**

**1-ci Yeddisu kazak yüzlüyünün komandiri starşina Bıçkovun Çində Üç-Turfan məntəqəsinə rus əsirlərindən ötrü və Çin ərazisində gizlənən Yeddisu üsyanının başçılarının arxasınca getməsinin təsviri**[1]

Üç-Turfana getməkdə məqsəd – rus əsirlərini qəbul edib gətirmək, üsyan başçılarını tutub təhvil vermək idi. Üç-Turfana və sırtlara ilkin səfər mənim tərəfimdən sentyabrın ikinci yarısında nəzərdə tutulmuşdu, Barskaun bölgəsinin İssık-Kul gölü sahillərində üsyankar qırğız dəstələrinin məğlub edilməsindən dərhal sonra. O zaman tərəfimdən qaldırılmış vəsatət ləngidildi, lakin tərəfimdən düşünülmüş səfər özü də yalnız 1916-cı ilin dekabr ayının başlanğıcında baş tutdu. Öz növbəsində diyarın general-adyudantı c-b Kuropatkinin teleqramına istinadən, Yeddisu vilayəti ordu komandanı tərəfindən vurulmuş teleqram əsasında 1-ci Yeddisu könüllü yığma kazak yüzlük dəstəsinin komandiri starşina Bıçkovun rəhbərliyi altında taqım yuxarıda sadalanmış tərkiblə 09.12.1916 tarixdə  Prjevalsk şəhərindən səfərə çıxmışdır. Bu səfərin çətinliyini, yollardakı buzlu aşırımları, qarlı dağları, yabanı təbiəti və ilin gec fəslini dərk edərək, dəstənin komandiri kimi mənə həvalə edilmiş komanda ilə bütün çətinlikləri bölüşməyi özümə borc bildim.

Komandanın üzvlərinə ali and borcumuzu izah edərək, bizdən azad olunmalarını gözləyən binəva rus əsirlərinin çəkdikləri əzab-əziyyəti izhar edib, tabeliyimdəki şəxslərin bizə həvalə edilən tapşırığın necə çətin olduğunu dərk etdiklərindn hali olduqdan sonra, onlara bel bağlaya biləcəyimi anladım. Bütün səfər ləvazimatımızı şəxsən özüm nəzərdən keçirib onların işlək vəziyyətdə olduğundan əminlik hasil edərək, dekabrın 9-da səhər saat 9-da Prjevalskdan, təbir caizsə, Pokrov yoluna çıxdım. Dəstənin fotoşəkli şəhər kənarında, Qarakolku çayının üstündən salınmış körpünün yaxınlığında məmur V.E.Nedzeetski tərəfindən çəkildi. Bundan sonra dəstə Pokrovskoye kəndi istiqamətdə yola düşdü və gün ərzində təxminən 40 verst yol gedib axşam mənzil

---

[1] Qazax. SSR F. 44. Siyahıyaalma 2, iş № 16920, v. 186-198. Əslidir.

başına çatdı və orada birinci gecələməyimiz üçün dayanıb rahatlandı. Elə burada, Pokrovskoye kəndində dəstə üçün 7 günlüyə quru azuqə və elə eyni müddətə də at yemi ehtiyatı tədarük olunmuşdi.

Dekabrın 10-da dəstə sonrakı səfərinin davamına hazırlaşdı. İkigünlük ərzaq ehtiyatını atlıların tərkinə yükləmək qərarına gəlindi, beşgünlük azuqə və yem isə otuz ata və səkkiz dəvəyə yükləndi. Dəvələrə həmçinin Prjevalsk uyezd rəisi polkovnik İvanov tərəfindən səfər üçün verilmiş iki yurta şəlləndi. Dəstə Pokrovskoye kəndindən çıxıb Zauka çayı boyu yuxarı tərpəndi və 20 verst gedərək elə həmin günün axşamı Kiçik Koçkasu çayına çatdı, orada da gecələdik.

Burada isə 4 günə hər ata 3-4 funt, hər dəvəyə isə 10 funt hesabı ilə saman tədarük edilmişdi və yola götürülmüşdü. Azaldılmış quru ot ehtiyatı əvəzinə yulafın həcmi hər gün bir ata 16 funta qaldırılmışdı. Kiçik Koçkasuda gecələdikdən sonra dekabrın 11-də sübh ertədən duraraq, həmin gün ərzində 30 verstə yaxın yol qət etdik, Böyük Koçkasu çayına çatdıq, gecələmək üçün orada qaldıq. Bu məntəqə ilə meşə bölgəsində yol bitir və artıq qarşıda meşəsiz sırtlar gəlirdi, bu səbəbdən, odun hazırlanmasına qərar verdim. Qərara alındı ki, hər süvarinin tərkinə 4 parça odun şəllənsin və dəstə dekabrın 12-də səhər Böyük Koçkasu çayı boyu uzaq yola çıxdı. Zauka qərb tərəfdə qaldı. Dəstə arxasında sırtlar yerləşən buz aşırımına yaxınlaşırdı. Bu aşırımı aşan dəstə Arabel təbii sərhədinə daxil oldu, 30 verst yol getdikdən sonra gecələməyə dayandı. Arabel təbii sərhədi qırğız dilində – bölünmə mənasını bildirir və Narın çayının sağ qolunun mənbəyidir.

Arabeldə gecələmək – səfərimizin ən çətin və yaddaqalan mərhələsi oldu. Dənizdən həddindən artıq yüksək səviyyədə yerləşməsindən əlavə, burada soyuq küləklər hökmfərmadır, bu da indiki mövsümdə yerli iqlimə ələlxüsus sərt xarakter verir.

Elə biz gecələdiyimiz gecə də belə oldu. Axşam saat 10 radələrində güclü cənub-şərq küləyi əsdi və havanın temperaturu inanılmaz surətdə – 35-40 dərəcəyə düşdü. Təbii ki, yurtalar bizi dəhşətli soyuqdan qoruya bilmədi və insanlar donmağa, deyinməyə başladılar. Dəstənin əhval-ruhiyyəsi o vaxta qədər də yaxşı deyildi, çünki bütün yol boyu

cığırlarda donmuş çin əsilli sartların dişləri ağaran meyitlərinin üzəri ilə gəlmişdilər. Sayı təqribən 200 nəfərə çatan sartlar bizdən əqdəm Prjevalskdan Çin hüdudlarına üz tutmuşdular, lakin pis təchizat və güclü sazaq ucbatından çoxusu donub ölmüş, bir hissəsi geriyə, Prjevalska qayıtmış, yalnız cüzi qismi mənzil başına çata bilmişdi.

Səhərə yaxın ayaz gücləndi, komandanın əhvalı lap düşdü və narazılıq o dərəcədə artdı ki, feldfebel İbrahimovu komandanın yurtasına məsələdən hali olmaq üçün yolladım. Tezliklə mənə çatdırdılar ki, adamlar donur və sonrakı yürüşü qeyri-mümkün hesab edərək, geri dönmələrini xahiş edirlər, zira dəstənin bütünlüklə həlakəti mümkün idi. Şəxsən özüm getdim və gördüm ki, dəstənin adamları topa halında yığışıblar, ocaq qalamayıblar, daha zəif qəlblilər isə ağlayırlar. Mənim öyüd-nəsihətlərim və borc haqqında xatırlatmalarım, çıxışdan qabaq verdiyim vədlər boş getdi. Dəhşətli ölüm qorxusu hamının ağlını başından almışdı.

Belə olan təqdirdə, sonuncu çıxış yoluna əl atdım. Öz yurtamda ocaq qalanmasına göstəriş verib çaydanları qaynatdırdım. Çay qaynayan kimi 2 vedrəlik çaydanın hərəsinə Prjevalskdan çıxarkən bərayi-ehtiyat götürdüyüm 30 şüşə spirtdən 2 litr tökdürdüm. Bu üsulla qaynatdırdığım içki hazır olanda, komandaya bəyan etdim ki, içdiyim and tapşırığı yerinə yetirmədən geri qayıtmağa imkan vermir, amma ixtiyar özünüzündür, heç kəsə zor etmirəm: kim mənimlədir, çaydanlara sarı getsin, kim geri qayıtmaq istəyir, qayıtsın. Məsələnin bu cür həlli camaatı hərəkətə gətirdi və komandanın bütün üzvləri çaydanlara əl atıb dərhal qızışmağa başladılar. Amma şaxta və külək o dərəcədə güclü tüğyan edirdi ki, yalnız saat 11-də toplaşa və yolumuzu davam etdirə bildik. Gec çıxdıq, amma buna baxmayaraq, həmin gün qarlı Akbel aşırımını aşa bildik və axşam saat 10 radələrində İssık çeşməsi tərəfdə keçmiş gömrük zastavasına çatdıq.

Kazaklar yaxınlıqda su görən kimi cəld çay qaynatmağa başladılar, amma artıq su qaynamağa başlarkən, kazaklardan kimsə xəbər verdi ki, onların çay üçün su götürdükləri bulaqda üsyançılar tərəfindən boğulmuş rusun cəsədi var. Bu, kazaklara elə təsir göstərdi ki, odun

ehtiyatının məhdudluğuna rəğmən, onlar çaydanlardakı dağ suyu boşaltmağa tələsdilər və bu cür qənaət bilməyən adamların bir qismi həmin gecə çaysız yatdı. Doğrudur, həmin gecə havanın hərarəti əvvəlki gecələdiyimiz yerə nisbətən hiss olunacaq qədər isti idi. Ertəsi gün dekabrın 14-də biz ən dəhşətli Bədəl aşırımını dəf etməklə artıq Çin hüdudlarına daxil olacaqdıq. Bu keçidin çətinliyi məkanın müdhiş hündürlüyündə idi. İnsanlar və heyvanlar seyrək dağ havasından çox əziyyət çəkirdilər. Hərəkət çətinləşirdi və şəxsən mən özüm piyada 10 addım da gedə bilmirdim. Atlar az-çox hərəkət edə bilirdilər, amma dəvələr boğulurdular, bu səbəbdən də, Vernı uyezdindən bir kazakı iki cigitlə birgə dekabrın 15-də Pjevalsk şəhərinə geriyə qaytarmalı olduq.

Feldfebel İbrahimovun – zənnimcə, yüksək dağ ərazilərinə səyahətlərdə təcrübəli şəxsdir – məsləhətinə görə, Bədələ qalxarkən nəfəsin rahatlanması üçün adamlara qara gavalı paylandı. Bu vasitə güclü ağız suyu yaradaraq tənəffüsü nəzərəçarpacaq dərəcədə yüngülləşdirdi. Sonralar biz bu vasitədən səfərlərimizdin bütün hündür nöqtələrində istifadə edirdik. Bədəl keçidini həm də yolda tələf olmuş qırğız mal-qarasının qalaqlanmış leşləri çətinləşdirirdi. Aşırımdan düşərkən əvvəlcədən keçmiş Yakubevski postunun dağıntıları üzərində gecələməyə yer rahlamaq fikrinə düşdük. Lakin həmin məntəqəyə yaxınlaşarkən əmin olduq ki, burada gecələmək mümkün deyildir. Bütün sahə acından tələf olmuş heyvanların leşləri ilə dolu idi. Bu bizi daha münasib yer axtarmağa vadar etdi və irəli hərəkət etdik. Bir qədər də məsafə dəf etdikdən sonra əmin olduq ki, qarşıdakı bütün yolumuz leşlərlə doludur.

Bu günün çətin keçidi öz nəticələrini göstərirdi və biz elə cəmdəklər arasında qalmağa qərar verdik. Doğrudur, heyvanların cəsədləri donmuşdu və heç bir iy-qoxu gəlmirdi. Cəmdəklərin çoxusunun boğazı kəsik idi: qırğızlar bu adətləri ilə arxadan gələn yerlilərinə ölmüş heyvanların cəsədlərindən istifadəyə şərait yaradırdılar. Biz çayın sahilindəki meydançanı leşlərdən təmizlədik, öz düşərgəmizi saldıq, atları leşlərə bağladıq və Çin ərazisində ilk dəfə gecələdik. Dekabrın 15-də biz Çin gözətçi məntəqəsini göz önündə tutaraq irəlilədik. Mən iki ka-

zakla uryadniki posta bizim gəlişimiz barədə xəbərdarlıq etməyə irəli göndərdim.

Məntəqənin rəisi bizi qarşılamaqdan ötrü 15 çinli əsgər göndərdi, onlarla birgə gunorta saat 5-də posta çatdıq. Burada məntəqənin rəisi mənə bildirdi ki, bizim gəlişimiz haqqında ona heç nə məlum deyil, o səbəbdən, görüşümüzə hazırlaşmaqdan ötrü imkanı olmamışdır. Prjevalskdan yola düşməzdən qabaq Çin məmurlarına təqdim edəcəyim tövsiyə müraciətləri ilə bahəm Çin məmuru Cindarinin məktubunu ona çatdırdım.

Məktubu oxuyan kimi post rəhbəri dərhal bizə nahar və atlara yem hazırlamaq göstərişi verdi. Bizim üçün iki qoyun kəsildi, atlara isə saman və peyğəmbəri hazırlandı. Bu postda gecələyib dekabrın 16-da sübh ertədən biz artıq Üç-Turfan tərəfə istiqamət götürdük. Bizim buradakı yolumuz da cəmdəklə dolu idi. Leşlər əvvəlcə Akbel aşırımından bəri az-az təsadüf olunurdu, sonra tədricən çoxaldı və nəhayət, İstık bulağı bütünlüklə cəmdəklə dolmuşdu. Ən iri leş qalaqları Kolen-Tayqak çayı üzərində Bədələ qalxarkən yığılıb qalmışdı.

Üç-Turfanın 20 verstliyində dəstəmizi üç-turfanlı və qaşğarlı iki rus rəiyyəti ağsaqqallar və dastayın cigiti qarşıladı. Görüşəndə cigit dastayın vizit kartını təqdim etdi. Elə buradaca, yolkənarı malikanələrdən birində bizim üçün düşərgə salındı, nahar verildi. Dincəlib irəli yola düşdük və axşam saat 6 radələrində şəhərin kənarına yetişdik, orada bizi rus təbəələri sartların deputatları duz-çörəklə qarşıladılar, ağsaqqallardan biri isə qısa nitqlə salamladı. Sonra qalanın yanında əsir qızlar və qadınlar bizi həssaslıqla qarşıladılar, təşəkkür əlaməti olaraq meyvə gətirdilər, amma sevinclərini yalnız göz yaşları ilə ifadə edə bildilər.

Axşam saat 6-da Üç-Turfana daxil olduq. Ağsaqqallar dərhal dəstənin adamlarını karvansarada yerləşdirdilər və özümüzün də, atlarımızın da qayğısına qalmağı öz üzərlərinə götürdülər. Məni rus təbəəsi sartın – tacir Murzacanın gözəl mənzilinə apardılar. Üç-Turfana daxil olmağımızla Qaşğardakı baş konsulumuza teleqraf göndərdim və ondan üsyan başçılarının ələ keçirilməsində, axtarışında, rus əhalisinin qiyamçılar tərəfindən tutularaq əsirliyə düşənlərinin azad edilməyində

yardımçı olmağını xahiş etdi. Bu teleqrama müqabil, bizim Qaşğar konsulu kömək üçün öz dilmancını göndərdi, o da Üç-Turfana mənim gəlişimdən 11 gün sonra çatdı.

**Üç-Turfanda bulunma**

Mənzil başına gəlib çatdıqdan sonra ertəsi gün dekabrın 17-də Çin hökumətinin yerli təmsilçiləri ilə görüşlərə yollandım. Həmin gün mən Aksuy Dastay cu, uyezd rəisi və Sıtay qarnizon rəisi ilə görüşdüm... Bu görüşlər zamanı söhbətlər gəlişimizin məqsədi, bulunduğumuz yer və s. haqqında gedirdi. Dastay məni Çin mərasimi ilə qarşıladı: evinin qarşısında məni bir batalyon piyada və artilleriyadan ibarət fəxri qarovul qarşılayaraq pərakəndə və sonsuz salam atəşi açdı, orkestr Peşexon şeypurlarının gurultusunu xatırladan nə isə nəriltili pyesləri ucadan ifa edirdi. Ev sahibi özü Çin təbirincə nəvazişli idi, çox danışırdı və tapşırıqlarımı həyata keçirmək üçün əlindən gələni əsirgəməyərək, yardımçı olacağına söz verdi və s.

Ertəsi gün dekabrın 18-də dastay və uyezd başçısı cavab görüşləri ilə yanıma gəldilər və yenə də fasiləsiz olaraq söz verib vədlərini təkrarladılar. O gün axşam saat 7 radələrində qarnizon rəisi Sıtay yanıma gəldi. Gələr-gəlməz, Sıtay tapşırıqlarıma Dastayın münasibətini soruşdu və biləndə ki, quldurbaşıların tutulmasında köməyini vəd edib, ucadan şaqqanaq çəkərək, güldü. Səbəbini soruşanda, Sıtay mənə dedi ki, Dastay öz vədlərini yerinə yetirməyəcəkdir, çünki o, üsyan başçılarından olan Şabdanov qardaşlarından və başqalarından silah, tiryək və pul qismində rüşvət almışdır. Qiyamçıların gətirdikləri mal-qaranın ən yaxşı hissəsini də Dastay özünə götürmüşdür. Sıtay sonra izah etdi ki, üsyanın əsas başçıları həqiqətən də Üç-Turfanın bölgəsində bulunurlar və Dastayın istəyi olsa, bircə həftəyə hamısını tutar. Bu söhbət üç nəfər ağsaqqalın – Aksu, Qaşğar və Üç-Turfan ağsaqqallarının – iştirakı ilə baş tutduğuna görə, bütün bunları protokola salmağa lüzum bildim.

103 №-lı protokol bu hesabata əlavə edilmişdir. Dekabrın 19-u saat 8-də Dastay məni onların Yeni ilini qarşılamağa dəvət etdi. Bu görüş də yenə çoxlu sayda Çin mərasimləri ilə müşayiət olundu. Sonda şampan verildi. Birinci sağlığı Dastay Rusiyanın çiçəklənməsi şərəfinə söylə-

di, müharibənin tezliklə və uğurla başa çatmağını və Çin ilə Rusiya arasındakı dostluğun illər uzunu davam etməsini arzuladı. Bu sağlığa Çin konstitusiyasının çiçəklənməsinin və hər iki dövlətin sonrakı dostluğunun şərəfinə sağlıqla cavablandırdım.

Dekabrın 20-də, nəhayət, dastaydan üsyan başçılarının tutulub təslimata verilməsi və bu işdə Qədim və Yeni Aksu uyezd başçılarının yardımı barədə yazılı sərəncam aldım. Gəzən şayiələrə görə, başçılar bu zaman Üç-Turfanın 50 verstliyindəki Aksu bölgəsində idilər.

Elə dekabrın 20-də dəstəmin feldfebeli İbrahibov və kazak Stepan Bodyagin çinli qarovulçuların müşayiəti ilə Aksu tərəfə hərəkət etdilər. Dekabrın 24-də onlara Qərbi-Cetıoğuz vilayətinin manapı qırğız Abdul Musinin auluna hücum etməyə və onun özünü, Zaukin vilayətindən qırğız Bayqazi İsabəyovu və Atekin vilayətindən olan Alik Alimbəyovu tutmağa müyəssər oldular. Sonuncunun cibində axtarış zamanı Mukaş Şabdanovdan açıq məktub çıxdı, Şabdanov adbaad 11 nəfər oxatan-qırğızı birləşməyə və birgə fəaliyyət göstərməyə çağırırdı. Elə orada Aksuda Şabdanovun yaxın qohumu, dəstənin əsas başçısı, Kutemaldidə silah nəqliyyat vasitəsinə hücum çəkərək onu qarət edən Atekin vilayətindən olan qırğız Balıkçı Burunbayev ələ keçdi. Sadalanan dörd nəfər manap – qırğızlar arasında hörmət sahibidirlər. Bundan əlavə, elə oradaca digər dəstə başçılarını da, o cümlədən Semqalı Çiqirov adlı birisini də tutmaq imkanı düşmüşdü, amma uyezd başçısı sonrakı işlərdə köməklik göstərməkdən imtina etdi və bunu onunla izah etdi ki, Dastayın göstərişi birinci hala aiddir və sonrakı fəaliyyət üçün Dastayın yeni göstərişinə ehtiyac var. Bu səbəbdən, Çigirov saxlanılmadı və təmsilçilər Üç-Turfana qayıtmalı oldular.

Dekabrın 27-də Üç-Turfana bizim Qaşğar konsulluğunun tərcümanı Qriqori Fyodoroviç Stefanoviç təşrif buyurdu. Həmin tarixdən biz birgə fəaliyyətə başladıq. Dastay ilə şifahi danışıqlardan əlavə, dilmanc yardım üçün ona yazılı müraciətlər də ünvanlayırdı /məlumatın 31.12. 1916 tarixli surətini bura əlavə edirəm/.

Üç-Türfanda olduğum müddət ərzində dəqiq müəyyənləşdirə bildim ki, qırğız üsyanının əsas başçıları Çin sərhədinə məhz Bədəldən

keçmişlər. Elə həmin yolu Şabdan qardaşları da qət etmişdilər. Sonra onları Çin postunun yanından keçən görmüşdülər və nəhayət, bu başçılar rus əsirləri ilə birlikdə kifayət qədər uzun müddət Üç-Turfan rayonunda qalmışdılar. Dastayı bu il yanvarın 3-də görəndə vəziyyəti ona söylədim, Şabdanovu və digər başçıları nəyə görə tutub saxlamadığını və iki dost ölkə arasında qüvvədə olan mövcud müqavilələrə əsasən, nə səbəbə, rus hökumətinə təhvil vermədiyini soruşdum.

Dastay bir çox qonaqların yanında mənimlə razılaşdı və açıq-aşkarcasına təsdiqlədi ki, həqiqətən, Şabdanlar nəinki Üç-Turfanın yanından keçmiş, hətta bir müddət orada yaşamışlar da, lakin onları həbsə ala bilməmişdir, çünki onları da, mən və silahlı qarovulum kimi, rus qonaqları hesab etmişdir. Mənim dəstəmlə üsyançıların bandasının müqayisə edilməsindən qeyzləndim və Dastaya xatırlatdım ki, onun əyalətinə bizim ölkələrimiz arasında mövcud olan qarşılıqlı hökumət müqavilələrinə əsasən, rus hökumətinin agenti kimi gəlmişəm və bu da onun mənə kömək göstərməyini zəruri edir.

Sonra dastaya 1851-ci il Gülcə müqaviləsinin 10-cu bəndini və 1860-cı il Pekin müqaviləsinin 10-cu bəndini xatırlatdım ki, Çin hökuməti cəzadan qaçaraq özbaşına onun ölkəsinə keçmiş cinayətkarları Rusiyaya verməyə borcludur. Dastay xoşagəlməz vəziyyətdən çıxmaqdan ötrü sonradan bizə ondan tələb olunan işin müqayisə və misallarla mümkün olmadığını dedi. Məs., Şabdanovun saxlanılmağının qeyri-mümkünlüyünə belə misal çəkdi: “Sizin qarşınızda qrup var, onu belə şəkildə əlinizlə götürmək asan və ağrısızdır. Amma təsəvvür edin ki, bu qrup sancılmış iynələrlə doludur. Onu ağrısız götürməyə çalışın”. Bu müqayisə ilə Dastay bildirdi ki, Şabdanlar onun əyalətinə yaxşı silahlanmış vəziyyətdə gəlmişlər. Bütün bu söhbətlər rus dilini gözəl bilən çinli təbəə sart dilmanc Bosuk Temurovun vasitəsilə aparılırdı və 2 №-lı protokolda mənim tərəfimdən qeyd olunmuşdur.

Dastayla bütün söhbətlərdən, onun hərəkətlərindən bəlli olurdu ki, qarnizon rəisi Sıtayın bizim üsyançı qırğızlardan rüşvət alınması barədə şübhələri əsaslı imiş və buna görə dastay vəd verməkdən o yana gedə bilməmişdi. Yanvarın 7-dəki vida naharında Dastay yenə də məni

dostluq və səmimiyyətdə inandırır, başçıları tədricən tutub təslimatlarını vəd edirdi. İşin dərhal həyata keçirilməsini qeyri-mümkün hesab edərək, guya camaatın narazılığına səbəb olacaqdan ehtiyatlanırmış. Çin hökuməti 12 nəfər tutulmuş başçını mənə təhvil verdi – adbaad tutulmuş təfsilatlı siyahını əlavə edirəm – və mən geriyə səfərə hazırlaşmağa başladım, amma yola çıxacağım günü əhalidən gizlətməli olduq, çünki Üç-Urfan sartlarının çatdırdığı məlumatlara görə, Bədəl bölgəsində tərəfimizdən tutulmuş başçıların azadlığa buraxılmağı qəsdilə qırğızların bizə qarşı hücumu hazırlanırmış. Nümayişkaranə surətdə elan etdim ki, yola çıxış yanvarın 12-də olacaq, həqiqətdə isə yola düşməyə ayın 9-da qərar vermişdim.

**Geriyə yürüş**

Çin hökumətindən tutulmuş başçıları təhvil alıb geriyə hazırlaşmağa başladım. Yanvarın 8-də dəstənin təchizatını özüm yoxladım, muzdla çatışmayan yük atlarını və əsir ruslar üçün minik atları tutdum, yem ehtiyatı gördüm və xəlvətcə feldfebel İbrahimovu xəbərdarlıq edərək göstəriş verdim ki, yanvarın 9-da sübh ertə çıxmaq üçün hazır olsunlar. Ayın 9-da səhər saat 5-də dəstəni oyatdım və saat 7 üçün çıxmağa hazır olmalarına göstəriş verdim, lakin küçəyə çıxarkən təəccübümü gizlədə bilmədim, gördüm ki, bütün küçəyə bizim ciddi-cəhdlə gizli saxladığımız niyyətimizi instinktiv dərk edən yerlilər tərəfindən bənd çəkilib.

Artıq hər şey yola çıxmaq üçün hazır olanda camaatla anlaşılmazlıq yaranmasın deyə, uryadniklərin birinə kiçik silahlı qarovulla küçəni tutmaq, qırğız kütləsindən bizi ayırmaq tapşırığı verdim və azad edilmiş əsirlərimizi əsas küçə ilə yolladım, başçıları isə dairəvi yolla göndərdim. Və kütlənin fikri mənim çıxışıma qarışanda, kazak silahlı mühafizəsi yerli ağsaqqalların cigitləri ilə atları dairəvi yol boyu dördnala çapdıraraq başçıları irəli aparırdı. Bu manevrlə başçıları öz həmyerliləri ilə görüşdən yayındıra bildim.

Üç-Turfanı salamatlıqla və nisbi sakitliklə tərk etməyim geriyə yolda təhlükəsizliyə təminat vermirdi. Yuxarıda dediyim kimi, üçturfanlı sartlar bizi xəbərdar etmişdilər ki, qırğızlar nəyin bahasına olur-

sa-olsun, öz başçılarını bizdən almağa çalışacaqlar. Bizə hətta mümkün hücum yerini və başçıların adlarını da söylədilər. Sartlar belə dedilər ki, Tokmak vilayətinin manapı Sağalı Almatayev atlıların 300 nəfərdən ibarət xüsusi dəstəsini yığır və bizə Bədəl bölgəsi həndəvərində hücum etmək niyyətindədir.

Sorğu-sualdan bəlli oldu ki, Sağalı Akçı-Kulak-Sarık təbii sərhəd tərəfində, Bədəl aşırımının birbaşa yaxınlığında köç salmışdır. Dəstənin məhdud tərkibdə, cəmi 60 nəfər olması, çoxusu qadın və uşaqlardan ibarət onlarla əsirimiz və qarla örtülmüş, buzlaşmış sərt aşırımlar, yolun özünün çətinliyi, hər halda, bizim xeyrimizə heç nə demirdi. Doğrudur, bəzi təsəlliverici amillər də var idi – bu, qırğızların səfərə yararlı atlarının olmaması idi.

Bərayi-ehtiyat, ehmal getməli idik. Burada söyləməyi özümə borc bilirəm ki, dəstəmin Arabeldəki beşinci gecələmədə rüsvay olmuş kazaklar bu yolda əsil rus kazakı kimi əsir körpə və qadınlara böyük səxavət və az qala sonsuz ata qayğısı göstərdilər. Kazakların çoxu geriyə yolumuzun ən çətin yerlərini əsirləri örtüklərinə bürüməklə və onları yəhərdə aparmaqla özləri piyada getdilər.

Yalnız bütün dəstənin əsil alicənab münasibətinin nəticəsi olaraq uşaqları və qadınları bu mövsümdə buzlaqların üstü ilə belə ağlasığmaz keçiddə donvurmadan xilas etmək mümkün oldu. Çıxışın birinci günü biz 55 verst yol getməklə birbaşa Çin postunun üstünə getdik. Burada Çin hökumətinin qayğısı sayəsində bizə yurtalar qurulmuş, azuqə və ərzaq hazırlanmışdı.

Ertəsi gün gecə yataq yerimizi Bədəl aşırımının ətəyində saldıq, bundan ötrü gün ərzində 5 verst yol getdik. Burada da bizi yurtalar, odun və s. gözləyirdi. Bu dayanacaqda təxminən axşam saat 7-də başçılardan biri, Atekin vilayətinin başçılarından biri Balıqçı Kurunbayev qaçmağa cəhd göstərdi. Kazak silahlı mühafizəsi Balıqçını öz xahişi ilə təbii ehtiyac üçün həyətə çıxaranda, o qaçmağa cəhd göstərmiş və kazak-gözətçi tərəfindən çinli mühafizin yanında güllələnmişdi.

Yanvarın 11-də Bədəl aşırımını uğurla keçdik və Qara-Sap təbii sərhədinə çatdıq, orada Prjevalsk uyezd rəisi polkovnik İvanovun bizim

üçün hazırladığı at yemi və yanacaq vardı. Böyük Kaçkasu çayı tərəfdə də ertəsi gün eyni hal ilə rastlaşdıq. Öz qorxunc soyuqları ilə Arabeli, keçəndəfəkindən dərs alaraq, günorta, günün ən isti vaxtında keçdik ki, əsirlər yuxarıda danışdığım həmin dəhşətləri yaşamaq məcburiyyətində qalmasınlar.

Pokovnik İvanov tərəfindən dəstəyə göndərilmiş at yemi Sırtıdan tez və rahat keçməyimizə yaxşı zəmin yaratdı. Ayın 13-də axşam Pokrovskoye kəndinə çatdıq, orada məni yüzlüyümün kiçik zabiti, praporşik Kozmin qarşıladı və cəza dəstəsinin rəisi podpolkovnik Geytsiqin bütün başçıları Pokrovskoye kəndinin içinə salmadan ona təhvil vermək barədə şifahi əmrini çatdırdı. Podpolkovnik Geytsiqin bu şifahi tapşırığında üzrlü səbəbləri görmədiyim səbəbindən, başçıları Pokrovskoye kəndində dəstənin yanında qoydum və onları şəxsən Prjevalsk şəhərinə çatdırdım.

Ertəsi gün Sırtı keçidinin çətinliklərindən dincəlmək üçün dəstəyə Pokrovskoye kəndində birgünlük istirahət verdim, özüm isə başçıların dindirmələri ilə məşğul olmağa başladım. Dindirmənin protokolunu əlavə edirəm, lakin bildirməliyəm ki, dindirilənlər mənə vacib bir söz demədilər. Ayın 15-də nahardan sonra günorta saat üçdə Prjevalsk şəhərinə yaxınlaşdıq.

Şəhər ətrafında bizi çoxlu sayda şəhərlilər qarşıladı, hətta bəzi sakinlər beş verst yol qət etmişdilər, yalnız hərbçilər yox idi, halbuki qarnizon rəisi bizim gəlişimizin saatından belə dəqiq xəbərdar idi.

Prlevalska çatan kimi əsirləri komitəyə, başçıları isə uyezd rəisinə təhvil verdim.

**1917-ci il. İlin əvvəli.**

**Rusiyanın Qaşğardakı baş konsulluğunun tərcümanı kollej katibi Stefanoviçin Yeddisu vilayətində qırğızlar arasındakı çaxnaşmalar və onların Çin hüdudlarına qaçışı barədə[1] məruzəsindən[2]**

Əldə etdiyim məlumatlara görə, qırğızların əlindən alınmış rus əsirləri arasında aparılan sorğuya görə, həbsə alınmış üsyan iştirakçılarının ifadələrinə görə, üsyanın şahidi olmuş rus və Çin təbəələrinin, sartların danışdıqlarına görə, adıçəkilən üsyandan bu və ya digər dərəcədə zərər çəkmişlərdən alınan arayışlara görə, Üç-Turfan və Aksunun ağsaqqallarının, xüsusən ayrı-ayrı yerlərə kəşfiyyat məqsədi ilə göndərilənlərin ifadələrinə görə, eləcə də qırğızlar arasında böyük hörmət və nüfuz qüvvəsinə malik müsəlmanların din nümayəndələrinin söylədiklərinə görə – Yeddisu vilayətində çaxnaşmanın mənzərəsi, onun yaranmasının səbəbləri aşağıdakı kimi təqdim edilir.

İyulun əvvəlində qırğızlar arasında, görünür, əlahəzrətin arxa cəbhədəki işlərə çağırışa gözləmə ilə bağlı, müəyyən qədər narahatlıq və çaşqınlıq nəzərə çarpırdı, qırğızların qara fəhlələri, tacirləri və ruslar arasında tanışları olan digərləri dəfələrlə çağırışın xarakteri ilə əlaqədar tanışlarına müraciətlər etmişdilər..., bu zaman onlar tərəfindən qaldırılan məsələlər mənasızlıq xarakteri daşımırdı, lakin bunun bəd fikirli insanlar tərəfindən qaynaqlandığı görünürdü, zira qırğız kütləsinin həddindən ziyadə avamlığı təsirini göstərirdi. Qırğızlar dediyinə görə, guya, onlar cəbhədə rus qoşunları ilə almanların ordularının arasındakı yerlərə işləməyə göndəriləcəkdilər ki, orada qırğızları həm bunlar, həm də onlar vursunlar.

Bu cür şayiələrin mənasızlığını onlara göstərəndə və yalnız arxa cəbhədəki işlər üçün ayrıldıqlarını, onlara xüsusi məvacib yazılacağını vurğulayıb çağırışın əsil mahiyyətini izah edəndə, nəinki inanmadılar, hətta bəzi faktlar gətirdilər. Guya başçılarının tələbinə görə yurta, keçə,

---

[1] Bu yazının surəti Rusiya imperatorunun Kaşğardakı baş konsuluna göndərilmişdir.

[2] Özbək. SSR MDTA. F. 284, iş № 21, v. 17-47. Əslidir.

paypak corablar, təmir üçün atlar verirmişlər, amma əvəzində ya qətiyyən pul almayıbmışlar, ya da alıblarsa, ödənilən məzənnə qətiyyən götürülən əşyaların dəyərinə uyğun gəlməyibmiş, həmçinin qiymət hakimiyyət tərəfindən orduya yararlı bu və ya başqa əşyaya elan edilmiş dəyərə əsla münasib olmurmuş.

Bu izahat qırğız məişətinin irsi təşkilatçılığından irəli gəlir. Özündə bir çox müsbət amilləri birləşdirən nəsil böyüyünə ciddi və qeyd-şərtsiz, cavab qaytarmadan tabe olmaq, qırğızların daxili idarəçiliyində onlar müstəqilliyə çıxıb yaşayana qədər, rus dövlətinin inzibati idarəçiliyi ilə təmasa daxil olana qədər sözsüz ki, zəruru ünsür idi. Qırğızlar ram edilən məqamdan etibarən və ayrıca idarəçilik inzibati vahidlərində birləşdirildikdən sonra – vilayətin mahiyyəti budur – nəsillikcə təzahür tapmış sülb qırğız məişəti özünün mənfi tərəflərini nümayiş etdirməyə başladı ki, bundan ən çox qırğız əhalisinin özü əziyyət çəkdi.

Vilayətlərə bölünməyin və vilayət idarəçiliyinin tətbiq edilməsilə qırğızlar arasında starşina və başqa yüksək vəzifələri tutmaq üçün mübarizə başlandı. Belə şəraitdə böyüklərin şəcərədə təsiri itməyə və öz maddi nemətlərindən yaxşı yer, mövqe əldə etmək üçün istifadə etmək imkanı olan varlılara, yaxud qırğız kütləsinə fiziki təsir göstərərək onu daima qorxu və qəbalədə saxlayan şəxslərə keçməyə başladı. Sonuncu qəbildən olanlar qırğız məişətinə xüsusilə xarakterikdir – istər sülh, istərsə də müharibə şəraitində alaçıq töycüsünün və digər vergilərin ödənilməsi yerli vilayət başçıları tərəfindən həyata keçirilirdi ki, onlar tabeliyində olan qırğızlardan tələb olunandan 2-3 dəfə çox alırdılar, hətta ordu üçün əhalidən alınmış zəruri əşyalardan ötrü pul ödənilirdisə, vilayət başçıları onu özlərində saxlayırdılar.

Uyezd idarəçiliyinin qırğız kütləsini bu sayaq vilayət rəhbərliyinin əli ilə idarə etməsi, bəzən hətta təmənnalı şəkildə onların tərəfini saxlaması, öz rəhbərlərindən şikayətlə müraciət etməkdən məhrum olan qara kütlənin onsuz da acınacaqlı, çıxışı olmayan vəziyyətini daha da ağırlaşdırırdı. Ayrı-ayrı şəxslər uyezd rəisinə, yaxud hətta qubernatora müraciət etməyi məsləhət gördükdə, cavab çox kədərli olurdu – bizi qubernatorun yanına buraxmayacaqlar, uyezd başçısı isə qovacaqdır. Kül-

leyi qırğız kütləsinin belə vəziyyətində səfərbərliyin heç bir xoşagəlməz asayiş pozulması olmadan baş tutacağına etibar etmək çətin idi.

Ticarətlə məşğul olan varlı qırğızlar, yaxud əkinçiliklə oturaq həyat tərzinə keçənlər, şübhəsiz, hər hansı iğtişaşın əleyhinə idilər və fəhlələrin çağırışına əməl etməyə meylli idilər, çünki dərrakəli və məlumatlı insanlar kimi üsyan qalxacağı təqdirdə maddi ziyanla yanaşı həmin üsyanın mənasızlığını və hakimiyyətə asi düşənlərin həlakətini, öldürücü nəticələrini görürdülər. Lakin qırğız kütləsində bir qədər təsirə malik olsalar da, sayları az və mütəşəkkil olmayan bu zümrənin təmsilçiləri manap adlanan və çoxusu yuxarıda göstərilən səbəblərə görə vilayət rəhbəri vəzifəsini tutmuş bu başçılara qarşı durub sinə gərmək iqtidarında deyildilər. Manapların qırğızların çağırışına müqavimət göstərməyə kifayət qədər səbəbləri vardı.

Qara, bisavad qırğız kütləsi, onun maddiyyatı və demək olar ki, həyatı üzərində (sonuncu – şişirtmə deyildir, manapların ürəyincə olmayan şəxslərin öldürülməsi hallarına tez-tez rast gəlinirdi, onlar özləri isə, adətən, bu əməldən kənarda qalırdılar) hədsiz-hüdudsuz hökmranlıq edən manaplar qırğızların cəbhə işlərinə çağrılmasına özlərinin onlar üzərindəki məsuliyyətsiz və hüdudsuz hökmranlıqlarına təhlükə kimi baxırdılar.

Başçılar çox gözəl dərk edirdilər ki, onların hakimiyyəti özlərinin ümumi kütlələrində dağ və auldan savayı heç nə görməyən qırğızların avamlığı və cəhaləti üzərində dayanır, cəbhə işlərinə çağırışla isə elə həmin kütlənin rus əhalisi ilə sıx ünsiyyəti yaranacaq və hüquq haqqında elementar təsəvvürlər oyanacaqdı ki, bu da sonradan manapların hökmranlığına son qoyulması ilə bitə bilərdi. Manaplar bütün bunları oturaq həyata keçmiş qırğızların onlara qarşı münasibətdə müqavimətin üzə çıxdığını müşahidə edərkən, əvvəlcədən görə bilərdilər. Yuxarıda sadalanan səbəblərin ucbatından, qırğızların məişətindəki belə dəyişikliyə yenə də yalnız manaplar maneçilik törədirdilər.

Belə şəraitdə manaplar dilemma qarşısında qalmışdılar. Əvvəla, fəhlə çağırışı ilə əlaqədar qırğızlar arasında yayılan ümumi iğtişaşlar kimi, əlverişli məqamdan istifadə edən digər şəxslərə – əleyhidarlarının

əlinə keçəcək başçılıqdan və hakimiyyətdən imtina etmək. Ya da, onlara tabe olan müti kütlənin başında qalmaq, üstəlik, perspektivdə sakit rus əhalisinin hesabına təzyiq və talanla yüngül qazanc imkanına malik olmaq. Məhz bu səbəbdən, bütün vilayətlərdə üsyanın başçıları vilayət starşinaları oldular, halbuki onlar öz müdiriyyətinin iradəsini qüsursuz tərzdə həyata keçirən və qırğızlar arasında rus hakimiyyəti ideaysını yayanlar olmalı idilər.

Yuxarıda sadalanan səbəblərdən əlavə, yerli inzibati idarənin müəyyən dərəcədə fərasətsizliyini də qeyd etməmək olmaz. Belə geniş miqyas almış üsyanın hazırlığı nəzərə çarpmadan baş verə bilməzdi. Qırğızlarla üzləşmiş şəxslər onların arasında ümumi çaşqınlıq və narahatlığın yayıldığını aydın görmüşdülər. Lakin bununla yanaşı, iyulun 10-da Üç-Kunor təbii sərhədində bir neçə min adamın toplaşması, orada qırğızların hakimiyyətin sərəncamlarının əleyhinə getmək və fəhlələri verməmək qərarının qəbul edilməsi kimi fakt hakimiyyətin lazımi məlumatlandırılması təqdirində diqqətdən kənarda qalmamalı idi, ən azı o səbəbdən ki, adıçəkilən toplantıya çox böyük sayda iştirakçılar gəlmişdi.

Ailə üzvlərinin dəqiq sayı göstərilməyən siyahıların olmaması vilayət mirzələrinə özbaşına surətdə çağırışa məruz şəxslərin öz mülahizələrinə əsasən siyahıya salınması, yaxud silinməsinə gətirib çıxarmasından əlavə, başçıların əlinə kütləni qorxutmağa bəhanə verdi. Onlar çağırışçıların siyahısına 19 yaşlılar kimi, 16-18 yaşlıların, çağırışa düşməyən 35 yaşdan yuxarı olanların isə 30-35 yaşlı kimi qeyd ediləcək aparılacağını və aulda yalnız qadınların, uşaqların, sinli qocaların qalacaqlarını söyləməklə camaata təhdid etdilər.

Çağırışa məruz kütlənin məhz özünə bu tədbirin xarakteri barədə müdiriyyət tərəfindən izahatın verilməməsi də, əlahəzrət tərəfindən elan olunmuş sərəncamın əhəmiyyət barədə izahatlar almış elə həmin başçıların həyəcan, çaxnaşmalar yaratmasına gətirib çıxardı və yekunda, kütlə çağırış haqqında sərəncamı yerli hakimiyyətin tapşırığı hesab edərək, əlahəzrətin alinəsəb sərəncam bəyan etməsinə inanmadı və bu da qırğızların hökumətin tələblərinə tabe olmamasına daha çox rəvac verdi.

Açıq-aşkar müqavimətə və üsyana hazırlaşan qırğızlar mübarizə aparacaqları qüvvələri də nəzərə alırdılar. Hətta ilk baxışdan qüvvələrin nisbətinin qiyamçıların xeyrinə olduğu bəlli idi: üsyan başlanan ərəfədə Pişpək və Prjevalsk uyezdlərində heç bir ordu yox idi, ehtiyatda olanların orduya çağırışının nəticəsi kimi, rus qəsəbələrində kişilərin qaibliyi üsyanın uğurlu baş tutacağına əlahiddə şans verirdi, üstəlik, başçıların qırğız kütləsinə təbliğ etdiyi fikrə görə, külleyi ordu cəbhədə idi və kişilərin sayı kifayət etmədiyi üçün tezliklə hətta qadınlar da cəbhəyə aparılacaqdılar. Belə şəraitdə rus əhalisini talamaq, kəndlinin mal-qarasını mənimsəmək o dərəcədə tovlayıcı görünürdü ki, bütün qırğız kütləsi şirniklənib rus əhalisinin üzərinə atılmaq üçün münasib məqam axtarırdı.

Fəhlələrin avqust ayının ortasına təyin edilmiş çağırışı qırğızlar üçün əldən buraxılmayacaq məqam idi və onlar bundan istifadə edərək üsyan qaldırdılar. Əgər üsyanın günü əvvəlcədən təyin edilməmişdisə də, zəmin o dərəcədə hazırlanmışdı ki, demək olar, bütün Yeddisu vilayətini öz ağuşuna alacaq bu yanğını, sadəcə, yalnız kim tərəfindənsə odlamaq lazım idi. Prjevalsk uyezdində üsyan avqustun 8-də İssık-Kulun şimal-qərb sahilində qırğızların böyük Sazanovka kəndinə hücumu ilə başlandı. Yeddisuda qətiyyətsiz şəxsləri üsyana cəlb etmək məqsədi ilə vaxtilə qırğız məişət işlərində rus hökumətinə böyük xidmətlər göstərmiş, qırğızlar arasında nüfuzlu hörmət sahibi və üsyanın başında dayanan milis mayoru Şabdanın oğulları hər yerə onlar tərəfindən artıq Pişpək, Tokmak və Pişpək uyezdinin digər iri kəndlərinin alınması, bütöv bir nəqliyyat vasitəsi ilə dolu tüfəng və patronun ələ keçirilməsi, şəhəri tutmaqdan ötrü prjevalsklı qırğızların köməyinə getmələri barədə xəbər yayan çaparlar yollamışdılar, bu zaman qırğızların kişi əhalisini döymələri, qadın və qız xeylaqlarını özlərinə arvad etmələri, 15 yaşına qədər yeniyetmə oğlan uşaqlarının isə çoban kimi işlətmələri qeyd edilirdi.

Qırğızlar iki həftədən çox öz yollarında qarşılarına nə çıxdısa, hamısını məhv etdilər, rusları talan etdilər və öldürdülər. Prjevalsk uyezdinin hər tərəfdən keçilməz dağlarla təcridatı qırğızların bütün uyezdi

ləğv etmək və şəhəri ələ almaq kimi cinayətkar planlarına yardımçı oldu. Baxmayaraq ki, şəhəri tutmaq qırğızlara nəsib olmadı, fəqət bütün uyezd məhv edildi (cəmi-cümlətanı 3 kənd salamat qalmışdı). Bu dəhşətli vəziyyət çox çəkmədi – az-az gələn ordu hissələri qırğızları izləməyə başladılar. Öz məğlubiyyətlərini birinci qəbul edən qırğızlarla bərabər üsyan qaldırmış dunqanlar oldular, artıq avqustun 15-də onlar qohumlarının yaşadığı və ticarət əlaqələri saxladıqları Çin hüdudlarına qaçdılar. Tezliklə dunqanların dalınca Çin torpaqlarına Gülcə və Qaşğar bölgələrində sərhədi keçən qırğızlar da üz tutdular.

Qaşğar konsulluğu yerləşən dairənin ərazisində qırğızların peyda olmalarını təsvir edərkən demək lazımdır ki, əsas kütlə Üç-Turfan və Aksu vahələrinə tökülüşüb gəlmişdi və adamların yalnız cüzi hissəsi Qaşğar uyezdinə düşmüşdü. Qaşğar uyezdinə Prjevalsk uyezdinin digər hissələrinə nisbətən çaxnaşmaların az cərəyan etdiyi Narın uyezdindən iki vilayətin qırğızları qaçıb gəlmişdilər və üstəlik, qaçanlar özləri üsyana ən az aidiyyatı olan adamlar idilər. Onların qaçmasına səbəb öz üsyançı qırğızları tərəfindən qiyamda iştiraka vadar edilməkdən, yaxud mal-qaralarının talan olunmaqdan ehtiyatlanmaları oldu. Belə şəraitdə Narın bölgəsinin qaçqınları uzun müddət Çin ərazisində qala bilməzdilər və həqiqətən onlar konsulluq tərəfindən öz daimi yaşayış yerlərinə qaytarıldılar, bir fərəhləndirici faktı da qeyd etmək lazımdır ki, onlar Rusiya hüdudlarına öz sürüləri ilə qayıdanda, mal-qaraya heç bir xətər yetirmədən tələfat vermədilər.

Qırğızların qaçışı və Üç-Turfan bölgəsində iqtisadi durumunun mənzərəsi tam fərqli xarakterlə təsvir olunur. Bura Prjevalsk və Pişpək uyezdlərinin qiyamında fəal iştirak etmiş vilayətlərinin qırğızları qaçıb pənah gətirmişdilər. Vilayətlərin özlərinin sayına gəldikdə isə, onu müəyyənləşdirmək çox böyük çətinlik törədir. Kazaklar tərəfindən təqib olunan qırğızlar qaçış zamanı elə qarışmışdılar ki, onların əvvəlki kimi vilayətlərə bölünməsi mümkünat xaricindədir. Eyni bir vilayətin hissələri Gülcə və Üç-Turfan bölgələrində bulunur. Üç-Turfan və Aksu rayonlarında bulunan qırğızların ümumi sayı təqribən 100 000 – 120 000 civarında müəyyənləşdirilə bilər. Bütün bu kütlə burada sentyabrın

sonunda və oktyabr ayında zahir olmuşdur. Dağlarla hərəkət edən və əlçatmaz aşırımlara səmt alan qırğızların arxasınca dabanbasma rus ordusu gəlirdi, üstəlik, onlar qarət edilmiş əşyalarla və müxtəlif ev hacətləri ilə yüklərini ağırlaşdırmışdılar və mal-davarın qayğısına qalmırdılar.

Onların Çinə üz tutduqları yol isə əlçatmaz dağ keçidləri ilə o qədər ağır idi ki, mal-qaranın əksər hissəsi səfər zamanı tələf oldu. Qırğızların əsas etibarilə Üç-Turfan bölgəsinə yönəldiyi təkcə Bədəl aşırımı yolunun üstündə 10 000 başdan artıq mal-qara və at qırılmışdı. Qırğızların Çin torpaqlarına gətirib çıxara bildikləri mal-davar da yemin kasadlığı ucbatından və yolda çəkdikləri korluqdan tələf oldu. Onların əlində qalan yalnız cüzi sayda qoyun və dəvə idi, zira onlar daha dözümlü və çox şey tələb etməyən heyvanlardır. Dağlarda təzə otun may ayından tez çıxmayacağını nəzərə alanda, güman etmək olar ki, mal-qaranın sağ qalmış bu cüzi qusmi də o zamana tələf olacaq, üstəlik, heyvanların görünüşü qalan 3-4 qış ayından çıxacağına heç bir ümid yeri qoymur. Başlıca sərvət və var-dövləti olan sürülərini itirən qırğızlar burada həddən ziyadə acınacaqlı duruma düşdülər. Heyvanatı itirəndən sonra miskin ev hacətlərindən savayı heç nəyə malik olmayan qırğızlar ac-yalavac dolanışıq üçün ev əşyalarından ən zərurilərini – keçə palazlarını, qazanlarını, çaydanlarını, yəhərlərini, yüyənlərini satmağa başladılar.

İlk tələbat mallarının bahalığı Üç-Turfan və Aksuda həmin qırğız kütləsini aclıqdan ölüm qorxusu ilə üzbəüz qoyur, onların arasında yeməməzlik zəminində qarın yatalağı və b. mərəzlərin epidemiyası başlanır. Artıq yemək yeyənlərdən və yolda ağır yükdən qurtulmaq məqsədilə qırğızlar azyaşlı övladlarını yol boyu və düşərgələrində atıb gedir, 12 yaşından yuxarı qız və oğlanları isə yerli sartlara 30-40 rubla (rublun 12 əvəzinə, 3 tanqa kursu ilə) satırdılar. Belə şəraitdə onların gələcəyi son dərəcə ağır və ümidsiz görünürdü: hərgah qışdan çıxıb bahara qədər yaşaya bilsələr də, bu yerlərdə, hətta tarla işlərində işləyəcək olsalar belə, onların həyatını yüngülləşdirən heç nə gözlənilmirdi. Zira yerli əhalinin işlək əllərə ehtiyacı yox idi, əksinə, fəhlələrdən artıq qalanlarını Rusiya torpaqlarına qazanc arxasınca göndərirdilər.

Qırğızların Rusiyaya köçürülməsi məsələsinə gəldikdə isə, Türküstan general-qubernatorunun 06.11.1916 tarixli yoldaş xarici işlər nazirinə ünvanladığı 1148 №-lı məxfi məktubunda aşağıdakı tələblər yerinə yetirilməli idi: 1) rus əsirlərinin, 2) silahın, 3) başçıların təhvil verilməsi, 4) itaət ərz edilməsi. Təbir caizsə, bütün bu tələblərdən yalnız sonuncunu – itaət ərz edilməsi yerinə yetirmək mümkünat daxilindədir, çünki konsulluğun səyləri nəticəsində hələ sentyabrda və oktyabrda götürülüb aparılmış həmin qadınlar istisna olmaqla (65 nəfər), rus əsirləri qırğızlar tərəfindən artıq çoxdan qətlə yetirilmişdir; yerli bazarda yetərincə yüksək məzənnəyə malik silah isə ya çinli təbəələrə, yaxud da sartlara verilmiş, yainki əsas etibarilə Çin hakimiyyət orqanları tərəfindən əllərindən alınmışdır. Başçıların təslimatı isə bu dərəcədə müdhiş məhrumiyyətlərə və korluğa düçar edilmiş, bu azmış kimi, hər cür təşkilatdan məhrum kütlə üçün yerinə yetirilməyi mümkün olan iş deyil. Bundan əlavə, başçılar artıq bütün bu kütləni taleyin ixtiyarına buraxıb, qaçmağa macal tapmışlar. Belə ki, son məlumatlara istinadən, Şabdanlar cənuba Xotana istiqamət almışlar, oradan isə ya İrana, ya da Əfqanıstana sivişib keçmək niyyətindədirlər.

Qırğızların yoxsulluğunu nəzərə alaraq, onu göz önünüə götürmək lazımdır ki, Rusiya ərazisinə gətirilən təqdirdə, onların yalnız cüzi hissəsi özü köçmək iqtidarında olacaq, qalanlarına böyük yardım göstərilməlidir: nəqliyyat vasitəsi təqdim olunmasa da – piyada gələ bilərlər – qətiyyən heç bir ehtiyata malik olmadıqları üçün ərzaqla təminat məsələsi; onu demirəm ki, Rusiyaya qayıdandan sonra həmin qırğızlar inzibati idarələrin xüsusi diqqət mərkəzində durmalı olacaqlar, yəni gələndən sonra yaşamağa yer, yurtalar, ev əşyalarına kəskin ehtiyac duyulacaq. Həmin qırğızların əsla heç nələri yoxdur; işlə təminatla və dolanışıq vəsaiti ilə. Qırğızların qarət etdiyi rus əhalisinin onlara qəzəbinin ucbatından bir yerdə dinc yanaşı yaşamağa davam etmətə imkan verməк olmaz, çünki qırğızları hiddətlənmiş ruslardan qorumaq üçün tədbirlər görülməlidir. Gücləndirilmiş polis dəstələrini, hətta nizami ordu hissələrini hazır saxlamaq zəruruidir; bu qırğızlara azuqə, geyim və çəkmələr verilməlidir, çünki uzun səyahətləri ərzində əyin-

başları son həddə kimi üzülmüşdür. Onların arasında yatalaq epidemiyası və sinqanın yayılması sanitar tədbirlərin görülməsi kimi xüsusi qayğı tələb edəcək. Adları çəkilən mərəzlərlə mübarizə üçün lazımi tibb heyət çağırılmalı və onların rus sakinlərinin arasında yayılmasının qarşısı alınmalıdır. Qırğızların Rusiyaya gətirilməsi fikri ilə qeyri-ixtiyari baş qaldıran ilkin məsələlər bunlardır.

Çin hakimiyyəti tərəfindən qaçqın qırğızlara bəslənən münasibətə keçəndə, iki mərhələ qeyd olunmalıdır. Bu münasibətlər həmin az qala diametral ziddiyyətli iki fazadan keçmişdir. Avqustun ortasında gəlmiş ilk qaçqınlar dalğası olan dunqanların peyda olması çinlilərin özləri üçün o dərəcədə gözlənilməz idi ki, çinli hakimiyyət orqanlarının bu insanları öz ərazilərinə buraxmamaq üçün hər hansı qarşı tədbirin görülməsindən söhbət belə getmirdi. Üstəlik, qaçqın dunqanların böyük əksətiyyəti Çin təbəələri idi. Çin hakimiyyətinin əsas qayğısı həmin dövrdə bu hiddətlənmiş kütlənin beynini sakitləşdirməyə yönəlmişdi. Keçən yüzilliyin 70-ci illərində Çinin qərb əyalətlərində baş qaldırmış dunqan üsyanı zaman təzahür edən qəddarlıq və əzazillik çinlilərin hafizəsinə çox dərindən həkk olunmuşdu.

Ona görə, çinli hakimiyyət orqanları, dunqanlar kimi, belə azman miqyasda narahat ünsürlərin zahir olduğunu görəndə, öz təbəələri sartların arasında təlaş qalxacağından qorxub, qaçqınların toplaşdığı ən təhlükəli nöqtə kimi Üç-Turfanda orduların sayını artırdı. Ak-Yarkənddən, hətta Qaşğardan müxtəlif qoşun bölmələri gətirildi və hərgah dunqanlar zahir olan məqamda Üç-Turfanda 60-70 əsgər var idisə, bir aydan sonra şəhərdə 300-dən 400-ə kimi atlı və piyada toplaşmışdı.

Qaçqınların gəlişinin çinlilər üçün nə dərəcədə əhəmiyyət kəsb etdiyi ondan görünür ki, Üç-Turfanda ilk dunqanların peyda olması barədə xəbər yayılan kimi Sin-Tszyan qubernatorunun göstərişi ilə ora Aksu dastayı Çju-Juy-Ç səfər etmişdi və üç aya yaxın, qırğızların Çinə axını tükənənədək şəhərdə qalmışdı. Dastay Çju, onunla bahəm itaətində olan digər məmurlar qırğızların Çin ərazisinə keçməsinə necə münasibət bəsləyirdilər? Bu sualı adları çəkilən məmurların fəaliyyətini xarakterizə edən özünəməxsus faktlarla cavablandırmağa çalışaram.

Qırğızların ilk iri partiyaları sentyabrın 20-də peyda olmuşdu, hərçənd sərhədi keçmək cəhdləri hələ avqustun sonu, sentyabrın əvvəlinə təsadüf edirdi.

Həzrətlərinizin tərəfindən avqust ayında Aksu və Üç-Turfan rayonlarına ezam olunmuşdum və çağırışa məruz, 75 nəfərdən ibarət az miqdarda dəstə ilə getmiş dunqanların qaçışının mənzərəsini aydınlaşdırmalı idim. Məhz avqustun 20-i tarixində Üç-Turfana gəldim. Prjevalsk uyezdində tüğyan edən həyəcan dalğısından xəbərdar olduğum üçün qırğızların Çin hüdudlarına gəlişi rus hökumətindən ötrü arzuedilməzdir. Onların Çin ərazilərinə buraxılması, xahişlərinin yerinə yetirilməsi – ixtiyarlarına örüşlər verərək Çin təbəəliyinə qəbul edilməsi Çin hakimiyət orqanları tərəfindən baş verərsə, Rusiya dövlətinin maraqlarına təhdid edən düşməncəsinə hərəkət kimi nəzərdən keçiriləcək, zira dövlətlər arasında imzalanmış sazişin bir dövlətdən o biri dövlət tərəfə keçənlər barədə bəndi onlara heç vəchlə razılığa gəlmiş tərəflərin heç birisinin ərazisində peyda olmağa izin vermir.

Dastay Çjunun qarşısında tərəfimdən belə israr etməyim onunla yekunlaşdı ki, mənim sentyabrın 15-dək Üç-Turfanda bulunduğum müddət ərzində qırğızlara Çin ərazisinə keçməyə icazə verməkdən və onları təbəəliyə qəbul etməkdən imtina etdi, əksinə, bu sayaq vəsatət ilə gəlmiş qırğızları onların qanuni rəhbəri kimi mənim üstümə yolladı, mən isə öz növbəmdə həmin şəxsləri Rusiyaya göndərdim. İnadlı ricama görə, dastay çinli əsgərlərdən Prjevalskdan Üç-Turfana aparan baş yol kimi, Bədəl aşırımında və digər aşırımlarda qırğızların Çin torpaqlarına mümkün hərəkəti təqdirində qarovul təşkil edib düzdü.

Görülən tədbirlərin nəticəsi kimi, qırğızlar Çin ərazisində zahir ola bilmədilər, zira Çin hakimiyyət orqanlarının münasibəti həm səlahiyyətli şəxslər vasitəsilə, həm də dastay tərəfindən qırğızların köç saldığı yerlərə göndərilmiş xüsusi şəxslərin dilindən aydın surətdə ərz olundu. Bütün aşırımlardakı zastavalarda qarovulun düzülməsi isə onların Çin ərazisində peyda olmağının arzuedilməzliyinə yetərincə inandırıcı isbat idi. Buna görə sentyabrın 15-də Üç-Turfanı tərk edərkən, başqa sözlə, qiyamın başlanğıcından bir ay sonra Üç-Turfanda ən ağır və çə-

tin keçilən yollar tapıb gəlmiş 20-30 qırğız ailəsindən çox adam qalmamışdı.

Sentyabrın 20-də yuxarıda təsvir etdiyim mənzərə, yəni qırğızların Çin ərazisinə buraxılmamaq haqqında qoyduğum tələblərə Çin hakimiyyət orqanlarının mülayim münasibəti kəskin dəyişdi. Mən oranı tərk edəndən sonra çinlilərin müxtəlif aşırımlarda düzdükləri qarovullar və zastavalar dastay Çjunun əmrinə istinadən götürüldü, rus ordusu tərəfindən təqib olunan qırğızların bütün iri kütləsi Üç-Turfan rayonuna axıb gəldi və qırğızlar üçün tamamən iflasla yekunlaşdı – mal-davarın tələfatı və varidatın itkisi kimi qüssəli nəticələrə gətirib çıxardı. Hərgah çinli hakimiyyət orqanları qarovulları götürməsəydi və öz ərazilərinə keçməyə izin verməsəydi, qırğızların iqtisadi durum səpkisindən özgə mənzərə yaranardı; qırğızlar itaət göstərməkdən və rus hakimiyyət orqanlarının tələblərini yerinə yetirməkdən savayı çarə qalmadığını görəndə, ruslar tərəfindən öz yerlərinə qaytarılar və Çin hüdudlarına gedəndə itirdikləri mal-qaranın hamısını sağ-salamat saxlayardılar.

Qırğızların Çin ərazisində peyda olmaları hansı xarakter daşıyırdı və bu vaqiə yuxarıda təsvir olunan şəraiti xatırladan vəziyyətdə baş vermişdimi? Dunqanların gəlişinin Çin hökuməti üçün qəfil olduğunu demək mümkündürsə, qırğızların Çin ərazisində, əsas etibarilə Üç-Turfan rayonunda peyda olmaları barədə bu sözü heç vəchlə söyləmək olmaz. Yuxarıda vurğuladığım kimi, sentyabrın 20-i də daxil olmaqla, yəni Üç-Turfanı tərk edtiyim vaxta qədər, qiyamın başlanğıcından 40 gün keçəndən sonra qırğızlar çinlilər tərəfindən öz ərazilərinə buraxılmırdılar, tərəfimdən dastayla yolladığımız şəxslər (sartlar) qırğızların dağlarda qarşısına çıxır, sərhədi keçməyə qadağanı yada salırdılar, aşırımlarda düzülmüş çinli əsgərlər isə əyani surətdə göndərdiyim şəxslərin məlumatlarını təsdiqləyirdi. Bütün bunlar ona dəlalət edir ki, Çin hökuməti yuxarıda göstərdiyim müqavilələrin sərhədi keçmiş qaçqınlara dair bəndlərini mən başa saldığım mənada anlayırdı.

Çin hökumətinin sərhəd zolağında, daha dəqiqi, Üç-Turfanda bulunan ən ali dövlət məmuru kimi dastay Çjunun timsalında qırğızlara münasibətdə baş vermiş dəyişikliyə nə səbəb olmuşdu? Bunu adıçəkilən

bölgədə ordunun azlığı və çinlilərin qırğızların onların hüdudlarna zor tətbiq edərək soxulmağından qorxması ilə izah etmək qətiyyən mümkün deyil. Əvvəla, ona görə ki, artıq dediyim kimi, çinlilər sentyabrın ortalarında Üç-Turfanda böyük əhəmiyyət kəsb edən 400 nəfərdən ibarət, sonradan isə sayı 600 nəfərə çatdırılan dəstə toplamışdılar. Bu qüvvə, ehtimalən, qırğızlar zorla həmin bölgəyə soxulmaq istədikləri təqdirdə, yetərincə olacaqdı; ikincisi – aşırımları qoruyan hətta 5-7 nəfərdən ibarət kiçik qarovul dəstələrinə heç bir həmlə cəhdi olmamışdı. Hücum təqdirində, bu qarovullar lazımi sayda artırıla bilərdi.

Bu minvalla, çinli əsgərlərin qoruduqları aşırımlarıdan götürülüb aparılmasının, bunula bahəm qırğızlara Çin ərazisinə keçməyə icazənin səbəbini ayrı yerdə axtarmaq lazımdır. Təhqiqat bizi əmin edir ki, belə qərarın qəbulu təmənnalı məqsəd güdməkdən savayı – qırğızlardan sərhədi keçmək müqabilində iri məbləğələrdə haqq almaq – onun, daha doğrusu sintszyanlı qubernator Yan-anın digər, zalım bir niyyəti var imiş – Qərbi Çində rus maraqlarına və rus nüfuzuna möhkəm ziyan vurmaq.

Qırğızların Çin hökuməti tərəfindən onların ərazisinə keçmək üçün izin almağını[1] göstərəndə, o faktı nəzərdə tuturam ki, hər vilayətin qırğızları Çin ərazisinə daxil olmazdan əvvəl dastay Çjuya öz səlahiyyətli təmsilçisini icazə almaqdan ötəri göndərərəkən, bu zaman icazənin verilməsi ərzində güman edilən anlaşılmazlıqların aradan götürülməsi üçün yetərincə məbləğ toplayıb verməyi unutmurdular. Belə nümayəndələrin hamısı dastay Çju tərəfindən çox xoş məcazla qarşılanır və sərhədi keçmək izni 5 000 rubldan az olmayan məbləğə verilmirdi. Bundan əlavə, odlu və soyuq silahın təhvili, təbii ki, məhv olunmaqdan ötrü deyil, satqı üçün nəzərdə tutulmuş külli vəzndə xaşxaşın verilməsi də zəruri idi; atlar, iribuynuzlu mal-qara, qoyunlar isə təkcə dastay deyil, bütün Çin məmurları tərəfindən hətta sayı-hesabı bilinməyən miqdarda götürülürdü. Bir faktı söyləmək kifayətdir. Çinlilər o qədər mal-davar və qoyun-quzu götürmüşdülər ki, bir neçə yüz baş qoyunu və buynuzlu mal-qaranı qırğızların əlindən alınmış rus əsirlərini yedizdirmək üçün

---

[1] İzahatı əslindədir.

xeyriyyəyə verməyi özlərinə rəva bilmişdilər. Əlbəttə, belə hərəkət heç bir vəchlə çinli məmurların rəhmdilliyinə və səxavətinə sübit kimi dəlalət etmir.

Dastay Çjunun Yeddisu qiyamının başlıca baiskarları Şabdanlara münasibəti isə yalnız cinayətkarcasına adlandırıla bilər. Onun həmin insanları nümayəndə kimi qəbul edib pul, tiryək, silah və mal-qara (bax: ordu starşinası Bıçkov, Aksu ağsaqqalı və konsulluq ağsaqqalı tərəfindən imzalanmış protokol) almağından əlavə, şəxsi əlaqələrini də saxlamağında davam edirdi. Halbuki konsulluq (Türküstan hərbi dairə qərargah rəisi və Yeddisu vilayəti vitse-qubernatorunun vəsatətinin yekunu kimi) tərəfindən qiyamın səbəbkarlarının tutulması tələbi irəli sürülmüşdü; dastay onları təhlükədən xəbərdar etmiş və bələdçi qoşmaqla qaçmağa yardım göstərmişdi. Rus ağsaqqalının, sonradan mənim özümün də Şabdanları tutub saxlamaq üçün bizə bir neçə nəfər cigit göndərilməsi üçün təvəqqemiz onun tərəfindən diqqətdən kənarda qaldı. Halbuki mən onun 1851-ci il Gülcə müqaviləsinin 10-cu bəndinə və 1860-cı il Pekin sazişinin 10-cu bəndinə (bax: 3 yanvar tarixli məktubun surətinə) uyğun öhdəçiliklərini yerinə yetirməməyini aşkar surətdə göstərmişdim.

Bu halda bir hiss ona tam hakim kəsilərək, Şabdanovların təslimatını istəməməyinə təkan verirdi – onların ifadələri dastayın nüfuzuna çox xələl gətirə bilərdi. Dastay Çjunun Şabdanlara və ümumiyyətlə, qırğızlara xeyirxah münasibətinə o fakt dəlalət edir ki, ordu starşinası Bıçkovla rəsmi söhbət ərzində Şabdanlar Çin ərazisində öz dəstəsi ilə gəlmiş Bıçkov kimi "qonaqlar" adlandırılmışdılar. O səbəbdən, starşina Bıçkov kimi Şabdanovlar da çinli mehmannəvazlığını gözləməyə ixtiyarlı imişlər (bax: Bıçkovun və dilmanc İbrahimovun imzası ilə protokol).

Qırğızlara belə xoş münasibət yalnız dastay Çjuya xas deyil. Onun əməllərini təkrarlayan Aksu və Bay uyezd rəisləri qırğızlara hamilik münasibəti bəsləyərək, hətta onların yoxsulluğuna rəhmi gəlir və himayələrəinə götürürlər[1]. Sözsüz, Çin məmurları tərəfindən belə ali hisslər təzahürünün arxasında pul və digər vəzndə ağır peşkəşlər durur.

---

[1] İzahatı əslindədir.

Çin məmurlarının öhdəçiliyində olan müqavilələrdə yazılmış vəzifələrin yerinə yetirilməməsində utanmazlığı və vicdansızlığı o dərəcəyə çatır ki, onlar həmin qaçqın rus qırğızlarını qoşuna piyada və süvari kimi qulluğa götürürlər; təqribən 40 nəfəri orduya yazmışlar və bu qırğızlardan bəziləri Üç-Turfanda şəhər polisi (qorodovoy) vəzifəsini tuturlar.

Dunqanların və qırğızların əlindən alınmış silah məsələsinə gəldikdə isə, səhih rəqəmi təsəvvürə gətirmək müşküldür, lakin nəzərə alsaq ki, dunqanların əlindən canını qurtarıb qaçmış məmur Poltavskinin qalada keçirdiyi iki gün ərzində çinli əsgərlərin qaçqın dunqanların əlindən aldığı 60-dan artıq tüfəng və qılıncı, yalnız Şabdanovların dastaya təhvil verdiyi 30 vahiddən artıq tüfəngi, Aksuda və Bayda qırğızlardan götürülmüş silahın dastayın göstərişi bizim ağsaqqallarımızdan alınmasını nəzərə alanda, 300 vahid silahın qənimət kimi əldə olunmasını deməyim üçün əlimdə əsas var. Onların arasında, ən azı, 100 ədəd tüfəng olmalıdır. Yuxarıda gətirilmiş müqavilələrin bəndlərinə isnadən, bu silah-sursat rus hökumətinə təhvil verilməlidir.

Dastay Çjunun belə uğurlu fəaliyyəti Sintszyan qubernatoru Yananın diqqətindən yan keçə bilməzdi. Qubernator hələ keçən ilin qışından adıçəkilən əyalətdə rus təsiri ilə mübarizəyə başlayaraq, Qaşğariyada rus təbəələrinin torpaq mülkiyyəti məsələsi kimi müşkülün qabardlması ilə Çjunu Qaşğarda boşalmış vakansiyanı tutmaq üçün ən münasib namizəd hesab etdi. Həmin vəzifədə onun qətiyyən heç bir ümidi doğrultmayan qardaşı işləyirdi. Dastay Çjunun fəaliyyətinin ziyanlı cəhətini diqqətə çəkərək vurğulamalıyam ki, onun Qaşğarda sonrakı fəaliyyətinin rus maraqlarına qarşı yönəlmiş düşməncəsinə istiqamətdə gedəcəyindən artıq çəkinirəm. Xüsusilə, ehtimalən, qarşısına Qaşğariyada rus təsirinin azaldılması və kökünün kəsilməsi vəzifəsini qarşısına qoymuş qubernatordan müvafiq direktivlər alandan sonra.

Qırğız qaçqınlarına Çin hökumətinin münasibəti mövqeyini aydınlaşdırarkən Çin hökuməti tərəfindən Yeddisu çaxnaşmaları ilə əlaqədar irəli sürülmüş digər məsələyə toxunmalıyam. Çin hökumətinin rus hökumətinə adı çəkilən hərc-mərclik zamanı Çin təbəələrinə dəymiş zi-

yanın ödənilməsi barədə ərizəni nəzərdə tuturam. Güman edirəm ki, bu vəsatətin əsası kimi, vaxtında Əlahəzrətin çinli təbəələrin maraqlarının rus təbəələrinin maraqlarından yuxarı tutula bilmədiyi və çinlilərə dəyən zərərin rus təbəələrinin hesabına ödənilməsinin bizim əsas qanunun ruhuna uyğunlaşmayaraq heç bir vəchlə yolverilməzliyi barədə sözləri olmuşdur. Ali həzrətlərin diqqətini o fakta çəkmək istərdim ki, dastay Çjunun və qubernatorun, əsasən isə dastay Çjunun, dolayısı iştirakını istisna etmədən Çin hakimiyyət orqanlarının yuxarıda təsvir olunmuş cinayətkar fəaliyyəti, rus maraqlarına və rus təbəələrinə azman zərər vurmuşdur, çünki onların qarət edib soyduğu qırğızlarımız rus təbəələridir. Onların öz ərazilərini keçmək üçün qırğızlara verdiyi izin nəticə etibarilə qırğızların bütün mal-qarasının tələfatına gətirib çıxardı. Çin hökuməti və çinli təbəələrin qırğızların əlindən güclü tərəf hüququndan istifadə edərək tutub aldıqları sürülərlə heyvanatı heç demirik. Qalan mal-davar isə yemin kasadlığından qırılmışdır. Hərgah Çin hakimiyyət orqanları öhdəliklərini yerinə yetirib qırğızları ərazilərinə buraxmasaydılar, özgə mənzərə yaranardı. Öz hökumətinə itaət göstərməkdən, hakimiyyətin üsyanın başçılarımı ələ vermək, silahı və aparılmış əsirləri təhvil verməkdən ayrı çıxış yolunun olmadığını görən qırğızlar, nəinki öz sürü və naxırlarını sağ-salamat saxlar, həmçinin heç vaxt yuxarıda göstərdiyim kimi yoxsul günə düşməzdilər. Buna görə çinli təbəələrin hər hansı ziyanının ödənilməsi əvəzinə, Çin hökumətinə Çin hakimiyyət orqanlarının müqavilə öhdəçiliklərinin yerinə yetirmədiklərinin nəticəsində qırğızlara dəyən zərərin ödənilməsi barədə iddia irəli sürmək lazımdır.

Əgər biz hətta 1881-ci il Peterburq müqaviləsinin "bu və ya digər dövlətin təbəələrinin heyvanatının itkisi halında bu və ya digər dövləti müqəssir tutmaq olmaz" barədə 17-ci bəndinə müraciət etsək, bu yalnız o halda qüvvədə olar ki, hakimiyyət öz tərəfindən öhdəsinə düşən bütün vəzifələrini yerinə yetirmiş olsun. İndiki halda isə biz bunu çinli hökumət barədə deyə bilmərik. Əksinə, yuxarıda tərəfimdən xarakterizə olunmuş Çin hökumətinin hərəkətləri, daha dəqiq, dastay Çjunun davranışı 1727-ci il Kyaxtin traktatı, 8-ci bəndinin tələblərinə uyğun təqsirləndi-

rilə bilər (bu bənd sonrakı sazişlərlə qüvvədən salınmamışdır): "hər iki imperiyanın sərhəd qulluqçuları öz işlərində qərar verməyə uzun müddət ixtiyarlı deyillər. Hərgah mülki təmənnanın əsasında yubanma baş versə, hər dövlət öz hüququ ilə özününküləri cəzalandırmalıdır".

Qaçmış qırğızların mümkün zərərinin məbləğini dəqiqliklə müəyyənləşdirməyə çətinlik çəkirəm, fəqət 120 000 qaçmış qırğızın orta hesabla adambaşına (uşaqları da daxil etməklə) 5-7 baş heyvanata malik olmasını nəzərə alanda, 12 000 000 – 15 000 000 rubl şişirtmə olmayacaq. Çinli təbəələrə zərər ödənilməsi məsələsinə toxunanda, çinli təbəələrə dəymiş ziyanın məbləğinin müəyyənləşdirilməsində tətbiq olunan üsul və ölçüləri vurğulamağa lüzum duyuram. Yeddisuda çinli təbəələrin üstünlük təşkil edən ünsürü sartlar və dunqanlar idilər. Bunlar da, onlar da xırda ticarətlə məşğul olur, rus əhalisinin arasında zəruri ev əşyalarını sataraq çərçilik edirdilər. Belə tacirlərin tədavülü yüz rublu aşmır və aylıq nəfərə 10-15 rubl təşkil edir. Onlar tərəfindən isə iri məbləğlər iddia olunmuşdur: Çin hökuməti tərəfindən zərər siyahılarına 10 000 rubldan az məbləğ salınmamışdır.

Üsyanın mənzərəsi ilə yerlərdə tanış olmaq, Prjevalskda qalmış təbəələri sorğu-suala tutmaqdan ötrü Sintszyan qubernatorunun sərəncamına görə, Aksu dastayı Çju tərəfindən Üç-Türfan uyezd rəisi Tsz-in-Lun ezam olundu. Deməzdim ki, o, üzərinə qoyulmuş vəzifə ilə şəxsən məşğul oldu. Onun bütün fəaliyyəti 5 puddan artıq tiryəkin həm satış, həm də şəxsi istehlak məqsədilə satın alınmasına ünvanlanmışdı. Əvəzində, zərərin müəyyənləşdirilməsi vəzifəsi Prjevalskda çinli təbəələrin ağsaqqalı Mad-Niyasın boynuna qoyulmuşdu. Çinli ağsaqqallar haqqında nizamnaməyə əsasən, o şəxs rus hökuməti ilə çinli təbəələrin arasında vasitəçi olmalıdır, adı çəkilmiş ağsaqqalın çinli hökumətin tapşırığını yerinə yetirmək kimi fəaliyyət növü isə heç vəchlə məqbul hesab olunmamalıdır. Üstəlik, hələ də adı çəkilən ağsaqqaldan Aksu dastayının ünvanına yuxarıda açıqlanan məsələ üzrə məlumatlar daxil olmaqda davam edir.

Çin hökumətinin, ümumiyyətlə, qaçmış qırğızlara qarşı münasibətini öyrənəndən sonra, qiyamın başçılarının tutulması işinin şərait-

inə təfsilatı ilə aydınlıq gətirməyə lüzum var. Türküstan hərbi dairəsi qərargahının rəisinin xahişinə istinadən, qiyamın baiskarlarının tutulub saxlanılması üçün tədbirlər görülməlidir. Bu xahiş sonradan polkovnik Kolosovski tərəfindən dəstəklənmişdi. Ona öz vaxtında üsyanın başçılarının siyahıları təqdim olunmuş, zati-aliləri tərəfindən konsulluğun ağsaqqalı Cəlal xan Camal Xocayev Türküstan hərbi dairəsinin qərargahından köçürdülmüş pul vəsaiti hesabına Aksu və Üç-Turfan rayonuna ezam olunmuşdu. Ezamiyyətin məramı qiyamın başçılarının (Kolosovskinin siyahılarında göstərilmiş adlar) bulunduqları məkanı müəyyənləşdirmək idi ki, çinli hakimiyyət orqanlarının yardımı ilə (buna bütünlüklə bel bağlanılırdı) bu şəxslər ələ keçirilsin. Tutulası bu şəxslərin siyahılarının Qaşğar dastayının vasitəsi ilə konsulluqdan öz vaxtında Sintszyan qubernatoruna çatdırılmasına və zati-alilərin şəxsi xəbərlərinə, həmçinin (bax: əlavə 3) dastay Çjuya müqavilələrə istinadən qiyam başçılarının tutulub saxlanılması üçün tədbirlər tökməsinə borclu olduğunun xatırlanmasına, göstərilən təvəqqenin yerinə yetirilməsinə kömək göstərmək üçün şəxsən mənim və starşina Bıçkovun israrlarına rəğmən, dastay Çju tərəfindən göstərilən istiqamətdə qətiyyən heç bir addım atılmadı.

Bunun səbəbləri siyahılarda adları çəkilən başçıların demək olar ki, hamısının vaxtilə Çin ərazisinə daxil olarkən dastaydan sərhədi keçmək üçün izin istəməkləri, bu zaman onun iznini almaqdan ötrü çox böyük, külli miqdarda pul vəsaitlərinin təqdim olunmasında gizlənir. O səbəbdən, elə həmin dastay ordu starşinası Bıçkovla söhbətdə tam əsasla bu cinayətkarları "qonaq" adlandıra bilmiş və həmin Bıçkovun "hər məmur qorxu naminə deyil, vicdanı üçün işləməlidir və vicdanını ləkələməkdən qorumalıdır" atmacasına "o ancaq qırğızlardan böyük "töycü" yığandan sonra elədir" cümləsi ilə cavab vermişdi.

Nəticədə, tutulmuş cinayətkarların öz ifadələri ilə dastayın davranışına daha böyük zərbə vuraraq nüfuzuna xələl gətirə biləcəyindən qorxub çəkinən dastay, başçıların saxlanılmasının qırğızların (ruhdan düşmüş və əsarət altına alınmış kütlə[1]) arasında təlaş və qəzəb qa-

---

[1] Əslində belə getmişdir.

ldıra biləcəyi bəhanəsi ilə imtina edərək hər üsulla məqsəddən yayındı. Belə şəraitdə çinli hökumətlə müştərək dostyana fəaliyyət məsələsi heç vəchlə əldə oluna bilməzdi, hər halda, nə qədər ki, həmin işə rəhbərlik maddi marağı olan dastay Çjunun əlində cəmləşmişdir... Qeyd olunan məsələyə bu sayaq münasibəti Sintszyan qubenatoru adı çəkilən dastaya həmin işin həll olunmasında mənə yardımçı olmaq barədə göstəriş verilməsi üçün vəsatətimə rədd cavabı verəndə də nümayiş etdirmişdi. Hərçənd, bu rədd cavabını əvvəlcədən görmək olardı. Qubernator Qaşğar titayı *Ma*ya başçıları tutmaq fəaliyyətimdə mənimlə birgə işləmək üçün Aksuya öz zabitini 18 nəfər əsgərlə ezam etməyə qadağan qoymuşdu. O səbəbdən, həbsə alınmış və ordu starşinası Bıçkovla Prjevalska göndərdiyim 12 nəfər qırğızdan heç birisini üsyanın başçıları kateqoriyasına aid etmək olmaz – onların hamısı yalnız talanlarda, yanğın törədilməsində, rus əsirlərinin aparılmasında ittiham edilə bilər.

Ordu starşinası Bıçkovun Üç-Turfanda missiyasının xarakterinə gəldikdə isə o nəinki əsirləri, habelə qiyamın başçılarını Rusiyaya aparmalı idi. Onlar qırğız məişətini sahmana salmaq və üsyanın başlıca səbəblərini araşdırmalı olan polkovnik Kolosovskinin siyahılarına uyğun aparılmalı idilər. Bıçkovun silahlı qarovul kimi nəzərdən keçirilən 60 nəfərdən ibarət taqımının gəlişi həm qırğız kütləsinə və Çin təbəələri sartlara, həm də Çin hakimiyyətinə müvafiq təsir bağışladı. Taqımın şəhərdə bulunması çinlilərin əsla ürəyindən deyildi, çünki hər məmur qırğızlara qarşı münasibətdə ciddi məzəmmət olunası çox əməllər törətmişdi. O səbəbdən, hərçənd zahirdən çinli hskimiyyət orqanları Bıçkova xoş məcaz göstərib, onu azuqə və at yemi ilə təchiz edir, sanki rus hökumətinin Prjevalska gəlmiş çinliləri xoş üzlə qarşıladığına görə eynilə cavab verirdilər. Tszin-Lunun çinli təbəələri Prjevalsk şəhərinə çinli təbəələrə dəymiş ziyanın miqdarını müəyyənləşdirmək üçün getmişdilər. Fəqət Üç-Turfanda çinlilər əslində Bıçkovu başlarından etmək, geriyə göndərmək üçün plan cızıb hazırlayırdılar.

Bu məqsədlə çinlilər Bıçkovun dilindən şayiə buraxdılar ki, tezliklə daha yüz nəfər qırğızın gələcəyi gözlənilir. Bu halda yalnız təəssüf ifadə etmək olar ki, Türküstan general qubernatoru daha iki yüz kazak göndərməmişdir, çünki bu zaman Çin hökuməti daha sözəbaxan

olardı və başçıların tutulması işini müştərək və dostcasına görməyə can atardı. Ələlxüsus, ona görə ki, dəstənin sayından asılı olmayaraq, onun təşkilatı və təqdimatı üçün icazənin alınması, göndərilməsi üçün eyni həcmdə iş görülürdü. Taqımın Çin ərazisində peyda olması güc nümayişi kimi qəbul olunurdu, çünki azad olunmuş qadın və uşaqların aparılması üçün dəstə göndərilməsinə ehtiyac yox idi. Rusların birinci partiyasının Qaşğar və Narından keçməklə göndərilməsi uğurla həyata keçirilmişdi. Taqımın üzvlərinin azsaylı olması isə çinlilər tərəfindən zəifliyimiz kimi anlaşıldı, Bıçkovun qəfil geri çağırılması onların gümanının yalnız doğruluğuna dəlalət etdi.

Hərgah Bıçkovun bu azsaylı taqımı Üç-Turfanda heç bir iş görmədən fəaliyyətsiz surətdə daha uzun müddətə qalacağı təqdirdə, çinlilərin başçıları tutmaq məsələsinə özgə münasibət bəsləyəcəklərini gözləmək olardı. Çinlilərin hökumətinin Bıçkovun dəstəsinin peyda olmasına nə dərəcədə ciddi əhəmiyyət verdikləri, Sintszyan qubernatorunun ordu starşinası Bıçkovun fəaliyyətini izləməkdən ötrü Çjudan savayı Üç-Turfana və Urumçiyə xüsusi məmurunun yollanması bariz nümunədir. Onların dəstədən can qurtarmaq arzusu isə yalnız dillərini daha yaxşı açardı.

Məlum məsələyə indi Qaşğara təyinat almış dastay Çjunun yuxarıda göstərilmiş mənfi münasibəti, güman ki, onun müavini Lyu tərəfindən təqdirlənmir ("marağı olmayan" bir şəxs kimi). Belə ki, müavin mənimlə ilk görüşü zamanı bütün qırğızların Rusiya hüdudlarına göndərilməsi barədə məsələni özü qaldırdı və bundan ötrü məndən Aksuda qalıb ağrılı məsələni tezliklə həll etmək məramı ilə Türküstan general-qubernatorunun qarşısında qırğızları qəbul edərək, əfv etmək haqqında vəsatət qaldırmaq üçün təvəqqe etdi, zira onların törətdikləri cəmi dəhşətlər "özlərinin nə etdiklərini görmədiklərinin" nəticəsidir. Yeni dastayın belə münasibəti tamamən anlaşılan və təbiidir: qırğızlar, yuxarıda ərz etdiyim kimi, müdhiş maddi yoxsulluq vəziyyətlərinin ucbatından, hal-hazırda Çin hökuməti üçün bitib-tükənməz qayğı mənbəyinə çevrilmişlər. Çinli əhali üçün də təhlükəyə çevrilməyə başlayan

yatalaq və sinqa epidemiyalarından savayı, qarətlər və hətta qətl hadisələri xroniki hala çevrilmişdir.

Qırğızlar tərəfindən aparılmış rus qadın və tifillərin durumunun öyrənilməsinə, eləcə də konsulluğun onların azad olunması üçün gördüyü tədbirləri sadalamazdan əvvəl qeyd etməliəym ki, konsulluq tərəfindən bu istiqamətdə götürülmüş zəruri ölçülərə rəğmən, 65 nəfər azad edilmiş insanın sayı yetərincə qənaətbəxşdir, hərçənd qırğızların apardıqları adamların həqiqi sayından çox uzaqdır. Azad olunmuşların sayının az olmağı heç vəchlə ona dəlalət etmir ki, konsulluğun bu məsələyə real baxışı və diqqəti ən azı bir an belə olsun, zəifləmişdir.

Qırğızların hələ ilk partiyaları peyda olan sentyabr ayında mən Üç-Turfanda bulunurdum, 12 nəfər rus təbəələri sartlardan ibarət dəstə yaradılmışdı və onlar hər yeni qırğız partiyası gələndə, aralarında rusların olub-olmamasını izləyirdilər. Zati-aliləri tərəfinizdən təyinat aldığım rayona yola düşməyimlə əlaqədar, Üç-Turfandan gedəndən sonra əvvəlcə, yerli sart Mirsəlimcan Mirniqmətov, ardınca konsulluğun ağsaqqalı Cəlalxan Camal Xocayev rusların azad edilməsi üçün tərəfimdən təşkil olunmuş dəstəyə rəhbərlik etdilər.

Yuxarıda sadalanan tədbirlər sayəsində qırğızların Çin ərazisinə gətirdiyi bütün rusların demək olar ki, hamısını azad etməyə nail olduq. Üç-Turfana ilk ezamiyyətim zamanı dastay Çjudan bu binəvaları azad etmək üçün ölçü götürülməsini rica etmişdim. Dastay xüsusi qayğıkeşliklə bunu etməyi vəd vermişdi, fəqət nəticələr qüssəli olmuşdu.

Belə ki, qırğızlar Çin sərhədini keçmək üçün səlahiyyətli nümayəndələrini icazə almağa göndərəndə, onlara yeni yerlərdə həyat şəraiti ilə tanış olmaq, həmçinin nəyin onlar üçün əngəl törədəciyini, müşküllər yaradacığını öyrənmək tapşırığı da vermişdilər. Çin hökumətinin qırğızların arasında rusların olmamasını ciddi surətdə izlədiklərini öyrənən kimi, qırğızlar tələsik onlardan can qurtarmağa çalışmış, buna görə rusların əksəriyyəti Çin ərazisinə daxil olmazdan əvvəl qətlə yetirilmişdi. Azad etdiyimiz insanların sayının azlığı bununla izah olunur.

Qırğızların arasında rusların qalmamasından tam əminlik hasil etmək üçün bu dəfə tərəfimdən həm Üç-Turfana, həm də Aksuya 20 nəfər

rus təbəələri sart göndərildi və onların vəzifəsi qırğızların Üç-Turfan, Bay, Aksu uyezdlərindəki köç yerlərini axtarmaqdan və qırğızların arasında rus qadınlarının və uşaqlarının bulunmasını yoxlamaqdan, onlar tapılanda yanıma Aksuya göndərməkdən ibarət idi.

Qırğızların tərəfimdən göndərilmiş sartlardan rusları gizlədə biləcəklərini ehtimal etdiyim üçün, bərayi-ehtiyat, qırğızların arasında böyük nüfuza malik ingilis rəiyyəti imama ruslar tapılsa, onların azad edilməsi işində yardımçı olması üçün xitab etdim. Bizim Prjevalsk qırğızları onun müridləri (kölələri) hesab olunur. İmam mültəfit surətdə ricamı yerinə yetirmək üçün tapşırığımla qırğızların yanına yollandı.

Tərəfimdən gördüyüm tədbirlərin nəticəsində yalnız bircə rus qadını tapdım, üstəlik o da yeni ərindən – qırğızdan ayrılmaq niyyəti olmadığını bildirdi. Bu da məni inandırıb əmin etdi ki[1], hal-hazırda qırğızların atrasında ayrı-ayrı şəxslər varsa da, rus qalmamışdır. Hərgah kimsə qalmışsa, öz xoşuna qalmışdır. Diş həkimi Bragerin ailəsinə gəldikdə isə, qırğız əsirliyindən azad olunmuş Vasilevskinin ifadələrinə əsasən, Bragerin cəmi ailəsi – arvadı və iki oğlu Sırtlarda adı çəkilən şahidin gözü qarşısında öldürülmüşlər.

Ryazanskinin qızının məsələsi çətinlik törədir – onun haqqında heç bir məlumat yoxdur, izlər də itmişdir. Həkim Bragerin təvəqqesinə görə, axtarışlara göndərdiyim şəxslər onun haqqında hər hansı məlumat tapmaq, yaxud ölüsünün, ya dirisinin aşkara çıxarılması üçün tədbirlər görürlər...

Üç-Turfanda azad olunmuş qadın və uşaqlar zati-alilərinizin sərəncamına istinadən, Bıçkovla Prjevalska yola düşənəcən xüsusi qayğımla əhatə olunmuşdular. Tərəfimdən onlar üçün uzunboğaz çəkmələr, corablar və b. isti əşyalar alınmış, 36 gün ərzində yaşayışları üçün vəsait xərclənmiş, yekunda, 530 rubl məxaric çıxmışdır. Bu məbləğ Üç-Turfanda yaşayan rus təbəələri tərəfindən xeyriyyə kimi verilmiş, bir qismi isə Bədəl aşırımından keçmiş qırğızların əlindən alınaraq Çin hökumətinə satılmış qoyunların (200 rubl) pulundan götürülmüşdür (çox cüzi miqdar təhvil verilmişdir, dəyərli əşyalar isə çinlilərin əlində qalmışdır).

[1] Əslində "inandırma" getmişdir.

Ayrı-ayrı rus təbəələri sartlar tərəfindən rusların axtarışlarında yardım göstərərkən çəkilmiş əziyyəti və rəhmdil münasibəti nəzərə alaraq, zati-alilərinizdən müvafiq hakimiyyət orqanları qarşısında onların medalla təltifatı barədə vəsatətnamə qaldırmağı mümkün təvəqqe hesab edərdim. Mükafat hökumətin tələblərinə və xahişlərinə xidmət üçün müntəzir şəxslərin gördüyü işlərin müqabilində ruhlandırıcı məqsəd güdərdi.

Aksuya və Üç-Turfana ezamiyyətim ərzində diqqətlə tanış olduğum şərait və faktlar barədə məruzə edərkən Vernı jandarm idarəsindən casusların çinli müsəlman təbəələrin Yeddisuda keçən il yayda baş vermiş çalxantılara mümkün təsirini izləmək və aşkarlamaq məqsədini güdərək, Üç-Turfana və Aksuya gəlişinin üstündən sükutla keçə bilmərəm.

Keçən il Aksu və Üç-Turfanda qaldığım iki ay ərzində və eyni müddətə hazırda bulunduğum vaxtda şəxsən möhkəm əminlik hasil etdim ki, çinli müsəlmanların rəhbər kimi ruslara heç bir təsirindən söhbət gedə bilməz.

Çinli əcnəbi əhali öz inkişafına, təhsilinə, başlıcası isə hakimiyyətin təbəələrinə və təbəələrin hakimiyyətə münasibəti anlamına görə müqayisəyəgəlməz dərəcədə rus əhalisindən aşağıda dayanır. Dini, yaxud inzibati (bu bisavad kütləyə hətta "siyasi" məfhumunu da aid etmək olmaz) xarakterli məsələlərdə onların rəhbər mövqeyi tutması heç vəchlə mümkün iş deyil. Onların mühitində "Qe-Lyao-Xue" kimi siyasi cəmiyyətin mövcudiyyəti fikri özünü yaxın buraxmaq belə böyük yanlışlığa qapılmaq deməkdir. Həmin mühitdə adıçəkilən cəmiyyətin vəzifəsi və təşkilat işi qətiyyən heç kəs tərəfindən anlaşıla bilməz.

Əgər rus və çinli əcnəbilərinin keçmişdə qarşılıqlı münasibətlərinin təfərrüatlı aydınlaşdırılmasını ərz etsək, o faktı təsdiqləməliyik ki, rus əcnəbi təbəələrinin zehni inkişaf üstünlüyü onların əqidə işində şübhəsiz rəhbərlik mövqeyini təmin edir və Qaşğariyada hətta yerli sakinlərlə çinli hökumət arasında münasibətlərin yaranmasıda gözəgəlimli təsirini göstərirdi. Qaşğariyada müstəqillik əldə etmiş Yaqub bəyin özünün əsli Kokanddandır, Rusiyadan çox tez-tez onun Qaşğariyanın müstəqilliyi məfkurəsinin ardıcılları peyda olurdu.

Məruzəmdə Çin hökumətinin, başqa sözlə, dastay Çjunun rus maraqlarına düşməncəsinə münasibətinə toxunarkən, həmin məmurla şəxsi əlaqələrim haqqında danışmaya bilmərəm. Birinci ezamiyyətim vaxtı da, ikinci dəfə də, dastay Çju ilə şəxsi ünsiyyətim ən dostyana xarakter daşımışdır. Dastay tabeliyində olan məmurların qarşısında mənə göstərdiyi müxtəlif diqqət və qayğı ilə bunu vurğulayırdı – tez-tez məni nahara, yainki bir fincan çaya qonaq edir, sadəcə, yanıma gəlir, bu və ya başqa xahişim yerinə yetirilməyəndə, məzur tutmağı rica edir, bəzi hallarda əlindən heç nə gəlmədiyini qeyd edirdi.

Dastayın əmri ilə Aksuda və Üç-Turfanda daima yanımda 8 nəfər çinli əsgərdən ibarət fəxri qarovul bulunurdu. Mənim etirazıma rəğmən, bunu dastay təşkil etmişdi və imtina etməməyimi rica edirdi ki, yerli camaat rus və Çin hökumətnin arasında necə dostyana münasibətlər olduğunu nümayiş etdirilməsinin şahidi olsun. Sonradan şəxsən əminlik hasil etdim ki, bu, yaxşı nəticələr vermiş, çinli təbəələrin rus rəiəyyətlərinə münasibətdə yaxşılaşmaya səbəb olmuşdu. Öz tərəfimdən ona mehribanlıqla yanaşırdım, amma rus nüfuzuna xələl gətirmək niyyətini pozmaq, yaxud planına mane olmaq imkanını əldən vermirdim.

Zati-alilərə yuxarıda sadalananalrı izhar edərkən, toxunduğum məsələlərdə mümkün yanlışlıqları və naqislikləri qüsurlarıma aid etməmək barədə ricamı ərz etməyə bilmərəm. Bu, işin qəlizliyi, həmçinin mənim özümün bu sayaq məsələlərə hazırlıqsızlığımla izah oluna bilər.

**Konsulluğun dilmancı Stefanoviç**

# III BÖLMƏ

## Qırğızıstanda 1916-cı il üsyanında dunqanların iştirakı

**249-283№LI SƏNƏDLƏR**

**<u>1916-cı ilin iyun-iyul sənədləri</u>**

**... 1916-cı il**

**Aleksandrovsk vilayətinin dunqanlarının Pişpək uyezd başçısına vilayət başçısı Xiaxun tərəfindən qeyri-qanunu vergi yığımı tətbiq edilməsi barədə 249 №lı şikayət ərizəsindən**[1]

Ərizədə vilayət başçısı Xiaxunovun qanunsuz olaraq satılmış tütünün hər puduna görə 2 qəpik pul yığdığından şikayət edilir. 1913-cü ildə bizim boynumuza hər adambaşı 5 rubl 74 qəpikdən, 208 nadel çəltik zəmisinin hər hissəsindən 2 manatdan ağır töycü qoymuş, bundan əlavə, bazar pulu, qapan pulu, sallaqxana pulundan ibarət 2 min rubl yerli vergi təyin etmişdir.

1913-cü il xəzinə vergisinə görə, hələ də qəbzlər verilmir, halbuki belə vergilərə görə biz 910 nəfərdən adambaşı 5 rubl 74 qəpik almışdılar. Bundan başqa, bazar vergilərindən əlavə 2 min rubl, çəltik tarlalarından 416 rubl alınmışdır. Yerli gəlmişkən, bizdən ötən illər adambaşına yalnız 3 rubl pul tutulurdu.

**... 1916-cı il**

**Nikolayevsk kəndinin dunqanlarının Yeddisu vilayətinin hərbi qubernatoru Folbauma dunqanların müharibə ehtiyaclarına ianə vermələri barədə ərizəsindən çıxarış**[2]

Avropa müharibəsi başlanan gündən ... dunqanlar imkan çatan qədər pul, əşya, mal-qara və s. müharibəyə zəruri hər şeylə, döyüşdə həlak olmuşların ailəsinə himayə üçün ianə toplamışlar. Keçən 1915-ci ildə Nikolayevsk vilayətinin dunqan əhalisi müharibə ehtiyacı üçün xeyriyyə qismində yüz (100) at vermişdir.

---

[1] Qazax. SSR MDTA. F. 44, iş 16215, v. 5,6. Əslidir.

[2] Qazax. SSR MDTA. F. 44, iş 16218, v. 15. Əslidir.

**26.05.-09.06.1916.**

**Carkənd köçürülmə yarımrayonunun başçısının Yeddisu vilayəti köçürülmə işləri üzrə rəhbərinə aztəminatlı dunqanlar üçün xaşxaşın əkin sahəsinin genişləndirilməsi barədə məktubundan çıxarış**[1]

Hal-hazırda kasıb təbəqənin nümayəndələri mənfəətə uyaraq, ilkin nəfə ümid bəsləyib buğda, çəltik və s. əkin-səpinini atmış, kifayət qədər desyatin xaşxaş əkmişlər. Onun istehsalına isə vəsaitləri çatmır. Beləliklə, dunqanların tam müflis olması və beh alınmayacağı təqdirdə, xeyli desyatin xaşxaşın məhvi ilə nəticənə biləcək yetərincə ağır vəziyyət yaranmışdır.

Bu gün dunqan vilayət başçısı yanımda olmuşdu və kasıb camaatın xaşxaş əkini ilə məşğul olmaqla başlarını bəlaya salmaqlarından gileylənirdi. Beh ödənilməsi barədə vəsatət yazmaq haqqında rica etdi. Çox sayda kasıb dunqanlar dövlətin yardım göstərmək çağırışına səs vermiş, əkin-səpini təşkil etmiş, dürüst çalışmış, Çindən yığım üçün fəhlələr gətizdirmişlər. Əks halda, onlar bunun müqabilində var-yoxda sınıq düşüb müflis olacaqlar, zira hətta hazır xaşxaşı toplamağa imkan yoxdur – xeyli fəhlə qüvvəsi zəruridir.

**Carkənd köçürülmə yarımrayonunun başçısı V.Şavrov**

**1916-cı il...**

**Vernı məntəqəsindən Yeddisu qırğızlarının Türkiyə ilə əlaqələri və Pişpək uyezdinin vilayət başçısının fəaliyyəti barədə bildiriş**[2]

1914-cü il dekabrın sonunda manap Xarımbəy Kanatnatiyev Türkiyədən məktub almışdı, namədə ondan rus ordusunun Türküstandakı vəziyyətindən, oradakı müsəlmanların yaşayış tərzindən xəbər vermək xahiş olunurdu, üstəlik, ona təklif edilirdi ki, hərgah müsəlmanlar türklərə kömək etsələr, türklər qələbə çalacağı təqdirdə, Türküstan general-qubernatorluğundan tam müstəqil müsəlman dövləti yaradılacaqdır. Bu məsələ ilə bağlı Kanatnatiyev vilayət başçısı Bular Moğu-

---

[1] Qazax. SSR MDTA. F. 44, iş 1, v. 47. ob.Əslidir.

[2] Qazax. SSR MDTA. F. 77, iş 25, IV cild, v. 104. Əslidir.

yev və digərləri ilə müşavirə keçirmişdi. Müşavirədə türklərə istədikləri məlumatların bildirilməsi və yardım göstərilməsi haqqında qərar qəbul edilmiş, eləcə də Yeddisu üçün rəhbər Bular Moğuyev seçilmişdi. Elə buradaca fəaliyyətdə olan orduya yollanacaq, yerinə çatanda isə düşmən tərəfə keçəcək könüllülər drujinası yaradılmağa qərar verildi ki, bununla, əvvəla, Rusiyadakı vəziyyət barədə məlumat veriləcək və Türkiyəyə canlı insan qüvvəsi ilə yardım ediləcəkdi. Əgər birinci partiya hərbi döyüşlər zonasına getməyə icazə alacaqdısa, Bular Moğuyev və digərləri hər biri 500 nəfərdən ibarət olmaqla, daha bir neçə dəstə yaradacaqdılar.

**Rotmistr Jeleznyakov**

**İyul 1916-cı il**

**Axtarış məntəqəsindən Yeddisu vilayətinin qubernatoruna məktubdan**[1]

... Bular Moğuyev barədə deyirlər ki, o, ikili həyat sürür – üzdən fəhlələri getməkdən ötrü dilə tutur, gizlində isə imtina etməyə çağırır. Ümumiyyətlə, B.Moğuyevin vilayətində fəhlələrin çağırışı zamanı müqavimətlə rastlaşmaq ehtimalı var...

**10(23).07.1916**

**Nikolayevsk vilayətinin dunqanlarının Tokmak sahə pristavına və Pişpək uyezdinin başçısına əhalinin kişi hissəsinin qarşıdan gələn taxıl yığımı ilə bağlı səfərbərliyinin təxirə salınması barədə ərizəsi**[2]

Biz, aşağıda imza atmışlar, Yeddisu vilayətinin Pişpək uyezdi, Nikolayevsk vilayətinin dunqan cəmiyyəti göstərilmiş tarixdə Nikolayevsk kəndində hamılıqla toplantı keçirmişik. Toplantıda bizə vilayət başçısı Bular Moğuyev tərəfindən Pişpək uyezd rəisi adına 1 iyul cari il tarixli, 1782 №-lı Tokmak sahə pristavının imzası ilə teleqramın surəti oxundu. Teleqramda deyilir ki, cari ilin 25 iyul tarixində 1897-1885-ci

[1] Qazax. SSR MDTA. F. 76, iş 2124, v. 5. Əslidir.

[2] Qazax. SSR MDTA. F. 76, siyahıyaalma 1, iş 2140-a, şəhad.92, v. 373-374. Əslidir.

illər təvəllüdlü, başqa sözlə, 19-31 yaşlı əcnəbi kişilərin ən yaxınlıqdakı növbəyə qəbulu haqqında əlahəzrətin mültəfit sərəncamı çıxmışdır. Teleqramın surətində ərz olunmuş sərəncamın mətnini dinləyəndən sonra yekdilliklə qərar çıxarmışıq:

Tokmak şəhərinin c-b sahə pristavından və c-b Pişpək uyezdinin başçısından xahiş etmək ki, taxıl və düyünü yığmaq üçün bizə üç aylıq, uzaqbaşı iki aylıq möhlət vermək üçün kimə lazmdırsa, müraciət edilsin, çünki Yeddisu vilayətinin c-b Hərbi qubernatorunun müraciətinə əsasən, biz həm vətəni qoruyan çoxmilyonlu ordu üçün, həm də imperiyanın əkinçiliklə məşğul olmayan əhalisi üçün hər növ buğdanın əkin-səpin sahəsini əvvəlkindən iki dəfə artırmışıq, bundan əlavə, demək olar ki, bütün Türküstan diyarında bizim düyümüzdən istifadə edilməsi müdiriyyətə bəllidir.

Əlavə edirik ki, biz həmişə ağ çara qulluq etməyə və onun müdafiəsinə qalxmağa, həmçinin vətəni təkcə səngər qazmaq və bu sayaq deyil, başqa üsullarla da qorumağa hazırıq. Hətta düz döyüşə getməyə də hazırıq, lakin müdiriyyətə yalvarırırq ki, bizə taxılı yığmağa möhlət versin ki, arvad-uşaq, qocalar, əhali çörəklə yaşaya bilsin və ac qalmasın.

Yuxarıda söylənilənlər haqqında təvəqqe edirik və ümidvarıq ki, müdirlərimiz, atalarımız kimi, bizi tacirlər və maldarlarla müqayisə etməyərək, taxılın yığılmasına yardım göstərəcəklər. Sonrakı nəticə barədə vilayət başçısı vasitəsi ilə məlmatlandırılmağımızı xahiş edirik. Bu məqsədlə də imza atırıq.

**İmzalar ərəbcədir**

**12-25.07.1916.**

**Prjevalsk uyezdi üzrə dunqanların üsyanı barədə məhkəmə işindən**[1]

İyulin 12-də, yaxud 13-də Prjevalsk uyezd başçısı İvanov hazırki ordunun işləri üçün yerli əhalinin çağırışı barədə səfərbərlik elanı verdi. İyulun 13-də Prjevalsk uyezd idarəsinin yazı mütərcimi T.Düsebayev uyezd başçısı İvanova ərz etdi ki, Mariinsk, Tüp, Türgən və Birnarar

---

[1] Qazax. SSR MDTA. F. 76, iş 2113, v. 225. Əslidir.

vilayətlərindən çağırış yaşı çatdığına görə işlərə səfərbər olunacaq şəxslərin Çin ərazilərinə qaçışı başlanmışdır.

İyulun 14-də Düsebayev İvanova məruzə etdi ki, Mariinsk vilayətinin dunqanları sart-kalmıkların örüşlərində otlayan mal-qaralarını götürür və tələm-tələs Prjevalsk şəhər bazarında satırlar. Uyezd başçısı İvanov vilayət başçılarını öz həyətinə çağırıb fəhlələrin Çinə qaçmasının qarşısını almaq təklifini sürdü.

İyulun 14-də, yaxud 15-də Düsebayev bir daha Çinə qaçış, bu dəfə Mariinsk vilayətindəki "Kiçik həzrət"dən 50-dən çox adamın qaçması haqqında raport verdi. İvanov vilayət başçısını çağırıb öz həyətində fəhlələrin siyahısını tutmağa başladı.

25 iyul tarixində Düsebayev İvanova məlumat verdi ki, Mariinsk kəndinin dunqanları orduda xidmət etmək üçün fəhlələrini göndərməyə razılıqlarını vermişlər, bununla belə, özləri tiryək yığımına qədər ailələrini Çinə yollamaq fikrindədirlər, yığımdan sonra isə özlərinin də qaçmaq niyyətləri var. Prjevalsk meşşanı İvanovun sözlərinə görə, tanışı dunqan üsyan ərəfəsində ona deyibmiş ki, dunqanlar və Çin təbəələri çinlilər israrla qiyam qaldırmağa səsləyir, bundan istifadə edərək tiryəki yükləyib aparmaq niyyətindədirlər.

Həyat şəraiti Prjevalskda üsyana hələ uzun müddət qalmışa qədər çox qeyri-adi idi: Prjevalsk bazarında atın qiyməti 3-5 dəfə artmışdı, dəmirçilər yeni nal dəstləri döyüb hazırlayırdılar, dəmirçilər bir atdan ötrü nallamanın qiymətini 50 qəpikdən 4 rubla qədər qaldırmışdılar və s.

**16-29.07.1916.**

**Vernı axtarış məntəqəsindən Yeddisu vilayət idarəsinə Kostek və Taptorinsk vilayətlərinin qırğızlarının Pişpək uyezdinin nüfuzlu qırğızları ilə əlaqələri haqqında göndərişindən**[1]

Vernı uyezdinin şərqi Kostek, qərbi Kostek və Taptorinsk vilayətlərinin qırğızları Pişpək uyezdində yaşayan hörmətli qırğız Dür Saurambayev ilə dunqan Bularla əlaqəsi olmuşdur. Onlardan qırğız – Vernı gimnaziyasının 4-cü sinfini bitirmişdir, dunqan isə çox mötəbər şəxsdir.

---

[1] Qazax. SSR MDTA. F. 44, iş 44, v. 55. Əslidir.

**22.07-04.08.1916.**

**Rotmistr Jeleznyakovun Yeddisu vilayətinin hərbi qubernatoru Folbauma Pişpək uyezdində qırğızların narahatlıqları haqqında raportu**[1]

Pişpək uyezdinin qırğızları, həmçinin Vernı uyezdinin qırğızları Moyukumov və Sarıtukumov vilayətlərindən dunqan Buların yanına üç nəfər göndərmişlər: Qali Malkarov, Bayandı Urdabiyev, Maki Bailyanovu və Qamalqan vilayətindən Baiqulan Umarbəyovu; orada başqa vilayətlərdən də qırğızlar var idilər ki, onlar adamları əsgərliyə verməməyi, əvəzində toplaşıb qırğız ordusuna komandanlıq edəcək Buların yanına getməyi qərara almış və and (bata) içmişlər. Həmçinin Qalinin komandir təyin edilmək ehtimalı vardır.

**Rotmistr Jeleznyakov**

**25.07 – 05.08.1916**

**Tokmak sahə pristavının Yeddisu hərbi qubernatoruna Nikolayevsk vilayətinin başçısı B.Moğuyevin etibarlılığı haqqında raportu**[2]

Uyezd başçısının bu il 20221 №lı 21/УП teleqramını göndərməklə Nikolayevsk vilayət başçısı, dunqan B.Moğuyevi təqdim edərək vurğulamağı vacib bilirəm ki, ... B.Moğuyev siyasi cəhədən tam etibarlıdır və ən yaxşı vilayət rəhbərlərindən biridir. Bir neçə nəfərlə apardığım qeyri-rəsmi sorğuya görə, Moğuyev Vernı uyezdinin Uzun-Ağac vilayətindəki təşkil edilmiş toplantıda iştirak etməmişdir.

**27.07. – 09.08.1916.**

**Yeddisu vilayətinin qubernatorunun Vernı həbsxanasının rəisinə B.Moğuyevin ayrıca kameraya salınması haqqında sərəncamı**[3]

Hərbi qubernatorun əmrinə əsasən, sizə göndərilmiş Pişpək uyezdinin Nikolayevsk dunqan vilayət başçısı Bular Moğuyevi tabeliyinizdə

---

[1] Qazax. SSR MDTA. F. 77, iş 25, IV cild, v. 100. Əslidir.

[2] Qazax. SSR MDTA. F. 44, iş 16218, v. 2. Əslidir.

[3] Qazax. SSR MDTA. F. 44, iş 16218, v. 2. Əslidir.

olan həbsxananın ayrıca kamerasına yerləşdirin. Sərəncamın surətini sabah alacaqsınız.

**Vitse-qubernator əvəzi podpolkovnik Qusev**

**27.07. – 09.08.1916.**

**Yeddisu vilayət idarəsinin 1-ci şöbəsinin müşaviri podpolkovnik Qusevin yerlilərin arxa cəbhədəki işlərdən ötrü siyahıya alınmasına qarşı cəhd göstərmək cəhdində ittiham olunan Nikolayevsk vilayətinin başçısı Bular Moğuyevi dindirmə protokolu**[1]

Mən, Yeddisu vilayət idarəsinin 1-ci şöbəsinin müşaviri podpolkovnik Qusev, bugünkü tarixdə vilayətin hərbi qubernatorunun göstərişi ilə Pişpək uyezdinin Nikolayevsk vilayət başçısı Bular Moğuyevi dindirdim. C-b hərbi qubernatora Moğuyevin etibarsızlığı ilə əlaqədar, həmçinin təkcə əlahəzrətin yerliləri fəhlə qismində mültəfit əmrinin yerinin yetirilməsi qəsdilə vaxtında tədbirlərin tökülməməsi ilə deyil, hətta əlahəzrətin sərəncamına qarşı çıxmaq cəhdi və onun, yəni Moğuyevin başda özü olmaqla ətrafında narazılardan ibarət xüsusi dəstə yaratmaq istəyi ilə bağlı xəbərlər çatmışdır. Dindirilmiş Moğuyev ifadə vermişdir:

"Əlahəzrətin əcnəbi xalqların, o cümlədən, dunqanların fəhlə qismində mültəfit çağırışı ilə bağlı sərəncamı Tokmak sahə pristavından Qaraqunuz kəndində iyulun 7-də aldım. Sahə pristavı bu cür ali sərəncamı bəyan edərkən öz göndərişində tələb edirdi ki, mən vəzifəli və hörmətli şəxslərlə birlikdə onun şəxsi göstərişlərini almaq üçün yanına gedim. İyulun 8-də pristavın göstərişini alan kimi starşinalara xalqı məscidə toplamaq əmrini verdim. İyulun 9-da toplaşmış camaata pristavın əlahəzrətin əmri ilə bağlı göstərişini özüm bəyan etdim ki, onlar da dinməz-söyləməz mövcud ordunun arxa cəbhədəki işləri üçün adamların yığılması haqqında razılıq verdilər, bu barədə heç bir etiraz səsini çıxaran olmadı.

---

[1] Qazax. SSR MDTA Vernı dairə məhkəməsinin məhkəmə istintaqı. F. 77, iş 25, v. 101-103. ob. Əslidir.

İyulun 9-da xalq hakimləri, starşinalar və hörmətli şəxslərlə birlikdə c-b sahə pristavının yanına Tokmak şəhərinə təşrif buyurduq. Orada sahənin vilayətlərinin bütün qırğız və qara-qırğızların vəzifəli və möhtərəm şəxsləri iştirak edirdi. Sahə pristavı ali fərmanı bəyan etdi və adamlara əmrin icrası ilə bağlı bəzi göstərişlər verdi, bütün vilayət idarəçilərinə, o cümlədən mənə, təxirə salmadan çağırış yaşı düşən 19-31 yaşlı şəxslərin siyahısını tutmaq və iyulun 15-dən gec olmayaraq ona təhvil vermək əmrini elan etdi. Ali fərmanı hamımız ayaq üsyə dinləyərək “ura” qışqırdıq. Heç kim, nə mən, nə vilayətimdən hər hansı dunqan çağırış haqqında göstərişə etiraz bildirmədi.

İyulun 10-da bütün vilayət əhli mövcud vəziyyəti müzakirə edərək, öz təşəbbüsləri ilə əlahəzrət imperatorun çağırışına getməyə hazır olduqlarını bəyan etməklə könüllü qərar qəbul etdilər və rəhbərlikdən taxıl və bostan məhsullarının yığımı üçün iki aylıq möhlət istədilər. Qərarı raportumda c-b sahə pristavına təqdim etdim. İyulun 11-də və ertəsi gün, iyulun 12-də vilayət cəmiyyətinin qeyri-rəsmi tapşırığına əməl edərək əhalinin çağırışa iki aylıq möhlət istəməsi barədə xahişini müdirə çatdırmaq məramı ilə Pişpəyə getdim. Pişpəyə çatıb, iyulun 13-də uyezd başçısının yanına getdim və əhalinin ricasını ona çatdırdım. C-b uyezd rəisi bəyan etdi ki, möhlət vermək hüququna malik deyildir, amma vilayət adından ərz olunan qərarı zəruri və müvafiq surətdə istiqamətləndirər, bu təqdirdə, ərz pristav adından göndəriləcək, mənə isə təxirə salmadan fəhlələr sırasına salınacaq şəxslərin siyahısını tutaraq onu bu il avqustun 1-nə qədər təqdim etmək haqqında əmr verdi. Ayın 13-də Pişpəkdə gecələyərək, iyulun 14-də geriyə, vilayətə qayıtdım. Evə qayıdaraq, vilayət mirzəsinə siyahının tutulması haqqında göstəriş verdim, həmin siyahı mən həbsə alındığım gündən – iyulun 23-dən – natamam qaldı.

İyunun 7-də pristavın göstərişinin alınmasına qədər əcnəbilərin çağırışı barədə hali deyildim. Əmri alandan həbs günümə qədər qara-qırğız və qırğızlardan heç kimlə məşvərət aparmamışam, heç kim məsləhət üçün yanıma gəlməmişdir və Tokmakla Pişpəkdən savayı heç yerə getməmişəm. Ulkunsat, Usun-Ağac vilayətlərinə getməmişəm.

İyulun 8-də evdə idim və məhz o gün məsciddə əhaliyə bu ərəfədə sahə pristavının yerlilərin çağırışı ilə bağlı imzaladığı göstərişi bəyan etdim. Fəhlələrin toplanması ilə bağlı sərəncamla əlaqəli heç bir əks iş görməmişəm, bu barədə düşünməmişəm, mənə həvalə edilmiş vilayətdəki 19-31 yaşlı dunqanlar, yuxarıda adı çəkilən sərəncam alınana qədər vilayəti tərk etmişlər istisna olmaqla, hamısı evlərindədir və hamısı işə getməyə indinin özündə də, hazırdırlar. Mənim haqqımda gəzən xoşagəlməz söz-söhbətləri əvvəllər vilayətdə mövcud olmuş firqə düşmənçiliyi ilə izah edirəm və düşünürəm ki, şayiəni sabiq partiya yağılarım yaymışlar və söz-söhbət bütün Qırğız çölləri boyu yayılmışdır. İki dəfə xidməti işlərimlə bağlı Tokmaka və iyulun 12-13-də Pişpəyə səfərdən başqa heç yerə getmədiyimi Tokmak sahə müvəkkili c-b Bayqulov, Tokmakda yaşayan tacir Qali Özbəyov və bütün vilayət əhli təsdiqləyə bilərlər. Bu günə qədər vilayətimdə 19-31 yaşlı cəmi nə qədər adamın olduğunu aydınlaşdıra bilməmişəm".

Bular Moğuyev əlavə olaraq ifadə verdi ki, dunqan Madau Maşanlonun onunla heç bir qohumluq əlaqələri yoxdur və əleyhinə olan partiyanın üzvüdür. Maşanlo vəzifəli, yaxud hörmətli şəxslərdən deyildir, ticarətlə məşğuldur, Tokmak kəndində dükanı vardır, şəxsən Moğuyevin özü ilə heç zaman ədavəti olmamışdır, sadəcə, onunla müxalif partiyanın üzvüdür. Vilayətdə başqa Madau yoxdur, yalnız bircə nəfər yuxarıda adı çəkilən Madau (tacir) vardır. 32-33 yaşlı Sular Dyuvanjo Tokmakda qapan işlədir, digər Sular Lyuinjin 26-27 yaşı var, arabaçılıqla, yayda isə əkinçiliklə məşğuldur, o, evdədir, yoxsa evdə deyil, Buların xəbəri yoxdur, üçüncü Sular Vansıvın 31-32 yaşı var və o da arabaçılıqla məşğuldur, hal-hazırda harada bulunduğunu, bilmir.

**B.Moğuyev (imza)**

**Sorğu-sual apardı: podpolkovnik (Qusev)**

**<u>1916-cı ilin avqust ayının sənədləri</u>**

**10-12.08 – 23-25.08.1916.**

**İssık-Kul monastırının baş keşişinin dunqanların Prjevalska hücumu barədə gündəliyindən qeydlər**[1]

Ovçinnikov üsyançıların Prjevalsk şəhərinə birinci hücumlarının məqamları haqqında iltifatla mənə məlumatlar verdi. Uyezd şəhərinə hücum avqustun 10-da Margellan qəsəbəsi tərəfdən başlanmışdı. Şəhərdə çaxnaşma düşmüşdü, xüsusilə də məmurlar və ziyalı vətəndaşlar arasında. Uyezd başçısı polkovnik İvanovdan başlamış hamı, vətəndaşların həyat və maraqlarını qorumaq mümkün olmadığını anlayanda, qışlalarda yerlərini möhkəmlətməyə başladılar. Ovçinnikov 12 kazak və ona qoşulmuş 30 nəfər sakinlə şəhərə hücum edən dunqanların üstünə getdi və demək olar ki, düz şəhərin mərkəzində 60-a qədər üsyançını çapıb öldürdü. Şəhər kənarına geri çəkilən dunqanları təqib edən Ovçinnikov, Şelepin tərəfdə daha 100-ə yaxın düşməni məhv etdi. Sonra, demək olar ki, 200 nəfərlik qiyamçılar izdihamını Mariinsk qəsəbəsinə tərəf sıxışdırdı, öz yoldaşları ilə orada dunqanlar tərəfindən döyülmüş köçkün ruslarla məşğul olmağa başladı. Bu üsulla 50 nəfərə qədər adam toplandı və yalnız gecə üçün drujina yaralılarla birgə şəhərə qayıtdı.

Avqustun 11-də Ovçinnikovun hal-hazırda 40 nəfərdən ibarət dəstəsi dunqanlara həmlə etdi və onları atəşə tutaraq Mariinsk qəsəbəsinə daxil oldu və çəldliyi ilə dunqanlar arasına böyük hərc-mərclik saldı. Onlar dağlara qaçdılar, ruslar isə, bütün günü burada dayanaraq, daha 50-60 silahsız öldürülmüş qəsəbə sakinini yığdılar. Avqustun 12-də Ovçinnikovun dəstəsi 15 yerdə yanğın törədərək bütün Mariinsk qəsəbəsini odladı, qəsəbədə qalmış dunqanları isə qılıncdan keçirtdi.

---

[1] Qazax. SSR MDTA. F. 77, iş 45-a, v. 71-72. Surətidir.

**19.08. – 01.09.1916.**

**Qırğız Caynakovun qırğız və dunqanların üsyanı barədə dindirmə protokolundan**[1]

Qırğızlar düşünürdülər və əmin idilər ki, ruslar indi güclü deyillər və ruslara tamamən qalib gələ bilərlər. Bu iğtişaşlara qədər dunqanlar qırğızları qəti surətdə ruslara qarşı qalxmağa dilə tutur və sona qədər həmin işdə onlara yardımçı olacaqlarına söz verirdilər. Qırğızlarla dunqanların məqsədi müsəlman xanlığı yaratmaq idi. Amma dunqanlar bura ordunun gəlməsi xəbərini tutan kimi, əksər hissəsi Çinə sarı üz tutdu.

**22.08. – 04.09.1916.**

**Ştabs-rotmistr Porotikovun Vernı axtarış şöbəsinin rəisi Petrova Çin anarxistlərinin "Qe-Lyao-Xue" cəmiyyətinin və onun üzvlərinin Yeddisu ərazisindəki fəaliyyətləri haqqında bildirişi**[2]

Məlumat verirəm ki, əldə etdiyim informasiyalara görə, qırğız üsyanının əsas başçıları "Qe-Lyao-Xue"[3] cəmiyyətinin (Çin anarxistləri) üzvləridir. Bu təşkilat bir neçə il bundan əqdəm Çin imperiyasının hüdudlarında yaranmışdır. Onun mərkəzi Çinin paytaxtında – Pekində idi. İmperatora Pekindən başqa şəhərə səfəri zamanı yolda uğursuz sui-qəsd cəhdindən sonra təşkilatın bir hissəsi Çin hakimiyyəti tərəfindən ləğv edilmiş, üzvlərdən üç nəfəri isə Gülcə bölgəsinə gəlmişdi. 1911-ci ildə Gülcə bölgəsində onlar "Qe-Lyao-Xue" təşkilatını yaratmağa və onun da sayəsində başında general Yan-Tu-Lin, Fun-Zun-Can, Li-Zun-Can və dunqan Ma-Tu-Lin olmaqla inqilab etməyə nail oldular. Çaxnaşmalar zamanı ali hakimiyyət üzvləri öldürülmüşdü: dastay Dzyan-Dzyun və Cin-Tay. Ali üzvlərinin qətli, Gülcə bölgəsində rəhbərliyin "Qe-Lyao-Xue" təşkilatının nümayəndəsi Yan-Tu-Linin əlinə keçməyinə imkan yaratdı.

---

[1] Qazax. SSR MDTA. F. 76, iş 2124, v. 2. ob.Əslidir.

[2] Qazax. SSR MDTA. F. 77, iş 40-a, v. 4-5. Əslidir.

[3] "Qe-Lyao-Xue" – çincə "qardaşlar", "lyao" – birlik, "xue" – təşkilat, yaxud ittifaq – Çin Anarxiya Partiyası.

Dzyan-Dzyunun sözlərinə görə, “Qe-Lyao-Xue” firqəsinin amalı imperiyada monarxiya quruluşunu devirmək, hər bir ayrıca şəhərdə rəhbərlikdə mütləq şəkildə xalq tərəfindən seçilmiş şəxs olmaqla qurum yaratmaqdır. Bütün şəhərlər üzrə ümumu idarəçiliyi şəhərlərin nümayəndələrindən seçilmiş ayrıca şəxs aparmalıdır. Partiyanın müxtəsər məramı belədir. Gülcə rayonuna yeni du-dunun (qubernator) gəlişi ilə “Qe-Lyao-Xue” təşkilatının təqibi və onun üzvlərinin çoxunun edamları başlandı.

1915-ci ilin yazında “Qe-Lyao-Xue” təşkilatının üzvləri özününküləri (Loxur Aryan üçünü partiya üzvü kimi tanıyır) Yeddisu vilayətinə ezam etdilər: Prjevalska – Yan-Fan-Ma, Pişpəyə – səfərindən əvvəl müsəlmanlığı qəbul etmiş, həmin vaxta qədər isə adı Xan-Şo-İ olan La-sin-Fini, haradansa bir rəis oğlu və Vernı şəhərinə Dzin-Dzyun-Yuan. Onlar rus təbəələri müsəlmanların arasında yuxarıda adıçəkilən məfkurəni təbliğ etmək və hər bir şəhərdə ayrıca xanlıq yaratmaq məqsədini güdürdülər. 1915-ci ildə Vernı şəhərində aydınlaşdırılmışdır ki, Dzin-Dzyun-Yuan, naməlum səbəblərə görə, tezliklə Tokmak şəhərinə köçmüş və dunqan kəndi Nikolayevskdə məskən salmışdı, guya orada bir çox dunqanları öz cəmiyyətində təsiri altına sala bilmişdi. Yan-Fan-Ma da Prjevalskda yaşayarkən tərkibində rus təbəələri gənc dunqanlardan və Prjevalska tiryək əldə etmək adı altında gəlmiş Çin təbəələri dunqanlardan ibarət cəmiyyət yaratmışdı. Bütün bu şəxslər Pişpək və Prjevalsk uyezdindən, həmçinin Qaşğar və Gülcə bölgələrindən olan qara-qırğızlarla birbaşa fasiləsiz əlaqədə idilər. Qırğız üsyanı odlanmazdan əvvəl Dzin-Dzun-Yuan Prjevalska getmiş və Yan-Fan-Ma ilə birgə 1 000 nəfər dunqan, rus və Çin təbəələrindən, eləcə də bir qrup qırğızdan ibarət banda yaratmışdı və guya indi Prjevalsk şəhərini mühasirədə saxlayır.

Bu cinayətkar qrup haqqında yaxşı məlumatlandırılmış şahidlərin birinin söylədiklərinə görə, qırğız üsyanı “Qe-Lyao-Xue” təşkilatının fəaliyyətinin nəticəsidir. Qiyamın başında dayanmış həmin cəmiyyətin haradan qaynaqlanmağı hələ ki, aydınlaşdırılmamışdır. Ümumi təşkilatın yerinə yetirilməsi və naməlum şəxslərin, eləcə də “Qe-Lyao-

Xue" cəmiyyətinə daxil olan rus təbəələrinin yerlərində tutulub saxlanması üçün təxirə salmadan Sizə həvalə edilmiş şöbədəki tərcümanla, həmçinin Li-Sin-Fin, Yan-Fan-Mu, Dzin-Dzyun-Yuanı üzdən tanıyan rütbəsiz Axunbayev və Loxur-Aryanovla birgə Pişpəyə gəlməyinizi təklif edirəm. Pişpəkdəki işlər sona yetirildikdən sonra, sizə verilən təlimatlarla istinadən, eyni məqsədlə Prjevalsk şəhərinə də getməlisiniz. Göründüyü kimi, bu məsələ zənnimcə, qırğızların üsyana qalxmasında əsas səbəbin tapılmasında ən vacib əhəmiyyət kəsb edir və mənə həvalə olunmuş əyalətdə hərbi kəşfiyyatın davamıdır, mənimlə əlaqə yaratmaq və bundan sonra tərəfindən verilmiş təlimatları yerinə yetirənə qədər sizi şifrə ilə təmin edirəm, çünki hər şey ciddi surətdə gizli qalmalıdır.

6 №-lı batalyon komandirinin adına 07.08.1916 tarixdə göndərilmiş məktuba gəldikdə, müəyyən edilmişdir ki, o, Sunden ağsaqqalının köməkçisi, rus təbəəsi dunqan Sasaz Meşanlo tərəfindən yazılmışdır.

**İmzaladılar: polismeyster vəzifəsini icra edən ştab-rotmistr – Porotikov**

**<u>09.1916-cı ilin sənədləri</u>**

**1-14.09.1916.**

**Vernı axtarış şöbə rəisi Petrovun Pişpək uyezdinin Nikolayevsk kəndinin sakini Mardes Maşanlonu Nikolayevsk vilayətindəki dunqanlar arasında çinlilərin təhrikçiliyi barədə dindirmə protokolu**[1]

01.09.1916 tarixdə, Böyük Tokmak kəndi. Axtarış şöbə rəisi Petrov bu gün Pişpək uyezdinin Nikolayevsk kəndinin sakini, öz kəndində yiyəsiz torpaqda yaşayan dunqan Mardes Maşanlonu sorğu-sual etdi. Dindirilən söylədi:

"Mən Nikolayevsk kəndində qeydiyyata alınmışam və hal-hazırda indiki ordunun arxa cəbhədəki hərbi işlərindən ötrü çağırış siyahısına salınmışlardanam. Qırğızlar, sonra isə dunqanlar arasında təlatümlər başlananda, bizim vilayətin hörmətli şəxsləri bütün dunqanları Nikolayevsk kəndində yığıb izah etdilər ki, dunqanlar özlərini farağat aparmalı, zərurət yarandıqda qırğızlarla mübarizədə ruslara kömək

[1] Qazax. SSR MDTA. F. 77, xüsusi qovluq 1, iş 28, v. 17. ob. Əslidir.

göstərməlidirlər. Elə həmin yığıncaqda da ağsaqqallar bizə başa saldılar ki, biz, yəni gənc dunqanlar Qaraqunuzda yaşayan çinlilərə qətiyyən qoşulmayaq, belə ki, həmin çinlilər hansısa "Qe-Lyao-Xue" təşkilatına üzvdürlər və dunqanları ruslara qarşı çıxmağa vadar edib hazırlayırlar. Qe-Lyao-Xueçi çinliləri sifətdən tanıyıram, amma soyadlarını bilmirəm. Qaraqunuzda 3-4 nəfər yaşayırlar. Onlardan biri dülgər-xarratdır. O biri gümüş əşyalar zərgəridir, üçüncüsü həkimdir, lakin dördüncünün peşəsini bilmirəm. Şəxsən mənə ruslara qarşı qalxmaq və qırğızlara qoşulmaq haqqında deməyiblər, amma onların təbliğatları barədə halidirlər. Onlar Qaraqunuzda bir neçə aydır yaşayırlar".

**İmza ərəbcədir**
**Axtarış şöbəsi rəisi Petrov**
**Tərcümə etdi – axtarış şöbəsi tərcümanı A.Arunbayev**

**1-14.09.1916.**

**Pişpək uyezdinin Qaraqunuz kəndinin kattası Qube Vantyanşinin Vernı axtarış şöbəsi rəisi Petrova çinlilərin "Qe-Lyao-Xue" cəmiyyətinin üzvlərinin dunqanlar arasındakı fəaliyyəti barədə ifadəsi**[1]

01.09.1916 tarixdə Tokmak kəndi. Vernı axtarış idarəsi şöbə rəisi Petrov həmin gün Pişpək uyezdinin Qaraqunuz kəndinin (Nikolayevsk kəndi) kattası dunqan Qube Vantyanşini sorğu-suala çəkmişdir. Soruşulan ifadə vermişdir:

"Mən həmişə Qaraqunuzda yaşamışam və artıq doqquz ildir, kovxa vəzifəsini tuturam. Bu kənddə dunqanlardan başqa az sayda tarançinlər yaşayır, bəzən çinlilər də gəlir. Yerlilərin arxa cəbhədəki hərbi işlərə çağırışı ilə bağlı elan veriləndə, Qaraqunuzda yaşayan üç nəfər adlı-sanlı şəxs olan çinli, kəndimizin hərbi mükəlləfiyyətli cavan dunqanlarının arasında "ruslara qarşı üsyana qalxmaq" şüarı ilə hərc-mərclik saldılar. Həmin çinlilər özləri "Qe-Lyao-Xue" təşkilatının üzvləri

---

[1] Qazax. SSR MDTA. F. 77, siyahıyaalma 1, iş 28, v. 12 ob. Əslidir.

idilər və gənclərin arasında da o təşkilata üzv olmaq çağırışlarını irəli sürməklə təşviş yaratmağa başladılar.

Çinlilərin hərəkəti barədə mənə də bəlli oldu və həmçinin öyrənib bildim ki, "Qe-Lyao-Xue" təşkilatı təkcə Çin hüdudlarında deyil, həm də Türküstan diyarı ərazisində yerli əhalidən olan xüsusi şəxslərin idarəçiliyi altında ayrıca xanlıqlar yaratmaq və bu bölgəni ruslardan təmizləmək fikrindədir. Bu barədə Qaraqunuz kəndinin dunqanları xəbər tutar-tutmaz, məscidə toplaşmalı olduq, and içdik ki, rus hökumətinə xəyanət etməyəcəyik, lazım olarsa, ruslarla birlikdə öləcəyik, cinayətkar cəmiyyətə qoşulmayacayıq və belə də etdik.

Bütün bunları dunqanlar öz əməllərində indi ruslarla birlikdə qırğız üsyanına qarşı mübarizə aparan gənc dunqanlardan ibarət könüllülər drujinası yaratmaqla sübut etdilər. Təbliğatçı-çinlilər indi Qaraqunuzdadırlar və şübhəli həyat tərzi keçirirlər. Təbliğatçılardan birinin adı Li-Mu-Dzyandın, digərlərinin soyadlarını bilmirəm, amma o öz adı həqiqətənmi Li-Mu-Dzyandır, xəbərim yoxdur. Əvvəllər Çində yaşamış, çinli hesab edilmiş, sonra Prjevlska gələrək dini qəbul edərək müsəlman olmuş, amma Qaraqunuza gələn kimi sənədlərlə yenidən çinli hesab edilir.

Onların yoldaşları vardır – birinin, hal-hazırda Daşkənddə yaşayanın, soyadını bilmirəm. İki yoldaşı Prjevalskda yaşayır. Onlar hamısı rus hökumətinin nəzər-diqqətini cəlb edib şübhə oyatmamqdan ötrü müxtəlif sənətlə məşğuldurlar. Biri – gümüşdən əşyalar düzəldir, digəri – qırğız çöllərinə gedən həkimdir, üçüncüsü – dülgərdir və s. Bu cinayətkar təşkilat "Qe-Lyao-Xue"nin baş idarəsi harada yerləşir, dəqiq bilmirəm, amma mənə bəllidir ki, Gülcə və Qaşğarda onun üzvləri çoxdurlar və tutularaq edam olunurlar. Bu işlə bağlı daha heç nə deyə bilmərəm və hərgah yenə nədənsə xəbərdar olsam, mütləq əlavə məruzə edərəm".

**Dindirdi – axtarış şöbəsi rəisi Petrov**
**Tərcüman – axtarış şöbəsinin dilmancı A.Arubnayev**
**Vernılı ... meşşan iştirak edirdi (soyad pozulmuşdur)**

**1-14.09.1916.**

**Pişpək uyezdinin Nikolayevsk kəndi starşinalığının ikinci dərəcəli starşinası Timur Çavesınovun Vernı axtarış şöbəsi rəisi Petrova çnililərin "Qe-Lyao-Xue" təşkilatının üzvlərinin dunqanlar arasında ruslara qarşı qiyama çağırışla təbliğatı barədə ifadəsi**[1]

01.09.1916. tarixi. Böyük Tokmak. Vernı axtarış şöbəsi rəisi Petrov, bu tarixdə Pişpək uyezdinin Nikolayevsk vilayəti kəndinin dunqanı, Nikolayevsk kəndində yaşayan Timur Çavınsevi dindirmişdi. Dindirilən bildirmişdi:

"Mən, Nikolayevsk vilayətinin starşinalığının ikinci dərəcəli starşinasıyam və əvvəlki qulluqla bahəm bu vəzifədə artıq doqquz ildən çoxdur ki, xidmət edirəm. Qırğızlar arasında çaxnaşmalar barədə söz-söhbət düşüb yayılanda, öyrəndim ki, haradansa gəlmiş çinlilər gənc dunqanlar arasında "Qe-Lyao-Xue" təşkilatına üzv olmağa və qırğızlara qoşulmağa çağıraraq, təbliğat aparırlar.

Əvvəllər eşitmişdim ki, bu, Çin cəmiyyətidir, hökumətə qarşı çıxır və Çində hakimiyyət tərəfindən izlənilir, ona görə biz, daha doğrusu, mən və digər starşinalar, eləcə də möhtərəm şəxslər Nikolayevsk kəndinin dunqanlarını toplayıb izah etdik ki, bu nə cəmiyyətdir və onlar üsyankar qırğızların tərəfinə keçməsinlər. Hamısı bizimlə razılaşdı və imperatorun şərəfinə dua edib and içdilər.

Biz xalqa başa saldıq ki, ruslar Çindən qaçıb gəlmiş dunqanları qəbul etmiş, torpaq və mal-qara vermişlər, ona görə onlar, dunqanlar, üsyana qalxmış qrığızlarla mübarizədə ruslara kömək etməlidirlər. "Qe-Lyao-Xue"nin üzvlərinə gəldikdə isə, mənə məlumdur ki, onun üzvlərindən bəziləri hal-hazırda Qaraqunuzdadır və müxtəlif sənətlə məşğuldurlar.

Onlar tez-tez Pişpək uyezdi boyu yol ölçürdülər, amma nə məqsədlə – bilmirəm. Üzdən tanıyıram, amma soyadlarını bilmirəm, Çin pasportları var. Çox ehtiyatla təbliğat aparırlar və buna görə də sözdə tutmaq asan deyil. Onların dost-tanışlarını tanımıram, amma sözsüz, belələri

[1] Qazax. SSR MDTA. F. 77, iş 40, v. 8. Əslidir.

var, belə ki, çinlilər Qaraqunuza dəfələrlə gəlmişlər, amma sonra gözdən itmişlər”.

**Timur Çavesınov**

**Axtarış şöbəsinin rəisi – imza ... (anlaşılmazdır)**

**Axtarış şöbəsinin dilmancı – imza ... (anlaşılmazdır)**

**... 1916.**

**Üsyana qalxmış dunqanların əməlləri haqqında ifadələr**[1]

“Irdık” yaşayış məntəqəsinə çatmamış şəhərin 10 verstliyində gördük ki, Pokrovski yolunun kənarlarında dunqan və çinlilərin əllərində tüfəng, qılınc, balta, nizə və dəyənək olan sayca 500 nəfərdən ibarət izdihamı var. Biz dayandıq. Bu məqamda bizə bir qadın yaxınlaşdı və onu şəhərə aparmağımızı xahiş etdi. Levin razılaşmadı, belə olan təqdirdə, qadın arabanın arxasında oturdu. Bu zaman kəndlilərlə dolu daha üç araba gəldi, hansı kənddən idilər, deyə bilmərəm; yolumuza davam etməyə qərar verdik.

Çinlilərlə dunqanların sıralarına yaxınlaşanda, dunqanlar arxadan atəş açmağa və daş atmağa başladılar. Atlar hürkərək kənara qaçdılar. Levin arabada oturmuşdu və papağını yellədirdi. Atlar dayananda Levinlə Başkirtsev arabanın sağ tərəfindən tullandılar. Bu zaman bir çinli Başkirtsevin təpəsindən balta ilə vurdu və Başkirtsev o andaca yıxıldı. Həmin anda, mən arabanın sol tərəfindən düşəndə, bir çinli kürəyimə dəyənəklə vurdu, ardınca başıma vurmaq istəyəndə, bir dunqan çinliyə çincə nə isə dedi və çinli mənə daha zərbə vurmadan, atını Mariinsk kəndinə doğru qovdu.

O məni qovanda poqonlarımı, furajkamı, yay paltomu və qoruyucu rəngdə köynəyimi əynimdən çıxardı. Çinli məni dəstə-dəstə əlisilahlı dunqanların toplaşdığı Mariinsk kəndinə qovub gətirdi, adını-soyadını bilmədiyim bir dunqana təhvil verdi. Təkcə ondan haliyəm ki, o, “Böyük həzrət” firqəsindəndir. Təqribən on beş dəqiqə onun yanında qaldım, sonra məni məscidə qovdu və orada yarım saatdan çox onun-

[1] Qazax. SSR MDTA. F. 77, iş 5, v. 2. ob. 3 ob. Əslidir.

la dayandım. Bu zaman bizə "Kiçik həzrət" firqəsindən olan Mariinsk kəndinin dunqanı Osame Yusupov yaxınlaşdı. Burada çoxlu sayda dunqanlarla çinlilər toplaşmışdı və onlar məscidə daxil olaraq and içdilər (bata) və bundan sonra əllərində bayraq və silahlarla şəhərə doğru addımladılar.

Onların başında Osame Yusupov özü durmuşdu. Bütün dunqanlar və çinlilər Mariinsk kəndindən çıxanda məni də özləri ilə qovdular, amma Sapiyə Axun adlı qoca bir dunqanla birgə kəndə qaçdıq və o məni anbarda gizlətdi. Orada 15 dəqiqə qaldıqdan sonra eşitdim ki, dunqanlar geri qayıdıblar və təcili surətdə kənddən yığışıb getmək fikrindədirlər, belə ki, əsgərlərin gəldiyini görəndə, hər şeyi taleyin ixtiyarına buraxıblar. Sapiyə Axunun yanında oturanda onun üçüncü oğlu Kağır dedi ki, dunqanlar şəhərin köməksiz vəziyyətdə olmasından xəbərdardırlar. Dunqanlaın uyezd başçısı 20 nəfər götürərək onlara bir neçə dənə gülləsiz tüfəng vermişdir ki, onu qorusunlar. Sonradan həmin dunqanlar uyezd başçısı tərəfindən asudə buraxıldılar və Mariinsk kəndinə gələndə xəbər verdilər ki, şəhərdə nə silah, nə də ordu vardır.

Bu məlumatın sayəsində "Kiçik həzrət"in dunqanları çinlilərlə birlikdə üsyan qaldırmaq fikrinə düşdülər və qiyama qalxmaq istəməyən "Böyük həzrət" partiyasını zor gücünə üsyana qoşulmağa məcbur etdilər. "Kiçik həzrət"in başında Osami Yusupov dururdu, "Böyük həzrət"in sədri isə Çilal Axun Umerxanov idi. Dunqanlar öz kəndlərindən çıxıb Üç-Turfan istiqamətində yola düşən kimi, anbarı tərk etdim və şəhərə sarı yollandım, orada baş verənlər haqqında danışdım. Doktor Levini kim qətlə yetirmişdi, mən görməmişdim. Hücum etmiş dunqanların və çinlilərin heç birini tanımıram.

Eşitdim ki, bizim arabanın arxasında gedən qadın qalıb və sonra onu qışla meydanında görmüşdüm. C-b Kiçevin hansı şəraitdə qətlə yetirilməyi barədə heç bir məlumatım yoxdur. Başqa heç nə deyə bilmərəm.

**İfadə mənə oxunmuşdur k. P.P.Teltayev**
**Dövlət məhkəmə hakimi (imza anlaşılmazdır)**

**11-24.09.1916.**

**Vernı axtarış şöbəsinin rəisi Petrov tərəfindən Prjevalsk uyezdinin Mariinsk vilayətinin başçısı Məcin Marafunun dunqanların üsyana qaxlması səbəbləri haqqında dindirmə protokolu**[1]

Vernı axtarış şöbəsinin rəisi Petrov bu tarixdə Prjevalsk şəhərində yaşayan Prjevalsk uyezdinin Mariinsk vilayətinin başçısı Məcin Marafunu dindirmişdir. Dindirilən bildirmişdir:

“69 yaşım var, evliyəm, ailəm var və həmişə Prjevalsk şəhərində yaşamışam. Vilayət başçısı olmağım cəmi 16 ildir. Əlahəzrət imperator tərəfindən xidmətimə görə bəxş olunmuş yeddi medalım və qızıl saatım vardır. Başçısı olduğum Mariinsk vilayəti 5 verstlik şəhərdən və sakinlər baxımından müstəsna surətdə dunqanlardan ibarətdir. Bu il Mariinsk vilayətinə çinlilərin və Çin təbəələri dunqanların böyük axınını gördüm. Bu barədə uyezd başçısı c-blarına xəbər göndərdim və xahiş etdim ki, onların Mariinsk vilayətində yaşamalarına qadağa qoysun, çünki zənnimcə, onlar sırf məqsədyönlü şəkildə bura gəlmişlər. Amma onlar fotoşəkilli pasportlara malik idilər və başçı bildirdi ki, onları Mariinsk vilayətindən çıxarmağa heç bir qanuni əsas yoxdur və yalnız pasportu olmayanları çıxarmağa qərar verdi.

Mariinsk vilayətinə gəlib doluşmuş çinlilər hamısı cavan, varlı, yaxşı yəhər at belində idilər, az hissəsi tiryək yığımı ilə bağlı işlə məşğul idi, çoxusu heç bir iş görmürdü. Çoxlu bu sayaq çinlilər və çin təbəələri Prjevalsk şəhərinin özünə və Qırğız vilayətinə tökülüb gəlmişdilər. Orada onlar tiryək əldə etmək üçün xaşxaş çöllərinin satın alınması ilə məşğul olurdular. Dunqanların hərbi işlərə səfərbərliyi haqqında bəyan edildikdə, mənə verilmiş göstərişlərə əsasən, çağırışçıların siyahısını tutdum və həmin siyahıları uyezd rəhbərinə təqdim etdim. Bu zaman dunqanlar hamısı yekdilliklə başçının çağırış haqqında sərəncamına dəqiqliyinə qədər əməl edəcəklərinə razılıq vermişdilər. Avqustun 9-a qədər Mariinsk vilayətində hər şey yaxşı idi, lakin həmin tarixdə mən uyezd başçısının göstərişi ilə vilayətə getdim və yaxınlaşarkən yolda çinlilərlə dunqanların böyük izdihamının bir neçə nəfər rusun dalınca

---

[1] Qazax. SSR MDTA. F. 77, siyahıyaalma 1, iş 28, v. 26. ob. 27 Əslidir.

qaçdığını gördüm. Artıq sonradan öyrəndim ki, bu kütlə çox rusları belə qırıb tələf etmişdir. Şəhərə qayıtmalı oldum, elə orada da həbsə alındım və indinin özündə də həbsdə yatıram.

Mənim vilayətimin dunqanları çinlilərə, Çin təbəələri dunqanlara və qırğızlara hansı yolla qoşulub ruslara qarşı üsyan ediblər, dəqiq bilmirəm, lakin fərz edirəm ki, bunlar, Çindən bizə gəlmiş çinlilərin və Çin təbəələrinin əməlləridir. Eşitdiyimə görə, Çində həmişə qiyam qaldıran və Çin hökumətinin daima təqib etdiyi "Qe-Lyao-Xue" siyasi partiyası vardır, lakin onların üzvləri burada, Prjevalsk uyezdində olub-olmamışlar, bilmirəm. İstənilən halda, hərgah onun üzvləri burada olsaydılar, mənim kimi Rusiyaya sadiq bir şəxsə özlərini göstərib ələ verməzdilər. Vilayətimdəki dunqanlar mənim təbliğatım olmadan ruslara qarşı heç zaman çıxmazdılar, çünki onların sədaqətinə həmişə yaxşı bələd olmuşam, lakin bu təbliğatçıların kimliyi mənə bəlli deyil və barələrində nə isə öyrənmək qeyri-mümkündür, çünki bütün çinlilər məhv edilmiş, dunqanların hamısı istisnasız öldürülmüş, bir hissəsi isə qaçmışdır. Bircə onu bilirəm ki, mənim dunqanlarım qəfil qalxdılar və vilayətə getməyə, onları sakitləşdirməyə, həm özlərini, həm də Mariinsk vilayətindəki dunqanları məhvə sürükləmiş təbliğatçıları rus hakimiyyətinə təhvil verməyə çatdırmadım".

**Mariinsk vilayət başçısı Məcin Marafu**
**Axtarış şöbəsinin rəisi Petrov**
**Axtarış şöbəsinin tərcümanı Arunbayev**
**dindirmədə iştirak etmişəm (imza anlaşılmazdır)**

**<u>1916-cı ilin X-XI aylarına aid olan sənədlər</u>**

**20.09. – 03.10.**

**Polismeyster ştab-rotmistri Porotikovun Vernı axtarış şöbəsinin rəisi Petrova "Qe-Lyao-Xue" Çin cəmiyyətinin üzvlərinin dunqanlar arasında apardığı təbliğatın məqsədləri haqqında raportundan çıxarış**[1]

...Vernı axtarış şöbəsi rəisinin cari il sentyabrın 2-də apardığı ilkin təhqiqatdan məlum olur ki, "Qe-Lyao-Xue" gizli təşkilatının Petrov tərəfindən tutulub saxlanılaraq Pişpək qazamatına salınmış 4 nəfərdən ibarət üzvü, Qaraqunuz kəndində dunqanların arasında təbliğat aparıb onları rus hökumətinə qarşı qaldırır və rusları Türküstan diyarı ərazisindən qovmağa, həmçinin müsəlman əhalisinin idarəçiliyi altında ayrıca xanlıqlar yaradılmasına çağırırmış...

**21.09. – 04.10.1916.**

**Vernı dairə məhkəməsinin məhkəmə müstəntiqinin şahid Potseluyevi rusların Prjevalsk uyezdinin tiryəkçi-çinliləri döyməsi haddında dindirmə protokolu**[2]

Avqustun 11-də gün günorta çağı süvari mühafizə dəstəsi qalaya (kazarma həyətinə) dəstə-dəstə çinli-tiryəkçiləri gətirməyə başladı. Bu adamlar hamısı Mariinsk yolunda tutulmuşdular. Əvvəlcə polkovnik İvanov onları üst-başları yoxlandıqdan, bıçaq və tiryəkləri əllərindən alındıqdan sonra buraxmaq qərarı verdi; sərbəst buraxılmış çinlilərə Aksu yolu ilə Çin sərhədinə doğru getməyə icazə verildi, lakin bu insanlar şəhərin başına dolaşıb üsyan qalxmış Marrinskə girmək istədilər. Bundan sonra şəhər ətrafında tutulan bütün çinliləri həbs etməyə başladılar, hərçənd, kütlə edam tələb edirdi. Günorta saat 4-ə qədər qalada bircə dəfə də olsun qətl hadisəsi olmadı.

Saat 4-də həbs olunmuş çinlilər dustaqxananın qapısını sındırdılar və pərakəndə halda Mariinsk tərəfə götürüldülər. Qarovul atəş açdı. Bu

---

[1] Qazax. SSR MDTA. F. 44, siyahıyaalma 2, iş 16900, v.1. Əslidir.

[2] Qazax. SSR MDTA. F. 44, Yeddisu vilayət idarə, şöbə 1, məq.2. iş 44, v. 171-180. Əslidir.

fakt çinli-tiryəkçilərin hamı tərəfindən döyülməsinə siqnal oldu. Qaçmış 60 nəfəri 15-20 dəqiqə sonra meydanda əsil döymə ətə çevirdilər.[1] Silah olmadığına görə, çomaqla döyür, daşlayır, yabalarla yortur, oraq və dəryazlarla bağırsaqlarını tökürdülər.

**... 1916-cı il**

**Yeddisu vilayətinin axtarış məntəqəsinin rəisi rotmistr Jeleznyakovun Tokmakdan Vernı qubernatoruna (Gippiusa) qırğızların B.Moğuyev haqqında verdikləri ifadələr barədə teleqramı**[2]

B.Moğuyev barədə deyilənlər onun haqqında uydurulmuş şayiə və əfsanədən başqa bir şey deyildir. Onun şəxsən dindirilməsi daha məqsədəuyğun hesab edilsin.

**Rotmistr Jeleznyakov**

**25.09 – 08.10.1916.**

**Yeddisu vilayətinin Hərbi qubernatoru Folbaumun Çin təbəələrinin dunqanları üsyana təhrik etməyə görə həbsxanaya salınması haqqında verilmiş qərarı**[3]

"Hərbi vəziyyət elan edilmiş məkanlarda qaydalar" haqqında qanunun 9-cu maddəsinin 3-cü bəndini və Türküstan general-qubernatorunun 13.01.1912 tarixli məcburi qərarını rəhbər tutaraq qərara alıram: Çin təbəələri Ma-Syan-Yan Malifu, Yan-Zu-Yan, Yan-Fu-Çuy, Qu-Syu-Vu, Qu-Yun-Tay və Li-Sin-Fini Pişpək uyezdinin dunqanlarını iğtişaşlara sövq etdiklərinə görə, hər biri üç ay müddətinə olmaqla Pişpək həbsxanasına salınsınlar.

---

[1] Əslində belə getmişdir.

[2] Qazax. SSR MDTA. F. 44, iş 16218, v. 7. Əslidir.

[3] Qazax. SSR MDTA. Семиречен. област.Ведомости. № 83. 14/X- 1916.

**3-16.10.1916.**

**Rus konsulunun Qaşğariyadan Vernı dairə məhkəməsinin prokuroruna Prjevalsk uyezdinin rus dunqanlarının Qaşğariyanın dunqanları ilə əlaqələri haqqında raportları**[1]

Hörmətli cənabınızın bu ilin 22 avqust 488 №-lı gizli göndərişinizlə əlaqədar olaraq, Sizə ərz edə bilərəm ki, əldə olan gizli informasiyalara görə, mənə həvalə olunmuş konsulluğun bölgəsinin ərazisindəki dunqanların Prjevalsk uyezdinin dunqanları ilə əlaqədə bulunmaqlarına şübhə yoxdur, özü də bu cinayət xarakterli əlaqə, əsasən, tiryəkin Çin hüdudlarına aparılmasından ibarətdir – tiryəkin bura gətirilməsi qadağandır.

Çox güman ki, onların arasında bu zəmində digər tipli cinayətkar münasibətlər qurulur. Lakin bu yalnız Qaşğariyanın dunqan əhalisinə aiddir. Qaşğariyanın ərazisində yerləşən cinayətkar Çin cəmiyyəti "Qe-Lyao-Xue" kimi və onunkimilər öz qarşılarında əsas məqsəd kimi Çində monarxiya hökumətinin bərpasını qoyurlar və qırğızlara hər hansı yolla təsir göstərmək fikrindən uzaqdırlar.

**20.10. – 02.11.1916.**

**Yeddisu vilayətinin vitse-qubernatorunun Yeddisu vulayətinin hərbi qubernatoru Folbauma Prjevalsk uyezdinin dunqanlarının üsyan etmiş qırğızlara qoşulmasının səbəbləri haqqında raportu**[2]

Qırğızların üsynanına Mariinsk vilayətinin Prjevalsk ətrafında məskunlaşmış dunqanlar da qoşulmuşdular. Dunqanların qalxması xüsusilə gözlənilməz olmuşdu, daha doğrusu, belə güman edilirdi ki, məhz bu Çin gəlmələri rus hakimiyyətinin himayəsi altında daha firavan yaşayırdılar və maddi cəhətdən nəzərəçarpacaq üstünlük əldə etmişdilər, böyük ticarətləri vardı, ruslarla daimi ünsiyyətdə idilər, bu səbəbdən, onların öz kəndlərindən Prjevalska qaçan və canlarını qırğızların əlindən qurtaran İvanitski kəndlilərini namərdliklə döyməsi rus

---

[1] Qazax. SSR MDTA. F. 77, iş 40, v. 94-95. Əslidir.

[2] Qazax. SSR MDTA. F. 44. Yeddisu vilayət idarəsi, şöbə 1, məq. 2, iş 72, v. 2 ob. 6 ob Əslidir.

əhalisi arasında xüsusi qəzəbə səbəb oldu və onlar da öz növbələrində şəhərdə yaşayan dunqanlara hücum çəkərək, üsyanda iştirak edib-etməməsinin fərqinə varmadan onları əzişdirməyə başladılar.

Dunqanların üsyanda iştirakı o qədər anlaşılmazdır ki, qeyri-ixtiyari xalq arasında bu hücumlarla bağlı gəzən şayiələr əsasında qurulan izahatlar üzərində dayanmalı olursan. Yerli əhalinin dediyinə görə, dunqanlar qırğız üsyanına rəğbətlə yanaşmırdılar və bitərəf qalmağa üstünlük verirdilər, lakin gəlmə ünsürlər – bura xaşxaş plantasiyalarında, tiryək hazırlamaqdan ötrü işləməyə gəlmiş və bizim dunqanların içərisində yaşayan Çin təbəəliyində olan dunqanlar guya ki, yerli dunqanları ölüm qorxusu ilə hədələyərək, üsyana qalxmağa məcbur etmişlər. Üsyanın tam məğlubiyyətini görçək, həm yerli dunqanlar, həm də gəlmələr Çin hüdudlarına doğru qaçmışdılar. Habelə həm bunlardan, həm də onlardan üsyanı yatıran döyüşçülər və İvanitski kəndlilərinə qəfil xəyanətkar hücumdan bərk qeyzlənən köçkün ruslar tərəfindən kifayət qədər qətlə yetirilən olmuşdu.

**Yeddisu vitse-qubernatorunun müvəqqəti vəzifələrini icra edən podpolkovnik (imza anlaşılmazdır)**

**25.10 – 07.11. 1916.**

**Şahid Pyankovun dunqanların və özbəklərin Qarqarada müsadirə olunmuş əmlaklarının darmadağın edilməsi haqqında dindirmə protokolundan**[1]

Qarqaradan döyüşçülərin gəlişinə qədər əsasən dunqan və sartların bir hissəsindən müxtəlif dərəcəli əmlaklar müsadirə edilmiş və pərakəndə halda böyük meydanda – açıq səma altında – topa halında qalaqlanmışdı. Bu qalaqda samovarlar, sandıqlar, etajerlər, lampalar, qab-qacaq, xəzlər, yay və qış geyimləri, hətta ipək parçalar da var idi. Bütün bunlar kütlənin gözü qarşısında idi. Ölçüsünə görə nəhəng və əşyaların rəngarəngliyinə görə diqqət çəkən bu təpəcik qaçqınların iştahını artırdı, onlar altdan-altdan bu və ya digər əşyaları nəzərə çarpmadan daşıyıb apardılar, sonra nəfslərini saxlaya bilmədilər və açıq-

---

[1] Qazax. SSR MDTA. F. 77, iş 25, v. 30-31. Əslidir.

aşkar müsadirə edilmiş əşyaları çırpışdırmağa başladılar, özü də bunları daşıyan təkcə qara və kasıb xalq deyildi, həm də varlı və mədəni adamlar idi…

**2-15.11.1916.**

**Vernı dairə məhkəməsinin prokuroruna Pişpək uyezdi Nikolayev vilayətinin başçısı B.Mağuyevin qırğızların üsyanına aidiyyatı olmaması barədə məruzə**[1]

22/IX cari il tarixli 622 №-lı sənədə əsasən bildirirəm ki, Pişpək uyezdinin 5 və 6 №-lı sahələrinin dövlət məhkəmə hakiminin istintaq işlərində Nikolayev vilayət başçısı Bular Mağuyevin üsyanda iştirakı barədə hansısa bildiriş yoxdur.

**Prokurorun … T (imza anlaşılmır)**

**5-18.11.1916.**

**Prjevalsk uyezdindən Çin ərazilərinə qaçmış dunqanların qaytarılması məqsədi ilə Çinə ezam edilmiş şahid Y.V.Poltavskinin dindirilməsindən**[2]

29.07.1916 tarixdə Prjevalsk uyezdindən qaçmış dunqanları Rusiya torpaqlarına köçürmək məqsədi ilə Çin hüdudlarına ezam edilərkən Üç-Turfan şəhərinə bu il avqustum 6-da çatdım. … Rus ağsaqqalından əldə edilən və xüsusi olaraq bu işdən ötrü ayrılan şəxslərdən bəlli oldu ki, Üç-Turfanda adıçəkilən qaçqınlar yoxdurlar, onlar mənim gəlişimə qədər həmin şəhərdən Aksu, Kuçar, Qaraşar və oradan da o yana başqa şəhərlərə getmişlər.

Prjevalskdan Üç-Turfana gedən yolda Bədəl aşırımına 30-40 verst qalmış mən qaçmış dunqanların atəşinə məruz qaldım, qaçaqlar daşların arxasında yerbəyer olmuşdular və dağın başında onları çətinliklə sezdim; dayandım, atdan endim və onlara 5 atəş açdım. Mənim

---

[1] Qazax. SSR MDTA. F. 76, iş 2140-a, v. 127. Əslidir. / Qeyd: bu işin 139, 140, 141, 142 və digər vərəqləri ondan xəbər verir ki, B.Maquyev üsyanın tərəfdarı deyildi.

[2] Qazax. SSR MDTA. F. 76, iş 2140, v. 138. Əslidir.

5 atəşimdən sonra onlar gizləndilər və öz yolumu davam etdirdim… Çin piketindən 20-25 verst aralanıb irəli, Üç-Turfana sarı çatar-çatmaz yenidən ikinci dəfə qaçaq-dunqanların atəşinə məruz qaldım…

Mariinsk başçısından aldığım və ixtiyarımda olan siyahılara əsasən, qaçaqlar 72 nəfərdir; tərcümanla adıçəkilən dunqanların axtarışı ilə bağlı birgə gördüyümüz tədbirlər nəticəsində Rusiya hüdudlarına 25 nəfər göndərə bildik.

Çin hakimiyyəti qaçqınların saxlanılması ilə bağlı tərəfimdən verilmiş vəsatətlərə mərhəmətli münasibət göstərdi və dastay tərcümana ünvanlamış 19 iyul tarixli məktubunda xəbər verir ki, o, Kuçar və Qaşğar şəhərlərində uyezd başçılarına (anbanyalara), orada peyda olmuş qaçqın-dunqanların tutulub saxlanılması barədə təlimat vermişdir… Qaraşardakı məlumatlara əsasən, – orada dunqan qəsəbəsi mövcuddur – qaçqınların bir hissəsi ora yollanmışdır, lakin böyük əksəriyyəti başqa yolla Gülcəyə getmişdir…

Avqustun 18-i… Üç-Turfanda Aksuya gedirdim, yolda artıq qaçqın dalğasının necə artdığını görmək mümkün idi… Üç-Turfana 8-9 verst qalmış yenə də … 200-250 nəfərlik izdihamın silahlı basqınına, bir neçə yaylım atəşinə məruz qaldım. Bu anda cigit-qırğızlar və Mariinsk vilayət idarəsinin köməkçisi, məni talan etdilər, atları da özləri aparıb qaçdılar. Mən Üç-Turfan qalasına doğru qaçmağa başladım. Rus ağsaqqalının mənzilinə daxil olar-olmaz, dunqanların bu vəhşiləşmiş izdihamı mənzilimi əhayətə alaraq məni təhvil verməyi tələb etməyə, əks halda, olduğum binanı yandıracaqları ilə hədələməyə başladı…

Çin hakimiyyəti mənim başımın üstünü almış təhlükə barədə eşidib, dərhal hərbi mühafizə göndərdi, adamlarını darvazanın ağzında yerləşdirdi. Elə həmin günü axşam Üç-Turfan anbayanı (uyezd rəisi) şəhər komendantı ilə birgə çoxsaylı əsgərlərlə mənzilimə gəlib məni qalaya apardılar, o qalada dəftərxanaya yerləşdirildim[1].

**Pişpək şəhər məhəllə nəzarətçisi Y.V.Poltavski**
**Dövlət məhkəmə hakimi – imza**

[1] Yamın – "dəftərxana" deməkdir.

**14-27.11.1916.**

**Vernı axtarış idarəsinin rəisi, titulyar müşavir Petrovun Mariinsk vilayətinin başçısı Macin Marafunun Prjevalsk uyezdinin dunqanlarının üsyana qalxmış qırğızlara qoşulma səbəbləri barədə dindirmə protokolu**[1]

14.11.1916 tarixdə Prjevalsk şəhəri. Vernı axtarış idarəsinin rəisi Petrov Mariinsk vilayət başçısı dunqan Məcin Marafunu Mariinsk vilayətindəki dunqanların və Prjevalsk şəhərində yaşayan dunqanların döyülməsi ilə bağlı dindirmişdir. Marafu məsələ barədə belə izahat vermişdir:

"Mariinsk vilayətində dunqanlarla ruslar arasında baş vermis hadisənin və dunqanların orada necə döyüldüyünün şahidi olmamışam, belə ki, Prjevalsk şəhərində avqustun 10-da həbsə alınmış və sentyabrın 20-si tarixində azadlığa buraxılmışam. Azad edildikdən sonra dunqanların ruslar tərəfindən döyülməsi haqqında bəzi təfərrüatlar əldə etmişəm.

Hadisə belə baş vermişdir. Bu il, qırğızların üsyanına hələ xeyli müddət qalmış Prjevalsk uyezdinə Çin ərazisindən çinlilər, Çin təbəəliyində olan dunqanlar, Qaşğar sartları və hətta sart-kalmaklar gəlməyə başladılar. Gələnlərin ümumi sayı bir neçə min olardı.

Onların böyük hissəsi cavanlar idi, yaxşı yəhərli möhkəm atları vardı, çoxları yanlarında qılınc, tapança gəzdirirdilər, amma tüfəng görmədim, lakin güman ki, tüfəngləri də var idi. Biletlərinə istinadən, onlar tacirlər idilər, lakin pasportlardakı bu yazılar, çətin həqiqətəuyğun olardı. Çoxusu tiryəkdən ötrü gəlirdi, bəziləri işləməyə, bir qismi isə hansısa müstəsna məqsəd güdürdülər. Pasportsuzlar da var idi. Çindən gələn bu adamlar ən çox Prjevalsk ətraflarında, xüsusilə, Mariinsk vilayətində daldalanacaq tapmışdılar, hətta uyezd administrasiyasının diqqətini onlara çəkmişdim, lakin bu çinli təbəələrin pasportları olduğuna görə, onlara sərbəst yaşamaq hüququ verilmişdi.

Avqustun 9-da qırğız iğtişaşları başladı və dərhal qırğız izdihamını çinli təbəələrin kütlələrinin – çinlilər, dunqanlar, qaşğarlıklar, sart-kalmıklar – qatıldığı nəzərə çarpdı. Mariinsk dunqanları həmişə rus hö-

[1] Qazax. SSR MDTA. F. 77, siyahıyaalma 1, iş 2121, v. 105-106. Əslidir.

kumətinə sadiq olmuşlar və mən cavabdehəm ki, dunqanlar heç zaman onları vaxtilə çinlilərin təqibindən qoruyub sığınacaq vermiş ruslara qarşı çıxmazdılar.

Üsyana qalxmış qırğızlar və çinli təbəələr dunqanları öz arxalarınca apardılar və ruslara qarşı qaldırdılar. Beləliklə, Mariinsk vilayətindəki dunqanların döyülməsində günahkarlar, ilk növbədə, çinli təbəələrdir. Avqustin 11-də Mariinsk vilayətindən Prjevalska bir neçə cigit-dunqan qaçıb gəlmiş və uyezd başçısına məruzə etmişdi ki, çinlilər onların dunqanlarını döyür və ruslara qarşı çıxmağa məcbur edirlər. Onlar çinlilərə tab gətirməyə kömək istəmişdilər, amma təəssüf ki, həmin cigitlər ruslar tərəfindən Prjevalsk şəhərində ümumi haray-həşirdə qətlə yetirildilər. Dava-dalaş Mariinsk vilayətindən ora keçmişdi. Ümumiyyətlə, dunqanların Mariinsk vilayətindəki vəziyyəti olduqca ağır idi. Bir tərəfdən, Çin təbəələri və qırğızlar onları zor tətbiq edərək qiyamçıların tərəfinə keçməyə məcbur etdilər, digər tərəfdən dunqanlar rusların etibarını itirdilər. Çünki ruslar artıq dunqanları üsyançıların və keçmiş rusların arasında görmüşdülər.

Ruslar qırğızları, çinliləri, dunqanları, sart-kalmıkları, qaşğarlıqları qovub çıxardılar və mariinskli dunqanlarına xəyanət etdiklərinə görə divan tutdular, dava-dalaş Prjevalskın küçələrinə keçdi. Orada ruslara qarşı yönləndirilmiş dunqanların amansızlıqları haqda yaxşı məlumatlandırılmış azğınlaşan kütlə Prjevalskın bütün dunqanlarını döyməyə başladı. Təqribi hesablamalara görə, orta hesabla 140 həyət, və ya 1 500 nəfər həlak olmuşdu. Cəmi-cümlətanı 8 nəfər dunqan sağ qalmışdı. Hal-hazırda Mariinsk vilayətinin əhalisi harada məskunlaşıb, bilmirəm. Bəlkə qırılmışlar, bəlkə də gizlənmişlər. Var-dövlətləri Prjevalska aparılmışdır.

Sonda demək istərdim ki, Rusiya çinlilərinin, qaşğarlıqların, sart-kalmıkların, Mariinsk vilayətinin dunqanlarının çıxışları rus əhalisinin, ümumiyyətlə, yerlilərə inamını yerli-dibli qırmışdır və ruslar, xüsusilə də kənd və qəsəbələrdə yaşayan kəndlilər, xırdaca şübhə yaranan kimi, öz təhlükəsizlikləri xatirinə müsəlmanları, onun rus təbəəliyindən, yaxud çin təbəəliyindən olmasının fərqinə varmadan, öldürürlər.

Üstəlik, əlavə edərdim ki, məndə olan məlumatlara görə, avqustun 9-da və 10-da rusları əvvəlcə çinlilər, sonra mariinskili dunqanlar döyməyə başlamışlar, həm də ki, onlar bir-birlərinə çox bənzəyirlər. Onlar da, bunlar da eyni sayaq geyim geyinirlər, demək olar ki, eyni tələffüzə malikdirlər və sifətdən də oxşayırlar".

**Məcin Marafu**
**Axtarış şəbəsinin rəisi Petrov**

**1-14.12.1916.**

**Pişpək uyezdi Nikolayevsk kəndinin sakini Qu-Qan-Funun Vernı axtarış şöbəsinin rəisi Petrova Çin "Qe-Lyao-Xue" təşkilatının üzvü Yuji-Xayın fəaliyyəti barədə ifadəsi**[1]

Vernı axtarış şöbəsinin titulyar müşaviri Petrov Pişpək uyezdinin Nikolayev kəndinin sakini, daima Sendun şəhərində yaşayan kəndli Qu-Qan-Fu Quşintayı dindirmişdir, o demişdir: "...ayın və günün dəqiq tarixi yadımda deyil, lakin zənnimcə iyunun əvvəli idi, artıq rus hökumətinin müsəlmanları, o cümlədən dunqanları hərbi işə çağırışı haqqında sərəncamı çıxmışdı, mənim yanıma Çin təbəəsi dunqan, həmin zaman Sendun şəhərində yaşayan, indi isə şəxsi məlumatlara görə, Prjevalsk şəhərində üsyan zamanı həlak olmuş Cin-Er-Şanyu gəldi və xəbər verdi ki, Prjevalskdan, Yuji-Xaydan məktub almışdır. Məktubda yazır ki, o, yəni Yuji-Xay, Prjevalsk uyezdində qırğızlar və dunqanların arasında yaşayıb xaşxaş əkini ilə məşğul olarkən artıq Yeddisu vilayətində müsəlmanların ruslara qarşı üsyanına zəmin yarada bilmiş və ondan, Cin-Er-Şanyudan dərhal Tokmaka getmək, tokmaklı dunqanları və qırğızları üsyana hazırlamağı xahiş etmişdir.

Elə həmin namədə Yuji-Xay yazırdı ki, üsyanın məqsədi Yeddisu vilayətində ayrıca xanlığın yaradılmasıdır və üsyan imkan verəcəyi təqdirdə xan olacaqsa, o, Yuji-Xay, bu Cin-Er-Şanyunu öz köməkçisi təyin edəcəkdir. Bir neçə gün keçdikdən sonra Cin-Er-Şanyu öz çinli təbəəsi və hal-hazırda Sendunda yaşayan dostu dunqan Lyay-San-Berlə

---

[1] Qazax. SSR MDTA. F. Fərqanə dairə məhkəməsi məhkəmə istintaqı. F.77, iş 40, v. 102-103. Əslidir.

yola çıxdılar: Cin-Er-Şanyu Vernıya, Tokmaka, sonra Prjevalska getdi elə orada da həlak oldu, dostu Lyay-San-Ber isə Qarqaradan keçməklə Prjevalska Yujin-Xayın yanına getdi. Onların bəd niyyətlərindən qorxaraq, dərhal bu barədə hər şeyi öz ağsaqqalımızın köməkçisi Zaza-Mişaka danışdım. Elə ona da xəbər verdim ki, Yuji-Xay Lyay-San-Ber və Cin-Er-Şanyu mənə Çində "Qe-Lyao-Xue" adlı siyasi partiyanın başçısından tanışdırlar. Onların ixtiyarında çoxlu sayda köməkçiləri var və həmin köməkçilər Prjevalsk, həmçinin Pişpək uyezdlərində müsəlmanları üsyana hazırlamaq kimi cinayətkar işdən ötrü əvvəlcədən ora getmişlər.

"Qe-Lyao-Xue" siyasi partiyası Çində artıq çoxdandır mövcuddur, Çində hakimiyyəti onun üzvlərini izləməyə və edam etməyə başlamışdır ki, nəticədə onlar qaçmağa üz tutmuşlar, məhz Yuji-Lay isə Prjevalsk uyezdində gizlənərək, orada fəaliyyətə başlamışdır, lakin artıq Çin hökuməti əleyhinə yox, rus hökuməti əleyhinə. Mən indi eşitdim, təəssüflər olsun ki, onun işinin bir hissəsi həyata keçirilmişdir. O, Prjevalsk və Pişpək uyezdi boyu səpələnmiş köməkçiləri vasitəsilə yerli əhalini özünə tabe etdirə bilmişdir və sakinlər üsyana qalxmışlar. "Qe-Lyao-Xue" cəmiyyətinin bütün üzvləri – onların sayı Yeddisuda minlərlə olmalıdır – ora fəhlə sifətində getmiş, bu ad altında gizlənmiş, özləri isə Yeddisu əhalisini üsyana hazırlamaq və müstəqil xanlıq yaratmaq kimi digər istiqamətdə işləmişlər.

...Başqa heç bir sözüm yoxdur".

**Qu-Qan-Fu Quşintay, onun savadsız olmağı səbəbindən öz xahişi ilə mən imza atdım (imza anlaşılmazdır)**

**Axtarış şöbəsinin rəisi (imza anlaşılmazdır)**

**Tərcüman – A.Arunbayev**

**21.01 – 03.02.1917.**

**Gülcədəki rus konsulu L.Brodyanskinin Yeddisu vilayətinin hərbi qubernatoruna Çin təbəəsi Şan-Tszya-Tszinin Yeddisu vilayətindəki fəaliyyəti haqqında raportu**[1]

İlili Dao-inin 04.01.1917 tarixli məlumatının surətinə istinadən, iğtişaşlarda iştirak edən, gizli təşkilat olan "Qe-Lyao-Xue"nin üzvlərini göstərmək üçün özünün Yeddisu vilayətinə yollanmasını təklif edən Çin təbəəsi Şan-Tszya-Tszi (o həm də Ma-Fın-Syan və Ma-U-Xeydir) dələduzluqla məşğul olmuş və özünü Çin Respublikasının prezidentinin nümayəndəsi kimi qələmə vermişdir.

İlili Dao-in onun həbs edilməyini və Çin hüdudlarına sürgün olunmasını xahiş edir, lakin müqaviləyə əsasən, o əvvəlcə bizim məhkəmə tərəfindən mühakimə olunmalı və Rusiya ərazisində törətdiyi cinayətlərə görə cəza müddətini çəkməlidir.

**Konsul L.Brodyanski**

**6-10.03.1917.**

**Prjevalsk uyezdinin 3-cü sahəsinin dövlət məhkəmə hakiminin Prjevalsk köçürülmə yarımbölgəsinin rəhbəri şahid P.İ.Şebalinin Prjevalsk uyezdinin Irdık kəndində dunqanların hərəkətləri haqqında dindirmə protokolu**[2]

06.03.1917 tarixdə Prjevalsk uyezdinin 3-cü sahəsinin dövlət məhkəmə hakimi aşağıda adı çəkilən şəxsi şahid qismində dindirmişdir və o demişdir: "Pyotr İvanovuç Şebalin, Prjevalsk köçürülmə yarımrayonunun rəhbəriyəm, 38 yaşım var, pravoslavam, savadlıyam, məhkumluğum olmamışdır, kənar şəxsəm: 11.08.1916 tarixdə biləndə ki, Mariinsk kəndində dunqanlar rusları Mariinsk kəndinin "Irdık" adlanan yerində toplayırlar, yanımda satın alınmış ruslara köməyə gedən mühafizəçilərim Voyevodin, o birilərin soyadlarını xatırlamıram, soyadlarını bilmədiyim üç əsgər, var idi...[3]"

---

[1] Qazax. SSR MDTA. F. 77, siyahıyaalma 1, iş 28, v. 129. Əslidir.
[2] Qırğız. SSR MDTA. F. 77, iş 10, v. 1-2. Əslidir.
[3] Növbəti sözlər silinmişdir.

Çəlpək kəndinə yaxınlaşarkən yaralı rusları gördüm, bir dunqan onlardan atla uzaqlaşaraq, Çəlpəyə doğru gedirdi[1]. Bir qədər irəliləyib Mariinsk kəndinə doğru gedərkən biz 400 nəfər dunqandan ibarət silahlı izdiham gördük. Biz onların 40 sajenliyində dayandıq və mən dəstəmizdə olan, soyadını bilmədiyim, bir nəfər dunqanı tərcüman kimi göndərdim ki, görsün orada nə baş vermişdir. Tərcüman qayıtdı və dedi ki, dunqanlar ruslardan kömək istəyirlər, belə ki, çinlilər, qırğızlar onları incidilirlər. Məsələ mənə aydın oldu ki, dunqanlar bizi aldadıb tələyə salmaq istəyirlər və vaxt udmaqdan ötrü yenidən öz tərcümanımı dunqanların yanına göndərdim, özüm isə Irdıka gedən yolla asta-asta geri çəkildim. Bu məqamda külleyi izdiham cığır-bağırla və atəş açaaça üstümüzə atıldı. Biz şəhərə burulduq, yolda mühafizəçim Yevdokim Voyevodin dunqanlar tərəfindən öldürüldü. Hücum edənlərin sırasında Mariinsk kənidinin dunqanı Bura-Maçebanı tanıdım.

Elə həmin gün, avqustun 10-dan 11-ə keçən gecə həmin o Bura-Maçebanı İvanov şəhər uyezd başçısının evinin qarşısında mühafizəçilərin içərisində gördüm. Dunqanlar arxa cəbhədəki işlərə necə yanaşırdılar, qiyamla bağlı hansısa toplanışları olmuşdumu – mənə bəlli deyil. Başqa heç nə deyə bilmərəm, ifadə mənə oxunmuşdur”.

**Şebalin**

**Dövlət məhkəmə hakimi Runovski**

**11-24.08.1917.**

**Mariinsk vilayətinin dunqan ictimaiyyəti nümayəndələrinin Prjevalsk uyezdinin Yeddisu vilayətindən Şərif İbrahimov və Aysa Rahun Kalımovun Türküstan Müvəqqəti Hökumətinin komissarı Şkapskiyə ərizəsi**

Son üç ildə dərman bitkilərinin becərilməsi və yığımı ilə bağlı təşkilatın təklifi ilə Prjevalsk uyezdinin yerli əhalisi, eləcə də Mariinsk vilayətinin dunqanları kifayət qədər böyük miqyasda tiryək yetişdirmişlər. Çin ərazilərində çox yüksək qiymət qoyulmuş tiryəkin Çin hüdudlarına qaçaqmalçılıq məqsədi ilə keçirilməsindən mühafizə

[1] Əslində belə getmişdir.

olunmaq üçün dərman bitkilərinin becərliməsi üzrə təşkilat tərəfindən çoxsaylı mühafizə təşkil edilmişdir. Lakin mühafizə öz hakimiyyətindən son dərəcə sui-istifadə etmişdir. İşin sərfəliliyini görən ayrı-ayrı sahibkarlar və fəhlələr Çindən xəbər tutaraq, ələlxüsus, keçən 1916-cı ildə vilayətə çoxlu sayda keçib gəlmişdilər, çünki əla tiryək yığımı gözlənilirdi.

Rus təbəələri ilə yanaşı qarovulçular, sözsüz ki, həm də Çin təbəələrinin əllərindən tiryəki alır və onları sıxışdırırdılar. Onlar, yəni qarovulçular mübarizə zamanı həm o, həm də bu təbəələrdən tiryəkin bir qismini alanda bəyan edirdilər ki, guya onu qaçaqmalçılıq mal qismində aparılanda götürmüşlər və münasib mükafat alırdılar. Digər tərəfdən, qarovulçular, tiryəkin kontrabanda kimi əllərindən alacaqları təhdidi ilə qorxudaraq həm bunlardan, həm də onlardan rüşvət şəklində pul, yaxud əmlak mənimsəyirdilər.

Bütün bunlar, ümumiyyətlə, yerli tiryək yetişdiricilərini, əsasən də, Çin təbəələri dunqanları özündən çıxarmaya bilməzdi. Dunqanlar mühafizəçilərin bu hərəkətlərindən möhkəm qeyzlənmiş və yerlərdə rus hakimiyyət orqanlarına şikayət etmişdilər, lakin heç bir cavab almamışdılar. Və budur, onların hiddətlənmiş zamanında həm yerlilərin, həm də rusların bədbəxtliyindən əcnəbilərin arxa cəbhədəki işlərə çağrılması göstərişi elan olundu.

Bir tərəfdən qırğızların torpaq sarıdan sıxışdırılmaları və keçmiş üsuli-idarənin agentləri tərəfindən talan edilmələri, digər tərəfdən Çin təbəələri dunqanların qəzəbi general Folbauma və onun yaxın əməkdaşlarına, Prjevalsk uyezd rəisi polkovnik İvanova və digərlərinə yerlilərin arxa cəbhədəki işlərə çağırışla bağlı təxribata münbit şərait yaratdı. Üsyan alovlandı.

Əvvəlcə torpaq məsələləri ilə daha çox incik düşmüş qırğızlar tərpəndilər. Sonra üsyan dalğası bizim kəndə də çatdı və burada tiryəkləri əllərindən alınmış Çin təbəələri dunqanların intiqam hissi alışıb-yandı və onlar qırğızlara qoşularaq bizim ruslar əleyhinə yürüşə çıxmağımızı tələb etdilər. Üstəlik, o zaman ruslar Prjevalsk şəhərinin özündə artıq əsla gunahsız (rus təbəəliyində olan) dunqanları çapır, qırırdılar.

Bizim dunqanlar çinli dunqanların tələblərinə uymamışdılar, amma ruslar ümumi dərəbəylikdə artıq rus dunqanlarını çinli dunqanlardan ayırd etmirdilər və bu səbəbdən, Mariinsk dunqanları Sırtıya və daha uzaqlara qaçmaq məcburiyyətində qaldılar, sakitlik yaranana qədər öz yerlərinə geri qayıtmaq imkanı tapmadıqlarına görə Çinə keçdilər.

Bizim kənd çox varlı-hallıdır, demək olar ki, hamı əkib-becərmə və ticarətlə məşğul idi. Bütün var-dövlət qaçış zamanı qaldı və ruslara çatdı. Hal-hazırda keçmiş Mariinsk vilayətinin aclıq, sıxıntı içində olan dunqanları Çin Türküstanına dağılışıblar və çox dəhşətli dərəcədə aclıq-səfalət içindədirlər.

Rusiyada baş vermiş çevriliş, öz siyasəti ilə Yeddisu, əsasən də, Prjevalsk uyezdini səfalət həddinə qədər gətirib çıxarmış köhnə hökumətin devrilişi barədə eşidəndə, vəkalət verənlərim olmazın dərəcədə sevindilər və öz doğma kəndimizə qayıtmaq fikrinə düşdülər, lakin konsulluq vasitəsi ilə bildirdilər ki, kəndilərin ədavəti ucbatından hələ onlara öz kəndlərinə qayıtmaq olmaz. Bununla belə, vəkalət verənlərimiz bizdən tələb etdilər ki, Vernı vilayət şəhərində onların qayıdışına nəyə görə qadağa qoyulduğunun əsil səbəbini öyrənək.

Vernıya çataraq öyrəndik ki, hərçənd, Müvəqqəti Hökumət tərəfindən rəsmi qadağa yoxdur, əksinə, geri qayıtmaq təklifi var, amma məsələnin mahiyyəti ondadır ki, Prjevalskda İcra Hakimiyyətinin və uyezd komissarının timsalında bizim torpaq sahələrimizi kazaklara vermək barədə qərar qəbul edilmişdir və onlar da artıq kəndimizə köçüb yerləşməkdədirlər. Bunlardan əlavə, biz öyrəndik ki, torpaqlarımıza kəndlilər və tarançinlərdən iddiaçılar var.

Yuxarıda ərz edilənlər barədə yazıb Sizdən, vətəndaş komissar, xahiş edirəm ki, müqəddəs ədalət naminə, Sizin tərəfinizdən azadlıq-inqilab ordusu ilə birgə əldə edilmiş azadlıq naminə, Müvəqqəti Hökumətin bəxş etdiyi əfv naminə və Müvəqqəti Hökumətin əcnəbilərin işə cəlb edilməsindən qaynaqlanmış keçənilki hadisələrin unudulması naminə dəqiq və aşkar surətdə bizim torpaqlara hüquqlarımız tanınsın, Yeddisu administrasiyasına və Prjevalsk hakimiyyət orqanlarına pay torpaqlarımıza kimi olursa-olsun, köçürülmələri dərhal dayandırmaq

göstərişi verilsin, bizə vəkalət verənlərə isə öz əvvəlki məkanlarına qayıtmaq, dinc əkin-biçinlə və kənd təsərrüfatının digər sahələri ilə məşğul olmağa şərait yaradılsın. Bu məsələ ilə bağlı göstərişlər dəqiqliklə verilməlidir və işə imkan daxilində, sərt yanaşılsın, əks halda, Prjevalsk hakimiyyət orqanları və yerli kəndlilər, ehtimalən, öz hərəkətlərindən tezliklə geriləməyəcək və ali hakimiyyətə asanlıqla tabe olmayacaqlar.

***Şərif İbrahimov***

***Aysaraxun Kalimov***

**26.08 – 8.09.1917.**

**Türküstan Müvəqqəti Hökumət komissarlarının xüsusi yığıncağının Vernı şəhər milisinin rəisinə, Prjevalsk uyezdinin Mariinsk kəndinin hal-hazırda Çində olan dunqanlarının əvvəlki yerlərinə qayıdışlarının qadağan edilməsi barədə qərarı**

Hal-hazırda Vernı şəhərində yaşayan və özlərini Prjevalsk uyezdinin Mariinsk vilayətinin dunqanlar cəmiyyətinin nümayəndələri kimi təqdim edən Şarip İbrahimov və Aysaraxun Kalimov mənə müraciət edərək, Prjevalsk uyezdindəki keçənilki iğtişaşları unutmaq və özlərinin, habelə onları müvəkkil edən şəxslərin keçmiş Mariinsk vilayətindəki torpaq sahələrinə hüquqlarını tanımağımı, bu vilayətin dunqanlarına öz əvvəlki yerlərinə qayıtmalarına, dinc şəraitdə işlə məşğul olmalarına imkan verməyimi xahiş etmişlər.

Bunlardan nəticə çıxararaq, ərizəçilərə bəyan etmək istəyirəm ki, Mariinsk dunqanlarının öz əvvəlki yerlərinə qayıdışı məsələsinə Pişpəkdə tərkibinə Müvəqqəti Hökumətin komissarlarının, Türküstan komitəsinin üzvləri O.A.Şkapski və M.Tınışpayev və Yeddisu vilayətinin dövlət əmlakı üzrə işlər müdiri V.A.Qonçarovski, Prjevalsk uyezd komissarı qismində qırğız vilayət komitəsinin sədri İ.D.Caynakov, Türküstan Müvəqqəti Hökumətinin Türküstan komitəsinə ezam olunmuş S.N.Şendrikov, Qaşğar konsulluğunun vətəndaşı tərcüman Stefanoviç və Prjevalsk uyezdinin nümayəndəsi qırğız K.T.Teltayevin daxil olduğu xüsusi yığıncaqda baxılmışdır. Cari ilin mayın 4-dən 6-a qədər keçirilmiş həmin toplantıda Mariinsk vilayətinin dunqanları ilə

əlaqədar qəbul olunmuş protokolda qərara alınmışdır:

"Prjevalsk bölgəsinin kəndlilərinin keçmiş iğtişaşlar zamanı xüsusi amansızlıqları ilə rus əhalisini özlərinə qarşı qaldırmış Mariinsk dunqanlarına qarşı ifrat dərəcədə düşmənçilik münasibət bəslədiklərini nəzərə alaraq, Mariinsk kəndində yaşamış dunqanların öz köhnə yerlərinə geri qayıtmaları ümumi rayonda təhlükəsizlik və sakitlik naminə, arzuolunmaz hesab edilsin".

**İmzaladılar:**
**Vilayət komissarı Şebalin**
**Vilayət idarəsinin sədrinin vəzifəsini müvəqqəti icra edən Mişşenko**
**Müşavirin vəzifəsini müvəqqəti icra edən Teskov**

# IV BÖLMƏ

## SOVET HÖKUMƏTİNİN QIRĞIZ ƏHALİSİNİN İŞLƏRİNİ YOLUNA QOYMA ÜZRƏ TƏDBİRLƏRİ

**242 №li və 248 №li sənədlər**

**03.02.1920.**

**Türküstan Sovet Sosialist Respublikası MSK-nın 198 №li əmri**[1]

Qırğız millətinin əcdadlarının torpaqlarını sistematik və amansızcasına əlindən alıb əsarətçi-istismarçılara verməklə, həmçinin bu sayaq vəhşi üsullarla qırğız xalqını tam yer üzündən silmək, əsasən də sonu qırğızların kütləvi surətdə Çinin daxili ərazilərinə doğru qaçışı və bu zaman nəinki olan-qalan miskin əmlaklarını, eləcə də öz arvad-uşaqlarını çinlilərə qul qismində vermək məcburiyyəti ilə qurtaran çar administrasiyasının əmək qabiliyyətli qırğız əhalisinin keçmiş çar ordusunda arxa cəbhədəki işlərdən ötrü zorla səfərbər etməsinə qarşı 1916-cı il xalq üsyanının çar inzibati idarəsi tərəfindən qanlı şəkildə və amansızcasına yatırılmağının acı nəticələrini, Qırğız xalqına zərər vuran çar hökumətinin yırtıcı müstəmləkəçilik siyasətinin mənfi sonluqlarını aradan qaldırmağı Fəhlə-Kəndli hökumətinin ümdə vəzifəsi hesab edərək, Türküstan Respublikasının Yeddisu vilayəti üzrə MSK Şurası qərara alır:

1. Yeddisu vilayətinin amansız çar məmurlarının əlindən, yaxud milli münaqişə zəminində Çin və ya digər məkanlarda gizlənməyə məcbur olmuş bütün müsəlmanlarının tam təhlükəsizlik şəraitində köhnə yerlərinə qayıtmasını və öz əvvəlki torpaq və malikanələrinə qayıtması üçün tədbirlər tökmək.

2. Fəhlə-Kəndli hökumətinin ixtiyarında olan bütün vasitələrlə bütöv milli, yaxud sinfi qrupların, həmçinin ayrı-ayrı istismarçıların, qırğız xalqı, ələlxüsus, öz əvvəlki yerlərinə qayıdan qaçqın-qırğızlar

---

[1] Qırğız. SSR MDA. F. 77, iş 43, v. 19, 20. Surətidir.

üzərinə yönəldilmiş əvvəlki zorakılığı davam etdirən hər bir fəaliyyətini kökündən dayandırmaqla kəsmək.

3. Cari sərəncamın həyata keçirilməsi üçün Türküstan MSK Xüsusi Komissiyasını yaratmaq və ona qaçqın-qırğızların yerləşdirməsi üzrə xüsusi göstərişə müvafiq hərəkət etməyi təklif etmək.

4. Bütün əyalət, uyezd-şəhər, stanitsa, vilayət, kənd və aul İnqilab Komitələri və İcraiyyə Komitələri, həmçinin hərbi qüvvələrinə Türküstan MSK-nin xüsusi komissiyasına ən böyük kömək göstərmək. Bu zaman komissiyanın fəaliyyətinə qarşı hərbi müqavimət göstərən, onun qanuni göstərişlərini həyata keçirməyən və ya işlərinə müdaxilə edən günahkarlar İnqilab Tribunalına veriləcəklər.

**03.02.1920.**

**Türküstan MSK-nın qaçqın-qırğızların yerləşdirilməsi üzrə Xüsusi Komissiyasının təlimatından**[1]

Türküstan MSK-nın Xüsusi Komissiyasına aşağıdakı hüquq və səlahiyyətlər verilir:

§1. Qaçqınların Çin hüdudlarından sərbəst çıxışı, eləcə də qaçqınların ayrı-ayrı Çin vətəndaşlarına satdıqları uşaqların və qadınların pulla alınmasına yardım göstərilməsi barədə Çinin aidiyyatlı hakimiyyət orqanları ilə danışıqlara girmək.

§2. Öz yerlərinə qayıdan qaçqınlara, yaxud çar hökuməti tərəfindən zorla qovulmuşlara məxsus olmuş evlərdən, bağ və torpaq sahələrindən bütün qeyri-qanuni sahiblərini çıxarmaq və onları öz əvvəlki sahiblərinə qaytarmaq, qayıdanları imkan daxilində evləri qeyri-qanuni əmlaklarına çevirmişlərin əlindən alınmış ləvazimat, səpmə məhsulları və s. ilə təmin etmək.

§3. Qaçqınlara, həm Çin ərazisində, həm də öz yaşayış məskənlərinə qayıdarkən yolda ilkin maddi yardım göstərmək, onları nəqliyyat vasitəsi, azuqə, geyim, ayaqqabı və s. ilə təmin etmək.

§4. Qaçqınların Çin ərazisində köləlikdə olan bütün qadın, uşaq və digər ailə üzvlərini dövlət vəsaiti hesabına fidyə ilə almaq.

---

[1] Qırğız. SSR MDA. F. 77, iş 44, v. 8,9. Surətidir.

§5. Dağıdılmış təsərrüfatların bərpası üçün həm ehtiyacı olan qayıtmış qaçqın, həmçinin də yerlərində qalmış, lakin çarın müsəlmanları sıxışdırmalarından ziyan çəkənlərə vəsait ayırmaq.

§6. Bütün ərzaq təşkilatlarından və Respublikanın xalq təsərrüfatı Sovetlərindən komissiyaya buraxılmış vəsait hesabına zəruri miqdarda, lakin növbədənkənar və hər hansı şərtlərlə bölüşdürülmədən buğda çörəyi, un, yarma, ət və tərəvəz məhsulları, manufaktura (parça), həsir, ayaqqabı və dəri, canlı və cansız kənd təsərrüfatı ləvazimatları, tikinti materialları və s. almaq. Bu və ya digər məhsullar olmayan təqdirdə, komissiya daha sərfəli üsullarla yararlı digər tədarükü görə bilər.

§7. Keçmiş çar üsuli-idarəsinin yırtıcı və təhrikçi müstəmləkəçilik siyasətinin nəticələri kimi, bir tərəfdən qırğızlarla, digər tərəfdən, kəndlilər və kazaklar arasındakı barışmaz ədavəti, düşmənçiliyi aradan qaldırmaq üçün müvafiq tədbirlər görmək.

§8. Keçmişdə istismarçı-kəndlilər və kazaklarla qarşılıqlı münasibətləri ilə əlaqədar qırğız xalq kütlələrinin iqtisadi vəziyyətinin ümumi təhqiqatını aparmaq.

§9. Qayıdan qaçqın-qırğızları ayrı-ayrı aul və vilayətlərdə qruplaşdıraraq, müvafiq uyezd hakimiyyət orqanlarının tabeliyinə verməklə yerlərdə dehqanların ittifaqlarını, kommunist partiyasının özəklərini, aul və vilayət icraiyyə komitələrini təsis etmək.

§10. Komissiyaya, qırğız xalqının güzəranının yaxşılaşdırılması məqsədi ilə həyata keçirilən tədbirlərə müqavimət göstərənlər, xalqa qarşı özbaşına hərəkət edənlər və güc tətbiq edənlərlə yanaşı, həm də komissiya yaradılana qədər bu sayaq əməllər törədib, lakin cəzasız qalmışları ilkin həbsə almaq hüququ verilsin. Bu zaman həbsə alınmış şəxslər həbsin səbəbləri göstərilmiş qərardadların surətləri ilə birlikdə həbs günündən başlayaraq, sutka ərzində münasib müəssisəyə göndərilməlidir.

**25.03.1921**

**Boqatırskoye kənd sakinlərinin yığıncağından çıxarılan qətnamə.**[1]

Qaçqınların yerləşdirilməsi işləri üzrə Qaragöl uyezd komissiyasının göstərişinə müvafiq, 1916-cı ildə talan edilmiş qırğız əmlakının təhvil verilməsi haqqında 22.03.1921 tarixli 621 №-lı və qəbul komissiyasının 15.03.1921 tarixli 10 №-lı əmri yığıncaqda elan olunmuşdur. Cari göstəriş – 10 №-lı əmrdir[2].

Boqatırskoye kəndinin vətəndaşları bütün bunları dinləyib, nəzərə alır ki, həqiqətən də 1916-cı il həm gəlmə-avropalılar tərəfindən, həm də yerli-müsəlman yoldaşlar tərəfindən çəkilən əzab-əziyyətlər ili olmuşdur. O da diqqətə çatdırılmalıdır ki, köhnə monarxiya quruluşu millətləri saya-hesaba almadan zəhmətkeş xalqı bisavadlıq zülmətində qırıb-çatırdı və xalqın bütün əməksevər hissəsinin düçar olduğu amansız zülmün təzyiqi altında yerli əhali tam yoxsulluq həddinə gətirilib çıxarılmışdı. Bu səbəbdən də, bunları nəzərə alan biz, Boqatırskoye kəndinin vətəndaşları qərara alırıq: əlimizdə olan bütün qırğız əmlakını könüllü surətdə inqilab komitəsinə təhvil verək, bundan sonra qaçqınların yerləşdirilməsi üzrə komissiyanın səlahiyyətli nümayəndəsindən bizim kəndə baxış keçirməsini xahiş edək.

**24.04.1921.**

**Lepsin kənd sakinlərinin ümumi yığıncağından çıxarılan qətnamə**[3]

Biz, Lepsin kəndinin vətəndaşları bir nəfər kimi Sovet hakimiyyətini salamlayırıq və onun sovet quruculuğu naminə, qardaşlıq və bərabərlik uğrunda, keçmişi xatırlamadan, zülmkarlığın kökünü – milli

---

[1] Qırğız. SSR MDA. F. 626, siyahıyaalma 1, iş 2, v. 78. Əslidir.

[2] Qırğız. SSR MDA. F. 626, siyahıyaalma 1, iş 2, v. 7. Əslidir./ Yeddisu vilayət inqilab komitəsinin 10 №li sərəncamı ilə 3 fevral 1921-ci ildə köçürülmüş rus əhalisinə bütün qanunsuz zəbt edilmiş və sonradan qırğız təsərrüfatının möhkəmləndirilməsi fonduna veriləcək qırğız əmlakını qaytarmaq üçün 1921-ci il 10 fevral-10 mart tarixinədək aylıq möhlət vermişdir.

[3] Qırğız. SSR MDA. F. 626, siyahıyaalma 1, iş 2, v. 17. Əslidir.

ədavəti dəfn edərək gördüyü xeyirxah işləri təqdirləyirik, qırğız kasıb camaatının halını başa düşürük və 10 №-lı qərara əsasən, onlara məxsus hər nə varsa, təhvil verməyə hazırıq.

Yaşasın Sovet hökuməti! Yaşasın bütün dünyanın əməkçiləri! Yaşasın dünya inqilabı!

**Yanvar 1923-cü il**

**Orta Asiyada Xarici İşlər üzrə Xalq Komitəsi nümayəndəliyinin RKP-nin (bolşevik) Orta Asiya üzrə bürosunun məruzəsi**[1]

Qərbi Çindəki qaçqın-qırğızların sayı 1922-ci ilin sonunda 35-50 min nəfər hesablanmışdır. Öz sosial statuslarına görə qaçqınlar üç qrupa bölünürlər. Birinci qrupa imkanlılar daxildirlər ki, – var-dövlətləri bir ailəyə düşən 50 qoyundan 200 qoyuna qədər olan vahidlə ölçülür – onlar qaçqınların ümumi sayının 5%-i təşkil edirlər.

İkinci qrupa orta firavanlıq dərəcəsi olanlar aid idilər ki, onların da varidatı hər ailəyə 10-dan 50 qoyunadək olan vahidlə ölçülür. Bu qrup qaçqınların ümumi sayının 50%-i təşkil edir. Qaçqınların ümumi sayının 45%-i təşkil edən üçüncü qrupa muzdla işləyən çobanlar, muzdurlar və bunlarkimilər aiddir. Sonuncu qrup çinlilərə boğazadək borcludur. Onlar bütün Sintszyan əyaləti boyu səpələnmişlər, həmin amil qrupa aid olan ayrı-ayrı qaçqınların yerlərinin tapılıb müəyyənləşdirilməsində çətinliklər yaradır.

Ucuz fəhlə qüvvəsinə marağı olan çinlilər isə həmin qrupa məxsus olanların qaldıqları yerləri gizlədir, onların vətənlərinə qayıtmalarına hər vəchlə maneçilik törədir, çox zaman da Çin təbəəliyinə keçməyə vadar edirlər. Qaçqın-qırğızların vətənlərinə qayıtmalarına əngəl olacaq maneələr, güman ki, bunlardır:

1. Çin hakimiyyətinin qaçqın-qırğızlara vergi, töycü obyekti kimi, həmçinin ucuz fəhlə qüvvəsi qismində maraqlı olması.

2. Maddi rifahı yaxşı olan qırğızların vətənlərinə qayıdacaqları təqdirdə, mülkiyyətlərinin toxunulmazlığına əminliyin olmaması.

3. Kasıb qaçqınların anbaan artan irihəcmli borcları, onların daimi qəbaləyə düşməsi, hətta faktiki olaraq qula çevrilməsi.

---

[1] Qırğız. SSR MDA. F. 626, siyahıyaalma, iş 2, v. 21. Surətidir.

4. Qaçqınların sərhədi keçərkən talan ediləcəkləri qorxusu.

5. Qaçqın qırğız və müsəlman ziyalı təbəqəsinin "Şanxay" təşkilatının təsir göstərərək geri mühaciratı tormozlaması.

Sadalananların əsasında bütün maneələrin aradan qaldırılması və uğurlu yenidən təxliyə üçün zəruridir:

a) Xarici İşlər üzrə Xalq Komitəsinin Orta Asiya üzrə səlahiyyətli müvəkkilinə İli müqaviləsinin 7 və 8-ci bəndlərinə istinadən, qaçqınların qısa bir zamanda yenidən təxliyəsi üçün Çin hakimiyyət orqanları ilə danışıqlara girməsi təklif olunsun.

b) Elə həmin şəxsə də təklif edilsin ki, yerli hakimiyyət orqanlarına (Çuquçak və Gulcədə), qırğız əhalisi arasından qaçqınlar üçün mötəbər sayılan şəxsləri köməyə cəlb etmək üçün təklif yürütsün.

c) Qaçqınların həqiqi borcları araşdırılsın və Çin rəhbərliyi ilə onların ödənilməsi yolları müəyyənləşdirilsin.

d) Çin hakimiyyət orqanları ilə qaçqınların yenidən təxliyəsi şərtləri Qərbi Çin–Sovet sərhədləri ərazisi məkanında müəyyənləşdirilsin.

e) Türküstan MSK və Xalq Komissarları Sovetinə təklif edilsin ki, qaçqınların sərhəddə qəbulu və onların yeni yaşayış yerlərində yerləşdirilməsi ilə bağlı bu istiqamətdə öz işini Xarici İşlər üzrə Xalq Komitəsi ilə birgə uzlaşdırsın.

**18.02.1924.**

**Qaragöl uyezd qaçqınlara yardım üzrə komissiyasının qaçqınların təxliyə və yerləşdirməsi üzrə Cetı-Suy vilayət komissiyasının sədrinə məruzəsindən**[1]

Proletar kütlənin maraqlarının tərəfində durmuş Sovet hökumətinin köhnə hakimiyyətin qanlı üsuli-idarəsinə qarşı üsyana qalxmış məzlum qaçqın-qırğızların üzgün vəziyyətinə ciddi diqqət yetirdiyini öyrənən və Sovet hökuməti tərəfindən qaçqınların işləri və yerləşdirilməsi üzrə hər vasitə ilə çoxşaxəli maddi və digər məsələlərdə yardım göstərəcək xüsusi komissiya yaradılması xəbərini alan inqilabi əhval-ruhiyyəli qırğızlar böyük eşelonlarla və fasiləsiz surətdə öz vətənlərinə qayıdır və aldıqları müavinətdən qənaətbəxş qalırdılar.

[1] Qırğız. SSR MDA. F. 626, siyahıyaalma 1, iş 3, v. 17. Əslidir.

**17.09.1925.**

**Qırğızlara Yardım Təşkilatının Xüsusi Komissiyasının məruzəsindən**[1]

Keçmiş Cetısuy vilayətində 1916-cı il hadisələri, yaxud təbir caizsə, "Qırğız üsyanı" əvvəlcə qırğız əhalisinin kütləvi şəkildə sərhədi keçib, bitişik ölkə olan Çinə qaçışı ilə bitdi. Ən çoxsaylı kütləvi qaçış indiki Qaragöl-Narın diyarından, o vaxtkı Qaragöl və Narın iki uyezdindən olmuşdu. Qaragöl uyezdi, demək olar ki, bütünlüklə qaçmışdı: Narından 5 vilayət, daha doğrusu, yarısından çoxu. Pişpək uyezdindən böyük Sarıbağış vilayəti, eləcə də qonşu Şəmsin və Tyükaev vilayətləri qaçmışdı[2]. Eynilə bu qədər də çoxlu qırğız Alma-Ata, Carkənd, Lepsin və Kopal uyezdlərindən qaçmışdı.

1916-cı il hadisələrindən sonra qaçmışların dəqiq rəqəmini müəyyənləşdirmək qeyri-mümkündür, lakin təxmini hesablamalara görə o, 100 000-dən az deyildir. Onlar hamısı qərbi Çinə, iki bölgəyə qaçmışlar: İliyə – Çinin Gülcə şəhərinin bölgəsidir və Qaşğar-Üç-Turfana – Çinin Qaşğar, Üç-Turfan və Aksu şəhərlərinin bölgəsidir. Qeyd etmək lazımdır ki, birinci bölgəyə (İli) şimal uyezdi Cetısunun bütün qaçqınları getmişlər: Alma-Ata, Lepsin, Carkənd və Kopal, Pişpək və Qaragöl uyezdlərinin bir hissəsi. İkinci rayona (Qaşğar-Üç-Turfan) Qarağöl və Pişpək uyezdlərinin qalan hissəsi, həmçinin bütün Narın uyezdinin sakinləri qaçmışlar...

Qaçqınların Çindən geri qayıdışı 1917-ci ilin baharında başlandı. 1920-ci ilə qədər qayıtmaq çox ləng oldu: qaçqınların əsas kütləsi 1921-1922-ci illərdə, torpaq islahatlarının keçirilməsi zaman oldu. Qayıtmağa imkanı olan bütün qaçqınlar, sözsüz ki, artıq qayıtmışlar, lakin, hər halda, onların bir hissəsi və 2 300 təsərrüfat dövrümüzə qədər hələ də orada qalmaqdadırlar.

Çin ərazilərinə və İli bölgəsinə ezam olunan Müvəkkil şəxsin məruzəsinə əsasən, orada qalan bütün qaçqınları üç başlıca kateqoriyaya bölmək olar:

---

[1] Qırğız. SSR MDA. F. 193, iş 45, v. 61-66. Surətidir.

[2] Mətndə belə getmişdir, güman ki, Talkan vilayəti nəzərdə tutulur.

1. Bir tikə çörəkdən ötrü satılmış qadınlar və uşaqlar – Müvəkkil şəxsin məlumatlarına görə, belə qadınların sayı 600 nəfərdir, onların yarıdan çoxu Çinin içərilərinə doğru aparılmışdır.

2. Müxtəlif borc müqavilələri və öhdəçiliklərlə qəbaləyə salınanlar. Bu kateqoriyaya, Müvəkkil şəxsin məlumatlarına görə, 500-ə yaxın ailə aiddir.

3. Yerli tacir və iri torpaq sahibkarları ilə ticarət və digər əlaqəsi olanlar. Bu kateqoriyaya, elə həmin mənbəyə görə, 500-ə qədər ailə daxildir.

Hər üç kateqoriyaya aid olan bütün bu qaçqınlar, elə həmin mənbəyə görə (Müvəkkil şəxsin məlumatlarına görə), belə bölünür: Lepsin – 300-ə qədər ailə, Kopal – 150-yə qədər ailə, Carkənd – 400-ə qədər ailə, Qaragöl – 210-a qədər ailə və Pişpək – 8 ailə. Cəmi – 1 068 ailə. Bundan əlavə, sadalanan üç kateqoriyaya aid 1 068 qaçqın ailəsinə Qaşğar-Üç-Turfan rayonunda yaşayan qaçqınlar daxil deyillər, yenə də müvəkkil edilmiş şəxsin məlumatlarına görə, orada 1 000-ə yaxın ailə və köləliyə satılmış 1 000 nəfərə yaxın qadın və uşaq vardır. Özü də ki, Üç-Turfan rayonunda olan bütün qaçqınlar Qaragöl, Pişpək və Narın uyezdlərindəndir, başqa sözlə, qara-qırğızlardır.

Beləliklə, Çində olan qaçqınların sayı ilə bağlı hesablamaya nəticə vururuq: İli bölgəsində – 1 068 ailə, Qaşğar-Üç-Turfan bölgəsində – 1 000 ailə, eləcə də 1 000 nəfər qadın və uşaq. Bir ailədə orta hesabla 4 nəfəri götürərək, onların hamısını ailəyə çevirsək, 1 068+100+252=2 300 ailə cavabını alarıq.

2 300 ailə rəqəmi milli birliklərə, müvəkkil edilmiş şəxsin məlumatlarına görə, belə bölünür: Qazaxıstandan – 850 ailə, yerdə qalanları Qırğızıstan Muxtar Vilayətindən – 1 450 ailə. Çində olan qaçqınların vəziyyətini təsvir etmək üçün Müvəkkil şəxsin Qırğızıstan Vilayət İcraiyyə Komitəsinin sədrinə və MK RKP (b)-nın Orta Asiya bürosuna ünvanlanmış məlumatlarından çıxarışı iqtibas gətirək: "Köləliyə satılmış qırğızların və qara-qırğızların vəziyyəti dözülməzdir. Onlarla münasibət olmazın dərəcədə qəddardır.

Bir çox qadınlar səhvən çinliləri dunqan-müsəlman hesab edir onlara ərə getmiş və bu səhvləri barədə xəbər tutduqda, hakimiyyətə bildirmək istəmişlər, lakin onların dilləri kəsilmişdir. Bir çox qadın və uşaqları ölkənin içərilərinə doğru aparmış, qaçmaq istərkən döymüş, hətta bəzi hallarda qətlə yetirmişlər. Elə hallara da rast gəlinmişdir ki, çinlilər yeniyetmə qızları olanlar qırğız qadınları ilə evlənmiş və sonradan onların azyaşlı (12 yaş) qızları ilə evlənmişlər. Bir çox qadınlar öz əzablı həyatlarına çaya atıb intihar edərək son qoymuşlar.

Çinlilər və çin təbəəli qırğızlar qırğız qadınlarını bütün günü bağlı qapı arxasında saxlayır, qırğız və qazaxların yanında isə qadınlar və uşaqlar qoyun otarır, onlara dincəlməyə, heç yatmağa da icazə verilmir. Çinlilər qaçqın-qadınları Şanxay, Tyandzin və digər şəhərlərdə fahişəxanalarda saxlayırlar. Bu barədə xəbər verərək, rica edirik ki, Çindəki artıq öz vətənini unutmağa başlayan qaçqınlarımızın azad olunmaları məqsədilə bütün tədbirlər tökülsün.

Onların çəkdiyi əzab daha ağırdır, zira doğmalarının bizdə müstəqil vilayət əldə edərək tam azadlığa çıxdıqlarını dərk edirlər. Onların bütün ümid və nəzərləri indi şərq xalqlarını çar boyunduruğundan azad etmiş, təxirə salmadan bədbəxt qaçqınlara kömək edəcək Sovet Rusiyasına yönəldilmişdir..."

ÜMSK-nin rəyasət heyətinin 01.07.1925 tarixli qərarının həyata keçirilməsi ilə bağlı həmin yardımın göstərilməsi məqsədi ilə aşağıdakı məbləğdə smeta tərtib olunur:

1. 2 bölgənin araşdırılması üçün – 50. 000 rubl.
2. Kölə halına salınmış qaçqınların alınması üçün – 62. 000 rubl.
3. Çindən vətənə göndərilmək üçün – 171. 000 rubl.
4. Təsərrüfat quruculuğu üçün – 269. 100 rubl.
5. Təşkilat məxaricləri üçün – 50. 210 rubl.

Cəmi: ...602 310 rubl

Bu məbləğə 2 300 ailə gətiriləcək və yerləşdiriləcəkdir.

## QIRĞIZLARIN 1916-CI İL ÜSYANI İLƏ ƏLAQƏDAR HADİSƏLƏRİN XRONOLOGİYASI

25.06 – 03.07. – II Nikolayın Orta Asiyanın yerli əhalisinin arxa cəbhədəki işlərdən ötrü səfərbərlik edilməsi haqqında sərəncamı.

02-15.07 – Daşkənd şəhərində Türküstan diyarının hərbi qubernatorlarının Orta Asiyanın yerli əhalisinin arxa cəbhədəki işlərdən ötrü səfərbərliyi haqqında xüsusi məşvərəti.

08-21.07. – Türküstan diyarı üzrə yerli əhalinin arxa cəbhədəki işlərdən ötrü səfərbərliyi haqqında sərəncamın elanı.

08-21.07. – Yeddisu vilayətinin hərbi qubernatoru tərəfindən qazax və qırğız vilayətlərinin starşinalarına yerli əhalinin arxa cəbhədəki işlərdən ötrü səfərbərliyi haqqında Rusiya imperiyasının sərəncamının bəyan edilməsi məqsədi ilə toplanış.

08-21.07. – Vernı uyezdinin Cailmış və Çamalqan vilayətlərinin qırğızlarının və qazaxlarının Uşkanur adlanan məkanda toplanması və orada silahlı müqavimət göstəriləndək fəhlələrin arxa cəbhədəki işlərdən ötrü verməmək qərarının qəbul edilməsi.

11-24.07. – Pişpəkdə Pişpək uyezdinin qırğız vilayətləri nümayəndələrinin iştirakı ilə arxa cəbhədəki işlər üçün səfərbərliyin ləğvi barədə şayiə buraxılması barədə qərar qəbul edilmiş qurultayın keçirilməsi.

11-24.07. – Qırğızıstanın cənubunda üsyanın başlanması.

11-24.07. – Sır-Dərya vilayətinin Aulie-Atin uyezdində qırğızların üsyana başlaması.

15-25.07. – Prjevalsk uyezdinin başçısının yerli əhalinin arxa cəbhədəki işlərdən ötrü səfərbərliyi haqqında bəyan etdiyi Prjevalsk uyezdinin qırğız vilayətlərinin nümayəndələrinin toplantısı.

13-26.07. – Fəhlələrin arxa cəbhədəki işlərdən ötrü verilməməsi barədə qərar qəbul edilmiş Pişpək uyezdinin qırğız vilayətlərinin yığıncağı.

17-30.07. – Türküstan diyarında hərbi vəziyyət.

23.07. – 05.08. – Pişpək uyezdinin qırğız vilayətlərinin təmsilçilərinin uyezd rəisinə çağırış yaşı çatmış gənclərin səfərbərlik haqqında sərəncamına tabe olmamaq istəyi barədə bəyanatı.

İyulun sonu – Dağarxası vilayətlərin – Cumqal, Kurmanxocayev, Borunçinsk, Niyazbəyov, Cambayev və Cəlibəyov – qırğızlarının toplantısı və silahlı müqavimət göstərilənə qədər fəhlələrin arxa cəbhədəki işlərdən ötrü verilməməsi haqqında qərar qəbul edilməsi.

İyulun sonu – Pişpək iyezdinin Şəmsin vilayətindəki qırğızların toplantısı. İclasda üsyana qalxmış İsenkul vilayətinin qırğızlarının bəyanatının müzakirəsi keçirilmiş, onlara qoşulmaq haqqında qərar qəbul olunmuşdu.

06-19.08. – Pişpək uyezdinin rəisi Rımşeviçin uyezdin qırğız vilayətlərinin rəhbərləri ilə qırğızların arxa cəbhədəki işlərdən ötrü səfərbərliyə göndərilməsi barədə danışıqlar aparması.

07-20.08. – Atekin və Sarbağış vilayətlərinin qırğızlarının üsyana qalxması, onların Samsonovka stanitsasına hücumu.

07-20.08. – Tokmak bölgəsində qırğızların üsyanı

07-20.08. – Üsyana qalxmış qırğızların Cıl-Arık poçt stansiyasına hücumu.

07-20.08. – Atekin və Sarıbağış vilayətinin qiyama qalxmış qırğızlarının Novorossiysk kəndinə hücumu.

08-21.08. – Boom dərəsində üsyana qalxmış qırğızlar tərəfindən silah dolu nəqliyyatın ələ keçirilməsi.

09-22.08. – Pişpək uyezdinin Qarakeçi, Cumqal, Kurmanxoda, Konçor, Abaildin vilayətlərində üsyan.

09-22.08. – Üsyançıların İssık-Kul gölünün şimal sahilindəki Qriqoryevka, Sazanovka, Preobrajensk və digər kəndlərə hücumu.

09-22.08. – Belotsarsk kəndinin qiyamçılar tərəfindən ələ keçirilməsi.

09-22.08. – Kornet Pokrovskinin cəza dəstəsinin Sazanovka kəndinə göndərilməsi.

10-23.08. – Pişpək uyezdinin Tleuberdin vilayətindəki Toktinsk kəndində qırğızların toplaşması və insanların arxa cəbhədəki işlərdən ötrü səfərbərliyə göndərilməməsi barədə qərar qəbul edilməsi.

10-23.08. – Üsyançıların pristav Menşikovun dəstəsi ilə toqquşması, pristavın öldürülməsi və dəstənin darmadağın edilməsi.

10-23.08. – Aulie-Atin uyezdinin Qarabaltin vilayətində qırğızların qiyamı.

10-23.08. – Pişpək uyezdinin Tleuberdin, Camansartov, Bekin və Qarabaltin vilayətlərində qırğızların üsyana başlaması.

10-23.08. – Atbaşı uyezd müdirinin cəza dəstəsinin Stolıpino kəndinə girməsi.

10-23.08. – 15-28.08. – Folbaumovka kəndi uğrunda üsyana qalxmış qırğızlarla çar döyüşçüləri arasında toqquşma.

11-24.08. – Stolıpino kəndinin üsyançılar tərəfindən ələ keçirilməsi.

11-24.08. – Qarqara vadisinin qərb hissəsində üsyançlarla cəza dəstələri arasında döyüşlər.

11-24.08. – Tokmaka yesavul köməkçisi Bakureviçin cəza dəstəsinin gəlməsi.

11-24.08. – Prjevalsk uyezdinin Mariinsk kəndində dunqanların üsyanı.

12-25.08. – Qarqara vadisinin cənub-qərbində üsyançı qırğızlarla cəza dəstələri arasında toqquşma.

12-25.08. – Pişpək uyezdinin dağlıq vilayətlərinin qırğız dəstələrinin Şəmsin aşırımından Çuy vadisinə keçməsi.

13-26.08 – Prjevalsk şəhərinə Qarqaradan rotmistr Kravçenkonun cəza dəstəsinin gəlişi.

13-26.08. – Belovedskoe kəndində drujinaçılar tərəfindən 517 nəfər qırğızın məhv edilməsi.

13-26.08. – Belovodskdan Pişpəyə aparılan zaman 138 dustaq qırğızın yolda öldürülməsi.

14-27.08. – San-Taş aşırımında üsyana qalxmış qırğızların xorunji Fon-Berqin cəza dəstəsi ilə döyüşləri.

14-27.08. – Tokmakın üsyançı qırğızlar tərəfindən mühasirəyə alınmasının başlanğıcı.

14-23 avqustdan 25 avqust-7 sentyabra qədər – Tokmak ətrafında döyüşlər.

15-28.08. – Cerqalan çayı sahilində Otradnoye kəndi tərəfdə qırğızların cəza dəstələri ilə döyüşləri.

15-28.08. – Prjevalska rotmistr Kravçenkonun cəza dəstəsinin gəlişi.

16-29.08. – Sazanovka kəndi bölgəsində üsyanın yatırılması üçün uryadnik Ovçinnikovun cəza dəstəsinin göndərilməsi.

17-30.08. – Batareya səngəri tərəfdə (Prjevalsk yaxınlığı) üsyançı qırğızlarla cəza dəstələri arasında vuruşma.

18-30.08. – Carqalan çayı üzərindəki körpü yaxınlığında üsyançı qırğızlarla cəza dəstələri arasında qovğa.

18-30.08. – Carkənd şəhərindən Yeddisu qubernatorunun göstərişi ilə Prjevalska xorunji Uqreninovun cəza dəstəsinin göndərilməsi.

21.08. – 03.09. – Daşkənddən podpolkovnik Geytsiqin cəza dəstəsinin Tokmaka göndərilməsi və şəhəri mühasirədə saxlayan qırğızların məğlubiyyəti.

23.08 – 05.09. – Prjevalsk şəhərində qiyamçı dunqanlarla cəza dəstələrinin toqquşması.

24.08. – 06.09. – Vernı vilayət şəhərində və Yeddisu vilayətinin uyezd şəhərlərində üsyan iştirakçılarına divan tutmaq üçün cəza dəstələrində məhkəmələrin təsis edilməsi.

27.08. – 09.09. – Yüzbaşı Volkovun cəza dəstəsinin Prjevalsk şəhərinə daxil olması.

28.08. – 10.09. – Rıbaçye kəndi ətrafında üsyançılarla cəza dəstələrinin arasında savaş.

28.08. – 10.09. – Preobrajenskoye kəndi yaxınlığında xorunji Fon-Berqin cəza dəstəsi ilə üsyançı qırğızlar arasında döyüşlər.

29.08. – 11.09. – Aleksandrovun dəstəsinin Şəmsi aşırımına və podpolkovnik Geytsiqin cəza dəstəsinin Kutemaldıya gedişi.

29.08. – 15.09. – Üsyançı qırğızlarla qazaxların Mərkə stansiyasında Mərkə sahəsinin pristavının dəstəsinə hücumu.

29-30.08. – 11-12.09. sentyabr – Mərkə bölgəsində üsyançıların köçkün rusların xutorlarına və qalalarına hücumu.

01-14.09. –Verni şəhərindən Prjevalska starşina Bıçkovun cəza dəstəsinin gəlməsi.

05-18.09. – Prjevalska podpolkovnik Geytsiqin cəza dəstəsinin gəlişi.

Sentyabrın sonu-oktyabrın əvvəli – üsyan iştirakçısı qırğızların Çinin Sintszyan və Qaşğar tərəflərinə keçməsi (qaçışı).

Oktyabrın əvvəli – Narında qırğızların üsyanının başçılarından biri Kanaat Abukinin çar cəza dəstəsinin vasitəsi ilə ələ keçirilməsi və onun oğlu İshaqın edamı.

16-29.10. – Türküstan general-qubernatoru A.Kuropatkinin sədrliyi ilə Prjevalsk bölgəsindən və Pişpək uyezdinin bir hissəsindən qırğızların çıxarılması və dağlıq bölgəyə yerləşdirilməsi, köçürülənlər üçün xüsusi Narın uyezdinin yaradılması məsələsi üzrə iclasın çağrılması.

## SON SÖZ

Qırğızların 1916-cı il üsyanı barəsində

Səbəblər və təkanverici qüvvələr

Qriqori Broydonun 1916-cı ildə Daşkənd məhkəmə palatasına müttəhim kimi verdiyi ifadənin sonunda söylədiyi sözləri diqqətinizə çatdıraq.

1. "Qırğızlar hakimiyyətin müxtəlif orqanlarının işi, eləcə də Köçürülmə İdarəsinin, sistematik fəaliyyəti nəticəsində tamamilə torpaqsızlaşmış, təsərrüfatları dağılmışdı. Lakin bu vəziyyət üsyana qalxmağın burbaşa səbəbi olmamışdı, belə ki, təsərrüfatın tənəzzülə uğraması ilə nəticələnən bu proseslə yanaşı, onların ictimailiyinin süqut etdirilməsi işləri də getmiş və vəziyyət elə dərəcəyə çatmışdı ki, onların ən kiçicik belə gizli toplanış etməyə imkanları, üsyana hazırlıq aparmağa mümkünatları olmamışdı və s. Ən xırda kiçik cəhd də inzibatçılara vilayətlərdəki "öz" qırğızları vasitəsilə ötürülərək məlum olacaqdı.

2. Üsyanın səbəbi nə milli, nə də dini məqamda ola bilməzdi, çünki bu məqamlar özbəklərdə olduğu kimi təzahür etmir, özlərini nisbətən zəif biruzə verirdi, özbəklərin arasında isə, ümumiyyətlə, üsyan qalxmamışdı.

3. Bu "qiyam" çoxlarının qələmə vermək istədikləri kimi, müharibə əleyhinə qalxması mümkün olan iş deyildi, zira ən azı qırğızların aşağı siyasi səviyyələri səbəbindən. Qırğızlar hətta kimin kiminlə müharibə apardıqlarını belə pis bilirdilər və özlərini də ruslarla eyni əsaslarla cəbhəyə götürülməklərini israr edirdilər.

4. Qalır bir fikir: üsyan ali hakimiyyət (Daşkənd və Yeddisu) istisna olmaq şərtilə, bütün inzibati idarəçiyiliyin təxribat xarakterli işinin yekunu idi. Bu fəaliyyət qırğız əhalisinin kökünü kəsmək və hökumətin sonrakı müstəmləkəçiliyi məqsədilə torpaqları təmizləmək

məqsədinə yönləndirilmişdi. Üsulsuz və provakasiya mahiyyətli sərəncamlar, idarəçilikdəki məmurların yalançı izahatları, ora köçürülmüş rusların qırğızların əleyhinə qızışdırılması, onlardan dəstələr yaradılması, kütləvi qətllərin və azğınlıqların cəzasız qalması – bütün bunlar qırğızların kütləvi "məhvi"nə əsas idi. Hərbi dəstələrin, eləcə də polis tərəfindən silahlandırılmış və təşkil edilmiş kəndli drujinaçıların əməlləri ilə vilayətin müdiriyyəti məharətlə çalxantı dalğası bürümüş bölgəni genişləndirir və gərginliyi artırır, bununla bahəm tədricən qırğız əhalisini gəlməkdə olan ordunun gözündə düşmənə çevirirdi". *(Bax, kitaba: Восстание киргизов и казахов. – Бишкек, 1995, səh. 111).*

Burada 1905-ci il rus inqilabı ilə başlayıb 1916-cı il qırğız üsyanı ilə bitən həmin onilliyin tinəti əks olunmuşdur. Qeyd etmək lazımdır ki, Türküstanın özbəklər olan hissəsində etiraz ocaqları Daşkənd, Səmərqənd, Əndican, Fərqanə vadisinin bəzi yaşayış məntəqələrində alovlanmışdı, Cizakda çoxlu qurbanlarla nəticələnən qanlı qiyam qalxmışdı və üsyanın rüşeymləri oradan kök alırdı. Bir faktı da nəzərə almaq lazımdır ki, Buxara əmirliyinin özbək və tacikləri, Xivə xanlığının özbək və türkmənləri Rusiya imperiyasının tərkibinə daxil deyildilər, 1916-cı ildə orada arxa cəbhədəki işlərə səfərbərlik üçün siyahı tutmurdular, onlar rus çarına qarşı qiyama qalxmırdılar. Həmçinin vurğulanmalıdır ki, türkmənlərlə həmsərhəd bölgələrdə, qazaxların ərazisində, xüsusilə də, Carkənd uyezdində sərt mücadilələr gedirdi. Bu barədə aşağıda danışacağıq.

Üsyan, məfhumun dolğun mahiyyəti ilə, 1916-cı ildə Qırğızıstanın Yeddisu adlanan hissəsində yer almışdı, bu mənada Qriqori İsaakoviç Broydo haqlı idi, o, Türküstan diyarında yaşayıb işləmişdi. 1905-ci ildə sosial-demokrat firqəsinin bolşevik qanadına daxil olmuş və Daşkənddə "Əsgər qəzeti"ni *(«Солдатская газета»)* redaktə edirdi, sonralar Vernıda işləmişdi. 1916-cı ildə hərbi nazirliyin göstərişi ilə həbs olunmuşdu, belə zənn etmişdilər ki, o, üsyanı qızışdıranlardan idi, bu səbəbdən də Sibir atıcı batalyonu nəzdində həbsxanaya göndərmişdilər və Broydo 1917-ci il Fevral inqilabına qədər orada qalmışdı. İnqilabdan sonra sovet hökuməti ilə əməkdaşlıq etmişdi. 1926-cı ilə qədər Şərq

Zəhmətkeşlərinin Kommunist Universitetində rektor olmuş, sonra Moskvada Dövlət nəşriyyatına rəhbərlik etmişdi.

Faciənin səbəblərinə, təbir caizsə, onun "təkanverici qüvvələri"nə dair Jusup Abdırahmanov "Kommunist düşüncəsi" (*«Коммунистическая мысль»*, Daşkənddə dərc edilirdi) dərgisində "1916-cı il üsyanının xüsusiyyəti haqqında" məqaləsi ilə çıxış edərkən, dəqiq yazmışdı. Dərginin səhifələrində 1916-cı il hadisələri barədə Turar Rəsulovun kitabı ətrafında diskussiyalar başlanmışdı. Jurnalın redaktoru İ.Menitski belə yazırdı: "Türküstanın dehqan və köçəriləri çox gözəl dərk edirdilər ki, yalnız rus mujiki vaxtı çatmış inqilabda qalib gələrək köçürülmə idarəsinin yırtıcı müstəmləkəçi siyasətinə son qoya bilər". Buna J.Abdırahmanov etirazını izhar edərək, belə münasibət bildirmişdi: "Yalnız rus mujikinin müstəmləkəçilik asılılığında bulunan ölkədə nə kimi rolu olduğunu anlamayan adam belə yaza bilər. Məlumdur ki, Türküstanın müstəmləkələşməsi, əsas etibarilə, aqrar xətlə aparılırdı və bu məqam, rus mujikini zorən "təcrübi müstəmləkəçi"yə – yerli əhalinin torpaqlarını əlindən alan işğalçıya çevirmişdi". *("Kommunist fikri", («Коммунистическая мысль», Daşkənd, 1926, №1-2).*

Başqa sözlə desək, o, açıq-aşkar göstərmişdi ki, qırğızın əsas düşməni rus mujiki idi və köçəbə qırğızları rus köçkünləri məhv edirdilər. Və bu o zaman tam aydın idi, belə ki, məhz köçürülmüşlər yerlilərin torpaqlarının "özününküləşdirilməsi"ndə, sonradan cəza dəstələrinin "rus qanı tökülmüş torpaqların təmizlənməsi" naminə reydlərində iştirak etməyə möhtac idilər. "Təmizləmə" prinsipi 1898-ci il Əndican üsyanından sonra formalaşdırılmışdı. Bu, təkrar edirik ki, 1916-cı ildə aydın idi, lakin artıq sonralar, sovet hökuməti dövründə belə "aydınlıq" sinfilik və firqəlik prinsipli kommunist ideologiyasına zərər vurmağa başladı.

5 ildən sonra 1931-ci ildə Jusup Abdırahmanov Qırğızıstan vilayət komitəsinin partiya bürosunun iclasında öz mövqeyindəki "yanlışlığ"ı ictimaiyyət qarşısında etiraf etdi və onu marksist-leninçi basmaqəlibi ilə "düzəltdi". Mətni belə quraşdırdı: "Mənim məqaləmdə yanlışlıqlar vardır. Birinci yanlışlıq ondadır ki, rus və qırğız zəhmətkeş

kəndli kütlələrinin arasındakı sinfi maraqlar ümumiliyi yayğın təsvir olunmuşdur. İkinci səhv ondadır ki, fəhlə sinfinin əsarət altında əzilən xalqların milli-azadlıq mübarizəsində rəhbərlik rolu danılmışdır. Üçüncü səhv ondadır ki, üsyanın gedişatı zamanı bəy və manaplar təbəqəsinin oynadıqları satqın rolunu göstərən təhlil aparılmamışdır" *("Sovet Qırğızıstanı" ("Советская Киргизия") qəzeti, 1931-ci il, sentyabr).*

İndi onun mövqeyi kommunist ideologiyasının üç prinsipi ilə üst-üstə düşürdü – partiyalılıq, sinfilik, xəlqilik. Həmin məqamda o, Qırğızıstan Xalq Komissarları Şurasının (hökumətinin) sədri vəzifəsini tuturdu, həmin vəzifəni 1927-ci ildən 1933-cü ilə qədər icra etmişdi. Amma "peşmançılıq" onu qanlı divandan xilas etmədi, 1938-ci ildə "xalq düşməni" kimi güllələndi. Bundan sonra yerli tarixnəvislər ideologiyanın basmaqəliblərinə qarşı eyhamları belə özlərinə rəva bilmədilər, daha doğrusu, rus mujikinin üstünə "kölgə salmağa" çalışmadılar. Tendensiya bu gün də davam edir və müasir tarixçilər qəhrəmanlıq, vətənpərvərlik və doğma torpağa sevgini simvolizə edən "milli-azadlıq hərəkatı" terminini işlətməyə səsləyirlər və bütün bunlar əməksevər kütlənin həmrəyliyi kontekstində öz təcəssümünü tapır ("Böyük üsyan, yoxsa hər halda, Ürkün?", *("Великое восстание или все-таки Уркун?" "İşgüzar Qırğızıstan" («Деловой Кыргызстан») qəzeti, 22-28.09.2016).*

Və indiki dövrdə üsyanın səbəbini yalnız "xalqın bəy, manap, biylərin zülmündən qurtulmaq istəyi"ndə görürlər. Belə olan təqdirdə, nəyə görə xalq həmin "bəy"lərin arxasınca getmişdi və kimin əleyhinə idi? Bu halda, nəyə görə bu vaqiələr həmin il Buxarada cərəyan etməmişdi? Orada "zülm" yox idi, yaxud, oralarda rus köçkünlər yox idi. Onların qoçaq təhlillərinə görə, üsyana səbəb "bəy-manapların tamahkar niyyətləri, qırğızların arasında bisavadlıq və xalqların bir-birini anlamaması" olmuşdu. Sosialist realizmi metodu ilə lap həmahəng səslənir, sanki bunlar marksist-leninçi fəlsəfəsindən çıxış edərək yazılmışlar, lakin bu, 2016-cı ildə tərtib edilir və güman edilir ki, 1916-cı ilin həqiqi üzü açılır. Məgər həmin dövrdə Xivə şəhərinin sakinləri

Pişpək əhlindən daha təhsilli idilərmi, yainki qırğız bəy-manaplarının niyyətləri tacik hökmdarlarınınkından yüz dəfə aşağı idimi? Nəyə görə belədir, bəlkə mətləb 1916-cı il vaqiələrinə yeri gəldi-gəlmədi sinfi-firqə yanaşmalarını şamil edən həmin sovet tarixçilərinin kitablarının ehtirasla mütaliəsində gizlənir? Bu köhnə möhürlər 1916-cı il haqqında ilk qırğız filminin qəzet resensiyasında yazılmışdır *(bax: "İctimai reytinq" ("Общественный рейтинг"), 20.10.2016).* Tərifəlayiq haldır ki, kütləvi tamaşaçı üçün burada, nəhayət, həmin mövzunu əhatə edən ilk film yarandı və rəsmi hakimiyyət tərəfindən deyil, şəxsi sponsorların təqdimatı ilə ərsəyə yetişdi. İndi onun arxasınca növbəti yaradıclıq addımları da özünü yetirməkdədir. Çox gözəl, çox pakizə, lakin mövzumuzun düşündürücü tərəfinə qayıdaq.

Öz doğma torpağını atmaq və Çinə qaçmaq, güman ki, hər halda, vətənpərvərlikqarışıq qəhrəmanlıq deyildir, cəza dəstələrinin müdhiş əməllərindən baş götürüb canını qurtarmaqdır ki, xalq da bunu "ürkün" sözü ilə adlandırmışdı və bu məfhum isə qətiyyən nə qəhrəmanlıq pafosu ilə, nə də patriotluq eyforiyası ilə üst-üstə düşmür. Bu cür qaçmağı necə "Vətənə sonsuz məhəbbət" adlandırmaq olar və onun "qüdrət"i nədədir, bu ki, faciə və ümidsizlik, əlin hər yandan üzülməsidir, igidlik və kişilik yox. XXI əsrdə müsəlman Şərqindən məsihi Avropasına ümidsizcəsinə qaçış indi də gözümüzün qarşısında vaqe olur və illər boyudur davam etməkdədir, yoxsa bu da "böyük nəticə", bu da "vətənpərvərliklə birgə qərhəmanlıq"dır, "Ürkün"ün ərəb versiyasıdır?

Riqqətə gəlmiş tarixnəvislərinin şairanə təblə uca epitetləri yersizdir, onlar artıq bizi zinhara gətirmişlər. Öz torpaqlarında qalıb çar administrasiyasının əmrlərinə tabe olan qırğızlar xalq satqını deyillər. Öz arxalarınca məzlum, uşaq, qocaları aşırımlara çəkib aparan qırğızları isə, heç də qəhrəman adlandırmaq olmaz. Onlar ailələrini həyatın görünməyən dərin dibinə, uçuruma sürüklədilər. Öz ulularının ocağından qaçış heç də əlamətdar hadisə ola bilməz, bu sxem üzrə Qırğızıstanın ilk iki prezidentini də (Əskəri və Bakiyevi) "görkəmli qaçqınlar" adlandırmaq gərəkdir. 1916-cı il üsyanı böyük deyildi, o, faciəvi idi. Çinə qaçış "qüdrətli nəticə"yə çevrilməmişdi, humanitar fəlakətə dönmüşdü.

“Qüdrətli” sözü qətiyyən 1916-cı ilin strukturuna uyğun gəlmir. Məgər xalqın faciəsini əzəmət, təntənə şkalası üzrə təyin edərlərmi?! Karfagenin və ya Palmiranın darmadağın dağıdılması məgər tarixin böyük hadisəsidirmi?

**Turar Rıskulovun məruzəsi və statistik rəqəmlər**

1926-cı ildə faciənin 10 illiyi ilə əlaqədar Moskvada “Orta Asiyada inqilabi hərəkat haqqında oçerklər” adlı toplu çap edildi ki, Turar Rıskulovun (qazax) mükəmməl məruzəsi də ora daxil olunmuşdu. Rıskulov 1926-cı ildən 1937-ci ilə qədər RSFSR Xalq Komissarları Sovetinin sədr müavini vəzifəsini tutmuşdu, 1938-ci ildə isə o da “xalq düşməni” kimi güllələnmişdi *(bax: Qırğızıstan. Улуттук Энциклопедия, VI cild, Bişkek, 2014, s. 296)*.

Hesabat “Qazax və qara-qırğızların 1916-cı il üsyanı haqqında. Üsyanın əsas iqtisadi və siyasi səbəbləri” başlığı altında idi və 1926-cı ildə Qazaxıstanın Kustanay şəhərində ayrıca nəşr edilmişdi. Müəllif özü 1916-cı ildə üsyançıların tərəfində iştirak etmiş, 1920-ci ildə Türküstan MSSR-in MSK-nın sədri seçilmiş və 1916-cı illə əlaqədar taleyüklü qərarları qəbul edən kəslərin cərgəsində dayanmışdı. Bütün sənədlər ixtiyarında idi və ona görə də o zamankı çar dəftərxanalarının təbirincə, “qırğız əhalisinin sayının azalması” barəsində vilayət statistika komitəsinin məlumatlarını təqdim edirdi. Bu informasiyalar Yeddisu vilayəti üzrə müəyyənləşdirilmişdi və bura 5 uyezd daxil idi: Vernı, Carkənd, Pişpək, Prjevalsk, Lepsin (Pişpək və Prjevalsk qırğız regionları idilər).

“1916-1918-ci üç il üzrə aparılan siyahıyaalma hesabı ilə vilayətdə alaçıqların sayı 182 255 müəyyən edilmişdi. Buna uyğun olaraq, onların itkisi 29,12% təşkil etmişdi. Alaçığın tərkibi barədə statistik məlumatlara görə, ortalama hər iki cinsdən 5,1 nəfər götürülür. Bu hesabla götürülsə, vilayətin əhalisinin köçəbə hissəsinin üsyanın nəticəsində azalması 1917-ci ilin yanvarına hər iki cinsdən 270 632 nəfər, Mariinsk dunqalarının da Çinə qaçmış 259 nəfərini bura əlavə etsək, bütün vilayət üzrə hər iki cinsdən azalma 273 222 (iki yüz yetmiş üç min iki yüz iyirmi iki) nəfər olacaqdır”. *(Восстание киргизов и казахов*

*в 1916 году. 1996, s. 34)*. Burada və bundan sonra texniki nöqteyi-nəzərdən "rəqəmlər" səhv düşməsin və anlaşılmazlıqlar yaranmasın deyə, mötərizədə sözlərlə göstəriləcək.

Rus rəiyyətindən olanların da 1916-cı ildəki itkiləri göstərilmişdi. Onlar Türküstan general-qubernatoru Kuropatkinin hesabatında verilmişdi. Bura – Zakaspiysk, Səmərqənd, Yeddisu, Sır-Dərya, Fərqanə (qırğızlar Yeddisu və Fərqanə vadisində yaşayırdılar) vilayətləri daxil idi. "Türküstanın yerli əhalisi arasında çaxnaşmalar və üsyan nəticəsində bütün vilayətlərdə 3 709 (üç min yeddi yüz doqquz) nəfər rus xəsarət almışdır. Onlardan 2 325 nəfəri öldürülmüş və 1 384 nəfəri itkin düşmüşdür". Hesabat Rusiyanın imperatoruna təqdim edilmişdir *(Восстание киргизов и казахов в 1916 году. Bişkek, 1996, s. 40).*

Bu rəqəmlər həmçinin amerikan müəllifi Edvard Dennis Sokolun kitabında ensiklopediyadan gətirdiyi sitatda təqdim edilmişdir. Oradakı tələfatlar cədvəli:

Carkənd uyezdi – 73%,
Prjevalsk uyezdi – 70%,
Lepsin uyezdi – 47%,
Vernı uyezdi – 45%,
Pişpək uyezdi – 42%.
*(Сибирская Советская Энциклопедия, cild 1, s. 531).*

Bura Kopal uyezdi (qazax) daxil deyildi. Bu rəqəmlərdən çıxış edərək E.Sokol qeyd edirdi ki, "1916-cı ildən sonra bütün Yeddisu vilayətində (beş uyezddə) yerli əhali arasında itki 20% təşkil etmişdi". *(Bax: Сокол Э.Д. Восстание 1916 в русской Центральной Азии. Перевод с англ. – Бишкек, 2016. s.164).* Qırğızıstan ərazisi üzrə bunu rəqəmlərlə belə ifadə etmək olar:

Prjevalsk uyezdi – 123 600 nəfər.
Pişpək uyezdi – 47 000 nəfər.

Beləliklə, ümumi götürəndə, Yeddisunun qırğız hissəsində köçərilər arasında tələfatı göstərən rəqəm 170 600 (yüz yetmiş min altı yüz) nəfərdir. Prjevalsk uyezdinin dunqanları arasında da həlak olanlar vardı və bu rəqəm 259 (iki yüz əlli doqquz) nəfər idi. Qazax uyezdində

(Carkənd) də çox sayda qurban getmişdi – 64 800 (altmış dörd min səkkiz yüz) nəfər. Bu, Kopal rayonunun hesabatı əlavə olunmayan halda idi, güman ki, faiz fərqi buna görə çıxmışdı (T.Rıskulovda tələfat 29,1%, adıçəkilən ensiklopediyadakı bölmənin müəllifi A.Ensonda isə 20%), lakin fərq hesabatı habelə siyahıyaalınmada da eynilə ortalığa çıxmışdı. T.Rıskulovda bir alaçıq 5,1 nəfər təşkil edirdi, cədvəldə isə bu rəqəm 5 046-dan 5 096-ya qədər dəyişir. Sapma, göründüyü kimi, 9% təşkil edir.

İndi biz Türküstanın digər vilayətləri üzrə, arxa cəbhədəki işlərlə bağlı çar sərəncamına qarşı "etiraz ocaq"ları alovlanmış yerlərindən rəsmi rəqəmlər gətirək. Bu, həmin dövrün sənədlərində "iğtişaş" kimi qələmə verilir. Akmolin uyezdində (qazax ərazisi) yerlilərdən (qazaxlardan) 195 (yüz doxsan beş) nəfər qətlə yetirilmişdi. Qarqara uyezdində (qazax ərazisi) yerli vilayət başçısı, onun mirzəsi və iki cigiti (vilayət başçısının mühafizləri) öldürülür. Eyni ssenari digər yaşayış məntəqələrində baş verir. İğtişaşlar eyni üsul ilə gedir, dəftərxananın qarşısında izdiham cəm olur, arxa cəbhədəki işlərə çağırışla bağlı siyahı tutulmasına son qoyulmasını tələb edirlər, onlara etiraz bildirildikdə isə siyahı tutanları qətlə yetirirlər, bu, vilayət başçısı, mirzə və iki mühafizəçi olurdu.

Analoji mənzərə Fərqanə vilayətində də təkrarlandı, lakin orada vaqiələr genişləndi və çoxaldı, bu səbəbdən, iyulun 17-də Türküstanda hərbi vəziyyət elan edildi, bütün qurumlar ordu komandanına tabe oldu, hərbi məhkəmələr yaradıldı. Fərqanə qubernatoru general Gipius özbək xalatında və araqçında kütlə qarşısına çıxaraq əlində Quran tutdu, müqəddəs kitabı öpərək dedi ki, orada almanlarla müharibədə ağ çara yardım göstərməyin zəruri olduğundan bəhs edilir. Və bunu etnik alman dilinə gətirib deyirdi. Sonra əlavə etdi ki, səfərbərlik sentyabrın 15-dək, daha doğrusu pambıq yığımına qədər təxirə salınmışdır. Generalı vəzifədən kənarlaşdırdılar.

Cizak uyezdi istisna olmuşdu, belə ki, orada pambıq deyil, taxıl becərilirdi, həmçinin bağ-bağat, üzümlüklər də vardı, həmin ərazidən

dəmir yolu keçirdi. İyunun 13-də pristav Xudoyarovu (özbək) öldürdülər və onun yerinə işan Nazir Xocanı bəy seçdilər. Sonra rus kapitanı Zotovu qətlə yetirdilər, dəmir yolunun 65 verstlik laylarını məhv etdilər, körpüləri dağıtdılar, teleqrafı sökdülər. Onlar xan kimi Turatbəyov və Abujaparovu elan etdilər, daha doğrusu, irimiqyaslı müqavimətə başladılar. Üsyançıların içində dəmir yol fəhlələri (proletariat) var idi. Daşkənddən (bu, çox yaxın idi) polkovnik İvanovun komandanlığı altında ordu gəldi. Qiyam yatırıldı, özbəklər siyahı ilə razılaşmalı oldular. Sonra qışlaqlara cəza reydləri başlandı – yandırdılar, öldürdülər, çapıb-taladılar, zorladılar. Yerli əhalidən (özbək) həlak olan 958 (doqquz yüz əlli səkkiz) nəfər oldu. Ruslardan ölən 83 (səksən üç) nəfər idi. Üsyançılar ruslardan 70 (yetmiş) nəfəri əsir götürdülər – bunlar qadınlar və uşaqlar idi – qadınları zorladılar. *(Bax: Джизакское восстание 1916 года. - Красный Архив, 5 (60), 1933, s. 60-91).*

Rəqəmlər əks olunan daha bir sitat gətirək. “Elə həmin Kuropatkin tərəfindən təsdiq edilmiş məhkəmə hökmlərinə əsasən, 01.02.1917 tarixdə 347 nəfərə ölüm hökmü kəsilmişdir, katorqaya 168 nəfər, islah-həbs bölmələrinə 288 nəfər və həbsxanaya 129 nəfər göndərilmişdir” *(Восстание киргизов и казахов, s. 40-41).* Məhkəmə işləri 1917-ci il Fevral inqilabına qədər davam etdi və çar üsuli-idarəsinin məğlubiyyətindən sonra dayandırıldı.

Üsyandan iki il əqdəm Türküstan əhalisinin demoqrafik tərkibinə görə nəticələr əldə edilmişdi və o sənədə əsasən, Yeddisu vilayətində mənzərə belə idi: “1902-1913-cü illər ərzində (12 il) qırğız əhalisinin sayı təqribən 8-10% azalmışdır, eləcə də tarançin və dunqanların da sayında azalma müşahidə olunmuşdur, əvəzində, köçürülənlərin sayı 10 %-dən də çox artmışdır”. *(Восстание киргизов и казахов, s. 53).* Əgər bunu 1917-ci ilin əvvəlindəki vəziyyətlə müqayisə etsək (4 illik müddət ərzində), nəticələr qırğız tərəfi üçün, sözün əsil mənasında öldürücüdür (burada əhalinin sayı 50% azalmışdı). Qurbanların sayını sovet dövründə maskalamış, müstəqillik dövründə isə “yaradıcılıq dəyişikliyi” ilə işləyərək dəyişdirmişlər (50 mindən 750 minədək), bu

zaman ya rəsmi məlumatlardan bixəbərdirlər, ya da, sadəcə, özlərini görməməzliyə vururlar. Görünür, onlara fakt deyil, şüarlar lazımdır ki, rəqəmlərindən siyasətlərində əyani vəsait kimi istifadə etsinlər.

Rəqəmlərə əsasən (onlar rəsmidir) yekun vuraq. Yerli əhalinin itkisinin bütün Türküstan diyarı boyu (beş vilayət üzrə) hesabı aparılmamışdır, daha doğrusu, ümumi toplu hesabatı tərtib edilməmişdir, görünür, belə göstəriş olmamışdır, lakin bir vilayət barədə informasiyalar vardır – Yeddisu. Rus kontingentinin itkisinə gəldikdə, burada hər şey səhihliklə aparılmışdır (köçürülmüşlər, əsgərlər, kazaklar, yığma qoşun döyüşçüləri, məmurlar, tacirlər). Biz general A.Kuropatkinin bu məsələ ilə bağlı hesabatından iqtibas gətirmişdik, əlavə rəqəmlər də götürək. Türküstan diyarında rus məmurlarından 24 (iyirmi dörd) nəfər, yerlilərdən məmur qismində işə götürlmüşlərdən isə 55 (əlli beş) nəfər öldürülmüşdü. Ordu hissələrindən (əsgərlər və kazaklar) 97 nəfər (doxsan yeddi) öldürülmüş və 176 nəfər (yüz yetmiş altı) itkin düşmüşdür. Qurbanların qalan hissəsi – 2 204 (iki min iki yüz dörd) öldürülmüş və 1 208 (min iki yüz səkkiz) nəfər itkin düşmüşdür – bunlar köçürülmüş kəndlilər, şəhər vətəndaşları, tacirlər, qadınlar, uşaqlar, mülki şəxslər, eləcə də yığma qoşun döyüşçüləri və drujinaçılar idilər. *(Э.Д.Сокол. Восстание 1916 в русской Центральной Азии, s. 162).*

Yeddisu vilayəti üzrə məlumatlar var və iki mənbədə göstərilmişdir – Turar Rıskulovun hesabatında və Sibir Sovet Ensiklopediyasında, onları yuxarıda qeyd etmişik. İndi onlardan çıxış edərək əldə olan rəqəmlərə əsasən, dəqiq bölgü aparılmalı və faiz nisbətləri hesablanmalıdır. Lakin ensiklopediyadan olan bu siyahıya, qeyd edildiyi kimi, Kopal bölgəsi daxil edilməmişdi, həmçinin bura dunqanların da tələfatlarını aid etmək zəruridir, onlar Rıskulovun hesabatında vardır. Son nəticədə, belə mənzərə əldə edirik. Yeddisunun yerli əhalisinin tələfatı:

1.Dunqanlar (İssık-Kuldan) – 259 nəfər – 0,2%,

2.Vernı uyezdi (qazax) – 9 800 nəfər – 3,7%,

3.Lepsin uyezdi (qazax) – 17 500 nəfər – 6,6%,

4.Carkənd uyezdi (qazax) – 64 800 nəfər – 24,6%,

5.Pişpək uyezdi (qırğız) 47 000 nəfər – 17,9%,

6.Prjevalsk uyezdi (qırğız) – 123 600 nəfər – 47,0%

CƏMİ – 262 959 (iki yüz altmış iki min doqquz yüz əlli doqquz) nəfər – Yeddisunun həlak olan yerli əhalisinin (qırğızlar, qazaxlar və dunqanlar) sayı bu qədərdir. İndi isə iki uyezdinkini (Pişpək və Prjevalsk) hesablayaq və qırğız hissənin tələfatını əldə edək: 170 600 (yüz yetmiş min altı yüz) nəfərdir ki, bu da ümumi sayın 64, 9%-ini təşkil edir. Bu rəqəmlə T.Rıskulovun hesabatındakı rəqəmi müqayisə edək – 273 222 (iki yüz yetmiş üç min iki yüz iyirmi iki) nəfər. İki müxtəlif mənbədən verilmiş fərq 10 263 (on min iki yüz altmış üz) nəfər təşkil etdi. Bölgü belədir. Bir şeyi də nəzərə almaq lazımdır ki, nə bu, nə də o mənbədə "itkin düşənlər" kateqoriyasına aid heç bir informasiya yoxdur, bunu yalnız ruslar arasında olan tələfatları müəyyənləşdirəndə qeydə alırdılar və bu səbəbdən, müxtəlif rəqəmlər alınmışdır.

Ümumi götürdükdə görürük ki, bu mənbələr bir-birlərini təkzib etmirlər (kökündən), çünki bir rəsmi yerdən götürülmüşlər – Yeddisu vilayətinin Vernı şəhərində yerləşmiş Statistika İdarəsindən. Bu, peşəkar əməkdaşların apardıqları işdir və biz onların materiallarından istifadə edərkən haradasa natamam qeydiyyat, haradasa isə təkrar qeydiyyat əldə etmişik, amma ümumilikdə, məsələnin məğzi düzgün əks olunmuşdur. Bir məqamı da nəzərə almaq lazımdır. "Azalma" anlamına (itkilər belə qeyd olunurdu) ümumi sayda insan daxil idi və bura həm döyüş zamanı və cəza reydləri vaxtı öldürülən, həm itkin düşən, həm də Çinə qaçan zaman aşırımlarda həlakətini tapanlar aid edilirdi. Məhz rusların əli ilə qətlə yetirilmişlərin dəqiq sayını öyrənmək qeyri-mümkündür, bu materiallar yoxdur, heç kim meyitləri bu nöqteyi-nəzərdən saymamışdır, onları sadəcə, dəfn edirdilər. Aşırımlarda nə qədər şəxs həlakətini tapmışdır, o da bizə bəlli deyil, bu yalnız dərələrin dibindən sümüklər toplandıqdan sonra məlum olacaq, hələ ki, qaçqınların sayı haqqında mülahizə var – 100 (yüz) mindən çox insan.

İtkin düşmüşlər barədə əsla heç bir məlumat yoxdur, bu cür məfhumu ümumiyyətlə, nəzərə almamışdılar, həm də kim o dövrdə belə

araşdırma ilə məşğul olacaqdı, adbaad siyahı yox idi, yalnız "alaçıq"ların sayına görə qeydə alınma vardı. Adbaad siyahı yalnız əhalinin rusdilli hissəsinə şamil edilirdi, buna görə də "itkin düşmüşlər"in rəqəmi təyin edilmişdi. Qırğız tərəfin qurbanları üzrə nəticə vurarkən, bu aspektləri nəzərə almaq lazımdır ki, təsvirdə yanlışlıq olmasın. Bu barədə söhbət apararkən, həlak olmuş qırğızların ümumi sayına üç ünsür daxildir – üsyan zamanı öldürülənlər, dağ aşırımlarından keçərkən həlak olanlar və itkin düşənlər. Lakin bu, rəsmi rəqəmləri "şişirtməy"ə, yaxud, "ixtisar etməy"ə əsas vermir.

Burada digər tərəfin də (rus) itkilərinə dəqiqlik gətirmək lazımdır. Yuxarıda qeyd edildiyi kimi, bütün Türküstan üzrə ümumi tələfat rəqəmi müəyyənləşdirilmişdi, bu, 2 325 (iki min üç yüz iyirmi beş) nəfər ölü və 1 384 (min üç yüz səksən dörd) itkin düşmüş (siyahılarda adları var, lakin cəsədləri tapılmamışdır) idi. Burada hansısa qeyri-dəqiqlik yoxdur, zira general-qubernatorun özünün çara göndərdiyi raportlardan götürülmüşdür. Raportda Türküstanın hər vilayətinə nə qədər itki düşür, bəlli deyil – belə bölüm yoxdur. Yeddisunun ruslar yaşayan hissəsinə nə qədər düşür, onu da bilmirik, lakin Prjevalsk uyezdi boyu olanlar barədə konkret faklar vardır – ruslardan 2 025 (iki min iyirmi beş) nəfər öldürülmüş və 1 088 (min səksən səkkiz) nəfər itkin düşmüşdür. Bunlardan belə nəticə çıxır ki, ümumtürküstan sayından götürüləndə, öldürülənlərin 87%-i və itkin düşmüşlərin 78%-i üsyanın episentri olan təkcə bir uyezdə aiddir. *(bax. Сокол Э.Д. Восстание 1916 года, s. 125).* Mərkəz – İssık-Kul gölünün sahilləri idi.

Statistika tarixin səhifələrini əks etdirir, onları qoparmaq, yaxud üstündən xətt çəkmək olmaz. Hər hansı statistikada emosiyalara, proqnozlara, arzulara və digər subyektiv anlamlara yer yoxdur. 1991-ci ildə 1916-cı il üsyanının 75 illiyi qeyd olundu. Bişkekdə mitinq baş tutdu, Prezident Əskər Akayev orada çıxış etdi. Onun sözləri: "Biz açıq-aşkar etiraf etməliyik ki, qırğızlar dəhşətli müstəmləkəçiliyə məruz qalmışdılar və çar satrapları, Stolıpin emissarları onları öz torpaqlarından qovub çıxarmışdılar. Dövlət qoşunları tərəfindən onlara divan tutulmuş, bütöv bir xalq üzərində amansiz genosid törədilmişdir".

Bunlara yekun vuraraq, belə çıxarış etmişdi: "Bu gün 75 il əvvəl törədilmiş faciədə günahı olan yoxdur. Hal-hazırda respublikamızın torpağında yaşayanların içində günahkarları axtarmaq – cinayətdir". *("Слово Кыргызстана", 14.08.1991).*

Bu gün artıq həmin faciənin 100 illiyidir, heç kim günahkar axtarmır, heç əvvəl də axtarmırdılar (qırğızlarda belə vərdiş yoxdur), üstəlik, müqəssirlər artıq çoxdan sağ qalanlar arasında yoxdur. Bu gün qırğızlar (çox ehtiyatlılar sırasından) "genosid" sözünü unutmağa çağırırlar ki, Rusiya prezidenti "hirslənməsin". Lakin hərgah lap o, general A.Kuropatkinin birbaşa nəslindəndirsə, nəyə görə ondan "qəzəb" gözləməliyik? Axı məsələnin mahiyyəti nə sözlərdə, nə terminlərdə, ümumiyyətlə, heç yaltaqlıqda da deyil. Axı "gizli" qrifli sənədlərin senzurasının payalı çəpərindən keçib günümüzə qədər çatan və qarşımızda durub kilsə zəngi kimi vuran sənəd və materialların fonunda hansı qorxu və sözlər dayana bilər? Onlar (əhalinin statistik sayı istisna olmaqla – onlara göstəriciləri yalnız mal-qara və əmlakların sayına görə əks etdirməyə icazə verilrdi) tarix elmləri namizədi, dosent D.M.Məcidovun rəhbərliyi altında elmi işçilər kollektivi tərəfindən toplanmış və dəqiqləşdirilmişdir. Bu həmin dövrdə sovet hökumətinin çox məsuliyyətli bir tapşırığı idi, iş 1947-ci ilin əvvəlində yerinə yetirildi – üsyanın 30 illiyinə toplu nəşr edilmək nəzərdə tutulmuşdu. Lakin kitab nəşr olunmadı, əlyazma Qırğızıstan Kommunist Partiyasının arxivinə göndərildi və həmin partiyanın süqutuna qədər orada qaldı.

Amma tale həmin toplunu qoruyub saxladı. Yazılar namuslu tarixnəvis Suvakun Beqaliyevin əlinə düşdü, onun qızı Asel atasının vəfatından sonra toplunu bizə çatdırdı. İndi bu, 1916-cı ildə tələf olmuş qurbanların ondan sonra gələn nəsillərinin sərvətinə çevrildi. Bu vərəqlərdə gözlənilməz dönüşlərlə təəccübləndirici və heyrətləndirici məlumatlar, alçaqlıq və rəzalətin alicənablıq və insanpərvərlik ünsürləri ilə əvəzləndiyi məqamlar həkk olunmuşdur. Qırğız milli ədəbiyyatının klassiklərinin yaşlı nəslinin nümayəndələri o faciə haqqında riqqətləndirici qüvvə ilə yazmışlar. Bu, emosional gərginliyi ilə Qasıməli Bayalinovun "Acar" povestidir. Bu, Mukay Elebayevin

realizmi ilə dəhşətə gətirən “Çətin keçid” romanıdır (o dərəcədə sarsıdıcıdır ki, hələ də rus dilinə tərcümə olunmamışdır). Bu həm də Aalı Tokombayevin irihəcmli “Qanlı illər” nəzmi romanıdır. Onlar hamısı yeniyetmə yaşlarında 1916-cı illərin şahidi olmuşlar. Onların ədəbi surətləri sənədlərin fonunda daha dərin məna kəsb edir, qaçqınların ayaqları sürüşüb aşdıqları dərələrdən də dərin, qırğızların, qazaxların, dunqanların və girov slavyanların boğulub batdıqları çaylardan da dərin. Sonra gələn yazıçı nəsli də həmin ilin qanlı hadisələri barədə qəlbən yazırdılar, amma masaya yazırdılar – sovet dövründə o mövzu bağlı idi, dərc edilmirdi. Həmin əsərlər artıq müstəqillik zamanında, Sovet İttifaqının dağılmasından sonra işıq üzü gördülər. Həmin əsərlərin arasında aparıcı yeri qırğız ədəbiyyatının klassiki Tolegen Qasımbəyovun “Qırğın” tarixi romanı tutur.

O ki qaldı sənədlərin və materialların özünün məzmununa, onların xalq arasına çıxarıldıqdan sonra mahiyyətinə varmaq fərdi rakursdan qəbul edilir, əvvəllər onlar bu mövzu üzrə tədqiqat müəlliflərinin təfsirlərində səslənirdisə, indi vasitəçisiz təqdim olunurlar. Rus dilində yazılmışlar, zira kargüzarlıq o dildə aparılmışdır, axı ərazi Rusiya imperiyasının üsuli-idarəsi altında idi. Sənədlər prosesi tam obyektiv, detallarla əks etdirir. Budur, Yeddisuda 1904-cü il üçün torpaqların paylanması haqqında hesabatdan rəqəmlər: kazak (slavyan) 51,6 desyatin, kəndli (rusiyalı) – 32,4 desyatin, tarançinlər və dunqanlar (oturaq yerlilər) isə 12,8 desyatin həyətlik torpağa malik idilər. *(Восстание киргизов и казахов в 1916 году, s.50)*

Bir həyət bir ailə mənasını bildirirdi, köçərilərdə həyət yox idi, bu səbəbdən də onları “alaçıq”larla müəyyənləşdirirdilər (bir ailə – bir alaçıq, burada yurta, çadır, koma nəzərdə tutulurdu). 1913-cü ilə qədər Yeddisuda 4 milyon 101 min 873 desyatin torpaq ekspropriasiya edilmişdi ki, bu da şumlanma üçün yararlı sahələrin yarısından çoxunu təşkil edirdi. 1914-cü ildə vilayətin Köçürülmə İdarəsinin qərarına əsasən, əlavə 4 milyon desyatin torpağın da alınması nəzərdə tutulurdu. Bütün bunlar köçürülən rusların xeyrinə “qanunla götürülürdü” (ayrılırdı), rus məmurlarının özlərinin gizli raportlarda yazdıqlarına

əsasən isə, hətta “mal-qaranın yaylaqdan qışlaqlara və geriyə maneəsiz köçü üçün də heç bir tədbir tökülmürdü”. *(Усенбаев Л. 1916: Героические и трагические страницы. – Бишкек, 1997, s.31, s.35)* Bu o demək idi ki, yerli əhali dağlar tərəfə sıxışdırılırdı. Təsadüfi deyildir ki, qırğız kəndləri dağətəyi ərazilərdə yerləşir, daha doğrusu, dağlara bitişikdir.

**Kerenskinin Dovlət Dumasında məruzəsi**

1916-cı il köçürülmüş ruslar üçün dönüş nöqtəsi oldu, o mənada ki, öz torpaq sahələrini maksimal dərəcədə artırmaq, rifahlarını yaxşılaşdırmaq, yerli tayfalar üzərində tam hökmranlıq etməyə perspektiv vermək üçün ruslara imkan yarandı. Lakin bu, Rusiya dövləti üçün “triumf” olmadı və bu haqda 1916-cı ilin dekabrında Dövlət Dumasının iclasında açıqca bəyan edildi. Bu, Aleksandr Fyodoroviç Kerenskinin məruzəsində səslənmişdir. Onun dedikləri bunlardır: “Bu yaxınlarda əkinçilik üzrə nazir burada yerli əhali tərəfindən məhv edilmiş rus məktəblilərindən danışırdı. Mən bundan xəbərdaram. Bu, çox kədərlidir, çox qəmlidir, c-blar. Amma necə qeyzlənməməli ki, belə uşaqları artıq kütlə ağılsızlıq məqamında məhv etməmişdir, onları hakimiyyət sakit və planlı şəkildə öldürmüşdür?!” O qeyd edirdi ki, bu, “rus tarixinin silinməz açlaldıcı səhifəsi”dir.

Çar siyasətinin detal və nüanslarını araşdırmayacağıq, bununla peşəkar tarixçilər məşğul olsunlar. Bizim üçün ilkin mənbələr, həmçinin bu məsələnin çar Dövlət Dumasında aparılan müzakirəsinin stenoqramı mühümdür. Həmin müzakirə çar Dumasında təşkil edilmiş “1916-cı ilin yayında Türküstanda baş vermiş iğtişaşlar və daxili qoşunlar tərəfindən onların qəddarlıqla yatırılmasının istintaqı üzrə” xüsusi komissiya tərəfindən aparılmışdır. Komissiyanın başında A.F.Kerenski dururdu, o, üsyana qalxmış qırğızların müdafiəsində idi, Daşkəndə və Səmərqəndə gəlmiş, orada materiallar toplayaraq, Dövlət Dumasında çıxış etmişdi. Bu, 13.12.1916 tarixdə cərəyan etmişdi. Və Kerenski belə söyləmişdi: “Üç növ silahdan, piyada, artilleriya və suvari qoşundan ibarət cəza dəstəsi və dəstənin başçısı əmr edir ki, müəyyən istiqamətlərdə irəliləməli və öz yolunun üstündə bütün yerli əhalini yandırmalı. Qocalar

və qarılar öldürülmüşdür”. Eşidilənləri bu mənada dəyərləndirdilər ki, bütün bunlar cinayətdir və günahkarlar öz cəzalarını almalıdırlar. Belə nəticəyə gəlindi ki, “bütün günah müstəsna surətdə qəbuledilməz, misli görünməmiş qanunsuzluğa yol vermiş hakimiyyətin üzərinə düşür”.

Həmin məruzədən daha bir sitat: “Mən düşünürəm ki, c-blar, günahsızların axıdılmış qanı intiqamlarını ala bilər və almalıdır” *(Rusiya Dövlət Hərbi-Tarixi Arxivi. Fond 400, siyahı 1, iş 4543, vərəq 68-75.).* Qeyd etmək lazımdır ki, A.Kerenski iki özbək şəhəri ilə məhdudlaşmış, ezamiyyə vaxtının çoxusunu Daşkənddə keçirmişdi (o, 1899-cu ildə burada yerli gimnaziyanı qızıl medalla bitirmiş və həmin şəhərdə 10 il yaşamışdı). O nə Pişpəyə, nə Prjevalska (faciəli hadisələrin episentrinə) getmiş və Rusiya hakimiyyəti onun əlində olan məqamda qaçqınlara kömək məqsədilə heç bir tədbir tökməmişdi. Bunu Lenin etdi.

**“Qaçqınların nəşləri”**

Çinlə həmsərhəd torpaqda qaçqınların sümükləri yatıb qalır, onlar yüz ildir, oradadır və torpağa tapşırılacaqları günü gözləyir. Birinci qırğız prezidenti Ə.Akayev onlar barədə “bilmirdi”, ikinci prezident K.Bakiyev bu barədə “danışmırdı”, halbuki onun hakimiyyəti dövründə üsyanın 90 illiyi qeyd edilmişdi (2006). Üçüncü prezident A.Atambayevin öhdəsinə həmin tarixlərdən ən böyüyü düşdü və o, ilk dəfə ulularin nəşi barədə danışdı. 2015-ci ildə prezident tərəfindən “1916-cı il faciəli hadisələrinin 100 illiyinin qeyd edilməsi haqqında” sərəncam imzalandı. Orada yazılmışdı: “Uzun zaman ərzində yanlış olaraq 1916-cı il faciəsinin üzərindən sükutla keçmə siyasəti yürüdülmüşdür. Hadisələrə obyektiv tarixi qiymət verilməsi, çətin keçilən aşırımlardakı qaçqınların nəşlərinin dəfni, eləcə də həlak olanların xatirəsinin əbədiləşdirilməsi məsələləri həll edilməmiş qalmaqdadır”.

Hadisələrə “obyektiv tarixi qiymət” məsələsinə gəldikdə, qiymətləndirmə bu və ya digər şəkildə gerçəkləşdirilir. Həm də “həlak olanların xatirəsi əbədiləşdirilir”. Amma əsas problem “çətin keçilən aşırımlardakı qaçqınların nəşlərinin dəfni”dir. Bu məsələnin öhdəsindən qırğızlar tək gələ bilməyəcəklər, Rusiya və Çin kimi superdövlətlərin

sırasından tərəfdaşların yardımı tələb olunur, türk qardaşlarımızın – qazaxların, özbəklərin, türkmənlərin, türklərin, azərbaycanlıların – köməyinə ehtiyac duyulur. Xüsusi təyinatlı dəstələr, texnika, vəsaitlər tələb olunur, bu iş genişmiqyaslıdır və misli-bərabəri yoxdur, bəlkə də dünyanın heç bir yerində bu sayaq matəm yerləri mövcud deyil, kimin dərələrində belə "miras"ı var?

"Harada vəfat etməyindən asılı olmayaraq, hər bir ərəb, torpağa islam qanunları ilə tapşırılmalıdır", – ərəblərin, müsəlmanların qanunu belədir, onların öz əcdadları, dünyasını dəyişənlərin nəşi qarşısındakı borcları budur. Bizim yerli islamçılar da həmtayfaları qarşısındakı borc məsələsinə toxunurlar, lakin onlar dünyəvi dövlətin əmək məcəlləsini dini nöqteyi-nəzərdən korrektə etməyə çalışan yerli şeyxə etiraz etməyə cürəti çatmış gənc deputatın müsəlmansayağı dəfn olunmasına qadağan qoyulması barədə danışırlar. Şeyxlər kafir-ateistlər, məzarlıqdakı yerlər, hicab, bütün müqəddəs məfhumlardan danışırlar, təkcə dərələrdə uyuyanlar üçün "cənazə" namazını qılıb islam qaydası ilə dəfn etməyi həyata keçirməkdən başqa.

2006-cı ildə (1916-cı il hadisələrinin 90 illiyi ərəfəsi) ictimai təşkilatların qüvvəsi ilə nəşlərin qalıqlarının dəfni ilə bağlı işlər aparıldı, lakin bunlar əlçatan, aşırımlara yaxın yerlərə aid oldu.

**Üsyankar qırğızlar üçün "rezervasiya"**

Qırğız tarixnəvislərinin biri yazırdı ki, "tüfəng əvəzinə bel, köçəri-döyüşçünün ruhunu alçaltmışdı, fəqət, hərgah bel əvəzinə tüfəng olsaydı, tarix başqa cür cərəyan edərdi". *("Слово Кыргызыстана" qəzeti, 29.07.2016.)* Maraqlıdır, görəsən, "bel" cənublu qırğızları nəyə göyə alçaltmamışdı, onlar da köçəri tayfasından idilər, lakin İrkeştamdan keçməklə Çinə qaçmamışdılar. Məntiq təxəyyül üzərində deyil, tarix konteksti üzərində qurulmalıdır. Məsələnin mahiyyəti beldə deyil, köçərilərin əllərindən alınıb qovulduqları torpaqlardadır və bu da birinci növbədə İssık-Kul gölü ətrafındakı ərazi, Yeddisu vilayətinin Prjevalsk və Pişpək uyezdlərinin müəyyən torpaq sahələrindədir.

Üsyan yatırıldıqdan sonra yeni Narın uyezdinin yaradılması və mövcud iki uyezddən sıxışdırılıb çıxarılmış qırğızların orada

yerləşdirilməsi plan layihəsi yarandı. Bu da həmin sənədlərdən biri: "Polkovnik Kolosovskinin Narın istehkamından Yeddisu vilayətinin hərbi qubernatorunin vəzifəsini icra edən polkovnik Alekseyevə üsyanda iştirak etmiş vilayətlərdən Narın bölməsinin yaradılması və Çində qırğızların vəziyyəti barədə məruzəsi". 1916-cı il noyabr tarixlidir. *(Восстание 1916 года. Документы и материалы, s. 151)* Nəzərdə tutulurdu ki, işlər 1917-ci ilin baharında həyata keçirilsin, lakin rus inqilabı mane oldu. İssık-Kul hövzəsi, Koçkor və Kəmin vadisindəki bütün qırğızları dağlıq Narın zonasına köçürüb yerləşdirmək planlaşdırılırdı, daha doğrusu, xüsusi "rezervasiya" hazırlanırdı (Amerikanın hindularının timsalındakı kimi).

1916-cı il oktyabrın 16-da Vernıda general-qubernator Kuropatkin yığıncaq keçirdi, orada Çu çayı boyunca və İssık-Kul gölü ətrafında "istisna olaraq yalnız ruslar üçün" ərazi ayırmağa qərar verildi. Bu yeni (rus) bölgəsinin tərkibinə bütünlüklə Prjevalsk uyezdi, Pişpək və Carkənd uyezdlərinin müəyyən hissələri qatılacaqdı, oralardan Çinə qaçmış üsyançılara isə geriyə, öz torpaqlarına qayıtmağa icazə verilmirdi, onları yeni yaradılmış (qırğız) yüksək dağlıq zonasının Narın uyezdində yerləşdirmək qərara alındı. Gələcək rus uyezdinin ərazisində yaşayan 200 min qırğızı (üsyandan sonra o qədər qalmışdı) zor gücünə qovub çıxarmağı planlaşdırırdılar. Təmizlənmiş torpaqları Rusiyadan gəlmələrə verməyə, rus kəndlərinə əlavə beş kazak stanitsası da yaratmağa qərar verilmişdi. Layihəyə 1917-ci ilin aprelində son vurulacaqdı. Bütün Türküstan diyarı boyu hələ indiyəcən tamamən rus ərazisindən ibarət müstəsna qurum olmamışdı və bu, yerli əhalinin torpaqlarının istilasının xüsusi forması üzrə ilk təcrübə olacaqdı.

"Təmizlənmiş" ərazinin əhəmiyyətini artırmaq və cəlbedici etmək üçün, məlum olduğu kimi, 5 vilayətdən ibarət olan Türküstan diyarındakı köçürülmüş rusların say nisbətini tarazlamaq gərək idi. Yeddisu vilayətində əhalinin ruslar olan hissəsi 300 min nəfər təşkil edirdi, diyarın digər ümumi götürülmüş dörd vilayətində cəmi 200 min. Təbir caizsə, köçürülmüş rusların böyük hissəsi (60%) Yeddisuda yerləşdirilmişdi, bu zaman ruslar düzgün-səhv, hər bir üsulla bölgənin

İssık-Kul gölü səmtinə can atırdılar, bunun da səbəbi həmin guşəni cənnət-məkan hesab etmələri və behiştin də bütünlüklə yalnız onlara (slavyanlara) məxsusluğunu mütləq məfhum kimi qəbul etmələri idi.

General Kuropatkin sırf hərbi insan idi, qoçaq döyüş komandiri olmuşdu, onu görkəmli qabiliyyətləri ilə yanaşı, həmin bölgəyə yaxşı bələd olduğuna görə (1890-1898-ci illərdə artıq Türküstanın general-qubernatoru vəzifəsini tutmuşdu) Birinci Dünya müharibəsinin cəbhələrindən çağırmışdılar. O, üsyanın yatırılması işində döyüş bacarığı olan rus əhalisini silahlandırmaq və onlardan yığma qoşun döyüş drujinası düzəltməklə özünü tamamilə doğrultmuşdu. Məhv etmək üçün cəza dəstələrin yaradılması haqqında göstəriş vermişdi, lakin bununla bahəm xüsusi qeyd etmişdi ki, "müqavimət göstərməyənlərə lüzumsuz, o səbəbdən ziyan vuracaq amansızlıqla yanaşılmaya yol verilməsin; bizim ordumuza, yaxud rus əhalisinə güllələnmə qorxusu altında talançılığa icazə verilməsin".

Bəli, ümumən götürdükdə, bu, təqdurəlayiqdir, o, soyğunçuluğun təhlükə dərəcəsini dərk edirdi, lakin "amansızlıq və talan"ı nəzarət altında saxlayıb həddini aşmasının qarşısını ala bimədi, zira qanlı divan tutulmanın idarə olunması iqtidarı itirildi və proses məcrasından çıxdı. Qəddarlıq və talanlar baş alıb getdi, cəza dəstələrini dinc sakinlərə qarşı törətdikləri qeyri-insani əməllərinə görə heç kim cəzalandırmadı. Sözlərlə işlər üst-üstə düşmədü, standartlar (hətta ikili standartlar da) silinib aradan götürüldü. Generalı tutduğu vəzifədən 1917-ci ilin aprelində azad etdilər (sonralar o, Pskov quberniyasının kənd məktəbində dərs dedi və 73 yaşında öldü).

Faktlar düşmənçilik predmeti deyil, zahiri planda qırğızlarla rusların qarşıdurması üçün obyekt deyil. Həmçinin müxtəlif qırğız bölgələri və tayfaları arasında daxili təzadlara da lüzum yox. Guya Suusamır və Talasda yerli hakimiyyət nümayəndələrinin şüurlu davranışının ucbatından qurbanlar olmamışdı, elə o səbəbdən də onları uzaq məkanlara sürgün etmədilər, amma issıkkullular və kəminlilər isə, göründüyü kimi, ağıllarını itirmiş və heyvan kimi başlarını Çinə çevirib qaçmış, nəticədə ora aparan və geriyə yolda həlakətlərini tapmışdılar.

Bəli, onlar yolda həlak oldular, yalnız qaçmayanlar sağ qaldı. Ölümdən qurtula bilənlər və Çindən qayıdanlar üçün çar hakimiyyəti təcridatlı yaşayış tərzi qəsdilə xüsusi yerlər hazırlamışdı.

Bir çox qırğız başçıları bitərəflik göstərmiş və öz adamlarını ümumilikdə sağ-islah saxlamağa müvəffəq olmuşdular, məs., Türkmən Sarpekov (Suusamır vadisinin vilayət başçısı), Talas vadisindəki bütün başçılar, eləcə də Çuy vadisindəki "solto" soyunun böyükləri. Millətin həmin uzaqgörən ağıllı liderlərindən biri Kungey-Ağsu vilayətinin o dövrdə şöhrəti ən ucqarlara yayılmış rəhbəri qırğız Kadır əkə Baysariyev idi. Onun idarəçiliyi altında olan vilayət Prjevalsk şəhərinin arxasında, episentrin düz yanında yerləşirdi. 1916-cı ildə Kadır əkənin 73 yaşı vardı və Romanovlar sülaləsinin 300 illiyi münasibəti ilə təşkil edilmiş təntənəli məclisə dəvət edilmişdi. Vilayət rəhbərliyinə isə 18 yaşından seçilmiş və ömrünün sonuna qədər o vəzifədə qalmışdı. Kadır əkə əfsanəvi şəxsiyyət idi, öz həmvətənlərini çarın sərəncamına tabe olmağa, arxa cəbhədəki işlər üçün yola düşməyə əmin edə bilmişdi və onun arxasınca gedənlər sağ qalmışdı. Cəza dəstələri onun həmyerlilərinə toxunmamışdılar. Bəysariyev 1926-cı ildə 83 yaşında, mötəbər əhatədə və ehtiramla vəfat etmişdi.

Və hakim mövqe tutan bu cür insanları müasir vətənpərvərlər satqın kimi qələmə verirlər, onların məntiqinə görə, həmin şəxslər üsyana qalxanlara qoşulmalı və həlak olmalı idilər, belə məntiqlə yer üzündə bir qırğız da qalmayacaqdı. Bu cür liderlərin mövqeyi məntiqə uyğundur, tamamən şüurludur, onlar satqın deyillər, onlar millətimizin xilaskarlarıdır, onları misal çəkmək pis əlamət deyildir. Və biz də bu gün ayırd etməməliyik ki, əcdadlarımızdan kim ağıllı, kim səfeh idi, çünki bu sayaq "aydınlaşdırma"lar dəfn olunmamış ulularımızın fonunda cərəyan edir. Sovet dövründə onlar barədə məqsədyönlü şəkildə unutmuşdular, yəni ki, keçmişi araşdırmaq lazım deyildi, "xalqlar dostluğu" üçün belə davranış münasib idi, sovet hökumətinin başında oturanlar üçün uyğun idi. Epoxa 25 il əqdəm qurtarmışdır. Yaddaş isə geri qayıtmamışdır.

**Tarix "təsniflənmir"**

Qəzetlərdə "Bir daha təkrar olunmasına imkan verilməyəcək faciə" başlığı altında yazılar gedir. Burada da bir sıra məsələlər qaldırılır, dolğun cavablar verilmir, onu yalnız həvarilər edə bilərlər ki, onlar da bizdə yoxdurlar. 1916-cı il hadisələrindən uzaq qaçmaq olardımı? Cavab feilin lazım formasına yönəlir – "hərgah o cür olsaydı, bu belə olardı" və s. Lakin tarix heç zaman təsniflənmir, o, zaman və məkan, həyat və ölüm fəzasında hərəkətdər. Bəli, hərgah Türküstan diyarı Rusiya imperiyasının tərkibinə daxil olmasaydı, bu faciə belə rus-qırğız rakursunda baş verməyəcəkdi. Əgər Adolf Hitler olmasaydı, planetin əhalisinin sayı hal-hazırda iki dəfə çox olardı. İssık-Kul tayfasından olan "buğu"ların nəslinin nümayəndələrinin sayı bu gün iki dəfə artıq olardı. Bu quruluşda cümləlləri çox düzüb-qoşmaq olar. "Belə hadisələr bir daha təkrarlanmamalıdır, biz imkan verməyəcəyik" kimi ritorik nidalar yalnız emosional səs yayacaq, doğma tariximiz isə göstərir ki, bizdə qanlı toqquşmalar və inqilablar 20 ildən sonra da təkrarlana bilər, hətta 5 ildən də sonra. Bununla belə, (maraqlı işdir) bizim qırğız "təkrarlamalar"ımız heç də tarixin "pis zarafatları" sırasına keçmək niyyətində deyil. Və bizim tarixdən ibrət götürmək bacarığımız tarixin özünün axınını qətiyyən saxlamaq iqtidarında deyildir. O özü faktdan fakta, prezidentdən prezidentə, referendumdan referenduma doğru axır, hərəkətdədir.

Bu sayaq faciələrin xatirələri siyasi məqsədlər üçün istifadə olunmamalıdır, kimi gurultulu çağırışlar da, sadəcə, "səs-küy"dür, çünki siyasət həmin rus təmsilindəki "öz sahibinin sözünü eşidən pişik" prinsipi ilə fəaliyyət göstərməkdədir. Siyasət lazım formasının çərçivəsinə sığmır, o, riyaziyyat deyildir ki, kök hesablanıb çıxarılsın. O, hadisədən hadisəyə vaqe olur, cərəyan edir. Əlbəttə, münaqişələrin araşdırılması zamanı nə "biz", nə də "onlar" tərəfini qabartmağa can atmayanlar haqlıdırlar. "Cəhənnəmdə insanpərvərlik axtarışı" amili də faciəvi hadisələrin obyektiv araşdırılması zamanı istifadə edilən ən vacib üsullardan biridir. İnsanpərvərliyə 1916-cı ildə də yer var idi.

**Rus generalı Yaroslav Korolkovun ifadələri**

Rus pristav və uryadniklərinin içərisindəki qaniçən bədheybətlərlə yanaşı, xeyirxah "Vətən və Çar nökərlər"i də var idi, məs., general-mayor Yaroslav İvanoviç Korolkov; o, Prjevalsk şəhərində yaşayırdı, 1916-cı ildə artıq 73 yaşı vardı. Üsyan başlayanda onu şəhər müdafiə komandanı və şuranın rəhbəri seçdilər, lakin sonradan qətiyyətsizlikdə ittiham etdilər. Dinc əhaliyə amansızlıq nümayiş etdirərək "qarayüzçülər" metodundan yararlanıb, hamını kütləvi şəkildə məhv edən uryadnik Ovçinnikovla əvəzlədilər. Hərgah yalnız üsyançıların özləri ilə mübarizə aparılsaydı, nisbət 1-in 113-ə alınmazdı (bütün Türküstan miqyasında 1 slavyanın ölümünə təkcə Yeddisu tərəfdə 113 yerlinin ölümü ilə cavab verilmişdi). Dərin təəssüfedici faktdır, amma son müqayisələr nisbətində məhz bu yekun ədəd alınır – 2 323 (iki min üç yüz iyirmi üç) "öldürülmüş" slavyanın əvəzinə, 262 959 (iki yüz altmış iki min doqquq yüz əlli doqquz) nəfər "azaldılmış" yerli əhali.

İstefada olan general Korolkov 1916-cı ilin oktyabr ayında şahid qismində ifadə vermişdi. Onun sözləri: "Qırğızlara ürəyiaçıq, kinsiz, qonaqpərvər, müdiriyyətə böyük hörmətlə yanaşan xalq kimi baxmışam. Yeddisunun dağlarında at belində 13 min verst yol gəzmişəm. Hər yerdə yaxşı qarşılanmışam. Hər yerdə gecələməyə məkan tapmış və əllərində olan çörəyi mənimlə bölməyə hazır insanlar görmüşəm. Çöllük vəziyyətinin nəşrinə qədər kəndlilər 15 oktyabra qədər tarladan taxılı gətirməli idilər, çünki həmin tarixdən o yana qırğızlar şumlanmış torpaqdan yem üçün istifadə etmək hüququ alacaqdılar. Çöllük vəziyyətinin tətbiq edilməsi torpaqdan istifadə etməyə baxışı dəyişdi. Rus kəndliləri qırğızlardan əmək qüvvəsi qismində geniş istifadə etməyə başladılar. Kəndlilərin birinin təbirincə desək: "burada Rusiyada olan kimi deyil, burada hər fərsiz rus kişiciyəzinin də əlinin altında işləyən qırğız var". Bütün məmur və ticarət adamlarının çoxusunun nökərləri qırğızlar olmuşlar. Bəzən qul-qaravaş arasında qırğız qızlarına da rast gəlmək olurdu.

Manap Şabdanın oğlanlarının birinin məktubunda Prjevalsk qırğızlarına sarıbağışlar tərəfindən Pişpək və Tokmakın uğurlu

məhvindən başlanılmış (məktubda yazılana görə) ümumu işə dəstək olmaq, dövlət ilxısını əllərindən almaq və sonrakı işlərə dayaq durmağa çağırış yazılmışdı ki, həmin hadisə də qırğızları qalxmağa məcbur edən sonuncu damla oldu. Oğlun atasına, ələlxüsus da, qara-qırğızlar arasında hörməti olan Şabdanın oğlunun, vaqe olanları böyük bir uğura imza atmaq kimi qələmə verdiyi bu məktub kütləni cəlb edib şirnikləndirməli idi.

Mən üsyanın başlanma səbəblərindən biri kimi, qırğızların əlindən torpaqlarının alınmasını göstərmişəm. Yeddisu köçürülmə bölgəsinin bir rəisi belə prinsip yeritmişdi ki, tabeliyində olan şəxslərin qabiliyyəti qırğızlardan alınma torpaqların ərazisinin hesablanmasına görə təyin edilirdi. Həmin təşkilatın sıravi əməkdaşları nə lazımi səviyyədə ağıl, nə inkişaf, nə də təhsilə malik deyildilər, bu sayaq işçilər müdiriyyətə xoş gəlmək üçün ağına-bozuna baxmadan dəridən-qabıqdan çıxırdılar *(bax: "Протокол допроса генерал-майора Я.И.Королькова" toplusunun birinci bölməsi. ).* O, Prjevalskın (uyezd mərkəzi) ilk şəhər idarəsinin başçısı olmuşdu, küçələrdən biri onun şərəfinə adını daşıyırdı. Hal-hazırda bu şəhər Qaragöl adlanır. O ki qaldı rus inzibatçı məmurların "ağıl, inkişaf, təhsil" dərəcələri, aparıcı (yaxud əzici) rolu bu faktor oynamamışdı. Dövlət fəaliyyət istiqaməti verilmişdi və imperiyanın saysız-hesabsız insan qurbanları tələb edən azman qanlı burulğanlı müharibə allahı əsla Türküstanda "demokratiya adası" qurmaq qəsdilə işə başlamamışdı.

**Qırğız rəhbərləri**

Sənədlərdə həmin böhranlı məqamlarda münaqişəyə cəlb olunmuş qırğız rəhbərlərinin özlərini necə aparmaları əksini tapmışdır. Məs., Belek Soltonoyev və Kəməl Şabdanov (onlar Pişpək uyezdi üzrə ərazi vilayətlərinin başçıları idilər) üsyanın qarşısını almağa cəhd göstərirdilər. Onlar bunun öhdəsindən gələ bilmədilər, başçıları sıxışdırıb kənarlaşdırdılar. Yəni, bu şəxslərin nüfuzları kütlə içərisində İssık-Kul vilayətinin başçısı Kadır əkə səviyyəsində deyildi. "Sarıbağış" tayfasından üsyana qalxanlar (Çu vadisinin şərq tərəfi) öz liderləri kimi Mokuş Şabdanovu (Kəməlin doğma qardaşı. Onlar 1911-ci ildə vəfat

etmiş şimal qırğızlarının məşhur başçısı Şabdan Cantayevin oğullarıdır) seçdilər. Mokuş həmvətənlərini aşırımlardan keçməklə Çinə apardı və onlar uçurumlara düşərək minlərlə həlak oldular. Kim ki, ölüm yolunu keçə bildi, Qaşğarda yerli əsilzadələrin qəbaləsi altına düşdü. Orada kişiləri muzdlulara çevirdilır, gənc qadın və qızlardan isə seksual qul kimi istifadə etdilər. Mokuşun yanında Kəməl Şabdanov yox idi, digər qardaşları – İsamuddin və Aman – vardı. *(Шейшеканов Т. Көлдөгү көтөрүлүш. - Б., 2003, s.84).*

Qırğızların Çində başlarına gətirilənlər, orada başçı-manapların öz şəxsi talelərini necə sahmana salıb yaşaması, Çin hakimiyətinin nəyə görə onları çar inzibati idarəsinə verməməsi, ordu starşinası Bıçkovun Çinə yürüşü barədə yazdığı hesabat məruzəsində ətraflı təsvir olunmuşdur (o, Rusiya Baş konsulluğunun Qaşğardakı nümayəndəsi idi). O dövrün tükürpədici, qandonduran xırdalıqları həmin səhifələrdə üzə çıxır *(Восстание 1916 года…, s. 153-193).*

Burada qeyd etmək zəruridir ki, qırğızlar dağlardan keçməklə Çin yolunu 1916-cı ildə deyil, ondan əvvəl, XIX əsrdə tapmışdılar, bunlar yenə də İssık-Kul qırğızları olmuşdular. Onlar həmin yerlərə hələ Rusiyadan ilk köçürülənlər gələn zaman qaçmışdılar, bu, buğuların rus çarının təbəəliyinə daxil olmasından sonra ilk dalğa idi (həmin tayfanın başçıları 1855-ci ildə ruslara belə xahişlə müraciət etmişdilər). Onları qəbul etdilər və rus kəndlilərini bura göndərdilər ki, rus əsgərlərinin himayəsi ilə yeni torpaqlarda yerbəyer olsunlar. Qırğızların bir hissəsi bunu təhqir və sıxışdırılma kimi qəbul edərək, Çinə keçdilər, orada qışladılar və geri qayıtdılar. Öz torpağında qalaraq, prinsipə salıb qaçmayanların sırasında milli klassik poeziyanın görkəmli nümayəndəsi akın Arstanbəy (1824-1787) də var idi. Həmvətənlərinin qaçması onda hiddət hissi doğururdu, bunu belə təsvir edirdi:

Buğular, siz o Çinə qaçdınız,
Döyülmüş üzlə qayıtdınız.
Nağıllar toqquşdurdunuz,

Kimdən qorxdunuz belə?
Quyruq qısıldı, qaçdınız?
Axı orada ciddi-cəhdlə siz,
Çinlinin tövləsi, axurunda,
Mal altından təzək yığdınız.
*(Арстанбек. Ырлар. – Бишкек, 1984, s. 105-106)*

Bu, çox kinayəlidir, amma gerçəklikdir. Bu, xalqın namusu həyatından dəyərli olan məğrur qırğızın sözləridir, beləsi ölkədən qaçıb getməz. Və 1916-cı ildə şüurlu surətdə hamılıqla qaçış yox idi, mötəbər yerli başçıların təsiri altında kütləvi psixoz və əvvəlki nəsillərin birinci qaçışından yoluxucu nümunə vardı, daha doğrusu, sınanmış üsula əl atmışdılar. Vaqiələr elə cərəyan etdi ki, buğular atalarının acı təcrübəsini təkrarladılar.

Çinə getməyə etiraz edib qalanlar sonacan dayandılar. Onlar hünər göstərir, düşmənin xəyallarını alt-üst edirdilər. General Folbaumun sözləri bunlardır: “Avqustun 20-də qırğızların həmləsi o dərəcədə şiddətli olmuşdu ki, onların neçə bütöv sırasını biçən pulemyot qatarı atəşinə baxmayaraq, hücuma üç dəfə atılmışdılar”. *(Брайнин С., Шапиро Ш. Восстание казахов в Семиречье в 1916 году. – Алма-Ата, 1936)* Bəli, fədakar qəhrəmanlıq Manasın şəcərəsindən olan qırğızların qanındadır, XXI əsrdə iki inqilab zamanı da (2005-ci və 2010-cu illərdə) snayperlərin gülləsi onları saxlaya bilməmişdi. Əgər başladılarsa, qarşılarını almaq çətin olur, son nəfəs candan çıxanadək gedirlər. 1916-cı ildə milli mentalitet də öz müəyyən (faciəli) rolunu oynamışdı və qurbanların sayının bu dərəcədə çox olması o amillə bağlıdır.

Sənədlərdə həmyerlilərinin “Koçkor xanı” elan etdiyi, Pişpək uyezdinin Abaildin vilayətinin (bunlar Koçkor, Susamır və Cumqal vadiləri idi) qırğız manapı Kanaat Abukin şəxsiyyəti (Kanaat Ibıke uulu) xüsusi yer tutur. Bu hökmdar üsyanın ən məşhur başçısı oldu, baxmayaraq ki, lap əvvəldə rus çarının iradəsinə tabe olmağa, həmvətənlərini arxa cəbhədəki işlər üçün səfərbərliyə qarşı çıxmamağa səsləmişdi (lap doğru hərəkət etmişdi). Fəqət vaqiələr başqa məcrada getdikdə,

xalqdan ayrı düşməmiş, oğlu ilə birlikdə sonacan dayanmış, Çinə qaçan qaçqınlara qoşulmamışdı. Adı bəlli qırğız manaplarının vasitəçiliyinin sayəsində oğlu ilə birlikdə ələ keçirilmişdi. 06.10.1916 tarixdə hərbi-səhra məhkəməsinin hökmü ilə oğlu dar ağacından asılmışdır *(bax: Qazax.SSR, Vernı dairə məhkəməsi prokuronun fondu, xüsusi qovluq 11, iş 2140-a, vərəq 11).* Atanı isə Verni (Almatı) şəhərinə həbsxanaya göndərmişdilər ki, orada istintaq dindirmələri zamanı keçinmişdi – o zaman 57 yaşı vardı. Qazaxıstanın mərkəzi arxivində Yeddisu vilayət idarəsinin *(məq.1, məq. 2, № 1692, vərəq 108)* fondundan sənəd vardır. Orada rus çarı adından qırğızlardan şəxsən mükafatlandırılmağa namizəd kimin adının çəkilməsi, "Kanaat Abukinin ələ keçirilməsindən ötrü" mükafat alması, gümüş medal verilməsi, eləcə də xorunji rütbəsi və vilayət başçısı vəzifəsinə təyin edilməsi qeydə alınmışdır. *(Восстание 1916 год. Документы и материалы. – Бишкек, 2015, s. 30).*

Burada əhəmiyyət kəsb edən məsələyə fərdi səpkidən aydınlıq gətirmək lazımdır. Məsələ burasındadır ki, Edvard Sokolun kitabında kobud səhv getmişdir, orada yazılmışdır ki, "Kanaat Abukin rus hökumətinə öz oğlu tərəfindən təhvil verilmişdir". *(Сокол Э. Восстание 1916, s. 126)* Abukinin oğlunun adı İshaq idi, ona tələ qurmuş həmin şəxslə eynən olduğu kimi və görünür, kitabın müəllifi adları dəyişik salmışdır. İshaq Kanaat uulu edam edilmişdir, onun qardaşı Japarsadıq Pişpəkdə qətlə yetirilmiş, ən kiçik qardaşı Karıpbay isə sovet dövründə dəfələrlə düşərgələrdə yatmış, 1954-cü ildə azadlığa çıxmış və bir ildən sonra vəfat etmişdir. *(Максутов Б. Великое восстание 1916 года. – Бишкек, 2016, s 122-124)*

**Qırğız üsyançılarının sıralarında ruslar**

Həmin ilin salnaməsində daha bir məqam var. Qiyamçılar tərəfdə rus insanlar dayanmışdı. Bu fakt sənədlərdə öz əksini tapmışdır. Qırğızıstan SSR DİN arxivində (f. 75, iş 45, vərəq 94-335) aşağıdakı qeyd var: "Qaçqınlardan bəziləri maraqlı, eyni zamanda inanılmaz məlumat vermişlər – guya Folbaumovka və Alekseyevsk kəndlərinin rus kəndlilərinin arasında xainlər aşkarlanmışdır. Qaçqınların sözünə görə, Folbaumovka talanının öndə gedəni unter zabit və Georgi kavaleri

kəndli Mark Davıdoviç Vlasenko imiş. Qiyamçıların Folbaumovskoye kəndinin mühasirəsi zamanı (hal-hazırda bu, İssık-Kul vilayətinin Tüp rayonunun Kuturqa kəndidir) Vlasenko üsyançıların tərəfinə keçir, onlara iki tüfəng (vintovka), iki qırma tüfəngi verir və kəndə hücum zamanı qırğızlara rəhbərlik edir. Sonradan Vlasenko cəza dəstəsi ilə savaşda öldürülür. Preobrajenskoye kəndinin (bu gün Tüp kəndi) kəndliləri Daniil Koşayev və Stepan Kovalenko üsyançılara yardım etmişlər. Bu adlar sənədlərdə öz əksini tapmışdır. "D.Kolşayev Ovçinnikovun dəstəsi tərəfindən əsir götürülüb öldürülmüş, öz evi və atasının torpaq sahəsi yandırılmış, əmlakı yerli qolçomaqlar tərəfindən qarət olunmuşdu" *(Восстание 1916 года..., s. 24)*. Qırğız tədqiqatçıları ayrı-ayrı rus kəndliləri tərəfindən üsyançılara kömək faktlarını təfərrüatla qeyd edirlər. Onlar qırğızlara hər cür arxa durur (maddi və mənəvi), onların hüquqlarını qoruyur, cəzavericilərdən gizlədir, ölümdən xilas edirdilər. Xeyir qeybə çəkilməmişdir.

**Qaçqınlara sovet hökumətinin köməyi**

Sovet dövrünə gəldikdə, xüsusi qeyd etmək zəruridir ki, o dövrün sənədlərindən biri qırğızlar üçün dönüş rolunu oynamış, ölümcül faciədən sonra başlıca sağ qalmaq amili olmuşdu. Bu rolu şişirtmək mümkünat xaricindədir. Həmin sənəd budur: "3 fevral 1920. Türküstan Sovet Sosialist Respublikası MSK 198 №-lı əmri". Həmin əmrə əlavə mətn var idi: "Türküs. MSK Xüsusi Komissiyasının qaçqın-qırğızların yerləşdirilməsi üzrə təlimatları". Bu təlimatın 2-ci paraqrafında belə yazılmışdır: "Öz yerlərinə qayıdan qaçqınlara məxsus evlərini, bağyanı sahələrini, yaxud çar hökuməti tərəfindən zorla qovulub çıxarılmış qırğızların yaşayış yerlərini qeyri-qanuni tutmuş şəxslərdən azad etməli və qırğızların özlərinə qaytarmalı, mümkün qədər əllərindən alınmış ləvazimatı, toxumluğu və s. alıb verməli" *(Восстание 1916 года..., s. 233-236)*. Bu təlimat qırğızların əsrlər boyu yağılardan qoruduqları doğma torpaqlarını özlərinə qaytardı.

Yalnız sovet hökumətinin qırğızları tamamən qırılmaqdan qurtardı deyəndə, məhz bu – tarixi faktdır. Lenin şəxsən xəzinədən 100 mln qızıl pulla qaçqınları Çindən satın alıb geri qaytarmaq barədə sərəncam

vermişdi. Qaytarılma prosedurunun təşkilati-hərbi hissəsini sovet sərkərdəsi Mixail Frunze yerinə yetirmişdi (Pişpək şəhərində anadan olmuşdu və şəhər 1926-cı ildən 1991-ci ilə qədər onun adını daşımışdı).

"Cəza və intiqam" 1917-ci il Oktyabr İnqilabının qələbəsindən sonra Birinci Dünya müharibəsində arxa cəbhə işləri üçün yığılmaya məruz həmin "yerli"lərin qayıdışı ilə gəldi. Onlar oradan dil öyrənərək, xarici təcrübə qazanaraq qayıtdılar, düşmənlərini üzdən tanıyırdılar və heş kəsə aman verilmədi – "gözə göz" prinsipi işə düşdü. Tarixdə bu, "Yeddisuda sovet hökumətinin qurulması" adı altında bərqərar olmuşdur. Burada arxa cəbhə işlərinə göndərilmiş adamların sayını söyləyək. General-qubernator Kuropatkinin məruzəsinə isnadən, Türküstandan 01.02.1917-ci ilə qədər 120 min insan səfərbərliyə alınmışdı. Bu diyar üçün 200 min nəfər plan nəzərdə tutulmuşdu, yarıdan çoxunu yerinə yetirmişdilər, hələ 80 min nəfər qalmışdı *(Восстание киргизов и казахов в 1916 г. s. 43).* Bu gün bizim qəzetlər əcaib bir fanatik misteriyaya qapanırlar və bəyan edirlər ki, 1916-cı il hədsiz "təhlükəli mövzudur", zira qırğız parlamentində siyasi oyun predmetinə çevrilir (bax, *«Московский Комсомолец – Азия»* 30.08-06.07.2015 qəzetinin sayları). 1917-ci ilin əvvələrində də eynən belə danışılırdı, yəni bu mövzu rus dövlətinin dayaqlarını laxladır və çarın opponentləri mütləqiyyəti devirmək üçün şəraiti gərginləşdirirlər. O vaxtdan bir əsr keçmişdir, bəs indi təhlükə nədədir? 1916-cı il üsyanının vaqiələri barədə tarixi sənədlər və materiallar bu gün kimi devirə bilər? Yenə dəvəquşu sindromu tətbiq etmək lazımdırmı?

**Dəvəquşu sindromu**

Məgər tarixi kağızlarda qeydə alınmış həqiqət Rusiyanın və Qırğızıstanın müasir əhalisi üçün real təhdiddirmi? Məgər belə kağızları yandırıb külünü sovurmalı və unutmaq lazımdırmı? Bu küldən kimin haləti yaxşılaşacaq? Əvvəllər baş vermiş rəqəmlərin saxtalaşdırılmasından kimin canı rahatlaşacaq? Məs., 1937-ci ildə Moskvada (tarixin 20 illiyi ərəfəsində) 1916 üsyanı haqqında toplu işıq üzü görmüşdü. Orada "1 000 alaçığ"ı "100 alaçıq"la əvəzləmiş, qurbanların sayını dəfələrlə azaltmışdılar (bu yalnız bir vilayətə

aid idi). Və beş min insan burada artıq beş yüzə dönmüşdü. Artıq zəhmət çəkilməmişdi, yalnız bir sıfır pozulmuşdu *(Восстание 1916 года в Киргизистане. – Москва, Соцэкгиз, 1937).* "Yanlışlığ"ı 10 ildən sonra növbəti toplunun tərtibçiləri (tarixin 30 illiyi ərəfəsində) düzəltdilər, toplu isə 70 ildən sonra faciənin 100 illiyi ərəfəsində nəşr olundu *(Восстание 1916 года...s. 38).*

Deyəsən, hansı ağciyərin isə həmin rəsmi statistikanın rəqəmlərinə baxanda ürəyi qorxudan tir-tir əsir, onlardan dəhşət yayılır, fəqət nə etməli... O rəqəmlərdə yer üzündən yerli sakinlərin azman sayının – 270 min nəfərin silindiyi ilin mahiyyəti ehtiva olunur, indi o rəqəmləri silmək mümkün deyil. Məgər bu rəqəmləri "xalqlar dostluğu" naminə unutmaq gərəkdirmi? Məgər biz onlara və bəzi digər mövzuların "təhlükəliliyi"nə görə mankurd olmalıyıqmı? Xeyr, Qırğızıstanda millətlərarası münasibətlər hesab verməyin (yaxud divan tutmağın) əsasında qurulmayacaq, rus generalı Yaroslav Korolkovun aydın ifadə etdiyi qısa və şaxəli "айкөл", sözündə təcəssümünü tapan qırğızların başlıca keyfiyyətinin təzahüründə qurulacaq. Sözün tərcüməsinin iki mənası var – "səxavət", "alicənablıq". Qırğızların külleyi nəsilləri belə etmişlər, bu cəhətlə cəhənnəmin cəmi çevrələrini aşmış, bəzən malik olduqları hər şeydən məhrum olmuş, fəqət həmişə sağ qalmış, daima yenidən doğulmuşlar.

Bizim "sakitlik qoruyucuları" tez-tez 1916-cı il üsyanının dərininə dalmamağa, israrla bunu bir millətin üzərində detallaşdırmamağa, vurğulamamağa, o vaqiəni "1916-cı il Orta Asiya (Türküstan) üsyanı" adı altında ümumiləşdirməyə çağırırlar, təbir caizsə, predmeti "qloballaşdırırlar". Məqsəd aydındır, lakin tinət absurddur. Zira külleyi Türküstan miqyasında"pozuntu"lar ayrı-ayrı yaşayış məntəqələrində baş qaldırır, elə yerindəcə kökündən boğulurdu. Cizakda dəmir yolunun və körpülərin dağıdılması ilə müşayiət olunan "qiyam" baş tutmuşdu, fəqət o da operativ və az qurbanlarla yatızdırılmışdı.

Türküstanda torpaqdan kütləvi surətdə "yadlaşdırlıma"və yerli sakinlərin dağlar tərəfə sıxışdırılması olmamışdı. O səbəbdən ki, cəmi Fərqanə vadisi köçəbə insanlarla deyil, əkinçilərlə məskunlaşmışdı.

Rus köçkünlərinin qazax çöllərinə, türkmən qumlarına getmək arzusu yox idi. Təsadüfi deyil ki, rus əhalisinin 60% 5 vilayətdən (Yeddisuda) yalnız birinin ərazisində yaşayırdı. Ruslar daima ılıq İssık-Kul gölünün həndəvərində yerləşmiş münbit torpaqlara, balıq, şikar olan və meşələr bitmiş yerlərə, rahat və hər şeydən asanlıqla istifadə olunan məkana, məhsul qıtlığı olanda, acından ölmək təhlükəsi qaib əraizlərə can atırdılar. Türküstanın heç bir digər bucağında bu sayaq dilbər guşə yoxdur.

**"Ürkün" məfhumu**

Fərqanə vadisində "ürkün" baş verməmişdi (bu sözlə qırğızlar Çinə qaçışla bağlı həmin məşum hadisəni adlandırırdılar). Mənasına görə bu söz "kütləvi, pərakəndə qaçış" prosesini bildirir, lüğət ehtiyatına 1916-cı illə bağlı daxil olmuş və Yeddisunun konkret məkanında nə baş verdiyini əks etdirmişdir. Çinlə sərhəd çay və dağ aşırımları İssık-Kul vilayətinin ərazisində yerləşir, oralar qırğız tayfası "buğu"nun qədim yaşayış məskənləridir (Ana-Maral haqqında əfsanəni onlar yaratmışlar). Biz bunu "Orta Asiya ürkünü" adlandıra bilmərik, qırğızların Çinə qaçışı heç də ümumtürküstan inqilabı deyildi, zira külleyi diyarda kütləvi "torpaq təmizləməsi" həyata keçirilməmişdi, belə hadisə ancaq İssık-Kul gölü və Çuy çayı boyu ərazilərdə baş vermişdi. Həmin il özlbəklər, taciklər, qaraqalpaqlar və türkmənlər öz doğma torpaqlarından qaçmamışdılar. *Ürkün* – 1916-cı ildə şimali qırğızlar idi (habelə qazaxların bir qismi), onların qırılması qəsdilə həyata keçirilən cəza aksiyaları idi, onların Çinə kütləvi qaçışı və yolda kütləvi həlakəti idi. Burada ümumiləşdirmə lazım deyil. "Ürkün" sözünün guya bilavasitə yalnız heyvanlara deyil, həmçinin insanlara aid olması, guya ki, Mahmud Qaşğari dövründən (XII əsr) dildə öz yerini tutması barədə fərziyyələr də uydurmaq lazım deyil. Xeyr, belə söz mövcud olmayıb, dürüst 1916-cı ilə qədər işlədilməyib və hərgah qaçqınlıq tufanı qopmasaydı, heç vaxt meydana çıxmazdı.

Qırğızlar arasında elə vasvasılar da var ki, "ürkün" sözunun özünün təhqiredirici məna daşıdığını, birbaşa mal-qara ilə bağlı olduğunu bəyan edirlər. Bəli, bağlıdır, amma bu o demək deyil ki,

bunun təsirindən keyləşib donmaq lazımdır. Öz dilinin incəliyi və öz tarixinlə bağlı situasiyalarla əlaqəli hər şeyi səhih bilmək lazımdır. "Ürkün" sözü "ürk" sözündən yaranmışdır (tərcümədə "(h)ürkmək, kənara sıçramaq" mənasını bildirir), 1916-cı ilə qədər o sözü birbaşa qoyun və atlara aid edirdilər – "koy ürktü", "jılkı ürktü" (qoyunlar, yainki atlar ürkdülər). Təbir caizsə, ev heyvanı qurddan, şimşəkdən, yanğından və başqa dəhşətlərdən ürküb arxaya tullanırdı. Qırğızların rus pulemyot və toplarının od-alovundan qaçmasından sonra bu söz dövrün dəhşətlərini özündə əks etdirən konteksdən çıxaraq, yeni məna və səslənmə kəsb etdi. Bu söz bizim üçün təhqiredici ola bilməz, axı nəyə görə?! Millətimizin "gözəl imic"dən ötrü onu öz tariximizdən silmək cəhdi təhqiredici görünür (fəqət "manqurt" obrazının canı bərkdir). Yerlilərə qarşı dayanan ordunun sayı budur: "14 batalyon, 33 kazak yüzlüyü, 42 top, 69 pulemyot, bunlardan əlavə, topçu qayıqları, avtomobillər, telefon, poçt, teleqrafdan da istifadə edilmişdir". *(Сокол Э.Д.. Восстание 1916... s. 163*).

Mühafizəkarları, görünür, Rusiya hökuməti tərəfindən güman edilən "hiddət", 1916-cı ilin "həqiqət"i müqabilində tüğyan edəcək "qəzəb" (Çexov "məmur"unun obrazının nəfəsi açıq-aşkar hələ canı üstündədir, gedib-gəlir) və bu sayaq şeylər təşvişə salır. Onlar bu xarici siyasət və daxili iqtisadiyyat burulğanında öz canlarının hayındadırlar, onlar nəşlərini torpağa tapşıra bilmədiklərimiz əcdadların qarşısında vicdan əzabından başqa hər şeydən təlaşlanırlar. Və bu, bir əsrdən də çoxdur ki, davam etməkdədir.

**"Alman izi"**

Bizim tarixçilər "üçüncü qüvvə"yə meyllidirlər, baxın görün, onlar nə yazırlar: "Peterburqdakı hökumət Daşkəndə alman general-qubernator fon Martsonu, Yeddisuya isə başqa bir alman Folbaumu göndərməkdən başqa yaxşı heç bir yol tapa bilməzdi. Fon Martson müsəlmanların hərbi işlər cəbhəsinə qəfil çağırış yolu ilə Türküstanda onların üsyanını qəsdən qızışdırıb alıovlandırdı". *(bax: "Слово Кыргызстана" qəzeti, 29.07.2016, "Как иностранная разведка готовила восстание 1916 года" məqaləsi).* Bu zaman ağ mühacir Pavel

Nazarovun "Mərkəzi Asiyadan qaçış" kitabına (əsər 2016-cı ildə Bişkekdə təkrar nəşr edilmişdir) istinad edilir, halbuki orada ciddi mənbə kimi istinad edilməli heç nə yoxdur, yalnız xatirələr janrıdır. Onlar belə zənn edirlər ki, həqiqəti üzə çıxarmış Nazarov əvəzedilməz nüfuzlu elmi şəxsiyyətdir. Qətiyyən, bu, həqiqət deyildir.

Fon Martsonun "hərbi işlər cəbhəsinə çağırış"la bağlı sərəncama aidiyyatı yox idi, sadəcə, ona görə ki, həmin anda o artıq cismən Daşkənddə deyildi. Bu da sənəd. "Türküstan general-qubernatoru vəzifəsini müvəqqəti icra edən Yerofeyevin yerli əhalinin arxa cəbhədəki işlərlə bağlı səfərbərliyi barədə əmri". *(Восстание 1916 года..., s. 59-60).* 1916-cı ilin iyulunda və gördüyümüz kimi, tamamən rus generalı tərəfindən imzalanmışdır. Alman tərəfindən verilmiş "qəfil çağırış sərəncamı"na gəldikdə isə, bu, sadəcə, ona görə ola bilməzdi ki, əmr Rusiya əlahəzrət imperatorunun özü tərəfindən bəyan edilmişdi. Üsyanın özünün vaxtına gəldikdə isə, Türküstan diyarına 1916-cı ilin avqustunda və payızında general A.N.Kuropatkin rəhbərlik edirdi, yenə də damarlarında rus qanı axan şəxs.

Daha bir nəfər alman, general Folbaum haqqında da qeyd etmək zəruridir, belə ki, arxa cəbhədəki işlərin əvəzinə yerli əhalidən 19-20 yaşlı kişiləri səfərbər edərək qırğız diviziyası yaratmaq variantını məhz o vermişdi. Digər yaş kateqoriyalarından olanları isə (40 yaşına qədər) hər uyezddən 8 min nəfər olmaqla işlərə cəlb etmək və eyni zamanda icbari işçiləri könüllülərlə əvəzləmək idi. O, sui-istifadəyə yol verməməkdən ötrü yeni siyahı tutulmamasını və 1915-ci il siyahısından istifadə edərək yığımı təşkil etmək təklifini irəli sürmüşdü. Bütün prosesə iki ay vaxt sərf olunacağını nəzərdə tutmuşdu. Məgər belə variant almanlar tərəfindən təxribatdırmı? Ələlxüsus, bu variant qəbul edilməmişdi. Ömrünün son ilində rus soyadı götürmüş Folbaum 1916-cı ilin oktyabrında bir pravoslav kimi öldü. Bəli, o, cəza dəstələrinin Yeddisudakı aksiyalarına rəhbərlik etmişdi, qırğız və qazax uyezdlərində üsyan ocaqlarını olmazın amansızlıqla yatırmışdı, amma "üçüncü qüvvə"yə heç bir aidiyyatı yox idi, çünki "birinci" çar qüvvəsi strukturuna sadiq qalmışdı.

Çar Mühafizə İdarəsinin hesabatlarında Birinci Dünya müharibəsinin lap əvvəlindən və 1916-cı il üsyanının başlanğıcına qədər Türkiyə, Almaniya və digər ölkələrin casusları barədə informasiya var idi, amma qeydlər yalnız düşmən dövlətlərin agentlərinin fəaliyyəti barədə şayiə tipli yazılar şəklində idi. Belə şayiələrdən birini elə Yeddisunun qubernatoru general Folbaum özü yaymışdı və hesabatda göstərmişdi ki, Qarqaraya və Prjevalska gələn çinlilər və dunqanlar arasında alman casusları tərəfindən təbliğat aparılır və Almaniya casusları ilə əlaqədə bulunan çinli Qelaonun iğtişaşlarda iştirakı barədə məlumatlar vardır. *(bax. Отчет Фольбаума А.Н.Куропаткину.т – Красный Архив, 3 (16), 1926, s. 72).* Lakin bunların heç birinin real əsası yox idi, çünki rəsmi sənədlərdə, raportlarda və şahid ifadələrində əcnəbi casusların Yeddisu üsyançıları arasında olmasına sübut yoxdur. Türküstanın heç bir başqa bölgəsində də onlar yox idi, bu barədə Cizak uyezdindəki hadisələrin birbaşa iştirakçısı podpolkovnik Vodopyanov belə xəbər verirdi: "Mənim öz şəxsi müşahidələrimə görə, habelə məruzələrə müvafiq, üsyançılar arasında hansısa əcnəbinin olmasına rast gəlinməmişdir. Həmçinin öldürülənlərin arasında da onlara təsadüf edilməmişdir ". *(Джизакское восстание, s. 82).*

"Alman izi"ni yekunlaşdırıb bağlamaq üçün daha bir alman şəxsiyyətinə, Türküstanın birinci general-qubernatoru Konstantin fon Kaufmana müraciət edək. Burada 14 il yaşayaraq, hakimiyyətdə oldu, onu Yarım Paşa adlandırırdılar. 1881-ci ildə öz müasirlərinin xatirində xoş iz qoyaraq Daşkənddə öldü. "Görkəmli dövlət qabiliyyətlərinə malik alicənab insan idi, onun şöhrəti guruldayaraq Şərqə yayılmışdı", – haqqında belə yazırdılar. XIX əsrin ən əfsanəvi generallarından biri Mixail Skobelev (Fərqanə vilayətinin hərbi qubernatoru olmuşdur) Kaufmanı ilahiləşdirərək öz mənəvi müəllimi hesab edirdi, bu həqiqətən də belə idi, zira onun müdiriyyəti altında xidmət etmişdi. M.Skobelev 1882-ci ildə, öz himayədarından bir il sonra 38 yaşında öldü. Həmin illərin hadisələri bu sayaq cərəyan edirdi.

Cənubi qırğızların Alay çariçası Kurmancan datka haqqında kinofilmin yaradıcılıarı fon Kaufmanı Skobelevin fonunda dəhşətli

bədheybıt kimi qələmə vermişlər ki, bu da hədsiz səfehcəsinə görünür. Skobelevin özünün sözləri: "Asiyada daha az rus məmurlara malik olmaq lazımdır, artıq orada olanlar isə yarımtanrıya bərabər şəxslər səviyyəsinə qalxmalıdırlar". Kaufman beləlmajorindən idi. *(Гродеков Н. Киргизы и каракалпаки Сыр-Дарьинской области. – М., 2011, s. 473)* Alman mənşəli rus generalları 1916-cı il qırğız üsyanının səbəbkarı olmamışlar. Qırğız üsyançıları arasında almanlar yox idi, almanlar əhali arasında təşviqat işləri aparmamışlar, hər halda, Pişpək və Prjevalsk ueyzdlərində almanların qaibliyi dəqiqdir. Bu barədə ən azı bircə sənəd də olsa, qalardı.

**"Türk izi"**

Bu mülahizəni "üçüncü qüvvə"nin axtarışında başlarını itirmiş tarixçilər irəli sürmüşlər. Söhbət türk təbəələrindən gedir. E.Sokolun kitabında yazılmışdır ki, "müəlliflər tərəfindən türk casuslarının iştirakının xatırlanması nəzərəçarpandır", lakin bununla bərabər, mövzunun möhkəmlənib dəqiqləşdirilməsi üçün heç bir addım atmır, heç bir konkret casusun adı çəkilmir, heç bir agenturanın hərəki fəaliyyəti nəzərə çarpdırılmır. Digər müəlliflər də 1916-cı il üsyanın hazırlanmasında pantürkizmin rolunun abstrakt nəticələrə gətirib çıxaran şifahi ideya irəli sürürlər ki, bu da real "türk izi"nin əsaslandırılmasının qaibliyinə dəlalət edir, istənilən halda, mülahizə faktlara söykənmiş təsdiqini tapmamış, hər şey mənasız "söz-söhbət" səviyyəsində qalmışdır. "Türk fərziyyəsi"nin elmi təsdiqi üçün bu yaxınlarda Moskvada dərc olunmuş akademik topludan bir sitatı məxəz qismində gətirirlər.

Həmin sitat budur: "1914-cü ildə müharibənin əvvəlində hazırlanmış hərbi əməliyyatlar planına uyğun olaraq, türk ordusunun öhdəsinə düşən vəzifə Rusiyaya qarşı müharibə aparmaq, onun müsəlman əhalisi ilə təmas yaratmaq idi. Türk ordusunun hücumu düşmənin arxa cəbhəsində üsyanların, təxribat aktlarının və s. təşkili ilə dəstəklənməli idi". *("Восстание 1916 года в Туркестане: документальные свидетельства общей трагедии" – Москва, 2016.)* Lakin türk ordusu Rusiya üzərinə hücuma getmədi, müsəlman əhalisi ilə təmas yaratmadı, heç bir üsyan

qaldırmadı və heç bir diversiyaya əl atmadı. Başqa sözlə desək, Ənvər paşanın planı həyata keçmədi, pansislamizm Türküstan müsəlmanlarına təsir göstərmədi, türk panislamçılarının missiyası bölgədə uğursuzluğa düçar oldu, heç digər məkanlarda da uğur qazana bilmədi. Haqqında danışılan mövzu barədə podpolkovnik Eterton (Qaşğarda Britaniya baş konsul olmuşdur) belə demişdi: "Məsələni diqqətlə araşdırdıqdan sonra panislamizmin Orta Asiyaya təsirinin cüzi olması nəticəsinə gəlirəm: Türkiyənin hüsn-rəğbəti nəzərəçarpan deyildir və o, islam dünyasının mərkəzi kimi nəzərdən keçirilmir". *(Журнал королевского централь-но-азиатского общества, 10-cu cild, 1923, s. 91)* Gördüyümüz kimi, beynəlxalq zəmində müsəlmanlar arasında həmrəylik yox idi.

Heç ümumdövlət daxilində də müsəlmanların həmrəyliyi yox idi, bunu dedikdə, müsəlmanların bir bölgə hüdudlarında millətlərarası həmrəyliyi nəzərdə tutulur. Bu barədə E.Sokolun kitabında yazılmışdır. Müəllif xüsusilə vurğulayır: "Özbək tacirləri Prjevalsk uyezdində öz ticarətlərini aparır, üsyana heç bir can yandırmır, hətta bəzi hallarda üsyançılara qarşı da çıxırdılar". *(Сокол Э. Восстание 1916..., səh.185)* Əlavə edək ki, özbəklərlə bahəm yerli ticarətçilər zümrəsinin böyük hissəsini təşkil edən tatar tacirləri də özlərini eynilə belə aparırdılar. Prjevalskda ticarətin müəyyən hissəsində (heç də az say olmamaq şərtilə) dunqanlar da eyni mövqe tuturdular, lakin onlar şəhərin rus əhalisi tərəfindən hücumlara məruz qalmış, həmin günlərdə az qala bütünlüklə qırılmış, salamat qalanları isə üsyançılara qoşulmuşdular. Söhbət İssık-Kul dunqanlarından gedir. Çuy vadisindəki dunqanlara gəldikdə isə, onlar özlərini tamamilə başqa cür aparmış, hakimiyyətə tam loyallıq göstərmişdilər.

Statistik məlumatlara görə, 1907-ci ildə Yeddisu dunqanları 18 021 (on səkkiz min iyirmi bir) nəfər təşkil edirdi. Onlar 1910-1916-cı illərdə Çuy vadisində, başçısı nüfuzlu və parlaq şəxsiyyət Bular Moğuyevin olduğu Pişpək uyezdinin Nikolayev vilayətində yaşayırdılar. Moğuyev 1916-cı ildə həbs edildi və üsyanın başçılarından biri kimi ittihal olunaraq, bir neçə ay həbsxanada saxlanıldı. Lakin sonra ittiham üzərindən götürüldü və o, Çindən qayıdan üsyançılara böyük yardımlar

göstərdi, öz hesabına kütləvi yeməkxanalar təşkil etdi – qayıdanların sayı isə min nəfərdən çox idi. İssıkkullu dunqanlara gəldikdə isə, burada, onların da torpaqları köçürülmüş ruslar tərəfindən mənimsənilmə obyektinə çevrildiyindən, üsyana qalxmalarında səbəb kimi göstərənlər yəqin haqlıdırlar. Dunqan kəndləri İssık-Kul gölünün cənub sahilində yerləşirdi, onlar sakinlərin qiyama tərəfkeş çıxdıqlarının qisasını çıxmaqdan ötrü yandırılıb külləri göyə sovruldu. Salamat qalmış dunqanlar qırğızlarla birlikdə çıxıb getdilər.

**"Çin izi"**

Bizim "ləpirçilər" bu aspektdən yanaşmanı onların özlərini tamamən əmin edən belə bir arqumentlə əsaslandırırlar ki, "Çin İli diyarı barədə müqavilənin revanşını götürmək arzusinda idi". Söhbət 1881-ci ildə Peterburqda bağlanmış rus-Çin müqaviləsindən gedir. Həmin sazişə əsasən, İli çayı boyunca ərazi Rusiyanın təbəəliyinə keçmişdi, bunlar Qazaxıstanın üç müasir bölgəsidir – Panfilov, Raimbəyov və Uyğur. Lakin burada bir sual meydana çıxır, nəyə görə üsyan orada, aidiyyatı olan məkanda deyil (yəni, qazax çayı İli boyunca), burada, İssık-Kulyanında və qırğız Çu çayı boyunda baş vermişdi. Sual yaranır ki, çinlilərin revanşı haradadır, yoxsa onlar ünvanı səhv salmışlar, və ya həmin yerlər ümumi məkan imiş? Nə tarix, nə də coğrafiya ümumiləşdirmə götürmür, zaman və məkanın iştirak etdiyi dəqiq elmlər, tarix və rəqəmlər, hadisə və insanlar, səbəb və nəticələrdir. Hərgah belə deyilsə, onda elm də mövcud olmayacaqdır. Bu, ufologiyadır.

Qırğızıstan Elmlər Akademiyası Dunqanşünaslıq Mərkəzinin qadın elmi işçilərindən biri belə bir nəticə vurmuşdur: "Türküstan diyarının bütün xalqları – qırğızlar, qazaxlar, özbəklər, ruslar, uyğurlar, dunqanlar və başqaları – xarici dövlətlərin əllərində mübarizə silahına çevrilmişdilər". *(bax: "Слово Кыргызыстана", 29.07.2016.)* Bəli, heç də adi "nəticə" çıxmadı, bütöv bir "yekun" çıxmışdır. Belə hesab edək ki, "bütün xalqlar alətə çevrilmişdilər", lakin miqyaslı sayda məhv edilmə heç də hamısının başına gətirilməmişdi.

Dunqanlar qırğız gölünün cənub sahilində yüksək keyfiyyətli xaşxaş becərir, məhsulu çinli sahibkarlara satırdılar (Çində həmişə xaşxaşa tələbat olmuşdur). Arxivlərdə Çin "Qe-Lyao-Xue" cəmiyyətinin

üzvlərinin onların yanına gəlmələri haqqında dunqan kəndlilərinin dindirmə protokolları var, lakin qeyd olunmur ki, 1916-cı il üsyanını məhz həmin çinlilər törətmişlər. Qırğız üsyançılarının içində çinli casusların olması barədə şahidlik edən heç bir tarixi sənəd yoxdur, onlar orada yox idilər. Qırğız üsyançıları arasında ruslar olmuşlar və bunu da tarixi sənədlər təsdiq edir. O sənədlər faktları öyrənən tarixçilər vasitəsilə aşkarlanmışdır, deduksiya metodu ilə yox.

**Böyük dövlət və xırda dövlət ifratları**

Yerli vətənpərvərlər 1916-cı il hadisələrini pafosla "qüdrətli nəticə" adlandırırlar, bu, nəinki, hörmətsilikdir, həmçinin ibarəlidir. Axı heç Manasın Pekinə yürüşünü "qüdrətli" adlandırmamışlar, onun nəsil-şəcərəsindən olanların Çinə qaçışı nəyə göyə qüdrətli sanılmalıdır ki? Bu, son "nəticə" deyildi, bu, əsil qaçış idi – qarabaqara gələn rus süngüsündən, pulemyotundan və toplarının lülələrindən saçılan dəhşətdən, ölüm qorxusundan, kazakların və yığma döyüş ordusunun azğınlığından, qeyri-insanı əməllərindən qaçış idi. Qırğızlar onu "ürkün" sözü ilə adlandırdılar, mübaliğəsiz-şişirtməsiz. Məgər heyvani qorxu həmin dövr insanı üçün qüdrətli ola bilərdimi? Onlar üçün nəticə böyük yox, faciəli oldu, yekunda o vaqe oldu ki, qırğızlar dərələrin və çayların dibində qaldılar. Bizim üçün isə yekun özünü onda göstərir ki, həmin sümüklər öz dəfnini bu günə qədər gözləyir. Nəticə kədərlidir.

Rus akademik toplusunun 1916-cı il üzrə tərtibçiləri (biz bunu yuxarıda qeyd etmişdik) belə nəticəyə gəlmişdilər: "Rusiya dövləti həmin əraziləri mənimsəmək üçün külli miqdarda maddi və insani vəsait tökmüşdü". Belə çıxır ki, dövlətin mənimsəməsi baş tutmuş və ruslar üçün zərrə qədər nəf götürə bilmədən hər şeyi yerli əhalinin rifahı üçün qoyub getmişdi. Qırğız xalqının üçdə bir hissəsinin yer üzündən qırıldığı halda azman məxaricdən danışmaq məgər ciddi elmi yanaşmadır? Qırğızlar öz dədə-baba torpaqları ilə birgə Rusiya imperiyasının tərkibinə daxil oldular, ruslar isə onu öz mənafeləri naminə qırğızların əllərindən aldılar.

Mahiyyət ümumi ibarələrlə dəqiqliyini itirmiş, yayğınlaşmışdır. Fəlakət təbiətdən gəlməmişdir, onu imperiya hakimiyyəti törətmişdir. Əlbəttə, statistik məlumatlara, rəqəmlərə, əhalinin siyahıyaalınmasına,

vəzifəli şəxslərin hesabatlarına göz yummaq olar. Sovet dövründə belə "namünasib rəqəmlər"in üstündən xətt çəkilirdi. Nə isə uyğun bir şey axtarılırdı, fəqət mahiyyət ondan barət idi ki, Yeddisuyun qırğız hissəsində 1913-cü ildən 1917-ci ilə qədər dövrdə əhali artmamış, iki dəfə azalmışdı.

Fərz edirik, 1916-cı ili müxtəlif səpkilərdən tədqiq etmək olar, lakin subyektiv millətçilik mövqeyindən yox. İfrata varmadan yanaşma zəruridir. Bir tərəfdən, "böyük məmləkət" mövqeyi (guya iri imperiyanın xırda mənfi cəhətləridir), digər tərəfdən, "xırda dövlət" mövqeyi (guya, xırda ölkə üçün böyük müşkül yaranmasın). İki xalqın – qırğız və rus – obyektiv tarixinə ehtiyac var. Gizlənpaç oynamadan.

**Nəticələr**

Sənəd və materiallar aşağıdakı nəticəyə gəlməyə imkan verir. Türküstanın çoxmillətli əhalisinin içərisindən qatı düşmənçiliyin obyekti şimal qırğızları oldu, onlar torpaqlarının əllərindən alınması qəsdilə kütləvi məhvə məruz qaldılar. 1916-cı il – qırğız üsyanıdır, ümumtürküstan yox. Əlbəttə, ümumi miqyasda "qarışıqlıq, etiraz və qiyamlar" baş vermişdi və diyarın bir çox yaşayış məntəqələrində onsuz da baş verməkdə idi. Onlar oxşar ssenari üzrə cərəyan edirdi, amma istənilən təqdirdə, ümumi (həmrəy-korporativ) üsyan deyildi. Təşkilatçı kimi burada çıxış edənlər casuslarının təmsilatı ilə xarici dövlətlər deyildilər, xeyr, tayfa başçılarından olan xalq liderləri idilər.

Divan tutmaq üçün "alət" – silahlı yığma döyüş drujinaları yaradan köçkünlərlə sıx əlaqə saxlayan Rusiya imperiyasının hərbi hissələri (əsgərlər və kazaklar) oldu. Bu, rus hərbçisi ilə rus kəndlisinin tandemi idi. Qırğız üsyanının aparıcı qüvvəsi isə fəhlə sinfi olmadı (beləsi, sadəcə, mövcud deyildi). Əlləri hər yerdən üzülmüş köçəri-maldarlar idi. Onlar isə dəmir yolunu (beləsi də mövcud deyildi) deyil, rus kəndlərini dağıdır, ilk növbədə, köçürülmüş rus camaatını, köçkün rus mujikini öz şəxsi düşməni qismində görürdülər. Mujik isə təbii ki, köçəri-qırğızın timsalında öz düşmənini qəbul edirdi.

Qırğızlara bu nifaq əks tərəfə nisbətən yüz qat çox baha başa gəldi, cavab isə qətiyyən adekvat deyildi. Qarşıdurmanın qanlı özülü belə

qoyuldu. Və üsyançıların dağ dərələrində uyuyan nəşləri “ömürlük miras” qismində qaldı, onlar isə hələ də dəfn olunmamışlar. Qırğızlar üçün bu gün müşkül çətin keçilən məkanlardan sümükləri çıxarmaq və ulularn adət-ənənəsi ilə dəfn etməkdir. Problem ümumiləşmə tələb etmir, nəş həmişə lokaldır, yerlidir.

**Rəssamın şəkli və xeyirxahlıq toxumu**

1916-cı il mövzusu ilə bağlı zahirdən təvazökar şəkil (müəllif Daniyar Joldoşbayev) vardır ki, orada bir karvan kişi kürəyi cığırla qar və dumanın içindən addımlayıb gedir. Mərkəzdə cavan qadının siması görünür, o, qucağında bələnmiş-bükülmüş südəmər çağa tutmuşdur. Yanında əri uzanmışdır, yeniyetmə oğlu onun üzərinə əyilmişdir. Qadın haralarasa uzaqlara baxır. Uşaqların atası, güman ki, kürəyinə açılmış güllədən həlak olmuşdur. O, ailənin dayağı idi. İndi isə qadın arxadır. Biz o qadında öz yolunu davam etdirəcək və nəslini saxlayacaq qüvvə görürük.

Tarix təkcə rəqəmlər və günlər deyil, bu həmçinin əməllərin növbələşməsi, xeyirlə şərin siyahısıdır. Kitablarda həmin qiyam dövründə rusların qırğızları xilas etməsi, rus kişilərinin üsyançılar tərəfində son qüvvələrinə qədər vuruşması, ixtiyar qırğız kişinin qəhrəmancasına çoxuşaqlı rus ananı müdafiə etməsi, onun rus həmyaşıdının isə öz vücudu ilə qırğız körpəsini güllədən qorumasını göstərən misallar çəkilmişdir. Tarixin ürək sızladan epizodları. İnsanpərvərlik qarşılıqlı təzahür edir, həmişə elə məqamlarda tam aydınlığı ilə üzə çıxır və insanların mətanətini açıb aşkarlayır.

Məsələdə son nöqtəni isə biz, üsyançı-qırğızların və köçürülən-slavyanların hal-hazırda yaşayan nəsilləri qoymayacağıq, son nöqtəni, ehtimalən, daha yüz ildən sonra tarix özü qoyacaq, fəqət bəlkə də tarixin nöqtə qoymaq amili, ümumiyyətlə, mövcud deyil, orada yalnız üç nöqtə vardır...

**Kuban Mambetəliyev**
**Filologiya elmləri doktoru**
**Oktyabr 2016-cı il. Bişkek.**

## MÜNDƏRICAT

**Dəhşətli dövrün sənədləri (mühafizə edilən toplu)**
**Müqəddimə (sözönü) (C.Məcidov)**
**I BÖLMƏ**
**Qırğızların 1916-cı ildə üsyana qalxmasının səbəbləri**
- 1908-1915-ci ilin sənədləri..............................
- 1916-cı ilin iyun sənədləri................................
- 1916-cı ilin iyul sənədləri............................
- 1916-cı ilin avqust-sentyabr sənədləri.........................
- Şahid general Korolkovun dindirmə protokolu...........
- Şahid İ.Qribanevskinin (Belovodskoye kəndinin sahə pristavı) dindirmə protokolundan .................
- Kəməl və Aman Şabdanovların üsyanda iştirakı barədə mühəndis Tınışpayevin general-qubernator Kuropatkinə məlumatı..........
- Qaraqoş kənd təsərrüfatı təlimatçısının Prjevalsk dövlət məhkəməsi hakiminə ifadəsindən................
- Pişpək uyezdinin Abaildin vilayətinin qırğızı – üsyanın başçısı Kanaat Abukinin ifadələrindən *(iki çıxarış)*...........
- Məsləhətçi vəzifəsini icra edən Teskovun üsyanın səbəbləri barədə məlumat vərəqəsi............
- 6-cı yığma qoşun korpusu qərargahının rəisinin Türküstan qoşunları komandanı general Kuropatkinə üsyanın səbəbləri barədə məruzəsi................
- Pokrovka kəndinin sakini Kiryanovun üsyan nəticəsində dəymiş zərərin araşdırılması ilə bağlı ifadələrindən...........
- Yeddisu vilayətinin hərbi qubernatoru vəzifəsini icra edən podpolkovnik Alekseyevin hesabatından............
- Yeddisu vilayətinin köçürülmə işləri üzrə rəis vəzifələrini icra edən Korsakın köçürülmə idarəsinə Kanaat Abukinin ifadəsi haqqında məruzəsindən................
- Yeddisu vilayətinin dövlət əmlakı və köçürülmə işləri üzrə vəzifələrin icraçısının Yeddisu vilayətində üsyanla nəticələnmiş səbəblər haqqında məruzəsindən...........
- Yeddisu vilayəti idarəsinə Kanaat Abukinin ifadələri haqqında podpolkovnik Putintsevin məruzəsi.......

**II BÖLMƏ**
**Üsyana qalxmış qırğızların Çinə mühacirəti**
- 1916-cı il iyul-avqust sənədləri............
- Prjevalsk uyezd idarəsinin tərcüməçisi şahid Tulembay Düsebayevin qırğızların Çinə qaçışı barədə dindirmə protokolu.........

- Kuropatkinin Yeddisu vilayətinin hərbi qubernatoru Folbauma qırğızların Çindən qayıdışı barədə teleqramı.........
- Polkovnik Kolosovskinin Yeddisu vilayətinin hərbi qubernatoru Folbauma Çin ərazilərinə keçmiş qırğızlar, onların yerləri, üsyana qalxmış və dinc qırğız vilayətlərində yerləşdirilmə məqsədilə görülən tədbirlər barədə raportundan...........
- Yeddisu vilayətinin hərbi qubernatorunun vəzifəsini icra edən polkovnik Kolosovskinin üsyanda iştirak etmiş vilayətlərdən Narın şöbəsinin yaradılışı barədə polkovnik Alekseyevə raportu..............
- Hərbi nazir Şuvayevin Türküstan diyarının ordu komandanına qırğızların Çinə qaçışı barədə teleqramı............
- Ordu starşinası Bıçkovun və konsulluğun dilmancı Stefanoviçin qırğızların Çindəki vəziyyəti barədə protokolu..........
- Kazak yüzlüyünün komandiri Bıçkovun Çinin Üç-Turfan əyalətinə yürüşünün təsvirindən çıxarış..........
- Ordu starşinası Bıçkovun Çinə rus əsirləri və üsyan başçılarından ötrü getdiyi yürüşün təsviri..........
- Tərcüman Stefanoviçin qırğızlar arasında iğtişaşlar və onların Çinə qaçışı haqqında məruzəsindən qeydlər..........

**III BÖLMƏ**

**Qırğızıstanda 1916-cı il üsyanında dunqanların iştirakı**

- 1916-cı ilin iyun-iyul sənədləri............
- Dunqan Bular Moğuyevin – yerlilərin siyahıya alınmasına müqavimət cəhdində ittiham edilən Nikolayev vilayətinin rəisinin dindirmə protokolu............
- 1916-cı ilin avqust sənədləri................
- Qərargah-rotmistrı Porotikovun çinlilərin anarxist “Ge-Lyao-Xue” təşkilatının məqsədi və onun üzvlərinin Yeddisu ərazisində fəaliyyəti barədə Vernı axtarış bölməsinin rəisi Petrova məlumatı...........
- 1916-cı ilin sentyabr sənədləri.........
- Üsyana qalxmış dunqanların əməlləri barədə ifadələr.......
- Prjevalsk uyezdinin Mariinks vilayətinin başçısı Məcin Marafunun dindirmə protokolu..........
- 1916-cı ilin oktyabr-noyabr sənədləri............
- Prjevalsk uyezdindən Çin ərazisinə qaçmış dunqanları geri qaytarmaq məqsədi ilə Çinə ezam olunmuş şahid Y.Poltavskinin dindirmələrindən...........
- Məcin Marafunun dunqanların üsyançılara qoşulmağa məcbur edən səbəbləri barədə dindirilməsinin protokolu...........
- Kəndli Qu Qan Funun Çinin “Ge-Lyao-Xue” təşkilatının üzvü Yuji Xayın fəaliyyəti haqqında ifadələri........
- Gülcədə rus konsulunun Yeddisu vilayəinin qubernatoruna Çin təbəəsi

Şan-Tszya-Tszyinin Yeddisuda fəaliyyəti barədə bildirişi.........
• Şahid P.İ.Şebalinin dunqanların Prjevalsk uyezdinin bölgəsindəki Irdık kəndində fəaliyyətləri barədə dindirmə protokolu.........
• Prjevalsk uyezdinin Mariinsk vilayətinin dunqanları Şərif İbrahimov və Aysı Rəhim Kalimovun Müvəqqəti hökumətin Türküstandakı komissarı Şkapski-yə ərizəsi........
• Müvəqqəti hökumətin Türküstandakı komissarlarının xüsusi iclasında qəbul edilmiş Prjevalsk uyezdinin Mariinsk kəndindən çıxmış və Çində olan dunqanların öz əvvəlki yerlərinə qayıtmağına qadağa qoyan qərar..........
**IV BÖLMƏ**
**Sovet hökumətinin qırğız əhalisinin işlərini yoluna qoyma üzrə tədbirləri**
• Türküstan MSSR-in MSK-nın 198 №-lı fərmanı..........
• Türküstan MSK-nın Xüsusi Komissiyasının qaçqın-qırğızlaın yerləşdirilməsi üzrə təlimatından.........
• Prjevalsk uyezdinin iki kəndinin ümumi yığıncağının qətnamələri.............
• Orta Asiya (üzrə) Xarici İşlər Xalq Komitəsinin Orta Asiya RKP (bolşevik) bürosuna məruzəsi...........
• Qaçqınlara kömək təşkilatı üzrə Qaragöl uyezd komissiyasının qaçqınların təxliyəsi və yerləşdirilməsi üzrə Cetı-Oğuz vilayət komissiyasının sədrinə məruzədən........
• Qırğızlara Yardım Təşkilatı üzrə Xüsusi Komissiyanın məruzəsindən (17.09.1925)........
**1916-cı il Qırğız üsyanı ilə əlaqədar olan hadisələrin xronologiyası................**
**SON SÖZ (K.Mambetaliyev)**
**Mündəricat**

1916-cı il.    QIRĞIZ    ÜSYANI

Toplunun redaktoru – Mambətəliyev Kuban

Azərbaycan dilinə çevirən: Munisə Dadaş qızı
Kitabın redaktoru: Vəli Əkbər
Верстка Терибаева Р.

Подписано в печать 12.03.2022.
Форматы $60x84^{1}/_{16}$.
Объем 17,5 п.л.
Тираж 000.

Отпечатано типографии издательства "Улуу Тоолор" .
г. Бишкек, ул. Ж.Абдрахманова, 170 а.